Səmyuel A. Uimz

# ERMƏNİSTAN–

## terrorçu "xristian" ölkənin gizlinləri

Ermənilərin böyük fırıldaq seriyaları

I cild

13078

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Bakı - 2004

*Bu tərcümə Azərbaycan və türk xalqlarının əbədi qardaşlığına həsr olunur.*

Kitab Azərbaycan Dillər Universitetinin hamiliyi ilə çap edilmişdir

İngilis dilindən tərcümə edəni
**Zeydulla AĞAYEV**

Elmi redaktoru
**Səməd SEYİDOV,**
psixologiya elmləri doktoru, professor,
Milli Məclisin Beynəlxalq münasibətlər
və parlamentlərarası əlaqələr komissiyasının sədri

Xalqımızın zorla düçar edildiyi Qarabağ konfliktinin mayasında nələr dayanır? Qafqaz və Kiçik Asiya regionunda ermənilərin pozuculuq fəaliyyəti, qətliamlar törətməsi haçandan və hansı bəd niyyətli qüvvələrin təhriki ilə başlanmışdır? Erməni mənbələrinin özləri-özlərini necə ifşa edir? Əl açaraq bütün dünyanın qapılarında dilənən ermənilər yığdığı sədəqə pulunu hansı məqsədlərə yönəldir?

Bu qəbildən olan daha çoxlu suallara cavab tapmaq istəyirsinizsə, tanınmış Amerika alimi Səmyuel A. Uimzin bu kitabını oxuyun. İbrət almaq, nəticə çıxarmaq baxımından əvəzsiz mənbə olan "Ermənistan – terrorçu "xristian" ölkəsinin gizlinləri" kitabını!

İSBN 9952-441-05-0
OKA Ofset Azərbaycan-Türkiyə
Nəşriyyat-Poliqrafiya Şirkəti



***Elmi redaktordan***

# ZORAKILIQ, YALAN VƏ SAXTAKARLIĞIN QARŞISINA BÖYÜK HƏQİQƏTLƏ

Üç ildən yuxarıdır ki, mən doğma Azərbaycanımızın nümayəndə heyətinin tərkibində Avropa Şurasında xalqımızın ən ümdə maraqlarının qorunması ilə məşğulam. Orada gedən mürəkkəb proseslərdən, debatlardan, qəbul edilmiş qərarlardan hamı bu və ya digər mənada xəbərdardır, ona görə də təfərrüata varmaq istəmirəm.

Avropa səviyyəsində müzakirəyə çıxardığımız və obyektiv çözülməsi üçün ardıcıl mübarizə apardığımız əsas taleyüklü məsələ isə Azərbaycanın zorla düçar edildiyi Qarabağ düyünüdür. Təvazökarlıqdan kənar olsa da qeyd edim ki, Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti bu istiqamətdə çox gərgin iş aparmış və bir sıra pozitiv nəticələrə nail olmuşdur.

Qarabağ problemi ilə bağlı müxtəlif səviyyəli müzakirələrdə üzləşdiyimiz əsas problemlərdən biri əlimizdə faktiki materialın olmaması, daha doğrusu, qıtlığı idi. Təxminən bir əsr yarımlıq müddətdə erməni tərəfi "sənədlərdən" ibarət yalan, böhtan, saxtakarlıq piramidası quraraq açıq təcavüzə keçmişdir, biz isə bu istiqamətdə heç bir planlı iş aparmamışıq. Nəticə isə acınacaqlıdır: indi dünya meydanında erməni yalanı ayaq tutub yeriyir, bizim böyük həqiqəti isə az qala heç kim bilmir.

Əziz oxucu, əlində tutduğun bu kitab həmin boşluğu doldurmaq baxımından misilsiz əhəmiyyət kəsb edir!

Birincisi, ona görə ki, bunu hər hansı bir azərbaycanlı və ya türk alimi deyil, amerikalı Səmyuel A. Uimz qələmə almışdır.

İkincisi, müəllif Vaşinqton, London, Paris, Roma, İstanbul, Moskva kimi şəhərlərin arxivlərində uzunmüddətli elmi araşdırmalar apararaq əsaslı sənəd-sübutlarla danışır.

Üçüncüsü və mən deyərdim ən əsaslısı isə odur ki, S.Uimz ermənilərin öz mənbələri vasitəsilə erməniləri ifşa etmişdir!

Bu kitabı bizə 2003-cü il aprelin axırlarında Avropa Şurasının fəaliyyət göstərdiyi Fransanın Strasburq şəhərində təqdim etdilər. Kitabın ABŞ-da yenicə çap edilməsi haqqında hələ biz Bakıda olarkən Azərbaycan ictimaiyyəti xəbər tutmuşdu. Hətta əsərin müəllifinin tezliklə Azərbaycana dəvət edilməsi də gündəmə gəlmişdi. Lakin çox keçməmiş Səmyuel A. Uimzin vəfatı haqqında xəbər yayıldı.

Bu qiymətli kitabına ön söz yazmış müəllif erməni həyasızlığına biganə qala bilməmişdir. Orada qeyd olunur ki, kitabın çap ediləcəyi haqda İnternet saytında reklam xarakterli çox qısa məlumat veriləndən sonra Səmyuel Uimzə erməni təhdidləri başlanmışdır. Onlar dəfələrlə telefon açaraq, elektron poçtundan istifadə edərək hələ oxumadıqları (!) kitabla bağlı olaraq müəllifi ölümlə hədələmişlər. Kitab çapdan çıxandan az sonra müəllifin müəmmalı şəkildə qəflətən vəfat etməsi bir daha qarşımızdakı amansız düşmənin vəhşi xislətindən xəbər verir və hər birimizi bir daha düşünməyə vadar edir.



Çoxsaylı arxiv materialları araşdırandan sonra Azərbaycanla heç bir bağlılığı olmayan amerikalı hüquqşünas-tarixçi alimin həqiqətin tərəfində dayanaraq türklərin, gürcülərin və azərbaycanlıların mövqeyini inandırıcı faktlarla sübuta yetirməsi, əslində isə həyatını bu obyektiv alim şərəfi və ləyaqətinə qurban verməsi adamda izahı çətin olan qəribə bir qürur və eyni zamanda nisgilli hisslər yaradır. Ona görə qürur hissi keçirirsən ki, Azərbaycanın həqiqəti haqqında yüksək tribunalardan danışdıqca, bu həqiqətin xəritəsi böyüdükcə o, Səmyuel Uimz kimi əsl alimləri hərəkətə gətirir və xalqımızın haqq işinin tərəfdarlarının dairəsi genişlənir.

Ona görə nisgil də yaranır ki, nə Türkiyə, nə də Azərbaycan həqiqətə söykənərək ermənilərin maskasını qətiyyətlə yırtmış bu amerikalı alimə heç quruca sağ ol da deməyə macal tapmadı.

"Ermənistan – terrorçu "xristian" ölkənin gizlinləri" kitabı bir sıra məsələlərin üzərinə işıq salır. Buna əyani sübut kimi təkcə iyirmi bir fəslin adlarına nəzər salmaq kifayətdir. Amerika alimi kiçik bir zaman



kəsiyini götürməmiş, maraqlı bir yolla gedərək, Qafqaz və Anadolu regionundakı tarixi prosesləri izləyərkən minilliklərin qaranlıq qatlarına enmişdir. Beş yüz ildən artıq Osmanlı Türkiyəsinin şərqi Anadolu hissəsində yerli müsəlmanlarla sülh və əminamanlıq şəraitində yaşamış ermənilərin xəyanət və satqınçılıq yolu tutması prosesi əsl tədqiqatçı-alim soyuqqanlığı ilə bu kitabda təqdim edilir. I Dünya Müharibəsi illərində çar Rusiyası ilə döyüşən türk əsgərlərinin arxasında ermənilər dinc və köməksiz müsəlman əhalisinə qarşı qırğınlar törətmiş, bunun təbii nəticəsi olaraq döyüş zolağında yerləşən ərazidən qovulmuşlar.

1918-ci ildə Ermənistan müstəqil ölkəyə çevrilən kimi torpaq iddiası ilə əvvəlcə Gürcüstana, sonra isə Azərbaycana təcavüz etmişdir. Hər iki müharibədə məğlub olmasına baxmayaraq, ermənilərin torpaq qəsb etmək iddiaları davam etmişdir və indi də davam edir. Dünyanın müxtəlif nöqtələrində həyata keçirdikləri terror aktları, öz ərazilərində apardıqları etnik təmizləmə, din və dövlətin birliyi, erməni kilsəsinin əslində terrorçu-təcavüzkar xisləti və s. bu kitabda inandırıcı faktlarla açılır. Bütün bu məsələlər isə böyük vəsait tələb edir. S. Uimzin təbirincə desək, "bu cırtdan ölkə" gecə-gündüz silahlanaraq, ona təmənnasız bir milyard dollarlıq silah-sursat vermiş Rusiyanın, 1992-2001-ci illər ərzində ona 1.4 milyard dollar pul vermiş ABŞ-ın hesabına Qarabağı işğal edə bilmişdir.



Bu və ya digər şər qüvvəyə öz ittihamlarını ünvanlayarkən S.Uimzin qətiyyətli alim mövqeyinə heyran qalmamaq olmur. O, ilk növbədə vətəndaşı olduğu Amerika Birləşmiş Ştatlarının Ermənistana münasibətdə tutduğu səhv mövqeyə öz ciddi etirazını bildirir. Müəllif ABŞ vətəndaşının çətin zəhməti müqabilində dövlət büdcəsinə ödədiyi vergi vəsaitinin ardıcıl surətdə öz təcavüzkar niyyətlərini həyata keçirən terrorçu bir ölkəyə – Ermənistana sədəqə verilməsinə hədsiz təəccübünü gizlətmir. Səmyuel Uimzin təhlillərindən sonra gəldiyi ən acı nəticə budur ki, I Dünya Müharibəsi illərində və ondan sonrakı mərhələdə Müttəfiqlər bayrağı altında birləşmiş Avropa ölkələri erməni xislətini açа bilmiş, onların qara-qışqırığını dinləyəndən sonra... onlara heç nə verməmişdir. ABŞ isə erməni kələyinə keçmişdir.

Bəli, təəssüf ki, məhz o dövrdən başlayaraq ABŞ ermənilərin tim-

sah kimi axıtdığı yalançı göz yaşlarına inanaraq Ermənistanın əsas yardımçısına çevrilmişdir.

Guya Azərbaycan öz limanlarını və yollarını Ermənistanın üzünə bağlayaraq bu "əzabkeş" xalqı blokadaya almışdır deyə, ABŞ öz bədnam 907-ci qanun .maddəsi ilə Azərbaycana yardımı qadağan etmişdir. Bu münasibətlə araşdırma aparan S. Uimz öz ölkəsinin rəhbərlərindən haqlı olaraq soruşur ki, əgər Meksika ABŞ-a təcavüz etsəydi və bu məqsədlə Texas ştatının limanlarından istifadə etmək istəsəydi, görəsən Amerikanın reaksiyası necə olardı? ABŞ Meksikaya imkan verərdimi ki, yollarından istifadə edərək xaricdən verilmiş silahı daşısın və həmin silahla Amerika vətəndaşlarını qırıb-çatsın?

"*Ermənistan – terrorçu "xristian" ölkənin gizlənləri*" kitabının əsas məziyyətlərindən biri də müəllifin bu və ya digər fakta dönə-dönə qayıtması, həmin faktı hadisə səviyyəsinə qaldırması, o faktın yaddaşlarda möhkəm qalmasına nail olmasıdır. Səmyuel Uimz həm Rusiyaya, həm də ABŞ-a dönə-dönə xatırladır ki, minlərlə tələf olmuş türkün və azərbaycanlının tökülmüş qanında, ev-eşiyindən didərgin düşmüş bir milyondan çox azərbaycanlının sınıq taleyində əsas günah məhz bu iki qüdrətli dövlətin üzərinə düşür. Azərbaycana erməni təcavüzü bu iki ölkənin xeyir-duası nəticəsində mümkün olmuşdur. Ermənininin saxta əhvalatlarının təsiri altına düşmüş Böyük Britaniya və Fransanın ünvanına da Amerika tarixçisinin ittihamları tutarlı faktlara əsaslanır.

I Dünya Müharibəsi dövründə və ondan sonrakı mürəkkəb zaman kəsiyində Türkiyənin mövqeyi, xüsusilə Mustafa Kamal Atatürkün uzaqgörən siyasəti S.Uimz tərəfindən çox yüksək qiymətləndirilmişdir. Cəsarətlə deyə bilərəm ki, həmin dövrdə Şərqi Anadolu və Qafqaz regionunda baş verən hadisələrin gedişinin, çar Rusiyasının hərbi-siyasi təcavüz hərəkətlərinin, bəzi səhvlərə yol versələr də ümumilikdə Müttəfiqlərin strateji uzaqgörənliyinin, ifrat erməni həyasızlığının, tökülən nahaq qanların, türklərin və azərbaycanlıların başına gətirilmiş fəlakətlərin və s. belə dəqiq mənzərəsinə bundan qabaqkı mənbələrin heç birində rast gəlinmir. Uimzin qənaətinə görə, əgər həmin mürəkkəb hadisələr burulğanında Müstafa Kamal Atatürkün qətiyyəti, sərkərdə məharəti və onun ətrafında birləşmiş





türk milliyyətçiləri olmasaydı, bolşevik Rusiyası ermənilərin iddia etdiyi torpaqlar vasitəsilə Aralıq dənizinə çıxacaqdı. Müəllif inanır və bizi də inandırır ki, elə olardısa, həm Yaxın Şərq regionunda, həm də bütün dünyada hadisələrin necə inkişaf edəcəyini hətta düşünmək belə adamı vahiməyə salır.

Erməni muzdlu agentlərinin, lobbiçi təşkilatlarının və ermənipərəst dairələrin bütün dünya xristianlarının qapısını döyərək bu cırtdan ölkə üçün sədəqə diləməsinin mexanizmi də bu kitabda yaxşı açılmışdır. Ən maraqlısı budur ki, xarici ölkələrdən Ermənistana axan kapital seli bir qayda olaraq bu ölkənin korrupsiyaçı və quldur rəhbərlərinin malına çevrilir, ehtiyac məngənəsində çırpınan xalq kütləri isə "tarixi vətən"dən getməyə üstünlük verirlər. Müəllifin məlumatına görə təkcə son on ildə bir milyondan çox erməni bu terrorçu respublikanı tərk etmişdir.

Əlbəttə, "*Ermənistan – terrorçu "xristian" ölkənin gizlinləri*" kitabının məziyyətləri haqqında çox danışmaq olardı. Mən həmin fikirdən uzağam. Yalnız bir detalı da vurğulamaq istəyirəm: bu kitabda erməni kilsəsinə olan real alim mövqeyini və münasibətini! Həmin mövqe və münasibətdən sonra Səmyuel A. Uimzin alim cəsarətinə heyrətlənməmək olmur.

Erməni millətinin mənşəyindən və erməni xristianlığının spesifikliyindən söhbət açan Amerika alimi onların xristianlığını da şübhə altına alır. İsus Xristin adı altında gizlənərək zorakılıq, ədavət, kin, düşmənçilik toxumu səpən, terrorçuluğun dövlət səviyyəsində himayəsinə nail olmuş və olan erməni kilsəsi ölkədəki bütün digər inancların, dini təriqət və sektaların fəaliyyətinə ciddi qadağa qoymuşdur. Ölkədə etnik təmizlənməyə fitva verən də məhz erməni kilsəsi olmuşdur. Ən maraqlısı budur ki, erməni kilsəsi hətta xristianlığın digər inanclarına belə dözümsüz münasibət bəsləyir. İndiyə kimi erməni terrorçu təşkilatlarının tökdüyü qanlara qarşı rəsmi erməni kilsəsi bir dəfə də öz etirazını bildirməmişdir. Erməni kilsəsinin əməlləri ilə xristianlıq arasında heç bir ümumi cəhətin olmamasını S. Uimz dəfələrlə qeyd etmişdir.

Əziz azərbaycanlı oxucu! Artıq həmin kitab dilimizə tərcümə olunmuşdur və onun bir nüsxəsi sənin əlindədir. Əlbəttə, belə qiymətli əsər rus, alman, fransız, ispan, çin, yapon və digər dillərdə də

çap olunsaydı lap yerinə düşərdi. Bu, Azərbaycan həqiqətinin dünya meydanında təsdiqi üçün çox dəyərli mənbədir.

Lakin ilk növbədə bu əsər bizim özümüzə, hər bir Azərbaycan oxucusuna daha çox lazımdır. Özümüzə lazımdır ki, tariximizi yaxşı bilək, buraxdığımız səhvləri təhlil edək, həm özümüzü, həm də gələcək nəsillərimizi bir daha genosid və qırğın obyektinə çevirməyək.

Səmyuel A. Uimz bu əsəri öz tədqiqatlar seriyasının I cildi adlandırmışdır. Lakin sonrakı cildləri qələmə almaq ona qismət olmadı; yuxarıda qeyd etdiyim kimi, əsər işıq üzü görəndən az sonra o, müəmmalı şəkildə qəflətən vəfat etmiş, alimin Türkiyə və Qafqaz regionu ilə bağlı olan tədqiqatları yarımçıq qalmışdır. İnanmaq istərdim ki, qədirbilən türk xalqları, xüsusilə bizim respublikamızın sakinləri bu böyük alimin əvəzsiz xidmətini layiqincə qiymətləndirəcək və onun adını həmişə əziz tutacaqdır.

Prof. **Səməd SEYİDOV,**
*Azərbaycan Dillər Universitetinin rektoru,*
*Milli Məclisin Beynəlxalq münasibətlər və*
*parlamentlərarası əlaqələr daimi*
*komissiyasının sədri.*





## Səmyuel A. Uimz

# ERMƏNİSTAN –

## terrorçu "xristian" ölkənin gizlinləri

Ermənilərin böyük fırıldaq seriyaları
I cild

Ermənistanın xəritəsi

x – rus ordusunun bazaları
■ – rus MİQ eskadrilya bazaları
● – rus yerüstü hava qüvvələri batereyaları








# ÖN SÖZ

Hər bir amerikalı əbədi olaraq xatırlayacaq ki, o, 11 sentyabr 2001-ci ilin səhər çağı harada idi – həmin tarixdə müsəlman ekstremistləri Nyu-York və Vaşinqton şəhərlərinə hücum etmişdi. Amerikalılar həm də Yaxın Şərqin bəzi hissələrindəki müsəlman dünyasında həmin hadisə münasibətilə keçirilmiş şadyanalıqlara da tamaşa etdiyini xatırlayacaq.

Əksər amerikalı belə bir sual verir: "Nə üçün müsəlmanlar Birləşmiş Ştatlara nifrət edirlər?" Təəssüf ki, müsəlman dünyasının amerikalıları xoşlamamağa yaxşı əsası vardır və bu kitab həmin səbəbin həqiqət olduğuna şəhadət verir. Kitaba *"Müsəlmanların amerikanlara nə üçün nifrət bəsləməsinin bir əsaslı səbəbi"* adı da qoyula bilərdi.

Əlbəttə, Birləşmiş Ştatlara heç də bütün müsəlmanlar nifrət bəsləmir. Bu kitab üzərində işimlə əlaqədar olaraq mən sentyabrın 11-də Türkiyənin İstanbul şəhərində *Yeddi Etiraf Kilsəsi* adlı video-filmi nümayiş etdirirdim. (Amerikanların çoxu bilmir ki, Bibliyadakı Kiçik Asiya müasir Türkiyədir. Xristianların çoxu bilmir ki, tarixi xristianlıq baxımından Türkiyə yer üzünün ikinci ən vacib ölkəsidir.) Əhalisinin az qala 97 faizinin müsəlman olması ilə Türkiyə unikaldır. Türkiyə həm də yer üzündə yeganə demokratik müsəlman ölkəsidir!

Yaxın Şərqin bu müasir demokratik ölkəsi 1923-cü ildə bir nəfər adamın dühası nəticəsində qurulmuşdur: Mustafa Kamal Atatürk (1881-1938)! O, nəhəng islahatlar aparmış və haqlı olaraq XX əsrdə dünya dövlətçiliyinin ən parlaq simalarından biri olmuşdur. O, sultanları ölkədən qovmuş, hökumətdə yüksək vəzifələr tutmuş müsəlman din xadimlərini vəzifədən kənarlaşdırmışdı. Qəbul edilmiş yeni konstitusiya dini dövlətdən ayırmışdı. Təhsil hamı üçün icbari hesab

Ermənistanın xəritəsi

x – rus ordusunun bazaları
■ – rus MİQ eskadrilya bazaları
● – rus yerüstü hava qüvvələri batereyaları








# ÖN SÖZ

Hər bir amerikalı əbədi olaraq xatırlayacaq ki, o, 11 sentyabr 2001-ci ilin səhər çağı harada idi – həmin tarixdə müsəlman ekstremistləri Nyu-York və Vaşinqton şəhərlərinə hücum etmişdi. Amerikalılar həm də Yaxın Şərqin bəzi hissələrindəki müsəlman dünyasında həmin hadisə münasibətilə keçirilmiş şadyanalıqlara da tamaşa etdiyini xatırlayacaq.

Əksər amerikalı belə bir sual verir: "Nə üçün müsəlmanlar Birləşmiş Ştatlara nifrət edirlər?" Təəssüf ki, müsəlman dünyasının amerikalıları xoşlamamağa yaxşı əsası vardır və bu kitab həmin səbəbin həqiqət olduğuna şəhadət verir. Kitaba *"Müsəlmanların amerikanlara nə üçün nifrət bəsləməsinin bir əsaslı səbəbi"* adı da qoyula bilərdi.

Əlbəttə, Birləşmiş Ştatlara heç də bütün müsəlmanlar nifrət bəsləmir. Bu kitab üzərində işimlə əlaqədar olaraq mən sentyabrın 11-də Türkiyənin İstanbul şəhərində *Yeddi Etiraf Kilsəsi* adlı video-filmi nümayiş etdirirdim. (Amerikanların çoxu bilmir ki, Bibliyadakı Kiçik Asiya müasir Türkiyədir. Xristianların çoxu bilmir ki, tarixi xristianlıq baxımından Türkiyə yer üzünün ikinci ən vacib ölkəsidir.) Əhalisinin az qala 97 faizinin müsəlman olması ilə Türkiyə unikaldır. Türkiyə həm də yer üzündə yeganə demokratik müsəlman ölkəsidir!

Yaxın Şərqin bu müasir demokratik ölkəsi 1923-cü ildə bir nəfər adamın dühası nəticəsində qurulmuşdur: Mustafa Kamal Atatürk (1881-1938)! O, nəhəng islahatlar aparmış və haqlı olaraq XX əsrdə dünya dövlətçiliyinin ən parlaq simalarından biri olmuşdur. O, sultanları ölkədən qovmuş, hökumətdə yüksək vəzifələr tutmuş müsəlman din xadimlərini vəzifədən kənarlaşdırmışdı. Qəbul edilmiş yeni konstitusiya dini dövlətdən ayırmışdı. Təhsil hamı üçün icbari hesab

edilmişdi. Qadınlara seçkidə iştirak və istənilən sahədə işləmək hüququ verilmişdi. Qadınlar üçün ənənəvi müsəlman geyimi vacib sayılmırdı. Atatürkün islahatlarının uzun siyahısı elə hey davam edir.

Məhz Atatürkün 1923-cü ildəki uzaqgörənliyinin nəticəsində mən 2001-ci ilin avqust və sentyabr aylarında Türkiyədə hərəkət, söz və din azadlığının şahidi oldum. Atatürk inanırdı ki, əgər onun xalqı inkişaf edib çiçəklənmək istəyirsə, üzünü Qərbə çevirməlidir. Türkiyə bu gün Atatürk ənənlərini davam etdirir. Məhz bunun səbəbindəndir ki, bu gün bu müsəlman xalqı heç bir digər müsəlman xalqının olmayacağı qədər Amerikanın yaxın dostu və etibarlı müttəfiqidir.

Üçüncü təyyarə Vaşinqton şəhərindəki hədəfinə çırpılandan cəmi otuz dəqiqə sonra Türkiyənin baş naziri artıq milli televiziya ilə çıxış edir və ölkə vətəndaşlarına deyirdi ki, o, artıq hərbi qüvvələri döyüşə hazır vəziyyətə gətirmişdir. O, həm də dedi ki, artıq Birləşmiş Ştatların prezidenti ilə telefon əlaqəsi saxlamış və qeyd etmişdir ki, əgər Amerika müharibə edəcəksə, onun ölkəsi də həmin müharibəyə qoşulacaqdır, çünki Türkiyə və Birləşmiş Ştatlar dost, müttəfiq və tərəfdaşdırlar.



Əgər nəzərə alınsa ki, İran, İraq və Suriyanın müsəlman xalqları onunla yaxın qonşulardır, onda bu cəhət xüsusi əhəmiyyət kəsb edir. Misir, Liviya, Əlcəzair, Sudan, İordaniya, Səudiyyə Ərəbistanı, Yəmən, Oman, Pakistan, Azərbaycan və Əfqanıstan da qonşu dövlətlərdir.

Kaş hər bir amerikalı Birləşmiş Ştatlara edilmiş alçaqcasına hücuma qarşı türklərin reaksiyasını görmək üçün mənim yanımda olaydı! Taksi sürücüləri, xidmətçi kişi və qadınlar, balaca və böyük mağazaların işçiləri, hökumət adamları – heç bir istisna olmadan öz ümumi təəssüfünü bildirir və ABŞ-la birlikdə terrorizmlə mübarizə üçün öz hökumətlərinin gəncləri okeanın o tayına döyüşə göndərmək qətiyyətini müdafiə edirdilər.

Əhalisinin 97 faizi müsəlman olsa da, türklər Birləşmiş Ştatlara nifrət bəsləyən digər müsəlmanların mövqeyini bölüşmürlər. Ona görə də, Birləşmiş Ştatların içərisində azsaylı erməni-amerikanların Türkiyəyə nifrət kampaniyası aparması faciədir. Bu balaca qrupun adamları təxminən otuz ştatın qanunvericilik orqanlarından Türkiyəyə hücum kimi belə bir mənasız qərar keçirə bilmişlər ki, guya



1915-ci ildə – Türkiyənin respublika elan edilməsindən səkkiz il qabaq onlara qarşı genosid törədilmişdir.

Amerikalı ermənilərin düzüb-qoşaraq soyqırım və genosid haqqında yaydıqları uzun nağılların heç bir əsası olmaması haqqında məndə rüsvayedici faktlar vardır. Ermənilər həm türklərdən, həm də xristian amerikanlardan kalan dollar qopararaq onu cəmi 150 yaşı olan "qədim" vətənlərinin rifahına yönəltmək istəyirlər. Mənim amerikalı soydaşlarımdan cavab almaq istədiyim saul sadəcə belədir: Siz kimə inanırsınız – Osmanlı İmperiyasını sağ-salamat tərk edən erməniləri görmüş amerikalılara? Və ya 1.5 milyon ermənini öldürməkdə Osmanlı dövlətini günahlandıran ermənilərə?

Bu kitab tarixi həqiqətlərə söykənmişdir, onların çoxu erməni mənbələrindən götürülmüşdür. Kimin həqiqəti danışdığı, kiminsə öz xüdpəsənd məqsədləri naminə uzun-uzadı nağıl danışdığını aydınlaşdırmaq üçün Amerika xristianlarının özləri nəticə çıxarmağa dəvət olunur.

1992-ci ildə Erəmnistan heç bir əsası olmadan hucuma keçərək müsəlman Azərbaycanın ərazisinin 20 faizini işğal etdi. Ermənilər heç bir kompensasiya ödəmədən bir milyondan çox müsəlmanı ev-eşiyindən qovdular və onları zığlı-palçıqlı qaçqın düşərgələrindəki çadırlarda yaşamağa vadar etdilər. Ruslar Ermənistana bir milyard dollarlıq hərbi silah-sursat və avadanlıq bağışladılar. Birləşmiş Ştatlar Konqresinin hesabatına əsasən son on il ərzində ABŞ Ermənistana 1.4 milyard dollar yardım göstərmiş, eyni zamanda müsəlman Azərbaycanının xarici yardımını kəsməklə ayrı-seçkiliyə yol vermişdir. Çoxlu müsəlmanın amerikanlara nifrət bəsləməsinin bir səbəbi budur.



Azərbaycan dövləti erməni hücumlarından yaxa qurtarandan sonra özünü erməni terrorçularından qorumağa başladı. Konqres Azərbaycanı cəzalandırmaqla buna reaksiya verdi. Birləşmiş Ştatların lobbiləşmiş Konqresindəki erməni lobbisi Azərbaycana yardımın müxtəlif növlərini qadağan edən qanunlar qəbul etdi. Azərbaycana nöqsan tutulurdu ki, guya o, Ermənistanı blokadada saxlayır və göndərilən hərbi avadanlığın Ermənistana çatmasına mane olur. 1992-ci ildə Konqres Azadlığı Müdafiə Aktını qəbul edərək onun 907-ci maddəsi ilə Ermənistanı "qeyri-qanuni" blokadaya almasını aradan

qaldırana qədər Azərbaycan xarici yardımın müəyyən növlərindən məhrum edildi.

Bir xalqın özünü başqasından necə müdafiə etməsini aydınlaşdırmaq üçün Birləşmiş Ştatların hüququ varmı? Əgər Yaponiyanın 1941-ci il dekabrın 7-də bizə hücumundan sonra başqa bir ölkə Birləşmiş Ştatların əleyhinə belə bir qanunvericilik aktı qəbul edərdisə, ona necə baxardıq? Onda nə üçün Birləşmiş Ştatlar Azərbaycanı cəzalandırır? Onda nə üçün bir ölkənin öz torpağını və əhalisini müdafiə etmək kimi müqəddəs hüququnu tanımır? Nə üçün Birləşmiş Ştatlar işğalçının və etnik təmizləmə aparanın tərəfini saxlayır? Biz İraqı bombalamaqla diktator Səddam Hüseyni cəzalandırmadıqmı? Biz Yuqoslaviyanı bombalamaqla etnik təmizləmə aparan Slobodan Miloşeviçi cəzalandırmadıqmı? Yaxşı, bəs onda indi nə üçün həm işğalçı, həm də etnik təmizləmə aparan başqa birisini mükafatlandırırıq?

Güman ki, ermənilərin özlərini yer üzünün ilk xristianları elan etməsi iddiasına və Azərbaycanın müsəlman ölkəsi olmasına görə Konqres bu qanunu qəbul etmişdir. Təəccüblənməyə dəyərmi ki, məhz həmin dövrdə yanacağın qiyməti sabit surətdə qalxmağa başladı, çünki bizim neft aldığımız Yaxın Şərq ölkələrinin əhalisi müsəlmanlardan ibarətdir! Aydındır ki, Amerika Rusiya ilə birləşərək öz qonşusu üzərinə hücum üçün Ermənistana kömək edəndə bu İslam ölkələrinin heç birinin Birləşmiş Ştatlara gedən ixracı kəsməyə səbəbi yox idi. Xristianların dəhşətli dərəcədə səhv edərək şeytan əməli ilə məşğul olmasına baxmayaraq, müsəlmanların əleyhinə xristianlara kəmək edən Amerikanın bu nöqteyi-nəzəri əksər Yaxın Şərq müsəlmanlarının Amerikaya nifrətinin əsas səbəbidir.

Baxın-görün Birləşmiş Ştatlar necə və nə üçün müsəlman Azərbaycanına ayrı-seçkilik tətbiq etmişdir. 1992-ci ildə kiçik, lakin hay-küyçü erməni-amerikan lobbisi Azərbaycana yardımın dayandırılması üçün qanun qəbul edilməsi haqqında Birləşmiş Ştatların Konqresi ilə danışıqlara başladı. Nə üçün? Çünki Azərbaycan öz limanlarından ermənilərin istifadəsinə, oraya hərbi avadanlıq qəbuluna və həmin avadanlığın Azərbaycan ərazisi ilə Ermənistana daşınmasına etiraz etmişdi. Erməni-amerikanlar Konqresə təsir göstərərək Azərbaycanın özünümüdafiə hərəkətini "qanunsuz embarqo" adlandırmağa nail oldular.





İndi isə, 11 sentyabrdan sonra prezident Corc U. Buş terrorizmlə mübarizədə bütün müsəlman ölkələrinin, o cümlədən Azərbaycanın ABŞ-a köməyinin təminatını qazanmaq istəyir. Bu balaca ölkəni Amerikanın müharibə cəhdləri üçün vacib edən əsas amil onun Əfqanıstana coğrafi yaxınlığıdır. Prezident Konqresdən xahiş etmişdir ki, Azərbaycana xarici yardımın kəsilməsinə dair 1992-ci il qanunu ləğv edilsin. Bunun nəticəsi olaraq erməni-amerikanlar ölkə boyu kampaniyaya başlayaraq prezident Buşun bu vacib müsəlman ölkəsini müdafiə etmək cəhdlərini əngəlləməyə çalışdılar. Erməni-amerikanlara görə, bu, Ermənistana ziyan vura bilər. Sən demə, bu, Birləşmiş Ştatların milli maraqlarından daha vacibdir.

Erməni-amerikanların Prezident Buşla mübarizəsi ilə eyni vaxtda onlar Kaliforniya ştatının həbsxanasından erməni terrorçusunu azad etmək üçün iş aparırlar. Bu erməni terrorçusu 1982-ci ildə türk diplomatını qətlə yetirmişdir. Terrorçu tutulmuş, təhqiqata cəlb olunmuş, məhkəmə qarşısında dayanaraq Kaliforniya jürisi tərəfindən təqsirli bilinərək ömürlük həbs edilmişdi. Erməni-amerikanlar indi qatili geriyə – Birləşmiş Ştatların küçələrində gəzməyə çağırırdılar.

Bunu da qeyd etmək vacibdir ki, 11 sentyabr hadisələrindən sonra biz bir xalq kimi müsəlman dünyasında bacardığımız qədər yaxın dostlar tapırıq. Bu isə o deməkdir ki, hətta xristian olduğunu bəyan etsə də, Ermənistan kimi terrorçu ölkəni müdafiə etməyə dəyməz!

Özlərini ermənilər adlandıran balaca, lakin hay-küyçü qrupun siyasi təzyiqinə əsasən hərəkət etmək Konqresə başucalığı gətirmir. Erməni faktlarını yoxlamağın vaxtı çoxdan çatmışdır. 1918-ci ildən başlayaraq bu cubbulu ölkənin əsas məxarici terrorizm, əsas mədaxili isə bütün dünyanın xristianlarından edilən xarici yardım olmuşdur.

Birləşmiş Ştatlarda müsəlmanların sayının azlığından istifadə edən erməni-amrikan lobbisi burada özünü sərbəst hiss etmişdir. Heç kim özünə zəhmət verib aydınlaşdırmamışdır ki, Ermənistan özünün bəyan etdiyi kimi əsl xristian ölkəsidir, ya yox? Bu kitab, özlərinin qeyd etdikləri kimi, müstəqil və azad dövlət quran ermənilərin cəhdləri və fəaliyyətlərini tədqiq edəcəkdir. Kitabda ərəminlərin öz-

lərini xristian adlandırması istiqamətindəki xidmətləri də təhlil olunacaqdır. Doğrudanmı onlar xristiandır?

Bu kitabda təhlil olunacaq faktlar aşağıdakı kimidir:

1890-cı ildə Osmanlı İmperiyasının daxilində kiçik bir erməni terrorçu bandası müsəlmanlara aid olan torpaqları və mülkiyyəti zorakılıqla ələ keçirmək üçün inqilabi hərəkata başladı. Həmin ermənilər bəyan edirdilər ki, təxminən üç min il əvvəl bu torpaqlar onların əcdadlarına məxsus olmuşdur. Buna baxmayaraq, erməni xristianlar 1890-cı ildə öz terrorçu kampaniyalarını başlayana qədər beş yüz ildən artıq idi ki, Osmanlı müsəlmanları ilə sülh və əminamanlıq şəraitində yaşayırdılar. Güman ki, ondan təxminən min il qabaq onlar Roma qanunları altında yaşamışdı.

Ta 1914-1915-ci illərə qədər Osmanlı İmperiyasındakı bu narahatçılıq doğuran banda o qədər kiçik idi ki, türklər onlara heç məhəl də qoymürdu. Sonra Rusiyanın Osmanlı İmperiyasına qarşı işğalçı müharibəsi başladı və rus çarının ermənilərin həsrətində olduğu torpaqları onlara verəcəyinə inanan bu ermənilər elliklə ruslara meylləndilər. Rus çarının isə belə bir niyyəti yox idi!

Gündüzlər Türkiyə erməniləri özlərini Osmanlı qonşularla dost kimi aparır, gecələr isə Osmanlı hərbi qüvvələri arxasında dağıdıcı terrorçu hücumlar edirdilər. Türklərə qarşı aparılan bu terrorçu hücumlar ruslarla döyüşlərdə nəyə qadir olduğunu nümayiş etdirən türk ordusunu zəifIədirdi. Nəticədə Osmanlı hökuməti döyüş zonasının arxasındakı bütün erməniləri köçürməyə məcbur oldu. Çünki türklər hansı erməninin terrorçu olmasını, hansınınsa olmamasını aydınlaşdıra bilmirdilər. Min illər birlikdə yaşayandan sonra özlərini satqın və xain kimi aparanlara qarşı özünü müdafiə edən millətin yeganə çıxış yolu bu idi.

1941-ci il dekabrın 7-də yaponların Birləşmiş Ştatlara hücumundan sonra ABŞ hökumətinin Qərb sahillərində yaşayan yapon-amerikanları ölkə daxilindəki müvəqqəti yerdəyişmə düşərgələrinə köçürməsi də yuxarıda deyilənə ən son nümunə ola bilər. Prezident Franklin Ruzvelt 19 fevral 1942-ci ildə imzaladığı 9006 nömrəli Xüsusi Fərmanla yapon-amerikanların hərbi ərazilərdən köçürülməsinə göstəriş verdi. Bu fərman mümkün yapon hücumu gözlənilən Qərb sahillərindəki səlahiyyət sahiblərinə belə bir imkan verdi ki, on-



13048



lar zorla da olsa, yapon-amerikanları ölkənin içərilərindəki uzaq yerdəyişmə düşərgələrinə göndərə bilsinlər. Bu əməliyyat həm də düşmən üçün məlumat toplaya biləcək mümkün casusluğun da qarşısını aldı. Əlbəttə, yapon-amerikanlar Amerika döyüş xətlərinin arxasında ordu yaratmadılar və ya hücum edən yapon qoşunlarına qoşulmağa çalışmadılar. Bütün bunlar ABŞ dövlətinin sadəcə belə bir mümkünlüyün ola biləcəyi qorxusundan irəli gəlmişdi.

Osmanlıların 1915-ci ildə etdiyi də məhz belə idi. Lakin, buna baxmayaraq, həmin vəziyyətdə ermənilər Osmanlı cəbhə xəttinin arxasında terrorizmə qurşandılar. Onlar hücuma keçən düşmən ordularına (rus və fransız) birləşərək özlərinə məxsus hesab etdikləri Osmanlı İmperiyası ərazilərindən müsəlmanların, xüsusilə türklərin etnik təmizlənməsinə cəhd göstərdilər.

Kədərlisi budur ki, ondan sonra ermənilər Amerikadakı və bütün dünyadakı xristianları aldatmağa başladılar. Erməni liderləri öz muzdlu agentlərini bütün xristian dünyasına göndərərək belə bir yalanı yaymağa başladılar ki, yüz minlərlə erməni xristianı vəhşi türk müsəlmanları tərəfindən soyqırıma məruz qalmışdır.

Əsl həqiqət isə budur ki, amerikan şahidləri Osmanlı torpaqlarındakı döyüş ərazisindən çıxarılmış ermənilərin hesabını aparmışdır. Bu günkü erməni saxtakarları soyqırıma məruz qalmış bir neçə yüz min ermənininin sayını artıraraq 1.5 milyon nəfərə çatdırmışdır. II Dünya Müharibəsində faşistlərin yəhudilərə qarşı törətdiklərinə dünyanın necə münasibət bəslədiyini ermənilər yaxşı gördülər. Sonra isə, hadisənin üstündən əlli yç ildən artıq vaxt keçəndən sonra ermənilər 1915-ci ildə türklərin onlara qarşı dəhşətli "genosid" törətdikləri haqqında aləmə car çəkməyə başladılar. Müasir Türkiyə isə 1923-cü ilədək – Osmanlılar terrorçuluq və satqınlıqlarına görə erməniləri ölkədən qovandan səkkiz il sonra hələ respublika elan olunmamışdı.

Əgər I Dünya Müharibəsində Osmanlılar öz qüvvələrini Almaniya ilə birləşdirməsəydi, erməni dövləti adlanan qurum tarixdə adi bir ləkə kimi qalacaq və itib-batacaqdı. Həmin Böyük müharibə dövründə Birləşmiş Ştatlar heç Osmanlı İmperiyasına müharibə də elan etməmişdi. Hansı müəmmalı səbəbdənsə ermənilər o vaxt da, indi də Amerikanın mövqeyini dəstəklədiyini deyir və müsəlman torpaqları-

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

nın alınıb onlara verilməsini digər müttəfiq ölkələrin borcu sayır. Məsələ təkcə bununla bitmir, ermənilər belə bir inam nümayiş etdirirlər ki, Müttəfiqlər onları öz qoşunları və pulu ilə müdafiə etməyə və dənizdən dənizə qədər olan müsəlman torpaqlarının işğalına kəmək göstərməyə borcludurlar. Müharibəni udacaqları təqdirdə erməniiərin nəsə qazanacağına inam isə ya azdır, ya da heç yoxdur.

I Dünya Müharibəsi qurtarandan sonra diktatorların balaca bir bandası Rusiyanın münbit torpaqlar arasındakı dağlıq hissəsində kiçik bir ərazini nəzarətə götürərək özünü Ermənistan Respublikası elan etdi. Ermənistan adlı yeni ölkənin həyata keçirdiyi ilk tədbirlərdən biri qonşuluqdakı xristian Gürcüstanına xaincəsinə hücum edərək torpaq ələ keçirmək cəhdlərini araya qoymaq oldu. Onda erməni terrorçu diktatorları məğlub oldular.

Bundan az sonra erməni liderləri bu dəfə müsəlman Azərbaycanına digər təəccüb doğuran hücuma cəhd göstərdilər. Erməni terrorçu diktatorları bu dəfə də uduzdular.

Özlərini müdafiə etmək üçün ermənilər Müttəfiqlərdən silah və sursat almaq yalvarışına başladılar. Bu müddət ərzində ermənilərin muzdlu agentləri Müttəfiq ölkələrin hər birindən qoşun göndərməyi və qamarlamaq istədikləri müsəlman torpaqlarını onların əli ilə rahatca ələ keçirməyi xahiş edirdilər.

Eyni zamanda erməni liderləri türklər üzərinə yeni hücumun planlarını cızırdılar. Bu dəfə türklər erməniləri qabaqlayaraq hücuma keçdi və Osmanlıların təxminən səkkiz yüz il sahiblik etdikləri "tarixi vətənlərini" geri götürdü.

Bütün bu müddət ərzində erməni liderləri türklərə hücum üçün məxfi planlar cızır, eyni zamanda ruslarla da üstüörtülü iş birliyinə girirdilər. Özünü müdafiə üçün bir güllə də atmayan Ermənistan Sovet İttifaqının bir hissəsinə çevrildi. 1991-ci ildə Ermənistan özünün müstəqilliyini elan etsə də, Rusiya ilə yaxınlıq əlaqələrini kəsmədi. Öz kiçik ərazisində Rusiyanın hərbi bazalarını yerləşdirməsi haqqında Ermənistanın xahişi deyilənlərə sübutdur. Həmin bazalarda rus qoşunları, habelə rusların MİQ qırıcı təyyarələri bu ölkədə yerləşdirilib və bu gün orada çoxlu yer-hava raket batareyaları vardır. Bütün bunları Ermənistan özü xahiş etmişdir.

Özləri Rusiyanın cibində olan belə adamlara nə üçün Konqres





milyardlarla dollar pul verməlidir? Nə üçün Rusiyanın özünə sadəcə belə bir imkan verilməsin ki, özü öz adamlarının qayğısına qalsın?

Yer üzünün xristianları ermənilərin dedikləri sözlərə öz qayğılı münasibətinə son qoymalı və özləri onların həqiqiliyini yoxlamalıdır. Bu sətirlərin müəllifi olan xristian öz müstəqil yoxlamasını apararaq belə bir qənaətə gəlmişdir ki, ermənilərin internet saytlarında və ya kitablarında və məqalələrində, ermənilər tərəfindən yazılmış heç nədə həqiqət tapıla bilməz! Çoxlu müsəlman zorla ölkədən çıxarılmışdır. İndi Ermənistan yer üzünün ən qapalı xristian cəmiyyətlərindən biridir. Onun cəmisi bir "rəsmi" kilsəsi vardır. Bu kilsə dövlətin bir hissəsidir və Ermənistan konstitusiyası ona xüsusi səlahiyyət vermişdir. Bu balaca torpaqda kilsə və dövlətin ayrılığından söhbət gedə bilməz.

Ermənilərin nifrət bəsləməyi sevdikləri türklərlə bu faktı tutuşdurun. Belə bir cəhəti qeyd etmək maraqlıdır ki, Türkiyədə Ermənistanın özündə olandan çox erməni kilsəsi vardır və bir çoxundan fərqli olaraq onların internet saytları da vardır. Mən bu yaxınlarda Türkiyədə olmuşam. Özüm öz gözlərimlə şahid olmuşam ki, türklər və ermənilər burada böyük azadlıq, harmoniya və dostluq içində birlikdə yaşayır və ibadət edirlər. Bu isə Birləşmiş Ştatlarda türklər əleyhinə nifrət və qəzəb toxumu səpən erməni-amerikanların çirkin təqdimatı və cəhdləri ilə tamamilə ziddiyyət təşkil edir. Yaxşı, bu erməni-amerikanların belə əməlləri görəsən necə xristianlıqdır?

Məsələn, nə üçün Erməni Kilsəsi elə hey qan qurbanları sözlərini işlətməkdə davam edir? Nə üçün Erməni Kilsəsi Xristin öyrətdiyinin əksinə olaraq kütləvi əfvə inanmır? Nə üçün ermənilərin xristian liderləri açıq-aşkar mifik allahlara inam təlqin edirlər?

Ermənilərin həyata keçirdiyi fırıldağın, saxtakarlığın, təhqirin, qırğınların və terrorçu əməllərin uzun siyahısı bu kitabda faktlarla göstərilmişdir. Bu, erməni gizlinləridir. Bütün bunları dünya xristianlarının bilməsini onlar istəmirlər, lakin bütün bunlar erməni mənbələrində qeydə alınır və faktlaşdırılır. Bu kitabdakı məlumatlar ermənilərin özlərinin faktiki hesabatlarıdır.

Qoy hər bir xristian və hər bir ictimai rəsmi adam müasir Türkiyə əleyhinə yönəlmiş mənasız qətnamələrə səs verməzdən və ya pul ödəməzdən qabaq bu kitabı oxusun. Həmin qətnamələr başdan-

ayağa ermənilərin özlərinin düzüb-qoşduğu saxta nağıllara əsaslanır və xristian dünyasından daha çox pul qoparmaq məqsədi daşıyır. Onların iddia etdikləri kimi heç bir "genosid" olmamışdır.

Erməni dövlətinin terorçu hücumları ölkənin rəsmi siyasəti kimi istiqamətləndirməsi haqqında birbaşa faktlar gətiriləcəkdir. Son illər ərzində dünyanın hər yerindəki xalqlara qarşı erməni terrorçu hücumları və qətlləri olmuşdur.

Mən nə azərbaycanlı deyiləm, nə gürcü, nə də türk; mən amerikanam. Mən ilk şotland əcdadı 1686-cı ildə Amerikaya gəlmiş şotland-amerikanam. Mən cənubluyam, ömrüm boyu Baptist olmuşam və Amerikaya vergi ödəyirəm. Bu kitabı Vaşinqton, Roma, Paris, London, Moskva və İstanbul şəhərlərində apardığım ardıcıl elmi-tədqiqat işlərinin işığı altında qələmə almışam. Ermənistanda tədqiqat aparmaq da kömək edə bilərdi, lakin onların arxivləri ictimaiyyətin üzünə bağlanmışdır.

Türkiyənin İstanbul şəhərindəki arxivlər daha çox açıqdır və mən orada xeyli çalışmışam. Məsələnin acı gülüş doğuran cəhəti burasındadır ki, Ermənistanın paytaxtı Yerevandakı və Bostondakı Erməni İnqilabi Federasiyası öz mənbələrinin qapılarını hələ də tədqiqatçıların və ictimaiyyətin üzünə bağlı saxlayırlar. Onlar nəyi gizlədirlər? Nə üçün Ermənistan özünün Erməni İnqilabi Federasiyasının idarəsini Birləşmiş Ştatlarda saxlayır?

Vərəqləyəcəyiniz səhifələr özünü Ermənistan Respublikası adlandıran ölkənin əsas tarixçisinin qələminə əsaslanır. Tarixçinin öz sözləri və onun sadaladığı mənbələr heç bir şübhə yeri qoymadan sübut edir ki, onun sevdiyi Ermənistan saxta və təcavüzkar bir ölkədir! Kitabın səhifələrində açıqlamaların müşahidəsindən görəcəksiniz ki, bu, 1890-cı ildən başlanaraq müasir günümüzə kimi davam edən hadisələrin fakt və həqiqətini axtaran bitərəf müəllif tərəfindən qələmə alınmasıdır. Mən professional tarixçi olmadığımdan, güman ki, kitabı hazırlayarkən bəzi texniki qüsurlara yol verilmişdir. Belə səhvlər üçün məsuliyyətimi dərk edirəm. Hər halda, kitabın mətnində verilmiş faktların özü birbaşa və səmimiyyətlə danışır.

1919-cu ildə elə tanınmış amerikanlar olmuşdur ki, onlar xeyli miqdarda nəzarətsiz pul almaq üçün xristian dünyasını aldatmaq istəyən ermənilər haqqında söz açmışlar. Bir qədər başqa cür





düşünən və ya onlara etiraz etmək istəyən hər hər bir amerikan üçün erməninin əks cavabı belədir: adətən belə şəxslərin hər birinə ya mənəvi, ya da fiziki hücumlar edilir.

I Dünya Müharibəsindən sonra Avropanın yenidən qurulmasına ABŞ-ın cəhdlərinə rəhbərliyi Hübert Huver edirdi. Onun cəmisi bir məğlubiyyəti olmuşdur, bu da diktator tipli Ermənistanın yaradılmasıdır. Bu gələcək Amerika prezidenti qeyd edirdi ki, erməni korrupsiyası "Amerikanın xeyirxahlıq tarixində ən böyük başağrısı olacaqdır". Ermənilər onun şəxsiyyətinə hücumla buna cavab verdilər.

Bu kitabın oxucuları müasir Ermənistanın öz sözlərindən aydın edəcəklər ki, ermənilərin çörəyi dizi üstə olmaq xarakteri bu gün də davam edir. Məsələ burasındadır ki, erməni xarakterinə görə amerikan vətəndaşları öz gəlir vergisi dollarlarını Ermənistana verməyə borcludurlar.

Ermənistanı müxtəlif ABŞ vətəndaşları tədqiq etmiş və öz müşahidələrini çap etdirmişdir. Onların hər biri erməni terror kampaniyasının obyektinə çevrilmişdir. Onların yalnız bir neçəsinə nəzər salaq:

*UCLA-in (Los-Ancelesdəki Kaliforniya Ştat Universiteti – Z.A.) professoru Stənford Şou. Ermənilər onun evinə qumbara atmış və müxtəlif üsullarla onu bir neçə dəfə vahiməyə salmışlar.

*Prinston Universitetinin professoru Heat Louri əleyhinə yönəldilmiş iki illik nifrət və böhtan kampaniyasından sonra professor bu yaxınlarda Yaxın Şərq proqramının rəhbərliyindən kənarlaşdırılmışdır.

*Luisvill Universitetinin professoru Castin MakKarli hər cür xarakterli hücumlara və hədələrə məruz qalmış, nəhayət tutduğu müəllim vəzifəsindən azad edilmişdir.

*Film yaradıcısı Robin Uilyams son vaxtlarda *Türkiyənin Bibliya xəzinələri* adlı film istehsal etmişdir. Bir neçə dəfə öz filmini nümayiş etdirməyə cəhd göstərsə də, gənc ermənilər tamaşanı pozmuşlar. Tamaşaların birində bir erməni gənci kimyəvi bomba partlayışları ilə hədələyərək binaya daxil olmuş və tamaşaçıları zorla binandan çıxarmışdır.

Bir dəfə mənim bu kitabımın çap olunacağı barədə elan veriləndən sonra mənim özüm də Amerikanın Erməni Assembleyası tərəfindən qəzəbli hücum obyektinə çevrildim. Çoxlu milyon dolları olan xüsusi maraq dairəli bu lobbi Vaşinqton şəhərində yerləşir. Onun qırx və ya əlli professional əməkdaşı vardır. Bu xüsusi maraq dairə-

si olan erməni lobbi təşkilatının əsas məqsədi imkan daxilində daha çox Amerika dollarını Ermənistana yönəltməkdir. Keçən on il ərzində bu rəqəm 1.5 milyard dollara bərabər olmuşdur. Üstəlik, Amerikadakı Erməni Assembleyası Türkiyə və ya Yaxın Şərqin digər müsəlman dövlətləri üçün nəzərdə tutulan hər şeyə mane olmaq istiqamətində də iş aparır.

Nifrət kampaniyası mənə qarşı yönəldiyindən Amerikadakı Erməni Assembleyası şəxsən mənə hücum etmək üçün min dəfədən artıq xəbərdarlıq göndərmişdir! Həmin xəbərdarlıqların iyirmi üçü ölümlə hədələməkdir. Belə bir məsələyə diqqət verin və erməni "xarakterini" anlamağa çalışın ki, hələ heç birinin oxumadığı kitab haqqında onlar mənə nələr yazırlar (Mən bu hədələri kitabın çapından əvvəl almışdım).

* Müqəddəs Con Nəşriyyatının kitabı yalanlarla, yalanlarla və yalanlarla doludur. Bunu yazmaq üçün pulu Uimzə kim vermişdir? Bu əsl türk təftişçiliyidir. Belə dəhşətli dərəcədə aldadıcı olan internet saytını müdafiə etmək istəyinə əminsənmi?

* "Mister Səmyuel A. Uimzin kitabını oxuyandan sonra mən bəyan edirəm ki, müəllifin söz açdığı bütün faktlar başdan-başa SAXTADIR."

* "Siz səfeh s...miş kütbeyin vəhşilər!! Siz haradan bilə bilərsiniz ki, nəyi çap edib yayırsınız?"

Mənim həyatıma edilmiş aşağıdakı hədə nümunələrinə diqqət verin. Mən belə hədələri ciddi qəbul edirəm, çünki son illər ərzində ermənilər dünyanın müxtəlif ölkələrində təxminən yetmiş adamı, Birləşmiş Ştatlarda isə dörd adamı qətlə yetirmişlər.

* "Mən sadəcə sizə demək istəyirdim ki, dünyada ilk xristian millətini təhqir etdiyinizə görə cəhənnəm odunda yanacaqsınız. Əmin orla bilərsiniz ki, tezliklə sizin dəfn mərasiminizə gəlib zavallı meyitinizin üstünə işəyəcəyəm."

* "Mən öz intiqamımı heç vaxt yaddan çıxarmayacağam, ona görə də buna hazır ol. Bütün dünyada 10000000000000-lərlə mənim kimiləri vardır. Sən gülümsəməyində ol."





* "Sən vəhşi kimi ölməyə layiqsən. Bəzi ermənilər günün birində səni öldürəcək. Və sən erməni qəzəbini dadacaqsan!!!!!"

* "Qeyd etmək istəyirəm ki, sənin kitabın da özün kimi səfehdir, çünki yer üzündə xristianlığı ilk olaraq qəbul etmiş Ermənistanın əleyhinə belə kitab yazmaq yer üzünün hər tərəfinə yayılmış bizləri təhqirdir və əgər səni tapa bilsəm öldürəcəyəm."

Aldığım xəbərdarlıq namələrinə cavab olaraq mən də ermənilərə suallar vermək istərdim. Mənim üçün maraqlı idi ki, onlar necə düşünürlər. Suallarımdan biri belə idi ki, aldığım ölüm hədələri ilə ermənilərin hamısı şərikdirmi? Ən tipik cavab belə oldu: "Aldığınız ölüm hədələrinə əsasən sizdə belə bir təsəvvür yaranır ki, guya ermənilər terrorçudur. Sizin mədəniyyətinizi müdafiə edən bütün millət torrorçu ola bilərmi?"

Üstünlük qazanan erməni fikri belədir ki, əgər sən "erməni" mövqeyi ilə razılaşmırsansa, hər hansı bir adamın səni ölümlə hədələməsi yolverilləndir. Sivil dünyada isə belə münasibət qəbuledilməzdir.

Mən ermənilərdən xəbər aldım ki, nə üçün onların dövləti 1992-ci ildə qonşu müsəlman Azərbaycanına xaincəsinə hücum etdi? Ermənilər həmin ölkənin ərazisinin 20 faizini işğal etdilər və 1 milyondan çox zavallı insanı öz ev-eşiyindən didərgin salaraq onları çadır düşərgələrində qaçqın vəziyyətində yaşamağa vadar etdilər. Bu da xristian Ermənistanının müsəlman Azərbaycanına qarşı namərd hücumunu əsaslandıran tipik cavab: "Mənə söyləmə ki, ermənilərin azərilərlə döyüşü ermənilərin xristianlığını azaldır. Geriyə, tarixə nəzər sal, onda görəcəksən ki, Müqəddəs Müharibə baş vermişdir."

Faktlar belədir ki, ermənilər "Müqəddəs Müharibə" adlandırdıqları həmin qanlı hadisələri törətmək üçün ruslardan 1 milyard dollardan artıq qiyməti olan hərbi sursat və avadanlıq almışdır. Xristian Rusiya və xristian Amerika həmin "Müqəddəs Müharibə"də Ermənistanı müdafiə edirlər. Müsəlman dünyasının nədən ötrü Birləşmiş Ştatlara nifrət bəslədiyinə əla misaldır. Onda təəccüblənməyə dəyərmi ki, müsəlman neft ölkələri Amerikaya satdıqları yanacağın qiymətini niyə belə tez-tez qaldırır?

Mən bir neçə ermənidən soruşdum ki, nə üçün Birləşmiş Ştatların vergi ödəyənləri çətinliklə qazanılmış vergi vəsaitindən milyardlarla dolları Ermənistana verməlidir?

"Amerikanın vergi verənləri heç vaxt maraqlanmır ki, həmin pullar hara yönəldilir. Onlar tərbiyəli yaxşı uşaqlar kimi öz seçdikləri hökumətə qulaq asırlar. Heç bilirsənmi Amerikanın vergi ödəyənləri Amerikanın xaricə yardımından nə qazanırlar? Onlar ləzzət içində inanırlar ki, yaşadıqları ölkə ehtiyac içində olanlara yardım əli uzadır. Eqoizm yaxşı sayılmır və adamın ürəyini sevinclə doldurmur. Sənin yaşadığın ölkə elə məsələlərə əl qoyur ki, sənin ağlın heç o istiqamətin həndəvərinə də çatmaz, inamının sabun köpüyünü partlatdığım üçün üzr istəyirəm. Sənin süallarının əsas cavabı budur ki, Amerika hökuməti sənin nəyisə bilməyini istəmir və sənin necə düşünməyin də onun vecinə deyil."

Başqa bir erməni yazırdı: "Məktubunuzun sonunda təklif edirsiniz ki, biz 'Amerika xalqına' minnətdar olmalıyıq. Bu öz istəklərini xalqın adından demək istəyən siyasi fahişələrin və demoqoqların sevimli üsuludur. Başqalarının dalını öpən bəzi riyakarlardan fərqli olaraq biz heç nə üçün heç kimə təşəkkür etməməliyik."



Üçüncü erməni öz ölkəsinin münasibətini belə ifadə etdi: "Amerikan vergi pullarının nə üçün Ermənistana getdiyinə cavab vermək aydın və sadədir, çünki Ermənistan buna layiqdir. Sən doğrudan da savadsız və səfeh it küçüyüsən."

Sübut isə erməninin öz tarixçisinin qələmindən təqdim edilmişdir və orada deyilir ki, Ermənistan bir dövlət kimi 1919-cu ildə ortaya çıxmışdır. Ermənistan öz muzdlu agentlərini və minlərlə adamını Birləşmiş Ştatlara və digər xristian ölkələrinə bir əsas məqsədlə göndərmişdir – lobbiləşmək və "qədim" vətən adlandırdıqları torpaqda məskunlaşmaq üçün yalvarıb pul istəmək. Ermənistanın "Amerika koloniyası"nda fəaliyyət bu gün də davam edir. Mənim aldığım yuxarıda sadalanmış xəbərdarlıqlara əsasən, hər bir oxucunun aydın görə bildiyi kimi, ermənilərin Birləşmiş Ştatlar haqqında Köhnə Dünyanın imperialist mövqeyi vardır. Amerika koloniyasındakı bütün mənbələri götürüb ermənilərin "qədim" vətəninə aparın, lakin Ermənistandan həmin koloniyaya heç vaxt heç nə göndərməyin.

Ermənilərin əksəri yazaraq mənə hücum edirlər ki, guya mən



Türkiyə hökumətinin muzdlu agentiyəm. Həqiqətdən bu qədər uzaq olan başqa heç nə düşünmək olmaz. Mən Amerikadakı Erməni Assembleyasına icazə verdim ki, son beş il üçün mənim bütün bank hesablarımı yoxlasınlar və əmin olsunlar ki, mən həqiqəti danışıram. Mən həm də Amerikadakı Erməni Assembleyasından xahiş etdim ki, mənə onların bank hesablarını və maliyyə hesabatlarını yoxlamağa icazə versinlər. Baxım görüm ki, mənim ödədiyim vergi pulundan Ermənistan hökuməti bu lobbi təşkilatın hesabına vəsait köçürübmü? Amerikadakı Erməni Assembleyasının cavabı sükut oldu.

Mən belə bir nəticəyə gəldim ki, ermənilər doğum günündən başlayaraq türklərə və müsəlmanlara nifrət hissi ilə tərbiyə olunur. Mənə göndərilmiş aşağıdakı namə bu nəticəyə gəlməyə vadar edir. Bu namə aldığım çoxlu hədələrin tipik nümunəsidir: "Bütün türklər itdir və yalançıdır, insanlığın ən pis nümunəsini nümayiş etdirir, onlar yer üzünün xərçəng xəstəliyidir, ən pis olanı isə budur ki, indi onlar dünya üçün həmişə olduğundan daha çox problemə çevrilmişlər."

II Dünya Müharibəsindən bəri Türkiyə Birləşmiş Ştatların həqiqi və sadiq dostu, həm də partnyoru olmuşdur. Türklər Koreyada, Körfəz Müharibəsində və II Dünya Müharibəsindən sonra bütün döyüşlərdə Amerika qoşunları ilə çiyin-çiyinə vuruşmuşlar. O vaxt Ermənistan harada idi? Hər dəfə əks tərəfdə.



Türkiyə dünyada yegənə demokratik müsəlman dövlətidir. Yaxın Şərqin bu vacib xalqı ilə dostluğu davam etdirmək həm Birləşmiş Ştatlar, həm də bütün dünya üçün xüsusi maraq kəsb edir.

Belə bir aydınlıq gətirmək istəyirəm ki, heç də bütün ermənilər pis adam deyil və bütün ermənilər terrorçu deyillər. İcazə verin bir nümunəni sizinlə bölüşüm ki, bütün ermənilərin pis olmadığını nə üçün deyirəm. Görün bir sevimli erməni xanımı mənə nə yazıb.

"Ermənilərə doğum günündən nifrət öyrədilir. Mən bilirəm ki, bu tamamilə səhvdir ki, həmin nifrət türklərə tuşlanıb. Mənim özümün çox yaxın türk dostlarım vardır və mən onları bütün qəlbimlə sevirəm. Düşünmürəm ki, bütün ermənilər haqqında nifrətedici və pis şeylər söyləmək düzgündür. Mənim türklərin əleyhinə heç nəyim yoxdyr və düşünürəm ki, türklər öz mədəniyyəti vasitəsilə dünyaya gözəl töhfələr bəxş etmişlər. Mən xristianam, eyni zamanda mən ənənəvi erməni ortodoksu deyiləm.

Mən dərindən inanıram ki, haçansa nəsə baş veribsə o, bağışlanmalıdır, çünki məhz bu cəhət bizim etdiklərimizə "Xrist istəyən" donu geyindirər. Biz Ermənistan və Türkiyə arasında əməkdaşlığın binasını tikməliyik ki, hər iki ölkənin çiçəklənməsinə nail olaq. Çox kədərli haldır ki, iki böyük mədəniyyət bir-biri ilə əməkdaşlıq edib sülhə gələ bilmir. Hər halda ümid edirəm ki, bu internet məktubu nəyisə dəyişə bilərdi."

Növbəti elektron məktubunda (e-mail) o qadın yazırdı: "Bilirəm ki, Ermənistan dünyanın ilk xristian ölkəsi olsa da heç bir "Xrist istəyən" əməllər nümayiş etdirmir. Mən erməniləri sevirəm və mən Allahı sevirəm. Mən Baptist kilsələrinin nəyi təlqin etdiyini bilmirəm, lakin hiss eləmişəm ki, mənim onlar kimi ənənəvi erməni apostolluğunu qəbul etməməyim tanıdığım ermənilərin əksərini bir az dilxor edir (mənə elə gəlir ki, saxta xristianlığın adətən sosial ətrafı olur). Məsələ burasındadır ki, mən heç bir sektə aid olmadan yenidən doğulan xristianam."

Belə bir ümid vardır ki, bu xanımın gözəl məktubunda olduğu kimi, üzümüzə gələn illərdə erməni terrorçu əhvalın indiki "rəsmi" siması dəyişəcəkdir.

Mən bu kitabın hər bir oxucusundan xahiş edirəm ki, təmiz niyyətlə yazdığım sözləri saf-çürük etsin. Hər bir oxucudan xahiş edirəm ki, mənim gətirdiyim faktları yoxlasın və əmin olsun ki, təqdim etdiklərim həqiqətdir. Oxucu görəcəkdir ki, mən digər mənbələrin cəmindən daha çox erməni mənbələrindən istifadə etmişəm. Oxucu həqiqəti aşkar edəndən sonra müsəlman dünyasına edilmiş səhvləri aradan qaldırmaq üçün İsus Xristin adından hansı əlavə tədbirlər görülməsini fərdi surətdə dəqiqləşdirəcəkdir.

**Səmyuel A.Uimz,**
*Kalvari Baptist Kilsəsinin üzvü,*
*Arkanzas ştatının Hazen şəhəri,*
*2 aprel 2002-ci il.*





# GİRİŞ

Ermənilər haradan ortaya çıxmışdır? Cavab tapmaq üçün çox uzaq tarixə nəzər salmağa ehtiyac yoxdur.

İndi müasir günün Ermənistanı adlanan ərazinin başlanğıc nöqtəsi qanla doludur – müsəlman qanı ilə! 1820-ci ildə çar Rusiyası özünün bir əsrlik arzusunu – ılıq sulu limanları ələ keçirmək arzusunu yerinə yetirmək üçün imperiyanın sərhədlərini genişləndirmək cəhdlərinə başladı. Aralıq dənizinə və digər açıq dənizlərə çıxmaq üçün çar Rusiyası onun yolunu kəsən Osmanlı İmperiyasının torpaqlarının işğalına girişdi.

Rus silahlı qüvvələri işğal kampaniyasına başlamazdan əvvəl ölkədə yaşayan Osmanlı müsəlmanlarının inamını qırmaq məqsədilə xristianları səfərbər etmək üçün çar agentlərini bu ölkəyə göndərmişdi. Özləri də ortodoks xristianları olan ruslar düşünürdülər ki, qarşı tərəfdəki eyni din daşıyıcıları olan yunanlar, Balkanlarda yaşayan slavyanlar və ermənilərlə onları birləşdirən ümumi cəhətlər vardır.

Ruslar ılıq sulu limanlara sahib çıxa bilməsələr də qərb istiqamətində öz sərhədlərini genişləndirməyə nail oldular. 1820-cidən sonra gələn illərdə ruslar ermənilərə vəd etdilər ki, onlara öz ölkələrini yaratmaqda kömək göstərəcəklər. O mərhələdə Osmanlı İmperiyası özünün son tənəzzül və dağılma dövrünü yaşayırdı. Bu vəziyyəti görən xarici qüvvələr yaranmış imkandan tam səmərəsi ilə istifadə edərək dünyanın bu regionunda öz iştirakını təmin etməyə çalışırdı. İngiltərə və Fransa da oradakı missionerlik fəaliyyətini maliyyələşdirirdi. Bütün tarix boyu olduğu kimi həmin ölkələr öz maraqlarını həyata keçirmək üçün xristianlıq pərdəsi altında din xadimlərini yerlərə göndərir, onlar isə həm Xrist üçün, həm də öz ölkələrinin ali məqsədi üçün fəaliyyət göstərirdilər. Eyni əməliyyat Osmanlı İmperiyasında da həyata keçirilməli idi.

İngilis və fransızlardan geri qalmaq istəməyən ruslar Osmanlı dövlətinin dağıdılmasında ermənilərin dayağına nail olmağı qərarlaşdırdı. Ruslar şərqi Anadoluda "Böyük Ermənistan" yaradacaqlarını vəd etdilər. Rusların vəd etdiyi torpaqlar Qara və Aralıq dənizləri arasında böyük ərazini əhatə edirdi və erməni xalqı bütün tarixi boyu bu böyüklükdə ərazini heç vaxt işğal etməmişdi. Əslində, bütün tarix boyu əsl müstəqil Ermənistan heç vaxt mövcud olmamışdır. Həqiqi "Böyük Ermənistan" heç vaxt olmamışdır! Bəlkə də üç min il qabaq hansısa balaca krallıq mövcud olub, lakin onun da ömrü uzun olmayıb.

Rusların 1800-cü illərin ortalarında bir qism ermənin beynində yaratdığı "Böyük Ermənistan"ın "xülyası" bu gün də davam edir. Ermənilər rusların bu vədindən yapışdılar (ruslarda onu yerinə yetirmək istəyi olmasa da) və onu inkişaf etdirməyə başladılar. Bu gün ermənilər Qara dənizlə Aralıq dənizi arasındakı bütün torpaqların öz "tarixi vətənləri" olduğunu bəyan edirlər. Həqiqətdən bu qədər uzaqda dayanan başqa heç nə ola bilməz!

Kiçik Asiyanı Bibliya Ermənistanı adlandıran ingilislər başqa bir alov üfürüblər. Erkən 1880-cı illərdə Baş nazir olmuş Uilyam E.Qladstoun bu ideyanı ortaya atmaqla demişdir ki, Osmanlı İmperiyasını dağıtmaq Britaniyanın maraqlarına cavab verirdi. O, Osmanlı İmperiyasının geniş ərazisində İngiltərənin təsir dairəsində olacaq bir neçə kiçik dost dövlət yaratmaq istəyirdi. Belə kiçik dövlətlərdən biri Ermənistan adlanacaqdı. Qladstoun Britaniya mətbuatından xahiş etmişdi ki, şərqi Anadolunu "Ermənistan" kimi təqdim etsinlər. Regionun müxtəlif guşələrində Britaniya konsulluqları açılmışdı, onların əsas tapşırığı yerli.xristian əhali ilə əlaqə yaratmaq idi. İctimai rəyə təsiri öyrənmək məqsədi ilə Londonda İngilis-Erməni Dostluq Komitəsi təşkil olunmuşdu. İngiltərənin artıq "Ermənistan" adlandırdığı əraziyə çoxsaylı xristian missionerləri göndərilirdi.

1877 və 1878-ci illərdə Osmanlı İmperiyası ilə Rusiya arasında daha bir müharibə oldu. Müharibə başa çatmağa yaxınlaşanda İstanbuldakı xristian ermənilərin patriarxı Nerses Varcabedyan rus çarından onun qoşunları tərəfindən işğal olunmuş şərqi Anadoludakı ərazini əlində saxlamağı xahiş etdi. Müharibə başa çatandan sonra erməni patriarxı rusların ali hərbi komandanı olan çar Nikolaydan şərqi Anadolu torpaqlarını Rusiyaya ilhaq etməyi və orada Bolqarıs-





tan üçün yaradıldığı kimi erməni müxtar dövləti yaratmağa köməklik göstərməyi xahiş etdi. Əlbəttə, bu, baş tutmadı, çünki Rusiyanın əsas marağına cavab vermirdi. Bolqarıstanda əhalinin əksəri xristian idi. Osmanlı İmperiyasında isə ermənilərin sayı əhalinin ümumi sayının dörddə birindən də az idi.

Rusiyanın ermənilərə belə təsiri Britaniyanı təşvişə salırdı. İngilislər bu nəticəyə gəlmişdilər ki, Rusiya Osmanlılardan daha böyük təhlükəyə çevriləcəkdir. Onlar başa düşdülər ki, rus təsirli "Böyük Ermənistan" Fars körfəzinə və Hind okeanına qapı olacaq və nəticədə Britaniyanın Hindistandakı məntəqələri təhlükə altında qalacaqdı.

Ermənilərin istəyinin əksinə olaraq Böyük Ermənistan reallığa çevrilmədi. Buna baxmayaraq, rus ordusunda xidmət edən erməni zabitləri Osmanlı erməniləri arasında təxribat toxumu səpməkdə davam edirdi. Onlara müstəqil fəaliyyət göstərərək Balkanlardakı xristianlar üçün yaradılmış analoji müstəqillik uğrunda mübarizə aparmaq tövsiyə olunurdu.

Qeyd olunmalıdır ki, 1800-cü illərdə ermənilər müasir Ermənistan, Gürcüstan, Azərbaycan, İran və şərqi Türkiyənin hər tərəfinə səpələnmişdilər. Bəzi kiçik yığımlar nəzərə alınmazsa, ermənilər hər yerdə əhalinin az qismini təşkil edirdilər. Ruslar Qafqaz dağlarının cənubunu ələ keçirəndən sonra onlar öz nəzarətlərinə keçmiş müsəlman əhalisini yerindən tərpətdilər. Müsəlmanlar xristianlarla əvəz edilrdi, beləliklə ruslar öz xristian dövlətlərinə itaətkar olan ərazi yaradırdılar. Bu siyasətdə əsas sima kimi xristian ermənilər çıxış edirdi və ruslar ələ keçirdikləri ərazilərdə heç bir haqq ödənmədən torpaqları onlara peşkəş edirdilər. Rusların sıxışdırıb köçürtdüyü müsəlman sahibkarların torpaqlarına ermənilər yerləşdirilirdi.

Ermənilərin böyük bir hissəsi müsəlman qanunları altında yaşamaqdan imtina edir və ruslara torpaqları azad etməyi və xristian dövlətinin bir parçasına çevirməyi təklif edirdilər.

Köçürülməzdən qabaq indiki Ermənistanın yerləşdiyi İrəvan quberniyasında əhalinin əksəri müsəlmanlardan ibarət idi. Ruslar onların yerini ermənilərlə doldurmağa başladı. Bu üsulla Ermənistan indi "tarixi vətən" adlandırdığı yeri ələ keçirdi. Bu heç də ermənilərin bir çoxunun iddia etdiyi kimi Bibliyadakı Nuhun birbaşa varislərinin ərazisi deyil, rusların 1827 və 1828-ci ildə yaratdığı ərazidir!

Osmanlılarla aparılmış bütün müharibələrdə ermənilər ruslara kömək etmişlər. Bu isə xristian ermənilərlə müsəlman Osmanlılar arasında etnik nifrətin başlanğıcını qoymuşdur. Konflikt ruslar tərəfindən, onların boşaldılmış müsəlman torpaqlarına səxavətlə erməniləri yerləşdirdiyinin uğurundan yaradılmışdır.

Ruslar tərəfindən zorla köçürüldükləri dövrlərdə qəfil zərbəyə tab gətirməyən müsəlmanların üçdə biri tələf olmuşdur. Bu gün heç bir erməni etiraf etməz ki, onların sahiblik etdikləri azad torpaqlar çoxsaylı müsəlmanın qətliami hesabına başa gəlmişdir.

1827 və 1878-ci illər ərzində ruslar 1.3 milyon müsəlmanı zor gücünə köçürmüşdür. 1828, 1854 və 1877-ci illərdə Rusiya Osmanlılarla müharibələrə başlamışdır. Hər dəfə ruslar hücuma keçmiş, sonra isə geri çəkilməyə məcbur olmuşdur. Hər dəfə ruslar geri çəkiləndə xristian olmayanlara qarşı törətdikləri qanlı hadisələrin nəticələrindən qorxuya düşən ermənilər ruslarla birlikdə Türkiyədən qaçmışlar. Hər iki tərəfdən nifrət hissi artırdı.

1890-cı illərdə şərqi Anadoluda erməni üsyanları baş verirdi. Nəticədə çoxlu müsəlman və xristian qırıldı. 1905-ci il rus inqilabı ərzində eyni əhvalat Azərbaycanda da yenidən təkrar olundu.



I Dünya Müharibəsi başlayandan sonra xristian və müsəlmanlar arasında vətəndaş müharibəsi alovlandı. Əksərinin Rusiyada hazırlandığı erməni inqilabçıları şərqi Anadoludakı əsas şəhərləri ələ keçirmək istədilər. Onlar silahsız, əliyalın Van şəhərini tutmağa və ruslar gələnə kimi onu əldə saxlamağa nail oldular. Ermənilər şəhərdəki və yaxınlıqdakı kəndlərdəki dinc müsəlman əhalisinin böyük əksərini qırdılar. Müharibə rəsmən qurtarandan iki il sonrayadək bu cür ikitərəfli qətliamlar 1920-ci ilədək davam etdi. Çoxlu müsəlman türkü və xristian ermənisi aclıqdan və xəstəlikdən qırıldı.

Şərqi Anadoluda "rəsmi" erməni terrorçu taktikaları haqqında Avropa rəsmilərindən xeyli sübut gətiriləcəkdir. Orada nələrin baş verdiyi haqqında çoxlu qərbi diplomatik və konsulluq nümayəndələrinin (o cümlədən Amerikanın) hesabatları vardır. Onlar belə bir nəticəyə gəlmişlər ki, üsyanlar təşkil edən, müsəlmanları doğrayan və kütləvi qıranlar erməni inqilabçı cəmiyyətləri olmuşdur. Bu rəsmi nümayəndələr inanırdı ki, erməniləri həmin qırğınlara şirnikləşdirən əsas səbəblərdən biri Avropanın onların xeyrinə olan müdaxiləsi idi. Ermənilər həmişə özlərinin öldürülməsi haqqında məlumatlar göndərməyə imkan tapırdılar, lakin həqiqət belə idi ki, ermənilər özləri dinc vətəndaşları qırırdılar.



Əsrlər uzunu xristianlara dəhşətli türklər və İslam dininin eybəcərlikləri haqqında əhvalatlar söylənirdi. Bu nağılların əvvəli Səlib döyüşlərindən – guya xristian "saflığı"nın qarşısına çıxan qara müsəlmanlardan başlayır. Ən dəhşətlisi budur ki, Xristin adından hərəkət edən adamlar daha çox vəhşiliklər törədir və o dövrdə müsəlmanlardan qat-qat artıq dəhşətli cinayətlərə rəvac verirdilər. Müsəlmanlar sadəcə olaraq İisusun adından sui-istifadə nəticəsində qoşunları ilə yeni torpaqları işğal edərək öz xeyrini güdənlərdən öz torpaqlarını müdafiə edirdilər.

Etnik təmizləmə nəticəsində dünyanın Balkanlar və Qafqaz regionlarındakı ölkələr hegemon millətli ölkələrə çevrilmişdir. Bu ölkələr müharibə və inqilablar nəticəsində Osmanlı İmperiyasından qopub ayrılmışdır. Başqa sözlə desək, bu ölkələr müsəlman ənənələri üzərində qurulmuşdur.

Dərsliklərdə bu müsəlman itkiləri haqqında heç bir tarixi qeyd yoxdur. Bu dərsliklər xristian ermənilərin, xristian bolqarların və xristian yunanların guya müsəlmanlar tərəfindən qırılması haqqında nağıllar söyləyir. Lakin xristian xalqlarının müsəlmanları öldürməsi və qırğın törətmələri haqqında Qərb dərsliklərinin heç birində məlumat yoxdur.



Birləşmiş Ştatlardakı xristian erməni-amerikanlar son illərdə şəhərlərdə, ştatlarda və hətta milli hökumət səviyyəsində ardıcıl kampaniya apararaq guya 1915-ci ildə təxminən 1.5 milyon xristian ermənisini genosid etməsi ilə bağlı olaraq müsəlman Türkiyəsini günahlandırırlar. Əgər bütün bu əhvalatlar erməni-amerikan xristianları tərəfindən düşünülübsə, digər xristianlar onlara qarşı çıxmalıdır.

Əgər xristianlar terrorçu müharibənin haçansa başa çatmasını istəyirlərsə, onlar müsəlman dünyasına əl uzadıb Ermənistana Amerika dollarları verməyi dayandırmalıdır!

BİRİNCİ FƏSİL

# MÜQƏDDƏS TERROR

## ERMƏNİ QRİQORYAN VƏ YA ORTODOKS KİLSƏSİ

Ermənistan elə bir şeytan məmləkəti nümunəsidir ki, yalnız dövlət və kilsə bir olanda belə nümunə mümkündür. Məsələ burasındadır ki, Osmanlı İmperiyası başlanğıcından hökumət xristianlıqla digər dinlər arasında barışıq xətti yeridirdi. Osmanlı qayda-qanunlarının erkən vaxtlarından xristian kəndliləri müsəlman hakimiyyəti altında olduqlarını bəyənirdilər. Kəndlilər xristian feodal sahibkarların yüksək vergilərindən və təhqirlərdən xilas edilmişdi. Osmanlılar onların həyatlarına qanun və qayda gətirdilər, həm də onlara din azadlığı bəxş etdilər.

Erməni Kilsəsinin rəsmi internet saytında deyilir: "Erməni Kilsəsi tarix boyu erməni xalqı ilə o qədər yaxın olmuşdur ki, indi onları bir-birindən ayrı düşünmək mümkün deyil. Millət və kilsə məfhumları o qədər qaynayıb-qarışmışdır ki, sanki 'milli kilsə' termini məhz ermənilər tərəfindən məxsusi düşünülmüşdür." Sonra isə əlavə edilir: "Belə ki, yaranışından ta bu günə kimi kilsə siyasi və ictimai müzakirələrin mərkəzi olmuşdur. Millətin problemləri həmişə kilsəni dərindən düşündürmüşdür."

1536-cı ildə Osmanlı hökuməti Fransa ilə bağladığı müqaviləyə əsasən fransızlara bütün Osmanlı torpaqlarında ticarət etməyə icazə verildi. Fransızlara əlahiddə dini azadlıq da bəxş olundu. Onlara həm də ərazidəki bütün Müqəddəs Yerlərə nəzarət hüququ da verildi ki, bu da Osmanlı İmperiyasında katoliklər üzərində fransızların protektoratının fəaliyyətinə imkan yaratdı.

Xristianların zorla İslamı qəbul etməsi haqqında Osmanlı İmperiyasının siyasətindən xeyli yazılmışdır. Bu, fantaziyadan başqa bir





şey deyildir! Əslində Osmanlı İmperiyasında dini azadlığa təminat verilməsi həmin imperiyanın süqutunu şərtləndirmişdir. Ruslar Osmanlıların bu səhvindən öyrənmiş və öz imperiyalarını yaradarkən müvafiq addımlar atmışdır.

Xristianlar arasında müsəlman etnik-dini kartı ilə ilk oynayanlar ruslar olmuşdur. Osmanlı İmperiyası süquta uğramağa başlayanda Rusiya, Avstriya, İtaliya və başqaları Osmanlı torpaqlarını ələ keçirməyə başladılar. Müharibə döyüşləri, arxasınca isə barışıqlar getdi. 1774-cü ildə Osmanlılar və ruslar belə barışıqdan birinə imza atdılar. Həmin müqaviləyə əsasən ruslara Osmanlı İmperiyasında yaşayan xristianların maraqlarını müdafiə etmək hüququ verildi. Bu hüquq Osmanlıların daxili işlərinə Avropanın birbaşa təsiri üçün bütün qapıları açdı.

Bu, Osmanlı İmperiyasında yaşayan xristianların Qərb dünyası ilə yaxın dostluğunun başlanğıcı oldu. Bu, həm də Osmanlı İmperiyasında yaşayan azsaylı əhalinin millətçi hərəkatlarının dayanışı oldu.

Osmanlılar 1453-cü ildə xristian Konstantinopolu zəbt etdilər. Sonra bu böyük şəhər İstanbul adlandı. Osmanlı sultanı artıq ortodoks xristianlığı tanımış və 1461-ci ildə Bursanın erməni yepiskopu Hovakim Ovakimi Osmanlı İmperiyasında yaşayan bütün ermənilərin patriarxı təyin etmişdi. Müsəlmanlar və erməni xristianları arasında yaranmış dostluq bundan sonra üç yüz ildən çox davam edəcəkdi. Bu elə bir dövr idi ki, oradakı xristian əhali arasında Avropa təbliğatı aparılmırdı.

Sultan erməni kilsəsinin yaranmasına kömək edəndən sonra yetmiş mindən artıq ermənini krımlılardan xilas etdi. Bu xristianlar Vizantiya hökuməti tərəfindən Krıma sürgün edilirdi. O, erməni xristianlarını İstanbulun cənubundakı Mərmərə dənizi sahilləri boyunca məskunlaşdırdı. (1)

Bu ermənilər özlərini Osmanlı İmperiyasında elə etibarlı aparırdılar ki, sultana ən sadiq adamlar kimi tanınırdılar. Sultan onların xristian dinini tanımışdı, onlara hüquqlar və azadlıqlar vermişdi. Buna baxmayaraq, Osmanlı İmperiyası süquta uğramağa başlayanda ermənilərin bəziləri uzun əsrlər boyu Osmanlı sultanlarının onlar üçün etdiklərini danmağa başladılar. Həmin yeni yaranmış satqın erməni

liderləri Avropa dövlətlərinin himayədarlığı altında Osmanlı torpaqlarını qeyd-şərtsiz ələ keçirmək üçün avropalılarla danışıqlara başladılar. Bu az saylı erməni liderləri ilə əlaqə quran ilk güclü dövlət Rusiya oldu. Eyni erməni liderləri Osmanlı torpaqlarını ələ keçirmək məqsədi ilə iş aparsalar da, eyni zamanda özlərini sultana sədaqətli kimi göstərirdilər.

Çar Böyük Pyotr (1689-1725) Qafqazın işğalında erməni satqınlığından məharətlə və səmərəli istiafdə etdi. II Yekatrinanın dövründə də ermənilər Rusiyaya köməkliyini davam etdirdilər. Lakin nə I Pyotr, nə də II Yekatrina ermənilərə verdikləri vədi yerinə yetirmədi. Buna baxmayaraq, azad torpaqlar və orada quracaqları dövlətlərinin xəyalı ilə yaşayan ermənilər Osmanlılara satqınlığı və ruslara köməkliyini davam etdirirdi. Ermənilərin həm dünyəvi, həm də dini liderləri Qafqazdakı müsəlman torpaqlarının ruslar tərəfindən işğalını müdafiə etirdi.

1796-cı ildə ruslar Dərkənd şəhərini mühasirəyə aldı. Özlərini Osmanlılara sadiq göstərən erməni sakinləri şəhərin su ilə təchizi haqqında məlumatı ruslara çatdırdılar və məhz bunun nəticəsində ruslar döyüşdə qələbə çaldılar. Erməni arxiyepiskopu Arqutinskiy-Dolqorukov 1790-cı illərdə verdiyi bəyanatda ümid etdiyini və inandığını bildirirdi ki, ruslar "erməniləri müsəlman boyunduruğundan azad edəcəkdir." (2) Erməni Kilsəsinin rusları müdafiə etməsi və erkən 1800-cü illərdə ruslarla qurduqları və bu gün də davam edən iş birliyi və əməkdaşlıq haqqında lazım olduğundan da çox faktlar mövcuddur.

1808-ci ildə çar I Aleksandr (1801-1825) ruslara kömək məqsədi ilə apardığı casusluq fəaliyyətinə görə Erməni Kilsəsinin katolikosu Danieli birinci dərəcəli Müqəddəs Anna ordeni ilə təltif etdi. Ruslar qərbə hücum edib Osmanlı torpaqlarının dərinliklərinə irəliləyəndə də Erməni Kilsəsi daim onlara kömək edir və ardıcıl olaraq rusların onları "müsəlman zülmündən" xilas etməyə səsləyirdi. (3)

Xristian erməniləri ilə müsəlman Osmanlıları arasındakı nifrətin artmasının kökləri Erməni Kilsəsinin fəaliyyəti və cəhdləri ilə bağlıdır. Hər halda, ruslar Osmanlı torpaqlarını zəbt edən kimi Erməni Kilsəsi ilə birlikdə işləyərək oradakı müsəlman əhalini kompensasiya ödəmədən qovmuş, keçmiş müsəlman evlərinə və torpaqlarına erməniləri köçürmüşdür.





1992-ci ildə qonşu Azərbaycanın bir hissəsi Qarabağa ermənilərin heç bir əsası olmayan hücumu haqqında çox yazılmışdır. Həmin hücum rusların ermənilərə bir milyard dollarlıqdan artıq hərbi silah və ləvazimatı hədiyyə etməsi nəticəsində baş tutmuşdu. Erkən 1800-cü illərdə çoxsaylı müsəlman əhali bu torpaqda məskunlaşmışdı. Lakin ruslar bu torpaqları Osmanlılardan alan kimi ermənilər müsəlman evlərinə köçdülər. Bu gün isə ermənilər Qarabağın onların "qədim" vətəni olduğunu bəyan edirlər. "Qədim" sözünün erməni izahının bu baxımdan təxminən iki yüz yaşı vardır.

Ermənilər müstəqil vətən yaratmaq üçün eynilə yunanların 1821-ci ildə etdiyi hərəkətin təkrarını arzulayırdı. Ortada yalnız məhz ermənilərlə bağlı olan praktik problem var idi. Yunanlar malik olmaq istədikləri torpaqlarda əksəriyyət təşkil edirdilər, ermənilər isə həmişə azlıqda olmuşlar. Ona görə də ermənilər dərhal başa düşdülər ki, özlərinin müsəqil hökumətlərini, diktatorluğunu və sair qurmaq üçün onlara xarici müdaxilənin köməyi və dəstəyi lazımdır. (4)

Yalnız 1827-1829-cu illərdəki rus-fars (müasir İran) və rus-Osmanlı müharibələri vaxtı erməni liderləri və onların xristian din xadimləri hiss etdilər ki, onların müstəqil dövlət qurmaq vaxtı yetişmişdir. Bu müharibələr ərzində Rus İmperiyasında yaşayan ermənilər İranda və Osmanlı İmperiyasında yaşayan ermənilərlə birləşərək öz dostlarının və qonşularının əleyhinə döyüşən ruslara kömək edirdilər.

Bu və bundan sonra olan müharibələrdə ruslar müsəlman torpaqlarını zəbt edəndə ermənilər həmişə rusların tərəfini saxlayırdı. Rusların işğal etdiyi ərazilərdəki çoxsaylı müsəlman əhalisi çoxlu adam itkisi bahasına öz ev-eşiyindən qovulur, onların arxasınca isə erməni xristianlar həmin ev-eşiklərə sahib dururdu. Bax, məhz bu üsulla indi Ermənistan Respublikası adlanan ərazidə erməni əhalisinin üstünlüyü əmələ gətirilmişdir – bu üstünlük rusların hərbi gücü sayəsində yaradılmışdır.

Ruslar müsəlman Persiyanın şimali əyalətlərini zəbt edəndə Eçmiadzin monastrı da həmin ərazinin içində idi. Bu, bütün erməni katoliklərinin arxiyepiskopluğu (və ya əyalətin ən yüksək rütbəli yepiskopu) idi. Ruslar indiyə kimi İstanbuldakı erməni patriarxı ilə əlaqələri kəsilmiş katoliklərin çürüməkdə olan nüfuzunu bərpa etməyə na-

il oldular. Xristianların bu qrupu bütün rus çarlarının sadiq nökərlərinə çevrildilər.

Çar I Nikolay (1825-1855) ilk dəfə Osmanlı İmperiyasının "Avropanın xəstə adamı" olduğunu söyləmiş şəxsdir. O özünü Osmanlı İmperiyası hüdudlarında yaşayan xristianların ən ali himayədarı elan etmişdi. İrəvan şəhərini hücum və işğal edərək farslardan alan ruslar olmuşdur və indi həmin şəhərdə Ermənistanın paytaxtı yerləşir. 1827-ci ildə rusların işğalından qabaq burada, o dövrün bütün Zaqafqaziyasında olduğu kimi, əhalinin 80 faizindən çoxunu müsəlmanlar təşkil edirdi. Ümumən bütün ərazidə müsəlmanlar və rus əleyhinə olan millətlər məskunlaşmışdı. Məhz rusların və onların əraziyə yeritdiyi ermənilərin qəddarcasına apardığı siyasətin nəticəsində sonralar tənasüb dəyişmişdir.

Krım Müharibəsi dövründə (1853-1856) Osmanlılar öz qüvvələrini Qərb dövlətləri ilə rusların əleyhinə birləşdirdi. Anadolunun şərq əyalətlərində (indiki Türkiyə) yaşayan erməni liderləri casusluq fəaliyyəti göstərərk Rusiyaya fəal köməklik edirdi. 1854-cü ildə Qarsda bir neçə erməni həbs edildi.



Çarlara kömək lazım olanda onlar erməniləri hərəkətə gətirir, onlara vədlər verir, onları komplimentlər içində çimizdirirdilər. Çarların ermənilərə ehtiyacı olmayanda isə vədlərini heç vaxt yerinə yetirmirdilər. Buna baxmayaraq, erməni xristianlar rusları müdafiə etməkdə davam edirdi.

Osmanlıların əleyhinə göstərdiyi bütün fəaliyyəti müqabilində katolikos Nerses Asdarakes çar I Nikolaydan cəmi bir təşəkkür məktubu almışdır. Rusların Eçmiadzin katolikosuna verdiyi bütün vədlərini yerinə yetirməməsinə baxmayaraq, kilsə Rusiyaya sadiqliyini davam etdirirdi.

## XRİSTİAN MİSSİONERLƏRİ ANADOLUDA

1850-ci illərin ortalarından başlayaraq Anadoluda yeni səslər eşidilməyə başladı: Avropa və Amerika missionerlərinin səsləri! Bu xristian missionerləri Osmanlı dövləti üçün çoxlu problemlər yaratdılar. (5) Erməni müəllifi A.P.Vartuqyan yazırdı ki, ermənilər arasında



bu missionerlərin təqdim etdiyi katolikizm və protestantizm "millətə əvvəllər heç vaxt olmamış tərzdə dağıdıcı effekt təsiri bağışlayır." (6)

Əsas problem çoxsaylı millətləri təmsil edən müxtəlif missionerlər arasında daxili döyüşün getməsi idi. Fransa və Avstriya katolikləri müdafiə edirdi. Protestantlar isə İngiltərə və Birləşmiş Ştatlardan maliyyələşirdi. Ruslar isə ortodoks kilsəni müdafiə edirdi. Bu əsas dövlətlərin hər biri Osmanlı İmperiyasına – tezliklə öləcəyinə inandıqları "Avropanın xəstə adamı"na öz təsirini artırmaq üçün gərgin iş aparırdı. Həmin dövlətlər öz ölkələrindən göndərdikləri dini missionerləri müdafiə etdiklərini bəyan etsə də, əslində onların hər biri öz fərdi milli maraqlarını yeridirdi.

Rusiya Aralıq dənizinin ilıq sularına çıxmaq arzusunun həyata keçməsində ermənilərdən istifadə edir, bununla həm də İngiltərənin Hindistana yolunu kəsməyi düşünürdü. Rusiya və Fransanı kənara itələyərək protestant ermənilərdən istifadə edən Britaniya isə onu Hindistanla birləşdirən həyat yolunu qorumağa çalışırdı. Katolik ermənilərdən istifadə edən Fransa Yaxın Şərqdəki öz maraqlarını düşünürdü. Yalnız Amerikanın aydın işlənmiş milli marağı yox idi.



Osmanlı dövlətinin daxili aləminə nüfuz etməyə çalışan bütün dövlətlər xristian dinindən istifadə edirdi. Bu dövlətlər tez-tez yalnız öz dini missionerlərinin hüququnu və onların xristian azlıqlarla apardığı işi müdafiə etdiklərini söyləyirdi. Başlıca həqiqət isə bu idi ki, Osmanlı İmperiyası süquta uğrayandan sonra hər bir Avropa dövləti onun torpaqlarının bir hissəsini müftə-müsəlləm ələ keçirmək istəyirdi. Başqa sözlə desək, bu Avropa ölkələri yırtıcı kimi hazır dayanaraq ölmüş Osmanlı İmperiyasını süpürləmək və onun sümüklərini yığmaq istəyirdi. Həmin ölkələrin hər birinin tez-tez Osmanlı dövlətinin daxili işlərinə qarışması və bütün bunların guya xristianların hüquqlarının qorunması naminə edildiyini açıqca göstərən tarixi sənədlər vardır. Ermənilərin get-gedə artan qiyamçı fəaliyyyətinin əsas səbəbi də məhz bununla bağlıdır. Məhz bu tarixi mərhələdə ermənilərin qiyamları və terrorçu əməlləri güclənmişdir. Bu ardıcıl terrorçu əməliyyatlar nəticəsində və yuxarıda adları çəkilən dövlətlərin xeyir-duası ilə ermənilər özləri özləri üçün "erməni məsələsi" adlanan problem yaratmışdır.

16 iyun 1880-ci ildə Britaniyanın Anadoludakı Baş konsulu pol-

kovnik-leytenant S.U.Uilson ermənilərlə bağlı müşahidələri haqqında öz hökumətinə hesabat vermişdir. O, erməniləri "qazanc hərisləri, əksər hallarda təhsilsiz nadan, fanatik, dözümsüz və tamamilə savadsız, avam və hər cür təhsilin və inkişafın əleyhinə olan hissi ehkamların təsiri altında olanlar kimi" (7) təsvir etmişdir.

Ermənilərlə bağlı müşahidələrinə davam edən polkovnik-leytenant Uilson əlavə edir ki, "düzgünlük və səmimilik kədərli dərəcədə azdır, lakin Amerika missionerlərinin təlimindəki bu cəhətlərə diqqət yetirilməsinin vacibliyi bu adamlara təsir göstərir." Polkovnik öz qeydlərini belə yekunlaşdırır: "Erməni hərəkatının məqsədi qurulmuş hakimiyyətin əleyhinə yönəlmişdir; ermənilər türklərin yerini tutmağı arzulayır. İstanbul üzərinə yürüş edən bu adamları başqa heç nə razı salmayacaqdır." (8)

Harold Armstronq erməniləri "çox güclü və adamayovuşmaz insanlar; həsəd aparan və başqası haqqında pis danışan" adamlar kimi təsvir etmişdir. O deyir ki, ermənilərin yaxşı biznes keyfiyyətləri vardır, onlar qənaətcil və bacarıqlı sövdələşmə adamıdır. Buna baxmayaraq, onlar özlərini "mübahisə xoşlayan, davakar və çoxbilmiş" kimi aparırlar." Armstronq ermənilər haqqında muşahidələrini belə tamamlayır: "Onlar bic, yapışanda qopmayan, məxfiliyə meylli, məkrli və fırıldaqçıdırlar. Dindən böyük məharətlə bəhrələnir, lakin ondan satqınlıq və paxıllıqlarının örtüyü kimi istifadə edirlər." (9)

1876-cı ildə və 1877-1878-ci il Osmanlı-rus müharibəsinin lap ərəfəsində erməni patriarxı Nerses Varcabotyan Britaniya səfiri Elliotla görüşərək milli azlıqların Osmanlılara qarşı Balkanlarda apardığı üsyanlardan sonra qazandıqları üstünlüklərin ermənilərə də şamil edilməsini ondan xahiş etdi.

İyirminci əsr yaxınlaşdıqca Osmanlı İmperiyası daha sürətlə süquta uğrayırdı. "Avropanın xəstə adamı"nın sonunun yaxınlaşdığını duyan Avropa dövlətləri İmpenriyanın ölümündən daha çox xeyir götürmək üçün Osmanlı torpaqlarındakı fəaliyyətlərini daha da artırdılar. Ermənilər, xüsusilə onların kilsəsi də xeyir götürmək həsrətində idi.

1876-cı il dekabrın 12-dən 1877-ci il yanvarın 20-dək keçirilmiş görüşlər seriyasından qabaq erməni patriarxı Nerses Varcabotyan Britaniya səfiri ilə görüşdü. Bu görüşlər Balkanlar məsələsinin təhlili





ilə bağlı aparılırdı. Erməni patrarxı Balkanlardakı millətlərə vəd olunan üstünlüklərin ermənilərə də verilməsini istəyirdi. Patriarx qeyd etdi ki, ermənilər artıq oyanmışlar və əgər Avropa dövlətlərinin rəğbətini və dəstəyini qazanmaq üçün "üsyana qalxmaq vacibdirsə, elə bir hərəkata başlamaq heç bir çətinlik törətməyəcəkdir." (10)

Patriarx Rusiyanın ali baş komandanı Böyük Knyaz Nikolayla da görüşərək ondan müstəqil Ermənistan dövləti yaratmaq üçün dəstək istədi. Bir qədər sonra öz şəxsi xahişini çatdırmaq üçün patriarx, Vanın keçmiş yepiskopu Mkrtıç Xrimyanın başçılığı ilə nümayəndə heyətini də böyük knyazın yanına göndərdi. Patriarx Osmanlı hökumətinin erməni xristianlarını təqib etməsindən şikayətlənir və Osmanlı İmperiyasının altı şərq vilayətində müstəqil Ermənistan yaratmağa kəmək göstərməyi ruslardan xahiş edirdi. Böyük Knyaz erməniləri şəfqətlə dinlədi və onları Osmalılara qarşı öz pozucu fəaliyyətini davam etməyə ruhlandırdı. Əlbəttə, əslində Rusiya müstəqil Ermənistan yaratmaq həvəsində deyildi.

1882-ci ilin yanvarında Britaniya konsulu mayor Uilyam Everett İstanbuldakı Britaniya səfiri Lord Dufferinə məxfi hesabat göndərdi. Everett öz hesabatına Ərzrumdakı (şimali-şərqi Türkiyə) ermənilərin, habelə bütün əyalət ermənilərinin arasında geniş yayılmış bir sənəd də əlavə etmişdi. Bu sənəd məxfi orduya birləşmək haqqında siyahı forması idi. Ona qoşulan hər bir erməni and içirdi ki, ölkəni azad etmək uğrunda döyüşmək onun başlıca məqsədidir. (11)

Həmin ilin erkən baharında Everett hesabat verirdi ki, erməni üsyankar hərəkatı daha da güclənmişdir. O belə bir inamını ifadə etmişdi ki, hərəkatın arxasında rus Ermənistanı dayanır və Rusiya onu məxfi surətdə müdafiə edir. Rusiyanın Vandakı konsulu rus ordusunun erməni əsilli mayoru idi, o, ermənilərin Osmanlı müsəlmanların zülmündən xilas olmaq istəyini geniş yaymaqla məşğul idi. Ermənilər yardım və kömək üçün yalnız Rusiyaya bel bağlamalı idi. Mayora əlavə olaraq orada çoxlu rus agenti də fəaliyyət göstərirdi. Onlar regionu gəzir, erməniləri üsyana və qarışıqlıq salmağa həvəsləndirirdilər.

Bundan az sonra Everett geri qayıdaraq Britaniyanın xarici işlər naziri Lord Qranuillə məlumat verdi ki, imkan düşən kimi ruslar Osmanlı torpaqlarını işğal etmək üçün hazırlıq görürlər. Everett əlavə

etdi ki, ruslar ərazidəki erməni xristianlarının hədsiz narazılığını yaradırlar ki, onlar "əzilən irqləri" müdafiə etmək məqsədilə Osmanlı torpaqlarına öz hücumlarına haqq qazandıra bilsinlər. (12)

Deməyə ehtiyac yoxdur ki, xristian (ortodoks) ruslar öz yeni erməni təbəələrinə Osmanlıların verdiyi qədər azadlıq vermək niyyətində deyildi. 1883-cü ilin mayında çar ermənilərin repressiyası və ruslaşdırılması siyasətinə başladı. Müsəlman "zülmündən" azad edilən subyekt kimi baxdıqları ruslar ermənilər üçün xeyli təqib forması həyata keçirirdi.

1887-ci ildə erməni Avetis Nazarbekyan Cenevrədə "Hunçak" ("Zəng") adlı yeni siyasi hərəkat yaratdı. Bu təşkilat marksist-sosialist prinsiplərə əsaslanırdı. 1890-cı ildə Tiflisdə millətçi sosialist prinsipləri əsasında Erməni İnqilabi Federasiyası (Daşnaksütyun) təşkil olundu. Onun təsisçiləri Kristapor Mikaelim, Stepan Zartan və Simon Zavaryan idilər. Bu fərdlərin hər biri Rusiya universitetlərində təhsil almışdı. Hər iki qrup Türkiyənin altı şərq əyalətində müstəqil Ermənistan yaratmaq istəyirdi. Bu, milli sosialist dövləti olmalı idi.



Müstəqil Ermənistan yaratmaq uğrunda "Hunçak"ın cəhdlərini Avetis Nazarbekyan əvvəlcə Cenevrədən, sonra Parisdən, daha sonra isə Londondan həyata keçirirdi. Onun fikirləri həmişə son nəticə olurdu. Onun siyasi təşkilatı öz məqsədinə çatacaqdısa, Nazarbekyan tipik Ermənistan və ya müsəlman Osmanlısının fərqinə varmırdı.

Nazarbekyan ən qəddar və döyüşkən erməni liderlərindən birinə çevrildi. Onun məqsədi xristian erməniləri arasında qarmaqarışıqlıq yaradaraq müsəlman türklərini əks tədbirlərə əl atmaq məcburiyyətində qoymaq, nəticədə Avropanın xristian dövlətlərini bu işə qoşub müstəqil Ermənistan qurmaq idi. Erməni terrorçuları davamlı zorakılıq hərəkətləri ilə müsəlmanların səbrini tükəndirəsi idilər. Harada müsəlmanlar cavab verəsi olsalar, Nazarbekyan və digər ermənilər haray-həşir qaldıracaqdılar ki, "vəhşi müsəlman türkləri günahsız xristian ermənilərini qırırlar." (13)

Bu həqiqətdən daha güclüsü ola bilməz.

"Hunçak" liderləri öz erməni ardıcıllarına həm ermənilərin, həm də Osmanlı türklərinin arasında yerli kənd və şəhərlərdə problem yaradacaq "ən təhlükəli" hesab etdikləri adamları aradan götürməyi əmr etdilər. Bu terrorçular müsəlman türklərinin qanını soyüqqanlıqla tökməkdə heç vaxt tərəddüd etməmişdir. Onlar şər ata bilmədikləri və pul qopara bilmədikləri varlı erməniləri də öldürürdülər. Başqa sözlə desək, bu qatillər onların şeytan əməllərinə qoşulmaq istəməyən və onlarla əməkdaşlıq etməyən öz adamlarını da öldürürdülər.



Öz şeytan əməllərini yerinə yetirmək üçün ermənilər sanki "Qətl korporasiyası" adlana biləcək birlik yaratmışdılar. "Hunçak" hərəkatının xüsusi qolu da yaradılaraq Türkiyə ermənilərinin taleyi bir ovuc Rusiya ermənisi anarxistinin əlinə verildi; bu, erməni tarixinin dönüş nöqtəsidir. Çox illər davam edəcək gələcək qanlı hadisələrdə erməni kilsəsindən bir alət kimi istifadə olunacaqdı. (14)

Bu zaman kəsiyi müstəqil dövlət qurmaq yolunda erməni terrorundan alət kimi istifadə edilməsinin şahididir. Bu zaman kəsiyi həm də yalanlar və fırıldaqlardan öz əsas silahları kimi istifadə edən erməni təbliğat maşınının işləməsi, dini əqidələrinə görə müsəlman türkləri tərəfindən təqiblərə məruz qalması və qırılması haqqında xristian Qərbində fikir oyatmalarının şahididir. Onlar haray-həşir qaldırırdılar ki, xristian xalqları gəlməli və öz qardaş erməni xristianlarını xilas etməlidir.



1889-cu ilin avqustunda Britaniyanın Ərzrumdakı konsulu polkovnik Çermsayd Britaniyanın İstanbuldakı səfirinə məlumat verirdi ki, "ermənilərin qırılması üçün edilən cəhdlər və müsəlman hərəmxanalarının oğurlanmış erməni qızları ilə doldurulması haqqında bəyanatlar yalnız gülüş doğurmağa layiq olan şişirtmələrdir." (15)

Eyni zamanda Britaniyanın Diyarbəkrdəki vitse-konsulu olan erməni Tomas Boyadciyan səfir Uaytın erməni xristianlarının qətliamı haqqında Osmanlı sultanının fərman verməsi ilə bağlı fakt istəməsinə cavab olaraq məlumat verdi. Erməni qeyd edirdi ki, o, "tam pozitivcəsinə qeyd edə bilər ki," belə fərmanlar heç vaxt verilməmişdir. (16) Boyadciyan həm də məlumat verirdi ki, o, ermənilərin şəxsi maraqlarını həll etmək üçün bir-birini məhv etməsi, sonra isə müsəlmanları günahlandırması haqqında xeyli fakta malikdir.

1889-cu ilin payızında Britaniyanın vitse-konsulu konsula məlumat vermişdir ki, ermənilərin kiçik azlıqda olduqları ərazilərdə ermənilər xristianlarla müsəlmanlar arasında ziddiyyətlər yaratmışdır. Erməni terrorçuları bir neçə müsəlmanı öldürmüş, sağ qalanlar arasında qarmaqarışıqlıq yaratmışlar. Belə hərəkətlərin əsas səbəbi

müsəlmanları azlıqda olan xristianlar üzərinə qaldırmaq idi. Sonra isə erməni terrorçuları "fanatik müsəlmanların" xristian ermənilәri qırması haqqında haray-həşir salacaqdılar. (17) Ermənilər yaxşı bilirdi ki, əgər erməni terrorçuları bircə dəfə bu əhvalatı yaradıb danışsa, bütün Avropadakı müxtəlif erməni təşkilatları onu hər tərəfə yayacaqdı. 11 dekabr 1889-cu ildə *London Daily News* qəzetində dərc olunmuş məqalə çoxlu nümunələrdən biridir. Qəzet şəhadət verirdi ki, Zitzan kəndində yaşayan bir erməni müsəlmanlar tərəfindən şişə çəkilərək qızardılıb öldürülmüşdür. Britaniya vitse-konsulu Devey qəzetin məqaləsini "absurd" adlandırmışdır. (18)

1890-cı ildə daşnakçılar terror kampaniyasını inkişaf etdirdilər. Arası kəsilmədən inqilabi kampaniya apararaq xristian ermənilərin hökuməti devirmək cəhdlərinə dayaq durmaq üçün avropalıları Osmanlı İmperiyasına gətirmək onların başlıca məqsədi idi. Bu erməni terror təşkilatı öz ardıcıllarına əmr etmişdi ki, "harada olursa-olsun, şəraitdən asılı olmayaraq türkləri güllələmək lazımdır, öz andını pozan reaksionerləri və erməni casuslarını da öldürmək və bu yolla intiqam almaq lazımdır." (19)

Xarici dövlətləri Osmanlı İmperiyasına gətirmək, arzuladıqları torpaqları hərb yolu ilə ələ keçirmək və şərqi Anadolunun altı əyalətindəki ərazini ələ keçirmək üçün ermənilər əllərindən gələn hər şeyi edirdilər. Ermənilər həmin torpaqların onların "qədim" vətəni olduğunu iddia edirdilər. Onlara qulaq asmaq istəyənlərin hamısına ermənilər uydurduqları bir nağılı danışmağı çox xoşlayırdı: erməniləri əhalinin azlıqda qalan hissəsinə çevirmişlər! 1892-ci ildə Britaniya Xarici İşlər Nazirliyinin Coğrafiya bölməsi ermənilərin iddia etdikləri torpaqlarda yaşadığı əhali haqqında aşağıdakı məlumatı yaydı: (20)

| Əyalət | Müsəlman | Yunan | Erməni | Digərlər | Cəmi |
|---|---|---|---|---|---|
| Ərzrum | 500,782 | 3,725 | 135,087 | 22 | 636,616 |
| Sivas | 839,514 | 76,433 | 170,433 | | 1,086,015 |
| Diyarbəkr | 377,644 | 9,440 | 79,189 | 45,233 | 471,506 |
| Harput | 504,946 | 650 | 69,718 | | 575,314 |
| Van | 247,000 | 79,998 | 103,002 | | 430,000 |
| Bitlis | 257,862 | 210 | 131,390 | 9,162 | 398,624 |
| **Cəmi** | **2,687 748** | **90,093** | **665,815** | **157,419** | **3,601 075** |





Daşnak terror təşkilatı həmin altı əyalətdə öz inqilabı üçün hazırlaşmağa başladı. Türklərin əleyhinə silah toplamaq və terror kampaniyası aparmaq üçün mərkəz kimi daşnaklar rus Ermənistanından istifadə edirdi. Artıq Erməni Kilsəsi daşnaklara böyük kömək göstərirdi. Kilsənin din xadimləri vacib ayinləri yerinə yetirmək pərdəsi altında tez-tez Osmanlı-Rusiya sərhəddini keçirdilər. Çoxsaylı kilsə rəsmisi erməni inqilabi hərəkatına kömək üçün öz vəzifəsindən istifadə edirdi; kilsə cənubi Qafqazdakı və Anadoludakı terrorçu daşnaklarla terrorçuların və rus hökumətinin arasında əlaqələndirici rol oynayırdı. Erməni Kilsəsi dindarlarının və yepiskopların bu cür fəal müdaxiləsi və iştirakı nəticəsində ermənilərin, kilsənin və nasionalizmin birgə silahlı qüvvəsi meydana gəldi.

Kilsə rəsmiləri eyni zamanda terrorçulara priaktik köməklik də göstərirdi. Persiyanın Osmanlı-Persiya sərhədinin üstündə yerləşən Derik monastrı bir nümunə kimi göstərilə bilər. Baqrat Vartakael Tavarklyan həmin monastrın abbatı idi. O, monastrı Osmanlı torpaqlarında fəaliyyətləri üçün erməni terrorçularının silah anbarına və filtrasiya mərkəzinə çevirmişdi.

Öz əsas silahları kimi onlar təkcə müsəlmanlara qarşı deyil, onları müdafiə etməyən və ya onlarla əməkdaşlıq etməyən öz ermənilərinə qarşı da zor tətbiq edirdilər. Dəhşət və qorxu yaratmaq üçün bu terrorçular öz qurbanlarını eybəcər hala salırdılar. 1893-cü ilin iyununda "xəbərçilik" etdiklərinə görə Kilise yaxınlığındakı monastrda çoxlu erməni öldürüldü və ya sorğu-suala tutuldu. Ermənilər öz ermənilərini qətlə yetirəndən sonra terrorçular meyitlərin qulaqlarını kəsib monastrın giriş qapısının üstündən mıxlayırdılar. (21)

A.C.Arnold Missioner İttifaqının katibi işləyirdi. 1894-cü ilin fevralında o, erməni terrorçu hərəkatının Türkiyəni öz marağına əsasən parçalamaq istədiyini müşahidə etdi. Xristianların təqib olunması haqqında ermənilərin xüsusi məharətlə uydurduğu əhvalatları yayaraq protestant Britaniyanı Türkiyənin əleyhinə qaldırmaq istədiklərini katib yaxşı görürdü. Missionerlər "erməni inqilabi hərəkatının qisasçılığı" haqqında eyni cür düşünürdülər. (22)

Arnold kilsə şurası nəşrlərinin birində sonralar yazırdı: "Hər şey bir yana, bu ermənilərin bir çətinliyi oldumu, təqib olsun və ya dini əqidəylə bağlı olsun, və ya qanuna dözümsüzlük, allahdan qorxan

adamlar və ya qəddarlıq ucbatından vətəndaş və hərbi təqiblərə məruz qalsınlar, və ya vətən xaini və qatillik olsun?" (23) Arnold özü öz sualına cavab verirdi: ermənilər yollarını azmış həm satqınlar, həm də qatil olan məsuliyyətsiz adamlardır.

1894-cü ildə Britaniyanın İstanbuldakı səfirliyinin rəsmiləri məlumat verirdilər ki, erməni inqilabi hərəkatı Osmanlı İmperiyasında başlamamışdır və onun liderləri Rusiya Ermənistanındadır. Britaniya öyrəndi ki, çox kiçik qrupdan ibarət olan bu təşkilatçılar 1892-ci ildə Osmanlı İmperiyasına gəlmiş və Qars şəhərindəki iclasda öz terror kampaniyasını planlaşdırmışlar. (24)

Erməni terrorçuları elə qəddar idilər ki, onlar hətta öz kilsələrinin patriarxını edam etməyə cəhd göstərmişdilər. İstanbuldakı fransız səfiri həmin cinayət hadisəsi haqqında öz hesabatında yazmışdır. Səfir qeyd edirdi ki, patriarx Aşıqyan 1894-cü il aprelin 27-də Qumqapı kilsəsindəki dini mərasimdən İstanbula qayıdarkən on səkkiz yaşlı erməni oğlan tərəfindən hücuma məruz qalmışdır. Oğlan öz tapançasından patriarxa atəş açmaq istəmiş, lakin silah işləməmişdir. Həmin on səkkiz yaşlı oğlan "Hunçak" terrorçu təşkilatının üzvü olduğunu demişdir. (25)

Britaniya parlamentinin üzvü ser Ellis Bartlett 1895-ci ilin fevralında erməni terror kampaniyası haqqında pamfletini çap etdirmişdir. O, qeyd etmişdir ki, "türk-erməni hadisələpri haqqında çox geniş yayılmış nağılların əksəri xüsusi fantaziya və qəzəbli əhvalla yaradılır və istiqamətləndirilir. Təbliğatçıların əsas məqsədi erməni əzablarının müqabilində yardım almaq deyil, onların ölkəsinin (İngiltərənin) hisslərini Türkiyənin və türklərin əleyhinə ehtizaza gətirməkdir."

Bartlett izah edirdi ki, əksər hallarda həmin əhvalatlar onları yaradanların öz şəxsi məqsədlərinə xidmət göstərirdi. "Həmin əsassız nağıllar Erməni İnqilabi Komitəsinin çirkin icadları idi və bu təbliğatçıların və öz kapitalı ilə onların arxasında dayanan rus panslavyan cəmiyyətlərinin maraqları naminə xaotik surətdə bütün Avropaya yayılmışdı." 1876-cı il türk-bolqar münaqişəsindən sonra 1894 və 1895-ci illərdə eyni müharibə oyunları bu erməni dəhşətləri ilə oynanırdı.

Bartlett "türk sultanı öz xristian təbəələrini azadlığın bütün formalarından məhrum etmişdir və eybəcərcəsinə verilənlər isə ustalıqla





üstü örtülmüş saxtakarlıqdır" kimi erməni iddiasına da aydınlıq gətirmişdir. O, sözünə davam edərək deyirdi ki, "son dörd əsr ərzində heç bir hökumət Osmanlı İmperiyası qədər dözümlülük nümayiş etdirməmiş və daha çox dini azadlıq verməmişdir. Dinlərin hər bir formasına – yunan, yəhudi, nestorian, Roma katolikliyi və başqalarına – ayinlərin yerinə yetirilməsində və yayılmasında tam azadlıq verilmişdir. Əgər türklər keçmişdə bir qədər az səxavət göstərsəydi, indi onlar müasir əziyyətlərinin çoxuna qatlaşmazdılar. Fransada və Almaniyada, hətta İngiltərədə heretiklər diri-diri tonqallarda yandırılanda Osmanlı dövləti öz təbəələrinə hüdudsuz dini azadlıq vermişdi."

Barttlett qeyd edirdi ki, "ispan coğrafiyaçı alimi, gözəl qabiliyyəti və hər şey haqqında ümumi məlumatı olan centlmen M. Ksimeues üsyanlardan birinin şahidi olmuş və görmüşdür ki, baş verənlər ermənilərin qaldırdığı 'soyqırım' hay-küyü ilə ziddiyyət təşkil edir." Ermənilərin "kobud pozuculuq" baş verdiyini iddia etdikləri yerlərin çoxuna Ksimeues baş çəkmişdir. O, aydın və sadə sözlərlə bəyan etmişdir ki, "çox dəhşətli dildə düşünülmüş və vəziyyəti bütün detalları ilə işıqlandıran geniş yayılmış əhvalatlar başdan-başa uydurmalar idi." Ksimeues qeyd edirdi ki, "minlərlə erməninin öldürülməsi, onların qadınlarının zorlanması, çoxsaylı kəndlərin xaraba qoyulması, din xadimləri, qadın və kişilərə qarşı müxtəlif formada həyata keçirilmiş işkəncə və müsibətlər sadəcə olaraq saxtakarlığın ən vəhşi ixtirasıdır." Bartlett M. Ksimeuesdən belə bir sitat gətirir ki, o, "bütün Şərq xalqları arasında yalan deməkdə ən mahir, səriştəli və öyrəncəlisinin ermənilərin olmasını" müşahidə etmişdir.

Bartlett "İngiltərə və müəyyən mənada Avropa nəhəng yalanını təsiri altına düşmüşdür. Bu mənada məşhur ingilis jurnallarının sahibləri və redaktorları məntiqdən kənar çap materialları və hər bir nağıl üçün çox ciddi məsuliyyət daşıyırlar – onların əksəri absurddur və reallıqla ziddiyyət təşkil edir – onların hamısı erməni yalanlarının əməli vasitəsilə ətrafa püskürdülmüşdür. Bu çirkin uydurmaların nümunələrinin hamısı Ermənistan mənbələrindən gəlmiş və Britaniya mətbuatında çap olunmuşdur," (26) deyə sözünə yekun vurur.

Osmanlı İmperiyasına göndərilmiş Britaniya artilleriya zabiti olan kapitan Çarlz Norman 1895-ci ildə şahidi olduğu haqqında yazırdı. Kapitan qeyd edirdi ki, İngiltərə "Kiçik Asiyadakı narahatlıqların han-

sı anarxist hərəkat nəticəsində ortaya çıxdığını və onun da həmin hərəkatın şüursuz müdafiəçisinə çevrildiyini" hələ bundan sonra öyrənməlidir. "İndiyə qədər yazılmış saysız-hesabsız məqalələrin heç biri ermənilərin guya zəifliyin, türklərin isə qəddarlıq əjdahaları olması modelinin sübutunu axtardığını etiraf etməmişdir." Norman inanırdı ki, "sülh, həqiqət və ədalət naminə erməni inqilabçılarının məqsəd və vəzifələrini aşkara çıxarmaq" vacibdir. Kapitan Norman məlumat verirdi ki, "son beş ildə Anadoluda tökülmüş bütün qanlar üçün birbaşa məsuliyyət 'Hunçak' komitəsinin üzərinə düşür." O, qeyd edirdi ki, guya hadisələri müsəlmanların törətməsi haqqında erməni qara-qışqırığı sadəcə olaraq həqiqət deyil.

Britaniyalı kapitan Norman 19 noyabr 1895-ci ildə qəbul edilərək Adana regionunda yaşayan ermənilərə ünvanlanmış erməni manifestinə istinad edir. Orada yazılmışdı: "Ermənilər, döyüş üçün silahlanın! Gəlin qılınclarımızı sıyıraq və düşmən üstünə atılaq!" O deyirdi ki, Britaniya jurnalistləri "ermənilər tərəfindən ələ salınıb". Norman əlavə edirdi ki, "öz uşaqlarını Antaq Dağındakı (Sasun) qayadan atmaları və namuslarını qorumaq üçün onların arxasınca özlərini də atdıqları haqqında erməni analarının dedikləri tamamilə əfsanədir." Kapitan əhalinin içərisində ermənilərin sayı haqda sual verir və deyir ki, onlar "öz qurbanlarının sayını artırdıqları kimi hər şeyi şişirdirlər."

Ermənilərin qaldırdığı məsələləri qiymətləndirmək üçün Osmanlı hökuməti 1894-cü ildə Sasun Təhqiqat Komissiyası yaratdı. Müsəlman üzvləri ilə birlikdə komissiyada ingilis, fransız və ruslar da var idi. Komissiya belə bir qərara gəldi ki, bir-birinə hücum edən ermənilər də, türklər də eyni dərəcədə günahkardır. Buna baxmayaraq, Britaniya nümayəndəsi ayrıca hesabat hazırladı. O, qeyd edirdi ki, "ermənilərin türk əsgərləri tərəfindən kütləvi qırılması, xüsusilə erməni qadınlarının Qeliquzandakı kilsədə doğranması və Talaridəki qadın monastrının dağıdılması haqqında yaydığı xəbərlərin heç bir əsası yoxdur." (27)

30 sentyabr 1908-ci ildə Britaniyanın vitse-konsulu kapitan Dikson səfir Louterə məlumat yazmışdır: "Mənim öyrənə bildiyimə görə tabeliyimdə olan erməni qəddar, xəsis, yaltaq, prinsipsiz, yalançı və oğrudur; ona azadlıq verilərsə, bu pis keyfiyyətlərinin heç birini itirməyəcək, üstəlik sırtığa, yekəxanaya və despota çevriləcəkdir. Onda əclafcasına oğurluq itiliyi var, bu keyfiyyət bu ərazidəki savadsız adamlar arasında ağıllı təsir bağışlayır." (28)





Dikson həm də məlumat verirdi ki, Daşnak Cəmiyyətinin məqsəd və etirazları "absurd iddialar" üzərindədir və onlar Osmanlı, İran və rus torpaqlarının parçaları əsasında Ermənistan Respublikası qurmaq yolları axtarırlar. Daşnak Cəmiyyəti təklif edir ki, guya haçansa onların nəzarəti altında olmuş həmin ərazilərdə yaşayan erməni olmayanların hamısı köçürülməlidir. Dikson qeyd edirdi ki, Erməni Kilsəsi var qüvvəsi ilə bu məsələnin həllində daşnaklara kömək göstərir, onun din xadimləri ermənilərə cavan yaşlarında evlənməyi və böyük ailənin sahibi olmağı tövsiyə edirdilər ki, ermənilərin iddia etdikləri ərazilərdə yaşayan digər millətləri öz içində "uda bilsinlər". (29)

## ERMƏNİLƏRİN TORPAQLARI ƏCLAFCASINA ZƏBT ETMƏSİ NECƏ İŞLƏYİR

Bu günkü ermənilər etnik təmizləmə dərsini əsrlərin ayrıcında yaşamış sələflərindən öyrənmişlər. 1992-ci ildə Azərbaycana etdikləri xaincəsinə hücum nəticəsində ölkənin 20 faizini işğal edəndən sonra onların gördüyü ilk iş terrordan gen-bol istifadə edərək bir milyondan artıq müsəlmanı heç bir əvəz ödəmədən öz ev-eşiyindən qovmaq oldu.

Erməni terrorçuları iyirminci əsrin əvvəllərində başa düşdülər ki, özlərinin dənizdən dənizə diktator dövlətini yaratmaq üçün xarici xristian xalqlarının köməyindən istifadə etməlidirlər. Əsr başa çatandan az sonra Daşnak Cəmiyyəti öz adamlarını xristian millətlərin arasına göndərir, həmin vaxt artıq əlli yaşı olan "qədim" vətənlərini qurmaq üçün onlardan kömək istəyirdilər. Daşnaklar digər millətlər arasında yaşayan bu erməniləri "erməni koloniyaları" adlandırırdı. Məhz bu gün də həmin orijinal koloniyaların işi davam edir. Koloniyalarda yaşayanlar güclü siyasi lobbi qrupları yaratmışlar. Onlar Birləşmiş Ştatların və ya digər xristian ölkələrinin sakinləri, hətta o ölkələrdən birinin vətəndaşı olsalar da, öz "qədim" vətənlərinin ən böyük maraqları naminə fəaliyyət göstətrirlər.

İyirminci əsr başlanan kimi çoxsaylı erməni və xristian ölkələrində onların formalaşdırdığı ermənipərəst qüvvələr öz əlli yaşlı "qə-

dim" vətənlərinə kömək məqsədilə yaşadıqları dövlətlərə ardıcıl lobbi təzyiqi kampaniyaları aparmağa başladılar.

24 sentyabr 1908-ci ildə İngiltərədə Ambroz Hopkins erməni hərəkətləri haqqında Britaniyanın Xarici İşlər naziri ser Edvard Qreyə məlumat göndərdi. Hopkins Abenziçandakı Hai Stritdə yerləşən Baptist Kilsəsinin ümumi kütləvi iclasının qərarının surətini də öz məlumatına əlavə etmişdi. Qərarda belə bir təəssüf ifadə olunurdu ki, Avropa dövlətləri "əzabkeş" ermənilər üçün heç nə etməmişdir. Babtist Kilsəsi öz inamını ifadə edirdi ki, erməni problemi "Ermənistanı qəddar türklərin hakimiyyətindən və təsirindən ayırmaq" yolu ilə həll oluna bilər. (30)

Bu, xristianları müsəlmanların əleyhinə qaldırmaq yolunda ermənilərin başladığı oyunun əvvəli idi. Əlində heç bir həqiqi əsası olmayan ermənilər müsəlman kartını bütün dünyada oynadaraq xristian aləmini aldatmaq və bu üsulla başqa xalqların torpaqlarını müftəmüsəlləm ələ keçirmək istəyirdi. Bəs bu ermənilərin özləri hansı cür xristiandırlar? Özlərinin terrorçu fəaliyyətində əli olmadığını iddia edən və onları təqib etmək üçün türklərin heç bir əsası olmadığını söyləyən ermənilər düzmü danışırlar? Necə olur ki, cinayətlərdə əsas təqsirkar olan ermənilər türklərin cinayət törətdiyini iddia edirlər?



Terrorizmin vəsfində Erməni Kilsəsi çox fəal idi. Məsələn, bir Britaniya rəsmi hesabatında deyilir ki, erməni din xadimləri kütləyə müraciətlərində silahlar almağı tövsiyə edirdi. Hesabatda daha sonra deyilirdi ki, keşişlərin çağırışları açıq, ehtiyat hiss etmədən və haradasa "qəzəblə" edilirdi. Hesabatda belə bir sual verilirdi ki, Adana kilsəsində moizə oxuyan rus ermənisi 1895-ci ildə öldürülmüş hansı "şəhidlər" haqqında intiqama çağıra bilərdi ki, orada heç zaman ermənilərin qırılması baş verməmişdi? Keşiş (Mouşed) öz kürsüsündən "intiqama" səsləyirdi ki, "Ölümə ölüm! Silahlar alın! 1895-ci ildə öldürülmüş hər erməni üçün bir türk!"

Keşiş Mouşedin belə ənənəvi çağırışlarının birində bir amerikalı missioner də iştirak edirmiş. Amerikan ayağa qalxaraq kilsəni tərk etmişdir. Bu keşiş geniş bir ərazini gəzir və hər bir ermənini qiymətli nəyi vardısa satmağa, əvəzində silah almağa səsləyirdi. (31)

Əlbəttə intiqam hərəkətləri İsus Xrist tərəfindən heç vaxt öyrədilməmiş və ya qəbul edilməmişdir. Bəlkə də ermənilərin müsəlmanlara olan bu günkü hədsiz nifrətinin arxasında məhz Erməni Kilsəsinin intiqam doktrinası dayanır.



Mouşed Adanada erməni keşişi idi. Britaniya hesabatında deyilir ki, o, təhrikçi-qızışdırıcı çıxışlar edir, "silah gəzdirməyin təbliğatını aparırdı və onun erməni inqilabçı liderlərlə birlikdə hərbi geyimdə çəkdirdiyi şəkli də var idi". 4 may 1909-cu ildə Londona göndərdiyi hesabatda Britaniya səfiri məlumat verirdi ki, ermənilər tərəfindən zorakılıq hallarının çoxalmasında keşiş Mouşed böyük məsuliyyət daşımalıdır. (32)

Kozan əyalətindəki Erməni Kilsəsinin Adanadakı erməni qiyamlarında vacib rol oynaması haqqında mətbuatda informasiyalar vardır. Bu Erməni Kilsəsi üsyanları planlaşdıran və həyata keçirən terrorçuların qərargahı idi. Terrorçular kilsədən istifadə edir və üsyan əmrini almaq üçün kilsə xadimlərinin qərarını gözləyirdilər. (33)

1914-cü ildə I Dünya Müharibəsi qaçılmaz olanda erməni inqilabi fəalları Osmanlı İmperiyasının müharibəyə qoşulacağına ümid etdiklərindən yaxınlaşan konflikt üçün hazırlıqlarını intensivləşdirdilər. Eçmiadzinin katalikosu V Gevork bütün yay ərzində Qafqaz vəliəhdi qraf Vorontsov-Daşkova yazırdı ki, qarşıdakı müharibədən ermənilərin xeyrinə istifadə üçün cəhdlər göstərsin. Katalikos özünün "erməni məsələsi" adlandırdığı probelmin həlli üçün plan da təklif edirdi. "Hətta müsəlmanların böyük əksəriyyət təşkil etməsinə baxmayaraq, erməni dini lideri təklif edirdi ki, Anadoludakı "erməni əyalətləri" bir vahid əyalətə çevrilsin və həmin əyalətə rəhbərliyi rusların təyin etdiyi xristian qubernator həyata keçirsin. Katalikos lideri erməni muxtariyyəti üçün həm də xeyli imtiyazlar xahiş edirdi. Əgər Rusiya bu planla razılaşacaqdısa, onda din xadimi Osmanlı İmperiyası ilə döyüşlərdə ermənilərin ruslara qeyd-şərtsiz kömək göstərəcəyini vəd edirdi.



Vəliəhdə göndərdiyi məktuba əlavə olaraq katalikos çar II Nikolaya da birbaşa məktub göndərərək öz planını təklif edirdi. Çar belə bir cavab yazmışdı ki, "Müqəddəs Ata, öz təbəələrinizə deyin ki,erməniləri əla gələcək gözləyir." (34)

Deməyə ehtiyac yoxdur ki, ruslar ermənilərin iddia etdikləri Osmanlı torpaqlarını heç vaxt onlara vermək fikrində olmamışdır. Sa-

dəlövh erməni daşnakları isə ruslarla iş birliyi qurmaq cəhdlərinə davam edirdilər. Britaniya xarici işlər nazirliyindən olan R.MakDouell məlumat verirdi ki, müharibə başlananda rus liderləri erməni terrorçularından geniş istifadə etdilər. MakDouell qeyd edirdi ki, ruslar "Daşnak Cəmiyyətindən Türkiyədəki məxfi xidmət məqsədilə səmərəli istifadə edirdilər; eyni zamanda Kiçik Asiyadakı türklərə qarşı çıxmaq və narahatlıq yaratmaq üçün ermənilərdən istifadə olunurdu." (35)

Erməni Kilsəsinin terrorçu diktator olan Erməni İnqilabi Federasiyası ilə müştərək işləməsi haqqında saysız-hesabsız nümunələrdən yalnız biri budur. Kilsə ilə terrorçu siyasi hərəkatın iyirminci əsrin lap əvvəllərində birləşməsi bu gün də davam edir.

Erməni Milli Bürosunun prezidenti Aleksandr Xatisyan çara məktub yazaraq şərqi Anadoludakı əksəri müsəlman olan əraziyə nəzarətin ermənilərə verilməsi planını dəstəkləməyi xahiş etdi. "Ermənilər bütün ölkələrdən bura tələsərək möhtəşəm rus ordusu sıralarına can atırlar ki, rus silahlı qüvvələrinin qələbəsinə öz qanları ilə xidmət payı versinlər... qoy rus bayrağı Dardanel və Bosfor üzərində azad qanad açsın... qoy xristian dininə görə əzab çəkmiş Türkiyə erməniləri Rusiyanın müdafiəsi altında yeni həyat üçün dirilik tapsınlar," (36) yazanda o, xristian-müsəlman qarşıdurması kartı ilə məharətlə oynayırdı.



I Dünya Müharibəsi başlayanda Londondakı Erməni Vətənpərvər Assosiasiyasının başçısı Qaraket Hakopyan Britaniyanın Xarici İşlər naziri ser Edvard Qreyə məktub göndərmişdi. Hakopyan qeyd edirdi ki, müharibə başlanandan erməni xalqı sakitcə oturaraq ideal tamaşaçı kimi müşahidə etmir, o, "öz kilsələrində apardıqları xüsusi dua mərasimlərində torpaqlaprına və Britaniya İmperiyasının dəniz qüvvələrinə uğur diləyir". (37) Ermənilər üçün tipik olan xislətə görə, onlar öz məqsədləri naminə hər bir Avropa ölkəsi ilə iş birliyi qurmağa səy göstərirdilər.

Rusların yaxından köməkliyi ilə ermənilər şərqi Ermənistanda təşkilatlanmağa başladılar. Ermənilər özlərini türklərə dost kimi göstərir, Osmanlı hökumətinin qanunlarına tabe olduqlarını nümayiş etdirir, lakin eyni zamanda təmas xətti boyunca Osmanlı ordusuna xaincəsinə hücumlar üçün planlar cızırdılar. Ermənilər Van, Bitlis, Ərzrum, Qarahisar, Sivas, Kayseri və Diyarbəkri nişan almışdılar. Onlar bu ərazilərə silah gətirir və onları öz kilsə və məktəblərində gizləyirdilər. Bundan sonra əsasən Osmanlı ordusundan qaçmış fərarilərdən ibarət olan erməni başkəsənləri silahsız müsəlman kəndlilərinə hücum edərək onları öldürməyə başladılar.



Şərqi Anadoluda get-gedə artan erməni vur-və-qaç hücumlarından sonra nəhayət Osmanlı ordusunun komandanlığı başa düşdü ki, ermənilər yaxşı təşkil olunmuş üsyanı həyata keçirirlər. Osmanlı ordusunun zabitləri düz başa düşmüşdü.

1915-ci il fevralın ortalarında Erməni Daşnak terrorçu təşkilatı otuz nəfər üzvü olan müharibə qərargahı yaratdı. Bu terrorçu müharibə komandanlığına Qarahisardakı erməni kilsəsinin keşişi başçılıq edirdi. Fevralın 20-də Osmanlı hərbi birləşməsi erməni din xadimlərinin Arak Monastrında gizlədib bəslədiyi terrorçular tərəfindən hücuma məruz qaldı. (38)

Osmanlı hökumətini silah gücünə yıxmağa cəhd etmək üçün ermənilər ruslarla birləşdilər. Məlumdur ki, ermənilər öz terrorçu hücumlarını Osmanlıların döyüş xətlərinin arxasında həyata keçirir və həmin hücumlar Osmanlı ordusunun müdafiə qüdrətinə və təchizatına ciddi zərbə vururdu.



## GENOSİD NAĞILINI BİRİNCİ DƏFƏ KİM FİKİRLƏŞİB VƏ DANIŞIB?

Ermənilərin vur-və-qaç hücumlarına son qoymaq üçün Osmanlı hökuməti kömək məqsədi ilə Erməni Kilsəsinə müraciət etdi. Osmanlı hökumətinin "erməni satqınlığı" adlandırdığı hücumları dayandırmaq məqsədi ilə hökumət Erməni Kilsəsinin patriarxı ilə görüşmək təşəbbüsü qaldırdı. Hökumət patriarxa dedi ki, əgər ermənilər onların ordusunun arxasında həyata keçirdikləri terrorçu hücumları dayandırmasa, ruslarla döyüşlərdə türk ordusunun döyüş imkanlarını məhdudlaşdıran bu satqınlığa görə türk hökuməti qəti addımlar atmalı olacaqdır. Erməni patriarxı və erməni liderləri bu xahişi zəiflik əlaməti kimi qiymətləndirdi və Osmanlı döyüş xətlərinin arxasında hərbi hücumlarını daha da artırdı. (39)

12 may 1915-ci ildə Qahirədəki Britaniya ali komissioneri ser

Henri MakHalon Londondakı Xarici İşlər Nazirliyinə məxfi məktub göndərdi. Ali komissioner məlumat verirdi ki, ermənilər türk ordusu üçün geniş miqyaslı problemlər yaradır. (40)

24 aprel 1915-ci ildə Osmanlı hökuməti əksərinin ruslara köməklik etdiyi strateji məntəqələrdən erməniləri köçürmək haqqında qərar qəbul etdi. Erməni qiyamçılar və onların partizan birləşmələri bu qərardan sonra hərəkətə gəldi. 26 may 1915-ci ildə Osmanlı hökuməti Anadolunun şərq əyalətlərində yaşayan ermənilərin köçürülməsi üçün Daxili İşlər Nazirliyinə göstəriş verdi. Yeni qiyamlar və partizan hərəkatlarına yol verməmək üçün onlar döyüş ərazilərindən uzağa göndərilməli idi. (41)

Qeyd edim ki, bəzi türklərin ermənilərdən şəxsi əvəz çıxmaq halları olmuş və xoşagəlməz hadisələr baş vermişdir. Məsələ burasındadır ki, Osmanlı hökumətinin sonralar cinayət işləri qaldırması və ermənilərə qarşı əməllərinə görə 1397 türkü həbs etməsi haqqında tutarlı sənədlər vardır. Əgər Osmanlı hökuməti ermənilərə qarşı özbaşınalığa yol verdikləri üçün özünün 1397 vətəndaşına qarşı cinayət işi qaldırırsa, onda Osmanlı hökuməti genosiddə necə günahlandırıla bilər?

I Dünya Müharibəsinin sonunda ermənilər Osmanlı hökumətinə qarşı öz gülünc tələblərini Paris Sülh Konfransının müzakirəsinə təqdim etdilər. Lakin qalib Müttəfiqlər ermənilərə heç nə vermədi. İndi isə, üstündən az qala doxsan il keçəndən sonra ermənilər yenə də öz keçmiş nimdaş nağıllarını söyləyir və türk hökumətindən vətənə qayıtmaq, zərərin ödənməsi, günahların etirafı, üzrxahlıq edilməsi tələblərini davam etdirirlər.

Qeyri-erməni və qeyri-türk mənbələrinə istinad edən faktlar açıq göstərir ki, ermənilər hələ də vətənə qayıtmaq iddialarına son qoymamışdır. Ermənistan, məsələn Birləşmiş Ştatlar kimi xarici dövləti axtarmaqda davam etmişdir; təkcə ona görə yox ki, milyardlarla dollar dilənçi payı alsın, həm də onun təsirindən istifadə edərək Türkiyədən nəsə qoparsın.

Bu ermənilər müsəlman dünyasında Birləşmiş Ştatları əziz dost kimi qiymətləndirirlər. Erməni hökuməti, Erməni Kilsəsi və Birləşmiş Ştatlardakı erməni-amerikan koloniyası kobud səhv etdikləri üçün amerikanların müdafiəsinə layiq deyillər. Ermənilərin etnik təmizlə-





mə apardığı və qonşunun torpaqlarını qamarladığı vaxt müsəlmanların əleyhinə iş aparan erməni xislətli xristianlara amerikanlar onların layiq olmadıqları rahatlığı yarada bilməz.

Doxsan ildən artıqdır ki, Birləşmiş Ştatlar öz yaxşı pulunu pis qüvvələrə verə-verə bu balaca ölkəni saxlayır! Ermənilər isə 1992-ci ildə Azərbaycan torpaqlarını işğal edəndən sonra rusları öz ölkəsinə dəvət etdi ki, rus qoşunlarını bu ölkədə yerləşdirsinlər. Bu gün Ermənistanda rusların MİQ qırıcı təyyarələri yerləşdirilib. Bu gün Ermənistanda rusların xeyli sayda yer-səma raket batereyaları vardır. Qoy ruslar bu xalqı müdafiə etsinlər!

Orada *genosid olmuşdumu? Türklərin dostu olmayan Britaniya* dövləti bir vaxtlar belə düşünmürdü. Ermənilərin genosid hadisəsinin baş verdiyini iddia etdikləri Şərq Departamenti konsulluğunun zabiti U.S.Edmonds 16 yanvar 1920-ci ildə Xarici İşlər Nazirliyinin qısa sənədini hazırlamışdı. Orada qeyd edilirdi ki, "burada genosid hadisəsinin baş verməsi faktını yaxın büraxmaq üçün kifayət qədər material yoxdur." Şərq Departamentinin əməkdaşı Duayt Osborn yazırdı ki, "əksinə, Osmanlı Daxili İşlər nazirinin verdiyi əmrin son paraqrafında kütləvi qırğına oxşar hərəkətlərdən ötrü xüsusi ölçülər götürüləcəyi haqda xəbərdarlıq edilir." (42)

Bu Britaniya hesabatına nəzər salın: 1915-ci ildə şərqi Anadoluda Rusiya, Böyük Britaniya və Birləşmiş Ştatların xeyli əməkdaşı var idi. Onlar ermənilərin soyqırımı haqqında Osmanlı hökumətinin guya qərar verməsi ilə bağlı heç bir sübuta rast gəlməmişdir. Bu cür dəhşətlərin baş verməsi haqqında ruslara, ingilislərə və amerikanlara ilk məlumat Eçmiadzin katalikosu tərəfindən verilmişdir. Onun türklərə nifrət, ruslara isə kömək etməsi haqqında heç bir şübhə ola bilməz.

Eçmiadzinin Erməni Kilsəsindəki mühüm roluna nəzər salın. Bu onların "müqəddəs şəhəri" adını daşıyır. Ermənilərin guya yer üzünün ilk xristianları olmasının 1700 illik yubileyi bu şəhərdə keçirilmişdir. Erməni Kilsəsinin internetdəki saytında qeyd edilir ki, "Eçmiadzin Müqəddəs Ana Kilsəsi eramızın 303-cü ilində yaradılmışdır. Bu yer Müqəddəs İşıqlı Georginin görünməsindən sonra seçilmişdir. O, bəyan etimşdi ki, İisusun göylərdən indi Eçmiadzin adlandırılan bu müqəddəs yerə endiyini görmüşdür; Allahın əvəzinə endiyini; və ya Allahın yeganə Oğlunun endiyini. Türklərin erməniləri guya soy-

qırım etməsi haqqında iddia edilən hadisələrdən çox-çox həftə qabaq ermənilərin bu baş məbədində həmin hadisələrin artıq baş verməsi haqqında nağıllar uydurulmuşdu. Sübutu və baş keşişin cədvəlini yoxlayın:

Bu tarixi fakta nəzər salın: Osmanlı hökuməti ermənilərin köçürülməsi haqqında qərarı 24 aprel 1915-ci ildə İstanbulda çıxarmışdır. Üç gün sonra, şərqi Anadoludakı ermənilərin köçürülməsinə *hələ başlanmamış* Eçmiadzin katalikosu Rüsiya hökumətinə məlumut vermişdir ki, Osmanlı dövləti ermənilərin soyqırımını aparır. Soyqırım necə baş verə bilərdi ki, hələ hökumət köçürülmə əməliyyatına başlamamış və bircə nəfər erməni belə evindən köçmək üçün yır-yığış etməmişdi?

Rusiyanın Romadakı və Vaşinqtondakı səfirlərinə "Erməni etirazı"nı dəstəkləmək əmri verilmişdi. Ruslar düşünürdü ki, genişmiqyaslı səylər nəticəsində Amerika dövlətində və ictimaiyyətində formalaşan fikir bu ölkəni Almaniya və Osmanlı İmperiyasının əleyhinə müharibəyə qoşulmağa vadar edəcəkdir. "Böyük yalan" kampaniyası başlayandan bircə ay sonra İtaliya müharibəyə qoşuldu, lakin Birləşmiş Ştatların yalnız Almaniya əleyhinə müharibəyə qoşulması isə hələ iki il sonra baş tutacaqdı.



Həmin o üzdəniraq 27 aprel günündə Rusiyanın Londondakı səfiri belə bir təkliflə çıxış etdi ki, Rusiya, Britaniya və Fransa hökumətləri Osmanlı hökumətinə etiraz notası ünvanlayaraq türk rəsmi dairələrinin "genosid"də cavabdeh olduqlarını bəyan etsinlər.

Britaniya Xarici İşlər Nazirliyindən olan Corc T.Klerk Rusiyanın bu xahişinə öz narahatlığını bildirmişdir. O öz şübhələrini ifadə edərək yazırdı ki, "Burada təklif olunan məsələ kimi problemlər haqqında ölçü götürməzdən qabaq biz ortaya buraxılmış bü soyqırım söhbətlərinin reallığını yoxlasaydıq yaxşı olardı. Məhz buna görə də, mən düşünürəm ki, biz Romadakı və Vaşinqtondakı səfirlərimizə təlimat verməliyik ki, onlar İtaliya və Birləşmiş Ştatlar hökumətlərinin erməni katalikosunun təklifini məqbul hesab edib-etmədiklərini öyrənərək öz rus həmkarlarını dəstəkləsinlər. Belə olan təqdirdə biz, burada təklif olunduğu kimi, Osmanlı hökumətinə nota hazırlayarıq." (43) İki gün sonra, 29 aprel 1915-ci ildə Londondakı Britaniya Xarici İşlər Nazirliyi bu ölkənin Vaşinqtondakı səfiri ser Sesil Sprinq-Raysa aşağıdakı təlimatı göndərdi: "Əgər sizin akkreditə olunduğunuz ölkə (Birləşmiş Ştatlar) onların müdaxiləsi haqqında hadisələri katalikosun bəyan etdiyi kimi qəbul edərsə, onda siz öz rus həmkarlarınızı dəstəkləyə bilərsiniz." (44)



Britaniya hökuməti eyni təlimatları özünün Romadakı və Rusiyadakı səfirlərinə də göndərdi. Londondakı Xarici İşlər Nazirliyi özünün Rusiyadakı səfiri ser Corc Buçanana həm də məlumat verirdi ki, rus xarici işlər naziri üç ölkənin – Rusiya, Fransa və İngiltərənin – "ermənilərin soyqırımı haqqında deyilənlərlə" əlaqədar olaraq Osmanlı dövlətinə birgə etiraz notası göndərməsini arzu edir. Xarici İşlər Nazirliyi səfir Buçanana tövsiyə edirdi ki, "bu addımı atmazdan qabaq düşünürəm yaxşı olardı ki, siz Konstantinopola intervensiya haqqında erməni katalikosunun şikayətinə Birləşmiş Ştatlar və İtaliya dövlətlərinin reaksiyasının nəticəsini gözləsəydiniz daha yaxşı olardı." (45)

1915-ci il mayın 15-də Britaniyanın Rusiyadakı səfiri öz Xarici İşlər naziri Qreyə məlumat verdi: Rusiya Xarici İşlər naziri Müttəfiqlərin Osmanlı hökumətinə belə bir xəbərdarlıq etməlidir ki, onun başçıları müharibənin sonunda "hər hansı erməni soyqırımı üçün" məsuliyyət daşıyacaqdır. Rus naziri həm də üç müttəfiq dövlətin bu məsələ ilə bağlı razılaşdırılmış müəyyən bir gündə birgə bəyanat verməsini təklif etmişdi. Xristian ermənilərinin müdafiəsi istiqamətində həmin üç xristian ölkənin imzalayıb çap edəcəyi bəyanat üçün Rusiya Xarici İşlər naziri aşağıdakı formanı da təklif etmişdi: "Türkiyənin xristianlıq və sivilizasiya əleyhinə törətdiyi bu təzə cinayət hadisələri ilə əlaqədar olaraq Müttəfiq dövlətlər Türk Sultanlığına açıq-aşkar bəyan edir ki, Osmanlı hökumətinin bütün üzvləri və onların bu işlə bağlı olan bütün əməkdaşları erməni soyqırımlarına görə şəxsi cavabdehlik daşıyırlar." (46)



23 may 1915-ci ildə Osmanlı hökuməti ermənilərin köçürülməsi və hara göndəriləcəkləri haqqında ilk yerdəyişmə əmrini 4-cü Ordu Komandanlağına göndərdi. (47) Ermənilərin konkret köçürülməsinə başlanması isə hələ vaxt aparacaqdı.

24 may 1915-ci ildə Müttəfiqlər belə bir bəyanat verərək Osmanlı dövlətini xəbərdar etdilər ki, o, "erməni soyqırımı" üçün məsuliyyət daşıyır. *Osmanlı hökuməti müttəfiq dövlətlərin hay-küyünə dərhal öz* etirazını bildirdi.

Yalnız mayın 30-da Osmanlı Nazirlər Kabineti şərqi Anadoludakı Osmanlı qoşunlarının döyüş xətlərinin arxasında yaşayan ermənilərin köçürülməsi haqqında qərarı təsdiq etdi – bu, müttəfiq Rusiya, İngiltərə və Fransanın "erməni soyqırımı" ilə bağlı türklərin cavabdehliyi haqqında verdikləri bəyanatdan altı gün *sonra* baş vermişdi; hələ köçürülmə əməliyyatı başlanmazdan qabaq olmayan soyqırım haqqında hay-küy qaldırılmışdı!

Ermənilərin köçürülməsi haqqında hələ əmr verilməzdən neçə həftə qabaq xarici dövlətlərin fəaliyyətini əslində erməni din xadimi başlamışdır. Bu "soyqırım" damğası heç bir əsası və faktı olmayan erməni keşişinin təmiz uydurmasıdır. Bu, alman faşistlərinin və rus kommunistlərinin liderlərini məşhur etmiş "böyük yalan" kimi bir şey idi. Almanların, rusların və ermənilərin arasında olan yeganə fərq isə ermənilərin solğun simalı cumbulu bir bandasının hədsiz həyasızlığından başqa bir şey deyildi.

Ermənilər Osmanlı İmperiyasına xəyanət edirdilər. I Dünya Müharibəsi başa çatandan sonra Ermənistan torpaq qamarlamaq cəhdi ilə qonşu Gürcüstana qəfil hücuma keçdi və məğlub oldu. Sonra Ermənistan digər qonşusu olan Azərbaycandan torpaq qamarlamaq üçün ora hücum etdi və yenə uduzdu. Bundan sonra isə yeni torpaq qamarlamaq iştahı ilə Ermənistan Türkiyə üzərinə hücum üçün hazırlıq görməyə başladı. Bu dəfə türklər hazır idilər və ilk olaraq özləri ermənilərə hücum etdilər. *Ermənilər yenə məğlub oldular*, çünki onların əsgərləri silahlarını atıb qaçırdılar. Ermənilər silah üçün Britaniyaya yalvarır, özlərini qorumaq üçün ondan və Rusiyadan kömək diləyirdilər. Lakin həmin silah-sursatı alan kimi onlar ruslarla məxfi əlaqəyə girərək Sovet İttifaqına birləşdilər.

Soyuq Müharibə başa çatanda Ermənistanın ruslardan bir milyard dollarlıq hərbi sursat və digər ləvazimatı peşkəş alması haqqında xəbərlər üzə çıxdı. *Sonra isə ermənilər qonşu Azərbaycan üzərinə daha bir hücuma başladılar.* Bu dəfə Ermənistan Azərbaycan ərazisinin 20 faizini işğal edərək bir milyondan artıq müsəlmanı öz ev-eşiyindən qaçmağa məcbur etdi. İndi isə Ermənistan öz ərazisində hərbi bazalar yerləşdirmək üçün Rusiyanı öz ölkəsinə dəvət etdi. Həmin rus hərbi bazaları bu gün də oradadır və onlar rus əsgərləri ilə komplektləşdirilmişdir.





Görün 15 iyul 1915-ci ildə ermənilərin katalikosu V Gevork nə etmişdi. Bu yüksək rütbəli din xadimi Poğos Noubara məktub yazmış, o da öz növbəsində Britaniya Xarici İşlər naziri ser Artur Nikolsonla əlaqə yaratmışdı. Yüksək rütbəli din xadimi Müttəfiqlərin "müxtar və bitərəf Ermənistan" yaratmasını istəyirdi. Yeni Ermənistan dövləti Türkiyə və Kilikiyanın altı şərq əyalətində yaradılası idi. Din xadimi ticarət əlaqələri qurmaq üçün Mərsin vasitəsilə dənizə çıxmiaq üçün dəhliz də istəyirdi.

Naubar Paşa güman edirdi ki, bunun xüsusilə İngiltərə üçün həm siyasi, həm də iqtisadi üstünlükləri olacaq, çünki Hindistana marşrutunun üstündə Britaniya "yenicə yaradılmış Ermənistanın loyal münasibəti ilə üzləşəcəkdir". Noubar güman edirdi ki, "bu yeni Ermənistan təkcə Rusiyanın deyil, həm də hər üç Müttəfiq Dövlətin qəyyumluğu altında olmalıdır." (48)

Bütün bunlar ruslara çox fəal kömək edən ermənilərin Erməni Kilsəsinin iddia etdiyi Osmanlıların altı əyalətindən köçürülməsinə başlandığı vaxtdan keçən iki ay ərzində baş vermişdir. Erməni köçkünlərinin taleyi Erməni Kilsəsini qətiyyən maraqlandırmırdı – kilsə yalnız Müttəfiqlərlə dialoqa girərək həmin torpaqlarda ermənilərin öz ölkəsini yaratmasını düşünürdü. Bu münasibət erməni liderlərinin məqsədini sübut edir və həm də göstərir ki, erməni din xadiminin iddia etdiyinin əksinə olaraq aprel ayında heç bir türk soyqırım aparmamışdır.

22 iyul 1915-ci ildə Misirin Qahirə şəhərindəki Erməni Milli Müdafiə Komitəsinin liderləri Britaniya general-leytenantı ser Con Məksuell ilə görüşərək şərqi Anadoludakı ermənilərə kömək göstərməsini ondan xahiş etdilər. Onlar generala bəyan etdilər ki, Birləşmiş Ştatlardakı və digər yerlərdəki "erməni koloniyaları" onların milli inqilabi komitəsinin rəhbərliyi altında könüllülər yığmaq hərəkatını yaxşı aparırlar. (49)

1915-ci ilin iyulunda Erməni Kilsəsinin patriarxı Avropanın bütün xristian millətlərinə teleqramlar göndərərək şərqi Anadoluda ermənilərin üzləşdiyi dəhşətli vəziyyətdən, onların şərqi Anadolu torpaqlarından köçürülməsindən söz açırdı. Əlbəttə, patriarx Osmanlıların ona öz kilsə xadimləri vasitəsilə regionda terrorçu fəaliyyəti dayandırmaqda kömək üçün müraciət etməsi və sülh yaratmaq naminə qanuni hökumətin xahişinə etiraz etməsini heç vaxt dilə gətirmirdi.

Britaniya bu "xristian" məktubunu türklərin əleyhinə daha çox iş aparmaq üçün ictimai əlaqə imkanı qazanmaq kimi qəbul etdi. Xarici İşlər Nazirliyinə cavabdeh olan dövlət rəsmisi lord Robert Sesil düşündü ki, erməni mətbuatı patriarxın məktubu haqqında bilsə yaxşıdır. O, məktubun surətini Vaşinqtondakı İngiltərə səfirliyinə göndərdi. R.Sesil güman edirdi ki, səfir həmin məktubu "etibarlı əllərə ötürəcək". Lord Sesil hesab edirdı ki, "biz bütün istənilənlərin yerinə yetiriləcəyinə təminat verə bilmərik". (50)

9 dekabr 1915-ci ildə Erməni Kilsəsinin patriarxı Hindistanda saxlanan 250 erməni müharibə əsirinin könüllü çağırışçı kimi Fransa Xarici Legionuna qoşularaq təlimlər üçün Kiprə göndərilməsi təklifini irəli sürdü. Patriarx tərəfindən könüllü adlandırılan bu erməni-fransız xarici legionunun bu hissəsi "müqəddəs terror"la şərqi Anadoluda yaşayan günahsız müsəlmanların məhvində iştirak edəcəkdi. Müharibə ərzində və müharibədən sonra mülki vətəndaşların boğazlarının daha qəddarlıqla kəsilməsini bu ermənilərdən başqa heç bir qoşun etməyəcəkdi.



Erməni Kilsəsi patriarxının könüllü adlandırdığı bu erməniləri fransızlar hazırlamışdı. Müharibədən sonra fransızlar türklərə kəskin qaydalar tətbiq edərkən fransız legionundakı ermənilərdən təzyiq kimi istifadə etdilər. C.H.S.Dessez ABŞ-ın Dəniz Donanmasının *U.S.S. Smit Tompson* birləşməsinə komandirlik edən zabit idi. 3 may 1920-ci ildə o öz komandiri olan admiral Mark Bristol (ABŞ Dövlət Departamentinin 866.00/1288 saylı arxiv materialı) cənabına məlumat verirdi ki, Amerika missionerləri problemlər yaradırlar. O, həmin missionerlərdən birini belə təsvir edirdi: "Doktor Nikolas çox təhlükəli adamdır və əgər ona sərbəstlik verilərsə, işə çox ciddi ziyan vura bilər. Zahirən o özünü dini fanatik kimi apararaq Birləşmiş Ştatların ictimai fikrinə təsir göstərmək üçün türklər və ermənilər arasında nəsə sensasiyalı bir yer tutmaq istəyir. O, mənə daha çox ermənilərlə türklər arasında döyüşü qızışdıran adam təsiri bağışladı..."

Admiral Bristol öz növbəsində həmin məlumatı Vaşinqtondakı Dövlət Departamentinə göndərdi. Admiral əlavə etmişdi ki, "bu məlumatda Doktor Nikolasa aid olunan iradlara xüsusi diqqət yetirin. O, Suriya və Kilikiya arasındakı ərazidə Yaxın Şərq Azadlığı təşkilatında fəaliyyət göstərir. Türkiyədə məsələnin bu cəhətinə əhəmiyyət verən amerikalı isə azdır."



Türk polisi müxtəlif yerlərdəki Amerika missioner mərkəzlərində gizlədilmiş silah-sursatla yanaşı anti-müsəlman təbliğatı xarakterli çap işləri də aşkara çıxarmış və bunu 25 may 1921-ci il tarixli polis məlumatında qeyd etmişdir.

General Hamelin erməni legionerlərinin fransız qoşunları ilə əvəz olunmasını xahiş etdi. Ermənilər hara gedirdilərsə orada mülki əhalini vahiməyə salır, müsəlmanları öldürür, zorlayır və çapıb-talayırdı.

Kilikiyadakı Britaniya zabitləri ermənilərin heç bir intizama riayət etməməsindən və hətta öz zabitlərinin əmrlərinə tabe olmamasından şikayətlənirdilər. Bəzi hallarda bu ermənilər özlərini fransız kimi qələmə verirdilər.

Admiral Bristol öz mənbələrinin ona belə bir məsləhəti haqqında məlumat verirdi ki, "Kilikiyadakı bütün qətllər türkləri vəhşi müstəmləkəçi hesab edən fransızların davranışının nəticəsində və erməniləri silahlandıran və müdafiə edən fransızların səhvi nəticəsində baş verir." (Bu informasiya Stənford Məxəzindən götürülmüşdür; İmperiyadan Respublikaya, VII cild, s. 882, Ankara)



1917-ci ildə bolşevik inqilabı baş verəndən sonra Osmanlı İmperiyasında vuruşan rus qoşunları az müddətdə pərən-pərən düşərək öz vətəninə qayıtdılar. Türk ərazilərini işğal etmiş ermənilər də ruslar vasitəsilə oradan köçürüldülər.

Ermənilər həmin torpaqlardan gedəndən bir neçə ay sonra Britaniya ordusunun mayoru E.U.S.Noel o ərazini təftiş etmişdir. O, nələrin şahidi olduğu haqqında Britaniya hökumətinə rəsmi hesabat göndərmişdir: "Bu aylar ərzində rus ordusunun və onları müşaiyət edən intiqamçı xristian-erməni ordusunun 1916-cı ilin yaz və yayında işğal etdiyi, sonra isə viran qoyduğu ərazilərə səfərlərimin nəticəsi kimi. Heç bir tərəddüd keçirmədən deyə bilərəm ki, türklər öz düşmənlərinə qarşı həmin düşmənlərin etdiklərini edə bilməzlər. Yerli sakinlərin və şahidlərin az qala eyni cür səslənən fikirlərinə görə, ruslar yalnız ermənilərin qızışdırması və təhrikinə əsasən hərəkət edirdilər. Ermənilər əllərinə keçən hər bir müsəlman mülki sakinə qarşı qətl və qırğın diskrinimasiyası işində ruslara kömək edirdilər. Rouvandüz və Nell kəndlərindən keçən hər hansı bir səyyah oranın hər qarışında müsəlmanların başına xristianların açdığı qəddar cinayətlərin hər yana yayılmış izlərinə rast gələr." (51)

Ermənilər bu ərazini ələ keçirmək üçün bu tərəflərdə böyük əksəriyyət təşkil edən müsəlmanlara qarşı qətl, pozuculuq və zorlama kampaniyasına dərhal başlamışlar. Ermənilər inanırdılar ki, bu ərazilərdə heç bir müsəlman olmayandan sonra həmin müsəlman torpaqlarında müstəqil erməni dövləti yaratmaq üçün bu vəhşiliklər onlara kömək edəcəkdir. Terror kampaniyası aparmağın səbəbi bu idi və həmin siyasət bu gün Azərbaycanda da davam etdirilir. Öz millətçi hərəkatlarına başlayandan bəri terror və qəddarlıq ermənilərin rəsmi siyasəti olmuşdur!

Erməni-rus müəllifi bu zaman haqqında yazmışdır ki, erməni liderləri bu kampaniyanı heç də öz xalqı üçün ölkə təsis etmək məqsədi ilə aparmırdılar, onlar daha çox bu regionda yaşayan müsəlmanları "qırıb qurtarmaq" və müsəlmanların əmlakını oğurlamaq və talamaq məqsədi güdürdülər. (52)

Amerika generalı Harbord məlumat verirdi ki, "harada ki, ermənilər ruslarla birlikdə irəli gedir və ya geri çəkilirdi orada onların qəddarlığı qeyd-şərtsiz şəkildə türklərə qarşı çevrilirdi." (53)

Bir Britaniya polkovniki məlumat verirdi ki, ermənilər "Van və Bitlis kəndlərində 300,000-dən 400,000-dək müsəlman kürdünü məhv etmişdir." (54)

21 fevral 1918-ci ildə hazırlanmış Britaniya Xarici İşlər Nazirliyinin hesabatında deyilirdi: "Mənə elə gəlir ki, ermənilərin soyqırım törətdiyi şübhəsizdir. Bu barədə polkovnik Payn CİTS-ə məlumat vermişdir və bu dübbədüzdür. Güman ki, bu məsələyə lazımi diqqət yetirilməmişdir." (55)

Sonra, 20 mart 1918-ci ildə Britaniyanın Misir Ekspeditsiya Qüvvələri Baş Qərargahının briqada-generalı F.Klayton xarici işlər ofisinə özünün "təbliğat materialı" adlandırdığı, Betlehemdəki Ourtass Monastrının keşişindən aldığı bir xəbəri göndərdi. Keşiş "türk soyqırımı" təbliğatını yayırdı. Xarici İşlər Nazirliyindən olan Uilyam Yanq yazırdı: "Əmin ola bilərsiniz ki, biz daha heç bir erməni təbliğatını istəmirik." S.Qeyzli Arnold Toynbidən nə düşündüyünü soruşdu. Toynbi cavab verdi: "Son döyüşlərdə ermənilər soyqırım törətdiyi üçün məqam münasib deyil." (56)

Mark Sayks 1915-ci ildə *Çalefin son irsi* ("The Chaleph's Last Heritage") adlı kitab yazmışdı. O, qeyd edirdi: "Ermənilərin milli dir-





çəlişi hələ fəlakət həddinə çatmamış qəzadır. Hər hansı bir ciddi hadisə baş verməzdən qabaq bütün keşişlər və missionerlər qapısı kilidlənmiş yerlərdə saxlanmalıdır." (57)

Sayks müşahitdə etmişdi ki, ümumən erməni gəncləri "inamsızlıq hissi ilə" zəhərlənir və "onların çəkdikləri müəyyən mənada şikar kimi küncə qısıldılaraq şübhə və qəhrəmanlıq kimi qəribə təkliflərin altında çabalayan adamların halına bənzəyir... Erməni xarakterinin əsas qayəsi öz din qardaşlarında və qonşularında inamsızlıq yaratmaq olmuşdur. " (58)

Ser Mark Sayks ermənilərlə bağlı öz düşüncə və müşahidələrini bölüşməkdə davam edirdi: "Ermənilər böyük məmnuniyyətlə qiyamçıları gizlədəcək, onlara qonaqpərvərlik göstərəcək və onların sonunun çatmasını ləngidəcəkdir. Bu millətin özəllikləri çoxlu qəribəliklər yaratmış və erməniləri missionerlərə, İisusa, konsullara və avropalı səyyahlara nifrət dolu və ehtiram olmayan ibadətə məcbur etmişdir. Kasıb ermənilər uca və gur səslə səndən kömək istəyər, lakin nadir hallarda kömək üçün təşəkkür edər. Konsulluq zabitlərinin və missionerlərin təhqir olunması erməni mətbuatının arsenal ehtiyatlarının yalnız bir hissəsidir.

"Ermənilərin bir millət kimi əbədi bədbəxtliyə məhkum olması fikri mənə təbii görünür, çünki onların bədbəxtliklərinin bir hissəsi ona görə azalmır ki, onlar səfeh, köçəri, xəstə xislətli despotizm şəraitində yaşayırlar, əksinə, onların özlərinin bir-birinə olan münasibətindən daha da artır. Bir qədər əvvəl Vanda olmuş aclıq vaxtı erməni tacirləri qiymətli taxılı gizlətməyə cəhd etmişdi; erməni inqilabçıları düşmənlərlə döyüşə girən öz legionerlərinin əmlakını çapıb-talayırlar; Konstantinopoldakı anarxistlər soyqırım görüntüsü yaratmaq məqsədi ilə öz millətindən olanların evlərinə qumbaralar atırlar. Erməni kəndləri müxtəlif cəbhələrə bölünüb; inqilabçı cəmiyyətlər bir-biri ilə didişir; dindarlar yepiskopun öldürülməsinə barmaqarası baxırlar; kilsə lap başlanğıcdan bölünmüşdür.

Heç bir xalq heç vaxt tiranın əlində oyuncaq olmağa belə tam hazırlaşdırılmayıb; heç bir xalq heç vaxt inqilabçı cəmiyyətlərə belə asanlıqla baş əyməyib; irəli getməyə və ya tərəqqiyə belə çətinliklə meyl edən bir xalq heç vaxt olmamışdır. Bütün bu xarakterik əlamətlərin müsəlman zülmünün nəticəsi olaraq yaranmasına bir anlığa da inanmaram." (59)

Qərb dünyasının hər yerindən olan çoxlu alim və müəlliflər belə bir fikrə şərik çıxırlar ki, tarixin müxtəlif səhifələrində saxtakarlıq edərək qeyri-real mənzərə yaratmaq cəhdləri olmuşdur. Ermənilər xristian dünyasının içində dönə-dönə nağıllar söyləyərək özlərinin İisus Xrist yolunda əzabkeş ölkə olması haqqında xristian dünyasında ictimai fikir yaratmaq istəmişdir. Ermənilər xristian olmayan hər şeyin xristianlığa qarşı ziyan, qorxu və nifrət olması təsəvvürünü formalaşdırırlar. (60)

Bu günlər ermənilərin danışdığı ən böyük nağıl isə guya 1915-ci ildə onların 1.5 milyon nəfər ulu babası türklər tərəfindən qətlə yetirilmişdir və bu, iyirminci əsrin ilk genosidi nağılıdır. Bu ermənilər o vaxt Anadoluda yaşamış ermənilərin sayından qat-qat artıq öldürülmüş erməni iddiası ilə üstümüzə gəlirlər. Ərazidə ermənilərin ümumi sayı haqqında aşağıdakı mənbələrdəki rəqəmlərə nəzər salın:

| | |
|---|---|
| M.Zarçeşi, Fransanın Vandakı konsulu | 1,300,000 |
| Francis de Pressence (1895) | 1,200,000 |
| Torumnekize | 1,300,000 |
| Linç (1901) | 1,158,000 |
| Osmanlı siyahıya alması (1905) | 1,294,851 |
| Britaniyanın Mavi Kitabı (1912) | 1,056,000 |
| L.D.Konterson (1913) | 1,400,000 |
| Fransanın Sarı Kitabı | 1,475,000 |
| Erməni patriarxı Ormanyan | (*) 1,579,000 |
| Lepsius | 1,600,000 |

Möhtərəm Doktor Sayrus Həmlin İstanbuldakı Amerika missitoner kollecinin (Robert Kolleci) ilk rektoru olmuşdur. O, bəyan edir ki, 1870-ci illərdə Londonda təbliğat bürosu yaradılmış və türkləri və müsəlmanları pisləyən xəbərləri xarici ölkələrə yaymaq onun əsas məqsədlərindən biri olmuşdur. O, qeyd edirdi ki, türklərə qarşı ardıcıl hücum "birtərəfli idi və saxta informasiyalara əsaslanırdı". Hər hansı bir xalq haqqında uzun müddət ərzində belə təbliğat aparılarsa, həmin xalqa qarşı aradan götürülməsi çətin olan düşmənçilik və nifrət yaranacaqdır." Doktor Həmlin sözünə davam edərək yazırdı: "Hər dəfə əlimə qərb xəbərləri olan qəzet götürəndə allaha yalvarıram ki, məni inamsızlıq hissi ilə imtahana çəkməsin." (61)





Burada heç bir şübhə ola bilməz ki, erməni millətçi hərəkatı 1800-cü illərdə başlanmışdır. Erkən mərhələ terrorizm və zorakılıq üzərində qurulmuşdu. Erməni Kilsəsi isə nəinki sülh və əminamanlıq naminə öz səsini qaldırdı – o özü hadisələrdə fəal iştirak etməyə və terror kampaniyalarına barmaqarası baxmağa başladı.

1970-1980-ci illərdə erməni terrorçuları yer üzünü dolaşaraq yetmiş türk diplomatını, onların ailələrini və günahsız milki şəxsləri öldürdülər. Türkiyədən başqa digər ölkələrdəki erməni kilsələri birbirinin arxasınca baş verən ölüm hadisələrini sükutla qarşıladı. Sakit dayanması ilə Erməni Kilsəsi dünyanın müxtəlif ölkələrindəki terror hadisələrinə şərik çıxdığını sübut etdi.

2001-ci ilin Xristian Ensiklopediyası Ermənistan və Erməni Qriqoryan və ya Ortodoks Kilsəsi haqqında bəzi maraqlı məlumatlar vermişdir. Bu kitabda Ermənistanın 3,520,000 əhalisi olduğu iddia edilir. Digər etibarlı mənbələrin 1992-2001-ci illər arasında bir milyondan artıq erməninin öz kiçik ölkəsini tərk etməsi haqqında informasiyası vardır. Belə çıxır ki, bu qədər əhali itkisi ölkənin əhali sayına heç bir təsir göstərməmişdir.

Ermənilər iddia edirlər ki, onların ölkəsindəki 3,520,000 əhalinin 2,959,051 nəfəri xristiandır. Guya 2001-ci ildə Ermənistanda yalnız 5,568 müsəlman və 24 nəfər yəhudi olmuşdur. Altı il əvvəl, 1995-ci ildə isə Ermənistanda 150,000-dən çox müsəlman yaşayırdı. Son altı il ərzində ölkədəki 145,000 müsəlman nə üçün köçüb getmişdir? Cavab Ermənistan dövlətinin və kilsəsinin etnik təmizləmə aparmasıdır. Bu gün əhalinin təxminən 94.5 faizi "təmiz" ermənidir. Əhali balansı belədir: 1.7 faiz yezidi kürd, 1.5 faiz rus, 0.5 faiz azərbaycanlı və 0.2 faiz müsəlman kürdü. 1992-ci ildə qonşu Azərbaycana xaincəsinə hücum nəticəsində ermənilər onun ərazisinin 20 faizini işğal edərək 1 milyondan artıq müsəlmanı silah gücünə doğma ev-eşiyindən qovdu. Məhz bu terrorlar, qətllər, hədə-qorxular və etnik təmizləmə kampaniyasının nəticəsində bu gün Ermənistanda az qala bir müsəlman da yoxdur!

Aydın məsələdir ki, Ermənistan etnik cəhətdən təmiz ölkə yaratmaq istəyir və tanınmış metodlardan istifadə edərək öz saf irqinə "ermənilərdən başqa heç nə" fikrini təlqin etməyə çalışır.

1800-cü illərin ortalarında Avropa və Amerika protestant missio-

nerləri İsus Xristin sözünü yaymaq görüntüsü ilə Ermənistanda fəaliyyət göstərirdilər. Erməni Qriqoryan ruhaniləri bu "əcnəbi" xristianlara qarşı çıxır və onların ardınca gedən erməniləri kilsədən uzaqlaşdırırdılar.

Erməni Kilsəsinin fəal müxalifliyi sayəsində xarici missionerlərin cəhdləri çox az idi. Baptistlərin missionerlik fəaliyyətinin səyləri Erməni Qriqoryan kilsəsinin gücü haqqında aydın təsəvvür yaradır. Uzun illər fəaliyyət göstərəndən sonra 1996-cı ildə Ermənistanın yeddi kilsəsində cəmi doqquz yüz baptist var idi. 1930-cu ildə isə orada üç min səkkiz yüz baptist var idi. Əgər orada "bütün" xristianlar üçün din azadlığı varsa, onda baptistlərin sayı nə üçün azalmışdır? Digər protestant kilsələrdə də üzvlərin sayı kəskin surətdə azalmışdır.

Ermənistanın konstitusiyası dövləti və kilsəni vəhdətdə götürür. Erməni Qriqoryan Kilsəsinin başçıları 1993-cü ildə dövlətə təzyiq göstərərək qeydiyyatdan keçməmiş digər xristian qruplarını qadağan edən rəsmi dövlət fərmanı verilməsinə nail oldular. Fərmanda qeyd olunurdu ki, digər xristianlar dağıdıcı mövqe tutur və hərbi xidmətə qarşı çıxırlar. 1993-cü il çox vacib il idi; ermənilər silah gücünə qonşu Azərbaycanın torpaqlarını işğal edir və ərazidə yaşayan 1 milyondan artıq müsəlmanı yurd-yuvasından qovaraq etnik təmizləmə aparırdılar. Əlbəttə, ermənilər bu torapaqlar üçün bir qara qəpik də ödəmədilər.



Bu illər ərzində digər dini qruplar üzərində Erməni Qriqoryan Kilsəsinin nəzarətinə əlavə olaraq Dini Məsələlər Üzrə Dövlət İdarəsi də bu məsələyə qoşuldu.

1995-ci ildə Ermənistanın müdafiə naziri televiziyaya çıxaraq yerlərdə Erməni Qriqoryan Kilsəsindən savay ibadətlə məşğul olan digər dini qruplar haqqında yerli hakimiyyət orqanlarına xəbər çatdırmağı vətəndaşlardan xahiş etdi. Yerli polis orqanlarına əmr edildi ki, Erməni Qriqoryan Kilsəsindən başqa digər dini meyllilərin əsaslı siyahısını hazırlasınlar.

Erməni polisi hücum edərək Amerika Protestant Missioner Assosiasiyasının baş idarəsini tutdu, işçiləri təşvişə saldı və bütün məlumatları apardı. Erməni polisi Yevangeli və Baptist kilsələrini də tutdu və kilsə xidməti zamanı ibadət edənləri hədələdi.



Ermənistandan kənarda isə Erməni Qriqoryan Kilsəsi dünyanın yüzdən artıq ölkəsində tam dini azadlığın sevincini yaşayır. Xristianlığın izahında öz baxışlarını xaricdə yaymaq cəhdlərinin uzun bir tarixi vardır. Başqa sözlə desək, Erməni Qriqoryan Kilsəsi ikili standartla fəaliyyət göstərir. Kilsə və dövlət bir olduğu üçün Ermənistanda digər xristian təlimlərinə bu "rəsmi dövlət kilsəsi"nin azadlığı verilmir. Dünyanın yüzdən artıq ölkəsində isə Erməni Qriqoryan Kilsəsinə başqa kilsələrə verilən eyni dini azadlıq verilmişdir. Ermənilər digər xristian inanclarından nə üçün qorxurlar və onlara Erməni Qriqoryan Kilsəsinin dövlət səviyyəsində təsbit edilmiş azadlığını verməkdən niyə imtina edirlər?

Eramızın 451-ci ilindən bəri Erməni Qriqoryan və ya Ortodoks Kilsəsi yalnız üç "təkinanclı" kilsə ilə məramlarını bölüşür. Həmin kilsələr Misir, Suriya və Efiopiyada yerləşir. Buna baxmayaraq, Erməni Qriqoryan və ya Ortodoks Kilsəsi daim axtarır və dünyanın bütün xristianlarından və kilsələrindən "humanitar yardım" istəyir. Həmin kilsələrə Ermənistanda tam dini azadlığı isə rəva görmür. Hələ beşinci əsrdə burada təkhegemonluq bəyan edilmişdir.



Ermənistandakı qapalı etnik xristian cəmiyyəti ilə Erməni Kilsəsinin bu gün Birləşmiş Ştatlarda apardığı işi müqayisə edin. Ermənistan Kilsəsinin internet saytı amerikan-ermənilərə aşağıdakıları yerinə yetirməyi tövsiyə edir:

- Öz yerli, dövlət və milli hökumət rəsmilərinizə yazın və təsir göstərin ki, 17 iyun 2001-ci ili Erməni Kilsə Günü elan etsinlər.
- Yaşadığınız ərazidə erməni kilsəsi olmayan məbədlərdə mühazirələr təşkil edərək 301-ci il ilə 2001-ci ilin tarixi və əhəmiyyəti haqqında danışın.
- Yerli din xadimlərini və onların birliklərini öz kilsənizə dəvət edin.
- Yaşadığınız ərazidəki kilsə xadimləri və ibadətə gələnlərlə digər kilsələrə gedin, onlara sizin ibadətxanadakı hadisələr haqqında danışın və öz ibadətləriniz vaxtı onların iştirakını təmin edin.

Sən demə, Erməni Kilsəsi Birləşmiş Ştatlarla dost münasibətindədir. Lakin Ermənistanda belə aşkarlıq yoxdur:

- Kilsə və dövlət vahiddir.

• Kilsə və dövlət müsəlmanların torpaqlarında etnik təmizləmə aparmışdır.

• Digər xristian birliklərinin Ermənistanda İisus Xrist adından ibadət etməsi mümkün deyil.

• Kilsə və dövlət öz qonşularının torpaqlarının 20 faizini çırpışdırmış və 1 milyondan artıq müsəlmanı öz ev-eşiyindən didərgin salmışdır.

• Kilsə və dövlət əhalidən açıq-aydın tələb etmişdir ki, Erməni Kilsəsindən başqa hər hansı dini xidmət haqqında məlumat versin.

• Kilsə və dövlət polisi digər dini ibadət mərkəzlərinə hücum edir, oranı dağıdır və ora gələnləri incidir.

• Kilsə və dövlət polisi paytaxtdakı Amerika missionerləri qərargahına basqın edərək oradakı materialları aparır.

• Kilsə və dövlət Erməni Kilsəsinin üzvü olmayan fərdlərə məsləhət görür ki, ya kilsə, ya da dövlət polisi tərəfindən qeydə alınsınlar.

• Erməni Kilsəsi digər xristian məbədlərində ibadət edən hər bir ermənini kilsədən uzaqlaşmış hesab edir. Erməni Kilsəsi rəsmi kilsədən savay digər kilsələrdə ibadət edən erməniləri cəhənnəm odu ilə lənətləyir.

İyirminci və iyirmi birinci əsrlərin ən böyük faciəsi Ermənistanın və Erməni Qriqoryan Kilsəsinin sanki tarixin uzaq və qaranlıq dövrlərində olduğu kimi yaşaması və fəaliyyətini davam etdirməsidir. Elə bil ayrıca dövlət olan Erməni Qriqoryan Kilsəsi "Erməni əzabkeşliyi" məfhumunu icad etmişdir. Belə Əzabkeş Komitələri bütün Avropada geniş yayılaraq özlərinə "heretik" axtarır. Bu gün Erməni Qriqoryan Kilsəsi belə əməllərlə məşğuldur.

Heretik sözü "kilsənin ortodoks inancına əks olan dini əqidədir; bu inanc kilsə tərəfindən tamamilə rədd edilmişdir. Rəsmi və formalaşmış dünyagörüş və doktrinalara qarşı qoyulan mövqe" kimi izah olunur. (İnkvizisiya sözü isə "heretikliyi cəzalandırmaq üçün on üçüncü əsrdə yaradılmış baş tribunal" kimi başa düşülməlidir.)

On üçüncü əsrin "inkvizisiya"sı bu gün Ermənistanda açıqca yaşayır və fəaliyyət göstərir. Erməni Qriqoryan Kilsəsi digər xristian kilsələrinə pənah aparan erməniləri kilsədən uzaqlaşdıran tribunal rolunu oynayır. Kilsə/dövlət polisi Erməni Qriqoryan Kilsəsindən kənarda Allaha ibadət edən hər bir şəxsin uçotunu aparır. Erməni Kilsə/dövlət polisi digər xristian ibadət xidmət mərkəzlərini alt-üst etməklə, Amerika missioner təşkilatının qərargahına hücum çəkib sənədləri aparmaqla "heretikliyi" bələkdə boğur. Qaldı müsəlmanların məsələsinə, ölkəni etnik cəhətdən təmizləmək məqsədilə onların az qala hamısı qətlə yetirilmiş və ya Ermənistandan qovulmuşdur.





Bir vahid halında fəaliyyət göstərən erməni dövləti və kilsəsi millətçi hərəkat başlanandan bəri terrorizmə üstünlük vermiş və başqa xalqların torpağlarını ələ keçirməyi əsas götürmüşdür. Böyük Pyotr Yeni Vəsiyyətində belə adamlar haqqında yazmışdı: "Ona görə də bütün qəzəbi və bütün bicliyi və riyakarlığı və həsədi və bütün böhtanı kənara qoyaraq. Saf süd sözü üçün həsrət çəkən təzəcə doğulmuş çağalar kimi, yalnız belə olanda sizə xilaskar kimi hörmət bəslənəcəkdir." (I Pyotr 2:1 – 2)

Apostol Ceyms də ermənilərin hərəkətləri kimi hərəkətlər haqqında yazmışdır və öz şeytan əməlindən əl çəkmək üçün onların nə etməli olduğunu demişdir. Ceyms yazmışdır (Ceyms 3:16 – 18): "Harada ki, paxıllıq və müştəbehlik iddiaları mövcuddur, orada hər cür şeytani əməl üçün qarmaqarışıqlıq vardır. Lakin hər şeydən üstünü əvvəla saf, sonra sülhsevər, nəzakətli, ağıllı, şəfqətlə dolu və səxavətli, qətiyyətli, riyakarlıqdan uzaq olan müdriklikdir. Və sülh yaratmaq istəyənlərin sülh yaratmaq eşqi ilə düzgün əkdiyi toxumlar."

## AMERİKA VƏTƏNDAŞ HÜQUQLARI HƏRƏKATI İLƏ ERMƏNİ KİLSƏSİ VƏ ERMƏNİ DÖVLƏTİNİN HƏRƏKƏTLƏRİNİN MÜQAYİSƏSİ

Erməni Kilsəsi afrikalı-amerikanların nümunəsini davam etdirsəydi yaxşı olardı. Bu adamlar 1600-cü illərin əvvəllərindən "qədim" vətənlərindən öz adamları tərəfindən oğurlanaraq qul əməyi üçün satılmışlar. Qara qullar o vaxtdan öz azadlıqlarının həsrətini çəkirlər. Amerikada Vətəndaş Müharibəsi məhz qul əməyi ilə əlaqədar olaraq başlanmışdı.

Ta 1955-ci ildə Alabama ştatının Montqomeri şəhərində Vətən-

daş Hüquqları Hərəkatı başlanana qədər belə idi. O vaxtdan bu adamların əsl qələbəyə çatacaqları aydın oldu. Bu Vətəndaş Hüquqları Hərəkatına doktor Martin Lüter Kinq başçılıq edirdi. Doktor Kinq və Vətəndaş Hüquqları Hərəkatı ona görə uğur qazandı ki, onların hər sözü Xristin təlimlərinə əsaslanırdı və onlar zor işlətməyin əleyhinə idi. Ona qarşı (evinə bomba atılmış, həyatına hədələr edilmiş və son nəticədə öldürülmüşdü) və tərəfdarlarına qarşı törədilən terror hərəkətlərinə baxmayaraq, Kinq ardıcıl surətdə dinc yolla afrikan-amerikanların hüquqları uğrunda mübarizə aparmış, bəzi hallarda isə polisin və ağdərili terrorçuların heç də dinc olmayan müdaxiləsi ilə qarşılaşmışdır. Qaralara divan tutulurdu, qaraların kilsələri partladılırdı, qaralar qətlə yetirilirdi; hədə-qorxular və hay-küylü vahimələndirmə hər yanda ayaq tutub yeriyirdi, lakin Kinq və onun ardıcılları zorakılığa yol vermədən öz əzmkar kampaniyalarını apararaq afrikan-amerikanların hüquqlarını müdafiə edirdi.

Bu əhvalatı və Vətəndaş Hüquqları Hərəkatının bu gün də öz dinc üsullarla davam edən mübarizəsinin uğurunu bütün amerikanlar bilir. Lakin elə amerikanlar da olmuşdur ki, 1950 –1960-cı illərdə və hətta bu gün də afrikan-amerikanların dinc üsullarının qarşısına Birləşmiş Ştatlarda terror kampaniyası ilə çıxmaq istəyir.

Bu fəslin başlanğıcında Erməni Kilsəsinin rəsmi internet saytına istinad edilmişdi. Bu kilsə bu gün yazır: "Millət və kilsə, bu iki məfhum o qədər qaynayıb-qarışmışdır ki, 'milli kilsə' söz birləşməsinin sanki yalnız ermənilər üçün xüsusi düşünüldüyü qənaətinə gəlmək olar." Əgər hər hansı ağıllı düşüncə sahibi bir yerdə birləşmiş dövlətin və kilsənin hərəkətlərinə fikir versə, onda həmin ikinin nə üçün birə çevrilmədiyinin səbəbi aydın olar. Ermənistanda kilsənin vicdanın səsi olmadığı bəllidir. Kilsə heç vaxt zorakılığı və terrorizmi lənətləyən bəyanat vermir, əksinə, belə əməllərdə daha fəal iştirak edir. Nə qədər ki, kilsə dövlətdən ayrılmamışdır və öz nifrət, intiqam və terror təlimlərini dayandırmamışdır, o vaxta qədər Yaxın Şərqdə heç vaxt sülh olmayacıqdır.





İKİNCİ FƏSİL

# BAŞLANĞICLAR

## ERƏMNİSTAN NECƏ, NƏ ÜÇÜN VƏ NƏ VAXT BU GÜNKÜ TERRORÇU ÖLKƏYƏ ÇEVRİLDİ

Xristianların yürütdüyü mühakiməyə görə, keçmişdə insanların dininə və irqinə əsasən onların haqqında hökm verilirdi. Bizim əksərimiz ağ atın belində çapan "xristian" cəngavərlər haqqında çox oxumuşuq. O cəngavərlər müqəddəs torpağacan at çapıb xristian inancını müsəlmanların zorakılıq əməllərindən xilas etmiş və müsəlmanlardan daha çox adam öldürmüşlər. Əsl xristian hekayəti heç də yaxşı deyil.

1880-cü illərdə indiki Qafqaz adlanan o vaxtkı cənubi Rusiyada və Balkanlarda yaşayan əhalinin əksəri müsəlman idi. 1923-cü ilədək bütün bünlar dəyişdi və əksər müsəlman bu yerləri tərk etdi. 1820-ci ildən 1923-cü il arasında milyonlarla müsəlman öz ev-eşiyindən və torpaqlarından didərgin salındı. 5.5 milyondan artıq adam ya müharibələrdə öldürüldü, ya didərginlikdə, ya da sonralar aclıq və xəstəlikdən dünyasını dəyişdi.

Bu regionlardakı xristian faciəsi və ölümləri haqqında dünyanın xristian millətlərinə çox geniş məlumat verilmişdir. Lakin nədənsə xristian ölkələrində buradakı müsəlmanların məşəqqətləri haqqında çox bəsit informasiya vardır.

Əgər kimsə xəritədə dünyanın Balkan, Anadolu və Qafqaz regionlarındakı ölkələrə yaxından baxsa, aydınca görər ki, bu gün orada olan dövlətlər əhalinin təkmillətli tərkibinə əsasən qurulmuşdur. Bu ölkələr müharibələrin və inqilabların nəticəsində müasir tarixi mərhələdə yaradılmışdır. Onlar bir vaxtlar Osmanlı İmperiyası ol-

muş ərazinin parçalarında yaradılmışdır. Bu etnik və dini özünəməxsusluq və əhalinin təkmillətli tərkibi etnik təmizləmə əsasında əmələ gəlmişdir. Sadə dillə desək, onlar müsəlmanların məşəqqətləri üzərində əmələ gəlmişdir.

Həqiqəti bilməyin və anlamağın vacibliyinə baxmayaraq, Qərb dərsliklərində bu saysız-hesabsız müsəlman itkiləri haqqında heç bir tarixi məlumat yoxdur.

Məsələn, Birləşmiş Ştatlardakı Xristian erməni-amerikanlar son illərdə şəhərlərin, ştatların və milli dövlət idarələrinin üzərinə kampaniya başlamışlar. Onlar 1915-ci ildə müsəlman Türkiyəsinin hansısa 1.5 milyon xristian ermənisini qətlə yetirməsini iddia edir və ABŞ səviyyəsində Türkiyəni günahlandıran qərar çıxarılmasına çalışırlar. Əlavə olaraq, erməni-amerikan xristianlarının lobbisi bir neçə ştatın təhsil nazirliklərini uğurla ələ alaraq həmin hadisələri uşaqların dərsliklərinə saldırmağa nail olmuşdur. İndi orada uşaqlara olmayan genosid haqqında danışırlar.



## BEŞ MİN İLLİK DİNC BİRGƏYAŞAYIŞDAN SONRA ERMƏNİ TERRORİZMİ BAŞLAYIR

Osmanlı İmperiyası geniş idi. O, Avropada Makedoniyadan tutmuş Albaniyaya, Asiya Türkiyəsini, sonra isə Yaxın Şərqdən uzanaraq Şimali Afrikaya qədər ərazilərdə yerləşirdi. Osmanlı dövləti iyirmi iki müxtəlif millətə nəzarət edirdi. O millətlərdən heç biri müasir Türkiyəyə ermənilər qədər nifrət, qəzəb və intiqam hissi bəsləmir.

Millətçilik Osmanlı İmperiyasına Qərbi Avropadan gəlmişdir. Osmanlı İmperiyasının hüdudları daxilində milli azlıqda qalan birliklər arasında kilsənin millətçilik toxumu səpməsinin əsas səbəblərindən biri Osmanlı hökumətinin onlara dini azadlıq verməsində idi. Hər bir dini birliyə böyük muxtariyyət verilmişdi. Müsəlmanlar digər dinə etiqad edənləri müsəlmançılığa cəlb etmək üçün heç bir cəhd göstərmirdilər. Bəzi dərsliklərin və lobbi qruplarının dediklərinin əksinə olaraq, xristianların zorla müsəlmançılığa qəbul etdirilməsi haqqında heç bir konsepsiya olmamışdır.

Osmanlılar haqqında tarixin əsas hissəsi xristian xalqlarına deyilməmişdir. Deyilməmişdir ki, Osmanlılar dözümlü oimuş, digər xalqların dininə ehtiramla yanaşmışlar. Həqiqət budur ki, Osmanlı dövləti imperiyadakı insanlara heç bir kənar müdaxilə olmadan ibadət azadlığı vermişdir. Özlərini "xristian" adlandıran fərdlər bu azadlıqdan istifadə edərək öz adamları arasında anti-Osmanlı millətçi hisslər və əhval formalaşdırırdı.



Millətçi hərəkat isə əsl həqiqətdə on doqquzuncu əsr ərzində başlamışdır. Xristianların çoxu öz iqtisadi vəziyyətini düzəltmişdi və indi siyasi hakimiyyətə can atırdı. İmperiya daxilində belə dövlət ola bilməzdi.

Osmanlıların inancı xristianlardan fərqləndiyi üçün Osmanlı Müsəlmanlarının Allaha əks getməsi haqqında mübahisə açmaq asan addım idi. Məhz kimin dəqiq düşmən olmasını isə bu dini millətçilik asan yolla başa salırdı. On doqquzuncu və iyirminci əsrlər ərzində milyonlarla müsəlmanın Balkanlardan, Cənubi Rusiyadan və Rusiyanın yeni ələ keçirdiyi torpaqlar olan Qafqazdan qovulmasının əsas səbəbini dini müxtəliflikdə axtarmaq lazımdır.

Regionda inqilaba birinci başlayanlar yunanlar oldular; onlar müsəlmanları kütləvi surətdə qırır və ya qovurdular. Bu, Osmanlı İmperiyasında başqalarının da millətçi etirazları üçün bir nümunəyə çevrildi. "Yunan arxibişopu Germanosun inqilaba millətçi çağırışında deyilirdi ki, "Xristianlara sülh! Konsullara ehtiram! Türkə ölüm!". (1) İnqilab geniş yayılır və get-gedə daha çox müsəlman ya qırılır, ya da canı çıxana qədər işkəncəyə məruz qalırdı. Yunanlar ruslardan kömək gözləyirdilər, lakin həmin kömək gəlmədiyindən, Osmanlılar nəzarəti yenidən ələ keçirdilər.



Qadınları və uşaqları kütləvi surətdə qırmaq da geniş yayılmışdı. Bir neçə şəhərdəki bütün türk sakinlərini bir yerə toplayıb kütləvi qətlə yetirmişdilər. Tripolitzanın qeydlərinə nəzər salın:

*Üç gün ərzində vəhşilik bütün qəddarlığı ilə zavallı sakinlərə [Türklərə] göstəriidi. Nə cinsə fərq qoyulurdu, nə yaşa. Öldürülməzdən qabaq qadın və uşaqlara işkəncə verilirdi. Qətllərin sayı o qədər çox idi ki, partizan hərəkatının başçısı Kolokotrones özü deyir ki, qalanın qapısı tərəfdən şəhərə daxil olandan sonra onun atının nalları bir dəfə də yerə toxunmayıb. İki gündən sonra hər iki cinsdən*

*olan, əksərinin qadın və uşaqlardan ibarət olduğu zavallı müsəlmanların meyitlərini əşya kimi yığaraq yaxınlıqdakı dağların uçurumlarına tulladılar. (2)*

Yunanlar keçmişdəki kimi Yunanıstan yarada bilməmələrinin səbəbini bütün türklərdə görürdülər. Müsəlmanların soyuqqanlılıqla qətlə yetirilməsi əslində xəcalət çəkilmədən din pərdəsi altında ədalət donu geyindirilən siyasi hərəkətdən başqa bir şey deyildi. Osmanlıların yenidən qayda-qanun yaratmasına qədər iyirmi beş mindən çox türkün öldürülməsi təsdiq olunmuşdur. Buna baxmayaraq, bu məğlub olmuş yunan inqilabı sonralar Osmanlı İmperiyasında baş verəcək gələcək inqilablar üçün ilkin mərhələ rolunu oynadı.

İşin şəkli həmişə eyni cür olacaqdı. Yeni millətçi xristian birliyi yaratmaq məqsədi ilə regionda yaşayan türk müsəlmanlarını açıq-aşkar doğramaq siyasəti yeridiləcəkdi. Dinlər arasındakı fərqi qabartmaq elə asan idi ki, hər şeyin əzəlini onunla bağlayırdılar.

Yunan din xadimləri qiyamın önündə idi. Hadisələrə tez-tez bişoplar və keşişlər rəhbərlik edirdi. Əgər iş xalqa qalsaydı, inqilabın haçansa başlayacağı şübhə doğurardı. Yunan Ortodoks Kilsəsi keçmiş Xristian Bizans İmperiyasını yenidən qurmaq və Böyük Yunanıstanın sərhədlərini Konstantinopol (İstanbul) şəhərinə qədər uzatmaq xəyalı ilə yaşayırdı.

Ermənilər, bolqarlar və ruslar qiyam və üsyanlarda öz yolları ilə gedəcəkdi. Osmanlı İmperiyası uzun müddətli dağılma prosesi yaşayırdı və bu, müxtəlif xalqlara müvəffəqiyyət qazanmaq imkanı verirdi. Keçmişə nəzər salanda görmək olur ki, əgər Osmanlılar imperiya daxilində yaşayan xalqlara bir çox əsrlər ərzində şəxsiyyət, din, dil və adət-ənənə azadlığı verməsəydi, onda on doqquzuncu əsrdəki üsyanlar yerli-dibli baş verməyə bilərdi. Məhz buna görə də demək olar ki, Osmanlı İmperiyası özü müəyyən mənada başqalarına qarşı öz dini hörmətinin və dözümlülüyünün qurbanına çevrilmişdir.

Rusiya İmperyası on dördüncü əsrdən başlayaraq qərb tərəfə genişlənməyə başladı. Böyük Pyotrun dövrü ərəfəsində (1689-1725) müsəlmanların təsiri xeyli azalmışdı. Ruslar torpaqlar hesabına genişləndikcə Osmanlıların eyni səhvini təkrar etimədilər. Onlar zəbt etdikləri yeni ərazilərdəki xalqların xristian inanclarından fərqlə-





nən dininə qarşı dözümlülük göstərmirdilər. Ruslar müsəlmanlardan aldıqları torpaqları təmizləyir və sadəcə həmin ərazilərə müxtəlif yerlərdən gətirilmiş erməni xristianlarını yerləşdirirdilər. Ermənilərin sonralar "tarixi vətən" adlandıracağı həmin yerlərə gəlişi on səkkizinci əsrdən başlayır. Həmin ərazilərdə isə erməni xristianlardan çox-çox əvvəl müsəlmanlar yaşayırdılar.

Yerindən dərbədər salınmış ilk çoxsaylı müsəlmanlar qrupu Krım tatarları oldu. Bu xalq əcdadı etibarı ilə türklərə söykənirdi. Bu əraziyə türk tayfaları eramızın 1000-1300-cü illəri ərzində müxtəlif fəthlər vaxtı gəlmişdi. 1774-cü il ərəfəsində Osmanlılar rusların Krımı nəzarətə götürdüyünü anladılar. Xristianlar yenidən bu torpaqlarda məskunlaşmağa başladı.

Bu, rusların qərbə genişləndiyi prosesdə müsəlmanları ərazidən təmizləməsinin yalnız başlanğıcı idi. Zorakılıqla qovmaq Rusiyanın rəsmi siyasətinə çevrildi. Əgər müsəlmanlar öz arzuları ilə ərazilərdən çıxıb getmirdisə, onları qovmaq üçün hərbi qüvvələr hərəkətə gətirilirdi. Qərbdə belə "müharibələr"in biri 1821-ci ldə yunan üsyanı və digəri 1828-1829-cu illərdə baş vermiş Rusiya-Osmanlı müharibəsi idi. Onların arxasınca daha bir neçə müharibə gələcəkdi və bu gün yaranmış çoxlu problemlərin başında da Osmanlı müsəlmanlarını rusların qovması dayanır.

Hər dəfə ruslar qərbə tərəf hərəkət edərək ılıq sulu limanlar axtaranda müsəlmanları doğma torpaqlarından zorakılıqla uzaqlaşdırıblar və əgər onlar müqavimət göstərirdisə, onda rus siyasətinin qaydalarına əsasən soyqırıma düçar edilirdilər. On doqquzuncu əsr Balkanlarda, Qafqazda və Anadoluda yaşayan müsəlmanlar üçün terror dövrü olmuşdur. Basqınlar və etnik təmizləmələr nəticəsində əsrin əvvəllərində həmin torpaqlarda yaşayan müsəlmanlar əsrin sonunda öz əhalisinin əsas hissəsini itirmişdilər. Anadolu üçün iyirminci əsr bəd gətirmişdir. Orada çoxsaylı soyqırımlar və zorakılıqla torpaqdan köçürülmələr baş vermişdir. Xristian dünyasının hər tərəfində yunanların, ermənilərin və bolqarların ölümləri haqqında çox tez-tez danışılır. Deyilməyən yeganə şey müsəlmanların başına gətirilənlərdir. Müsəlmanların məhrumiyyətləri isə bütün xristian itkilərindən qat-qat çox olmuşdur!

Ermənistan ölkəsinin yaradılmasını düzgün başa düşmək üçün

on doqquzuncu və erkən iyirminci əsrlərin bu regiondakı tarixini hər kəs yaxşı anlamalıdır. Tarixi gerçəklik məhz onunla izah edilməlidir ki, terrorçu Ermənistan dövləti əslində necə yaranmışdır.

Tanınmış tarixçi və yazıçı Castin MakKarti aşağıdakı sözləri ilə vəziyyəti qiymətləndirmişdir.

*On doqquzuncu və erkən iyirminci əsrlərdə Qafqazın və şərqi Anadolunun tarixi adlanan tarixi əslində etnik qrupların regiona nəzarəti öz əllərinə keçirmək istəyindən irəli gələn təbliğat olmuşdur. Öz qruplarının verdikləri itkilərin sayını qəsdən şişirdən belə tarixçilər sanki xəbər tutmayıblar ki, onların düşməni olan qruplar da itkilər vermişdir. Bu isə adi döyüşlərin soyqırım və "genosid" müharibəsi adlandırılması meylini yaratmışdır. Əslində isə etiraf olunmalıdır ki, hər iki tərəf atəş açmış və hər iki tərəfdən qırılanlar olmuşdur. (3)*

Hələ erkən 1700-cü illərdə ruslarla əlaqəyə girən ermənilər olmuşdur. Erməni Kilsəsi rusların Qafqazı işğal etməsini rəsmi surətdə bəyənmiş və müdafiə etmişdir. 1790-cı illərdə Erməni Kilsəsinin arxiyepiskopu Arqutinski-Dolqorukov açıq bəyanat verərək ümid etdiyini bildirmişdir ki, ruslar "erməniləri müsəlman buxovundan azad edəcəkdir". (4)



On doqquzuncu əsrin əvvəllərində Anadoluda, Balkanlarda, Qafqazda və cənubi Rusiyadakı əhalinin böyük əksəriyyəti müsəlmanlar idi. 1923-cü il ərəfəsində isə yalnız Anadolu, şərqi Treys və cənub-şərqi Qafqazın bir hissəsi müsəlman ərazisi kimi qalmışdı. Yüz illik bir dövrdə milyonlarla müsəlman məhv edilmişdi!

On doqquzuncu əsrdəki Anadolu, Qafqaz və Balkanları tam başa düşmək üçün müsəlmanların tarixi vətənləri və oradan dərbədər salınmalarını hər bir şəxs anlamalı və nəticə çıxarmalıdır. Rus imperializmi və erməni millətçiliyi məhz buna əsaslanır.

Yazılmış tarixin ən kədərldi cəhəti odur ki, o, müsəlmanların xidməti və itkiləri haqqında əsas faktları tullayaraq qələmə alınmışdır. Castin MakKarti bunu aşağıdakı sözlərlə izah edir: "Müsəlmanların itkilər verməsi haqqında tarixi həqiqətə baxmayaraq, dərsliklərin heç birində ona rast gəlməzsiniz. Bolqarların, ermənilərin və yunanların soyqırımını təsvir edən dərsliklərdə və digər tarix kitablarında müvafiq olaraq türklərin qırılması haqqında işarə də yoxdur... Balkanların, Qafqazın və Anadolunun tarixi əsas iştirakçı olmuş müsəlman əhalisi haqqında heç bir qeyd edilmədən yazılmışdır." (5)



Tarix qeyd edir ki, bəzi ermənilər erkən 1700-cü illərdə rus ordusunu müdafiə edirdi. Həmin maraq nöqtəsindən çıxış edən erməni xalqı və onun kilsəsi bu gün də rusların Qafqazı işğal etməsini dəstəkləyir. Müsəlman Osmanlılarına qarşı hər bir hərbi kamaniya vaxtı xristian erməniləri rusların görən gözü və eşidən qulağı idi.

Rusiya-Osmanlı müharibələrinin hər birində Osmanlı erməniləri adi qaydalar əsasında döyüş xətlərini keçir və xəbərçilk edərək düşmənə – ruslara hərbi məlumat çatdırırdılar. Məhz ruslara fəal kömək göstrməyin ucbatından, ruslar geri çəkilərkən müsəlmanların təbii münasibətindən qorxuya düşən minlərlə erməni Anadolunu tərk edirdi. Ta I Dünya Müharibəsi dövründə, 1915-ci ildə işğalçı rus ordusuna fəal köməyinə görə nəhayət Osmanlılar erməniləri şərqi Anadoludan köçürənə kimi bu davranış davam etmişdir.

Müsəlman Osmanlı dövlətini devirmək məqsədi ilə ermənilər 1890-cı ildə inqilabçı siyasi təşkilat yaratdılar. Bu erməni inqilabçılarını silah-sursat və köməklə Rusiya təmin edirdi.



*Bu inqilabçıların fəaliyyəti Erməni Kilsəsi ilə sıx əlaqədə qurulurdu. Mərkəzlərindən birinin İstanbulda, digərinin rus Ermənistanındakı Eçmiadzində olmasına baxmayaraq, Erməni Kilsəsi bir vahid kimi Osmanlı-Rusiya sərhədini aşmışdı və dini missionerlər, bişoplar və ideyalar sərbəst surətdə bu iki dini mərkəzə gedib-gəlirdilər. Kilsənin əmlakından istifadə edən inqilabçı din missionerləri cənubi Qafqazdakı, Anadoludakı və rus dövlətindəki inqilabçılar arasında asanlıqla əlaqə qururdular. Erməni inqilabi hərəkatının sıralarında dindarların və bişopların olması erməni mənliyinin iki qanadını birləşdirdi – kilsə və müasir millətçilik. Bu, həm də ifrat millətçiliyə dinin xeyir-duasını və erməni millətçiliyinə şərqi Anadoludakı erməni kəndlərində asan başa düşülən dini məna verdi. Bu azmış kimi, kilsə rəsmiləri həm də inqilaba praktiki köməklik göstərirdi. Məsələn, Osmanlı-İran sərhədinin İran tərəfində yerləşən Derik monastrı onun inqilabçı abbatı (Baqrat Vardapet Tavaklin və ya 'Akki') tərə-*

*findən silah anbarına və Osmanlı İmperiyasında fəaliyyət göstərən erməni inqilabçıları üçün seçim məntəqəsinə çevrilmişdi. (6)*

Bir başqasının azad torpaqlarını ələ keçirmək üçün təşkilatlanmaq istiqamətində ermənilər uzun müddətdən bəri təcrübə toplamışdır. Erməni təşkilatlanmaq üsulu öz əsasını 1860-cı ildən götürür. O vaxt İstanbulda "Kilikiyanın bərpası" adlandırılan Benevolent İttifaqı yaradılmışdı.

1878-ci ildə inqilabçı təşkilatlar yaradıldı. Vanda Qara Ox təşkilatı təsis olundu. Bu qrup Birləşmiş Ştatlardakı Ku-Klus-Klan təşkilatı ilə müqayisə edilmişdir. 1881-ci ildə Ərzrumda Vətən Müdafiəçiləri təşkilatı zühur etdi. Bu kitabın on birinci fəslində rusların dəqiq hərbi hesabatı vardır. Orada bir daha sübut olunur ki, Osmanlı torpaqlarının bu regionundakı ermənilər terrorstdən başqa şey deyildilər. Erməni Partiyası inqilabçı siyasi partiya kimi təsis olunmuşdur.

1885-ci ildə Fransada vanlı keçmiş müəllim Mkrtıç Portağalyan tərəfindən Erməni Qəzeti çap edilməyə başladı. Onun arxasınca daha bir neçə erməni qəzeti yaranacaqdı. Əlavə olaraq, Portağalyanın saysız-hesabsız keçmiş şagirdi inqilabçıya çevrildi.



Varlı-karlı erməni ailələri tərəfindən Fransaya, Parisə təhsil almağa göndərilmiş gənclər orada İnqilabçı Hunçak Partiyası yaratdılar. Bu gənclərin bir neçəsi rəhbərlik üçün marksist nəzəriyyəsini seçmişdi. Təşkilatın yaranma missiyasını və xaricdə çap olunacaq yeni qəzetin açılmasını altı tələbə öz üzərinə götürmüşdü. Onlar Vyanadakı Mexitarist Kilsəsinə kömək üçün məraciət etdilər və Monastr həmin köməyi əsirgəmədi.

## ERMƏNİ TERRORİZMİNİN RƏSMİ BAŞLANĞICI

Hunçakın fəaliyyətə başlamaq çağırışı və ya onların "manifesti" URAS kitabının 432-439-cu səhifələrində verilmişdir. Bu, 1887-ci ildə Londonda çapdan çıxmış dərslikdən tərcümə edilmişdir. (Bax: *Ermənilər Uras, Esat tarixində və erməni məsələsi, 1976.)* Tələbələr öz partiya manifestini 1888-ci ilin oktyabr-noyabr aylarında Ermənistanda çap etdirdikləri qəzetdə vermişdilər. Belə bir maraqlı cəhəti qeyd etməyə dəyər ki, həm Türkiyədə, həm də Rusiyada yaşayan orta və yüksək sinfə mənsub ermənilər tələbələrin bu işini müdafiə etmirdi. Hunçak təşkilatı atılması vacib olan addımlar seriyasını çap etdi:



*1. Müasir üsul-idarə inqilab vasitəsilə devrilməli və yeni cəmiyyətlə əvəzlənməlidir.*

*2. Partiyanın ilkin məqsədi siyasi və milli cəhətdən müstəqil olan Türkiyə Ermənistanı yaradılmasına nail olmaqdır. (Ermənilərin ümumi sayı əhalinin üçdə birindən də az idi.)*

*3. Təbliğat, fitnəkarlıq, terror, təşkilatlanma və fəhlə-kəndli hərəkatı əsas məqsədə çatmaq üçün metodlardır. Təbliğatımız əsas məqsədləri və dövlət əleyhinə başlanacaq üsyanın münasib tarixini xalqa izah etməkdən ibarət olacaqdır. Fitnəkarlıq və terror xalqın cəsarətini artırmaq üçün çox vacibdir. Fitnəkarlığın əsas üsulları dövlət əleyhinə nümayişlər keçirmək, vergi ödəməmək, islahatlara qarşı çıxmaq və zadəgan sinfinə qarşı nifrət oyatmaqdan ibarət olacaqdır. Terror xalqı qorumaq üsulu kimi onların Hunçak proqramına inamına səbəb olacaqdır. Partiyanın məqsədi terroru Osmanlı dövlətinə qarşı işlətməkdir, lakin dövlət yeganə nişangahımız olmayacaqdır. Qorxulu türklərə və dövlət idarələrində işləyən ermənilərə, casuslara və xəbərçilərə qarşı da terrora əl atılacaqdır.*



*4. Bu terrorçu fəaliyyəti təşkil etmək üçün xüsusi bölmə yaradılacaqdır.*

*5. Partiya mərkəzi komitə yaradacaqdır. Fəhlə və kəndlilərdən ibarət iki böyük inqilabçı qrupu yaradılacaqdır. Bu qruplara əlavə olaraq partizan bandaları da təşkil olunacaqdır.*

*6. İnqilabın başlanğıcı üçün ən münasib vaxt Türkiyə müharibəyə qoşulanda yetişəcəkdir.*

*7. Türkiyədə müstəqil Ermənistan yaradılandan sonra inqilab Rusiya və İran Ermənistanına yayılacaq və Federativ Ermənistan qurulacaqdır.*

Bu "inqilabi proqram" Rusiya inqilabçılarının baxışlarını qəbul etmişdi. Erməni tələbələri 1887-ci ilin avqustunda Cenevrə şəhərində özlərinin "fəhlə və kəndlilərin" Hunçak Partiyasını təsis etdilər. Bu tələbə "inqilabi" partiyası 1890-cı ildə adını dəyişərək İnqilabçı Hunçak

Partiyasına çevirdi. Çünki artıq bu ad altında öz qəzetlərini buraxırdılar.

Tələbə liderlər İstanbulda öz qərargahlarını yaratdılar və Barfa, Merzifon, Amasiya, Tobat, Yozqat, Arapkir və Trabzonda partiya dayaq məntəqələrini yaratmaq üçün nümayəndələr göndərdilər. Bu cavanlar Rusiya və İranda da öz fəaliyyətlərini genişləndirdilər.

İnqilabçı Erməni Federasiyası və ya Ermənistanda Daşnaksutyun kimi tanınan təşkilat 1890-cı ildə Rusiyada təsis edildi. Əvvəlcə onun rəhbərləri indiki Gürcüstanın Tiflis şəhərində yaşayırdı. Bu qrupun rəsmi "proqramı" 1892-ci ildə keçirilmiş Ümumi Qurultayda qəbul edildi. İnqilabçı Hünçak Partiyası kimi bu təşkilat da qəzet buraxmağa başladı – *Droşak* qəzeti.

Partiyanın rəsmi manifestində bəyan edilirdi ki, öz məqsədlərinə çatmaq üçün inqilabçı qruplar yaradacaq və üsyanlara rəvac verəcəkdir. İnqilabçı qrupların yaradılmasını vacib sayan məqamlar rəsmi manifestdə çap olunmuşdu:

1. Döyüşən bandalar yaratmaq.
2. Xalqın inqilabi fəaliyyətini və ruhunu oyatmaq məqsədi ilə həm söz, həm də işdə bütün vasitələrdən istifadə etmək.
3. Xalqı silahlandırmaq üçün bütün vasitələrdən istifadə etmək.
4. İnqilabçı komitələr təşkil etmək və onların arasında sabit əlaqələr yaratmaq.
5. Döyüş görüntüsü yaratmaq və dövlət rəsmilərini, xəbərçiləri, satqınları, sələmçiləri və hər cür istismarçıları qorxuya salmaq.
6. Adamları və silah-sursatı daşımaq üçün nəqliyyat əlaqəsi yaratmaq.
7. Dövlət müəssisələrini talamaq və alt-üst etmək.

*(Bax: Luis Nalbandyan.* Erməni İnqilabi Hərəkatı. *1963, s.168)*

İnqilabçı Erməni Federasiyası yarandığı ilk gündən terrorçu təşkilat olmuşdur. Bu, I Dünya Müharibəsindən sonra Ermənistana nəzarəti ələ keçirmiş təşkilat idi; onlar dövlətin himayəsi altında terrorizmi bu gün də davam etdirirlər.

Birinci fəsildə qeyd olunduğu kimi, lap başlanğıcından Erməni Kilsəsi erməni terrorizminin himayəçisi olmuşdur. Fikir verin: 1882-ci





ilin dekabrında Ərzrumda yetmiş altı erəmni həbs edilmişdi. Həbs olunan həmin adamlar Vətəni Müdafiə Cəmiyyətinin üzvləri idi.

Osmanlı dövləti həmin yetmiş altı müdafiəçinin qırx nəfərini təqsirkar bildi. Terrorçu fəaliyyətlərinə görə onlara beş ildən on beş ilə qədər həbs cəzası verildi. Buna baxmayaraq, müdafiəçilərin əksəri patriarx Nerses və bişop Ormanyanın xahişi əsasında növbəti il sultan tərəfindən əfv edildi. Həbsdə saxlanılanlar isə 1886-cı ildə əfv olundular.

1895-ci ildən başlayaraq ermənilərin ardıcıl terrorçuluq seriyasına rəvac verildi. Osmanlı dövləti məlumat verir ki, terrorlar nəticəsində 1828 müsəlman kişi, qadın və uşağı öldürülmüş, 1433 nəfərdən çox adam yaralanmışdı; 8828 *müsəlman olmayan* kişi, *qadın* və uşaq məhv edilmiş, 2238 nəfər yaralanmışdı. (Bax: Hazineyi Evarak, Karton 302, # 111, iş 6, # 74.)

1895-ci ildən başlayaraq bütün şərqi Anadoluda ardıcıl surətdə erməni üsyanları və ya üsyana cəhdlər olmuşdur.

6 sentyabr 1914-cü ildə I Dünya Müharibəsi başlayanda Osmanlı hökuməti Anadoludakı əyalətlərə məktub göndərərək rəsmilərə erməni liderlərə ciddi nəzarət etməyi tapşırdı. O vaxt artıq Osmanlılar Rusiya ilə müharibə aparırdı.

Ermənilərin çoxu ordudan fərarilik etdiyi üçün 25 fevral 1915-ci ildə Osmanlı Baş Hərbi Komandanlığı onlara aid əmrlər verdi. Başqa əmrlər ermənilərin üsyana qalxmağa hazırlaşması ilə bağlı xəbərdarlıq *xarakteri daşıyırdı.*

Bir gün əvvəl isə daxili işlər nazirliyi erməni komitə mərkəzlərinin bağlanması, sənədlərinin götürülməsi və liderlərinin həbs olunması haqqında direktiv vermişdi.

30 may 1915-ci ildə Osmanlı Nazirlər Kabineti erməniləri ordunun döyüş xəttinin arxasından köçürmək haqqında qərarı bəyəndi. Fərman aşağıdakı kimi idi: "Bu ziyanverici fəaliyyətə son qoymaq üçün onu effektli əməliyyatlarla məhv etmək vacibliyi yaranmışdır. Müharibə əməliyyatlarına pis təsir etdiyinə və dövlətin təhlükəsizliyini və mövcudluğunu qorumaq üçün bu addımlar atılmalıdır." Ermənilərin köçürülməsi haqqında detallar bütün incəlikləri ilə növbəti fəsildə veriləcəkdir. Osmanlılar onları köçürərkən yalnız öz ordularına *olan real* təhlükədən çıxış edirdilər və ermənilərin köçürülməsinin

yeganə səbəbi bu idi. Bunun əksini təsdiq edən heç bir fakt yoxdur. Artıq qeyd etmişdik ki, bu məsələni digər cür sübut etməyə cəhd üçün ermənilər saxta sənədlər yaratmışlar. Xristian dünyasından pul dilənən ermənilərin "genosid sənayesi"nin bir parçası bundan ibarətdir.

Daxili işlər nazirliyinin 7 dekabr 1916-cı il tarixli məlumatında belə bir fakt vardır ki, "702,900 erməni köçürülmüş və bu məqsədlə 1915-ci ildə 25 milyon *quruş* pul xərclənmişdir; 1916-cı il oktyabrın axırına kimi daha 86 milyon *quruş* sərf edilmişdir; bu ilin sonuna kimi isə əlavə olaraq 150 milyon *quruş* xərclənəcəkdir." (Bax: Genelkurnay, ?, KLS361, mənbə 1445, s.15-22.)

Əgər türklər erməniləri soyqırıma məruz qoymaq istəsəydilər, onda nə üçün sadəcə bunu etməmiş və ermənilərin köçürülməsinə 261 milyon *quruş* pul sərf etmişdi? Osmanlı hökuməti dəhşətli maliyyə vəziyyətində idi və bu qədər pulu çöldən tapmamışdı. Heç ağlabatan deyil ki, erməniləri köçürməyə başlayaraq yol boyu onlara qarşı soyqırım törədilmişdir. Bir neçə Amerika və Britaniya vətəndaşı ermənilərin ölkəni tərk etməsinin şahidi olmuşdur (bu barədə daha geniş növbəti fəsillərdə). Kimə inanasan? Erməni terrorçularına, ya Amerika və Britaniya rəsmilərinə?



Kilsə isə silahlı qiyama öz dini xeyir-duasını vermişdi. Osmanlı Müsəlman dövlətini devirmək üçün edilən cəhdlərə kilsənin birbaşa yardımı və köməyini sübut edən çoxlu faktlar vardır.

1827-ci ildən 1923-cü ilə kimi ərazidə xristian erməniləri ilə müsəlman Osmanlıları arasında zorakı qarşıdurmanın gərgin dövrləri vardır. Bizə elə gəlir ki, hadisələrin tarixi hələ tamamlanmayıb, çünki ermənilərin müsəlmanlara hücumu haqqında heç nə çap olunmamışdır. Müsəlmanların ermənilərə hücumundan bəhs edən məlumatlar isə həmişə məqsədli surətdə şişirdilir. Orada xristianlara heç bir səbəb olmadan hücum edən türklər günahlandırılır.

Əsl həqiqət olanı isə budur ki, ermənilər türklərə türklərin ermənilərə olan hücumundan daha intensiv hücumlar etmişdir. Həm xristianlar, həm də müsəlmanlar bilirdi ki, hər iki tərəfdən ölənlərin sayı hər il artır. Onlar həm də bilirdilər ki, cəbhə xətti irəli-geri dəyişdikcə, öz həyatlarını xilas etmək üçün insanlar da köçməyə məcbur olacaqlar. Hər iki tərəf ilk öncə anlayırdı ki, müharibədə hansı tərəf qələbə çalsa, digər tərəf məhv ediləcəkdir.



Xristian ermənilərlə müsəlman türkləri arasında düşmənçilik rusların Qafqazdakı hərbi işğalları vaxtı başlanmışdır. O vaxtlar ermənilər cənubi Qafqaz və şərqi Ermənistan ərazilərində geniş səpələnmişdilər. 1800-cü ildə ermənilər yaşadıqları heç bir ərazidə əhalinin əksərini təşkil etmirdi. Hətta müasir Ermənistanın ərazisində də müsəlmanlar böyük əksəriyyət təşkil edirdilər. Ermənilər başa düşdülər ki, Rusiyanın köməyi olmadan onlar sonralar "qədim" vətən adlandıracaqları ərazidə heç vaxt müstəqil ölkə qura bilməyəcəkdilər. Maraqlıdır ki, özündən müştəbeh ermənilərin bu gün "qədim" vətən adlandırdıqları ərazidə 1800-cü ildə müsəlmanların sayı onlardan qat-qat artıq idi.

1800-cü illərin başlanğıcında ruslar hərbi işğal məqsədi ilə daha çox qərb torpaqlarını tutmağa cəhdlər göstərirdi. Onlar Osmanlı müsəlmanlarının torpaqlarını tutanda həmişə iki nəticə olurdu: neçə-neçə nəsillərinin bu torpaqlarda yaşamasına məhəl qoymadan ruslar müsəlmanları zor gücünə öz ata-baba torpaqlarından dərbədər salırdı və sonra çıxıb getmiş müsəlmanların boşaldılmış torpaqlarına xristian ermənilərini yerləşdirirdi.



1827-1829-cu illər rus-türk müharibəsindən sonra Rusiya və Osmanlılar arasında müharibə vəziyyəti az qala yüz il davam etmişdir. Həmin müharibədə və ondan sonra gələcək müharibələrdə məqsəd eyni idi. Ruslar öz hücuma keçən ordularını Osmanlı torpaqlarına yeridirdi. Osmanlı ərazisində yaşayan ermənilər isə həmişə hücum edən rusları dəstəkləyirdi. Ruslar həmin torpaqları zor gücünə ələ keçirir və yerli müsəlman əhalisinə heç bir ödəniş vermədən ev-eşiyindən qovurdular. Sonra isə ruslar həmin müsəlman torpaqlarını onların arxasınca daban-dabana gələn ermənilərə əta edirdilər.

1827-1829-cu illər müharibəsində Qafqazın İrəvan qəzasında müsəlman və xristianlar arasında xeyli əhali dəyişdirilməsi aparılmışdı. 1855-1856 və 1877-1878-ci illərdəki rus-türk müharibələrində xeyli xristian ermənisi Osmanlı İmperiyasından hərəkətə gələrək indi Ermənistan adlanan ərazidə məskunlaşdı. Beləliklə, onların "qədim" vətən adlandırdığı ölkənin tarixi 1850-ci illərin ortalarından başlayır.

1864-cü il ərəfəsində ruslar Qafqaza nəzarəti ələ keçirmişdi. Bu dövrdən sonra onlar yerdə qalan müsəlmanların da zorla

köçürülməsi proqramını həyata keçirməyə başladılar. Onların əsas məqsədi Rusiya kilsəsinə itaət edən xristianlardan ibarət ərazi yaratmaq idi.

"Ruslar elə bir hücum və repressiya sistemi düzəltmişdi ki, müsəlmanların öz ata-baba yerlərində qalması mümkün deyildi. Kəndlər əvvəlcə talan edilir, sonra dağıdılırdı. Mal-qara və yaşamaq üçün vacib olan hər şey onların əlindən alınırdı. Rusların metodu zorla miqrasiyanın klassik sistemi idi və sonralar dəfələrlə Qafqazda və Balkanlarda təkrar ediləcəkdi – evləri və əkinləri xaraba qoy və çıxıb getməkdən və acından ölməkdən savay heç bir imkan vermə." (7) Müasir Azərbaycanın işğalında ermənilər həmin vəhşi sxemi davam etdirirlər!

1867-ci ildə Britaniya konsulu Qrifford Palqreyv Qafqazın Abxaziya ərazisindən at ilə keçirdi. O, məlumat vermişdir: "Rus olmadıqları üçün cinayətkar sayılan millətin ölüb getməsinə şahidlik etmək çox ağrılıdır." (8)

Ruslar müsəlman türklərini öz ev-eşiyindən və torpaqlarından qovandan sonra zavallı adamlara digər düşmənlər hücum çəkdi – xəstəlik və ərzaq çatışmazlığı. Xristian Rusiya işğalçıları öz qədim vətənlərini tərk edən müsəlmanlara heç bir kömək göstərmirdi. Ona görə də, təəccüblü deyildir ki, bərk ehtiyac içində olanların əksəri Osmanlı İmperiyasında əmin-amanlığa çatmamış yollarda tələf olurdu.



1915-ci ildə Osmanlılar üsyanlara başladığına və türkləri öldürdüklərinə görə erməniləri ölkədən qovanda ermənilər haray-həşir qaldırdılar ki, onlara normal münasibət bəslənməyib, yardım və kömək edilməyib. Əslində isə, müsəlmanlar heç bir yardım və ərzaq almadan zorla qovulanda və həmin torpaqlar ermənilərə peşkəş veriləndə heç bir erməni onlara kömək üçün barmağını da tərpətməmişdi. Çox ikili standartdır.

Erməni diktator siyasi təşkilatları inanırdı ki, madam ki, onlar Osmanlıları məğlub etməkdə ruslara yardımçı olublar, onda ruslar onlara Rusiyanın içərisində müstəqil dövlət yaratmağa icazə verəcəkdir. Britaniyanın səfiri Layard bu vəziyyəti çox düzgün şərh etmişdir. O, başa düşürdü ki, xristian erməni inqilabçıları özlərini aldadırlar. Səfir anlayırdı ki, əgər Rusiya Osmanlıları məğlub etmişdisə, deməli, rus ayısı erməniləri iştahla içəri ötürəcəkdi. (9)



Xəstə düşüncənin nəticəsi olan inanca görə on doqquzuncu əsrin son iyirmi ili ərzində şərqi Anadoluda yaşayan xristianların üsyanları olur və Osmanlı erməniləri ilə Osmanlı müsəlmanları arasında qanlı toqquşmalar baş verirdi. Erməni quldurları Osmanlı kəndlərini qırıb-çatır, müsəlmanlar cavab verəndə isə öz növbəsində ermənilər qırılırdı.

Bu vətəndaş müharibəsində hər iki tərəfdən neçə adamın öldürülməsini bilmək üçün yol yoxdur. Buna baxmayaraq, buradakı xristianlar və müsəlmanlar arasındakı nifrətin dərəcəsini öyrənmək üçün soyqırım və əks-soyqırımın saysız-hesabsız olduğu qeyd edilməlidir.

Osmanlı hökumətini erməniləri döyüş xətlərindən köçürmək qərarına gətirən müharibə 2 noyabr 1914-cü ildə başlandı. Həmin gün rus qoşunları Osmanlıların sərhəd ərazilərini işğal etdilər. Növbəti yaz ağzı rus hücumunun qarşısında Osmanlıların cüzi qüvvələri dayanmışdı.

Rusların Osmanlı torpaqlarına hücumu davam etdikcə onlarla birlikdə müştərək cəhdlər göstərən erməni üsyançıları şərqi Anadolunun hər yerində qarmaqarışıqlıq salırdılar. Aprelin 13-də bir erməni quldur dəstəsi Osmanlı şəhəri Van üzərində nəzarəti ələ keçirdi və ta 31 may 1915-ci ildə ruslar bu şəhərə girənə kimi əhalinin demək olar ki, hamısını məhv etdi! Avqustun 4-də Osmanlılar rusları və erməniləri qovmaq üçün Van şəhərinə kifayət qədər qoşun dəstələri göndərə bildilər. Van şəhərinin zəbt edilərək ruslara təslim olunmasında ermənilər fəal iştirak etdikləri üçün bütün erməni əhalisi şəhərdən çıxan və geri çəkilən rus ordusunun arxasınca düşdü. Osmanlılar Vana daxil olanda yandırılıb külə dönmüş şəhər gördülər!



Van şəhərindəki üsyan ermənilərin yeganə uğuru idi. Digər üsyanlar ərzində onlar hücum etdikləri heç bir Osmanlı şəhərini tuta bilməmiş, lakin xeyli türk öldürmüşdülər. Ermənilərin bu hərəkətləri Osmanlıların müharibə fəaliyyətlərinə ciddi zərbə vurmuşdu.

Osmanlılar rus və erməni qüvvələrini geri oturdandan sonra da şərqi Anadoluda türklərin arasında yaşamaqda davam edən ermənilər yenə də ruslara kömək üçün cəhdlər göstərir, Osmanlıların döyüş xətlərinin arxasında tez-tez vur-və-qaç partizan reydləri keçi-

rirdilər. Bu hərəkət ermənilərin döyüş xətləri yaxınlığından ölkənin içərilərinə köçürülməsi haqqında Osmanlı hökumətinin qərar verməsində həlledici oldu. Məgər özünü müdafiə etmək istəyən hər hansı bir xalq eyni cür hərəkət etməzdimi?

Qeyd etmək lazımdır ki, I Dünya Müharibəsinin başlanması daxildəki ermənilərin və türklərin müharibəsinin son fazasının da başlanğıcı oldu – bu müharibə vəziyyəti ilk olaraq 1820-ci illərdə başlanmışdı. Yüz il ərzində Qafqazdakı və şərqi Anadoludakı ermənilər və türklər arasında dəhşətlərin bütün növləri baş vermişdi. I Dünya Müharibəsi ərzində ermənilərin təcavüzkar davranışı nəticəsində Osmanlı dövləti həmin zorakılığın qarşısını almaq üçün çox az iş görə bildi.

Tarixçi Castin MakKarti ermənilərin vəhşi hücumundan sağ çıxmış müsəlmanların sözlərinə əsaslanaraq qeyd edir ki, uzun müddətli nifrət at oynadırdı. Hər yerdə vəhşicəsinə zorlama və işkəncə baş alıb gedirdi, ölüm adi hal idi. 1877-1878-ci illərdə Avropadakı rus-türk müharibəsində və Balkan müharibələrində müsəlmanlara qarşı törədilmiş vəhşiliklərdən də betərli olaraq I Dünya Müharibəsi ərzində ermənilərin şərqdə yaşayan müsəlmanlara olan hücumları döyüşməkdən daha çox öldürməyə yönəlmişdi.



Erməni üsyançıları yaxşı təşkil olunmuş və rus silahları ilə təchiz edilmişdi. 1915-ci ilin martı üçün erməni silahlı qüvvələri Osmanlı İmperiyasında inqilaba başlamağa hazır dayanmışdı. Lazımi işarə veriləndə Vandakı ermənilər polis məntəqələrini və müsəlman evlərini atəşə tutdu. Ermənilər öz silah-sursatını məxfi halda şəhərə gətirdikləri üçün onların hücumu kütləvi təəccübə səbəb oldu.

Ermənilər dərhal Van şəhəri üzərində nəzarəti ələ keçirib müsəlman məhəllələrini yandırmağa və əsir tutduqları müsəlmanları öldürməyə başladılar. Bütün şərqi Anadolu ərazisində hücuma keçən ermənilər eyni taktikadan istifadə edirdilər.

Bu hücumlar da xristianların Balkanlardakı hücumları kimi eyni üsulla aparılırdı – ilk növbədə müxalifət yarada biləcək fərdləri öldürmək! Müsəlmanlara aid olan hər şey məhv edilirdi. Bütün məscidlər yandırılırdı. Hər şəhərin geniş müsəlman məhəllələri yandırılıb külə çevrilirdi. Yalnız yararlı-bahalı binalara əl vurmurdular.

Kiçik müsəlman kəndlərinə də hücum edilirdi. Müsəlmanlar apa-



ra biləcəkləri əşyaları götürüb qaçmağa məcbur edilirdi. Kəndlərdən kənarda yollarda isə onları soymaq, öldürmək, qadınları isə zorlamaq üçün digər ermənilər gözləyirdilər. Diri qalanlar canlarını xristian ermənilərdən qurtarmaq üçün ac-yalavac və münasib əyin-başı belə olmadan qaçıb xilas yolları axtarırdılar. Bu zamanlar kəndlərdə çox az sayda cavan oğlanlar qalmışdı – cavanların çoxu Osmanlı ordusuna çağırılmışdı.

Osmanlıların cavabı çox çəkmədi. Dövlət rəsmiləri başa düşdülər ki, erməni quldurları ruslara xidmət göstərir. Yerli erməni əhalisi də həmin quldurları dəstəkləyirdi. Şərqi Anadoluda yaxşı planlaşdırılmış və əlaqəli hücumlar nəticəsində Osmanlı hökuməti itaətsizlik göstərən insanlarla problemi tez həll etdi. 26 may 1915-ci ildə erməniləri döyüş zonasından uzaqlaşdırmaq haqqında ilk fərmanlar verildi.

Osmanlı dövlətinin fərmanlarına nəzər saldıqda onların nə etmək istədiyi aydın görünür – erməniləri dinc üsullarla köçürərək yeni torpaqlarda məskunlaşdırmaq. Bu gün ermənilər "damğalayırlar" ki, erməniləri qırıb-çatmaq haqqında guya digər məxfi fərmanlar olmuşdur. Tarix sübut edir ki, bu yalançı bir hay-küydür və ermənilərə kömək edilməsi üçün dünyanın xristian xalqlarından daha çox pul və yardım qoparmaq məqsədilə uydurulmuş əhvalatdan başqa bir şey deyildir.



Əsl həqiqətdə, əsas problem o idi ki, Osmanlı hökuməti elə zəif düşmüşdü ki, erməniləri köçürmək üçün canlı qüvvəsi çatmırdı. Ermənilərin hərəkəti və müdafiəsinin məsuliyyəti yerli rəsmi nümayəndələrin üzərinə qoyulmuşdu ki, onların da öz növbəsində qoşun və təchizat problemləri var idi.

Erməni quldurlarının partizan mübarizəsinin və cəbhədə rusların atəşinin əhatəsində olan yerli hökumət dairələri çoxsaylı insanların nəhəng köçürülmə əməliyyatını yerinə yetirməli idi. Yerli rəsmilərin əlinin altında isə "daimi polis nəfərləri" adlandırıla bilən azsaylı adamlardan savay heç nə yox idi.

Yerli rəsmilər seçim qarşısında qalmışdılar. Onlar ermənilərin böyük qruplarını güclü mühafizə altında köçürərək onların şəhər və kəndlərini erməni quldur dəstələrinin qarşısında müdafiəsiz qoya bilər, ya da köçməyən yerli əhalinin mühafizəsini həyata keçirə bilərdilər. Yerli rəsmilər ən düzgün yolu seçdilər. Onlar öz kiçik polis

qüvvələrini dövləti cinayət işlətdiklərinə görə köçürülən erməniləri müşaiyət etmək üçün göndərməyərək, həmin qüvvələri sonralar erməni quldurlarının hücum edəcəkləri Osmanlı şəhər və kəndlərinin müdafiəsində saxladılar.

Ermənilərin müdafiəsinin bütün məsuliyyətini Osmanlı hökuməti daşıyırdı. Lakin tərslikdən hökumətin özünün də yerli rəsmilər kimi eyni problemi vardı. Özləri öz başlarına problem açmış satqın vətəndaşlarını qorumaq üçün onların çox az sayda əsgərə gücü çatırdı. Heç şübhə ola bilməz ki, ermənilər Osmanlı döyüş xətlərinin arxasında təchizat xətlərini dağıdırdılar. Hücuma keçən rus ordusunun qarşısını almaq üçün hər bir Osmanlı əsgərinə ehtiyac vardı. Osmanlı qoşunları üçün daha vacib olan qüvvələrin satqın erməniləri qorumaq üçün göndərilməsi mümkün deyildi. Rusiya ilə apardığı təxminən yüz illik müharibələr dövrünə əsaslanan Osmanlı hökuməti yaxşı başa düşürdü ki, əgər bu müharibədə məğlub olsa, nələr baş verə bilər. Müsəlmanlar yenidən ölkədən zor gücünə çıxarılacaq və onları heç bir rus qoşunu qorumayacaqdı. Bu, sağ qalmaq uğrunda müharibə idi.



Təhlükəsizlik tədbirlərinin azlığı satqın ermənilərin bəd əməlləri üçün qapılar açdı və illər ərzində rusların müsəlmanları zorakılıqla ev-eşiklərindən qovmasına bənzər hadisələr baş verdi. Yerli Osmanlı rəsmilərinin ermənilərdən oğurluq etməsi haqqında yazılı məlumatlar vardır. Yerli müsəlmanların əksəri bu imkana köhnə haqq-hesabları çürütmək və köçmüş ermənilərin əmlakı hesabına varlanmaq girəvəsi kimi baxırdı. Hesab hesabdır; vaxtilə ruslar əraziyə soxulub müsəlmanları zor gücünə qovanda xristianlar da eynilə belə etmişdi.

Ermənilərin üzləşdiyi ilk ən böyük təhlükəni konvoylara tez-tez hücum çəkən köçəri kürd tayfaları yaratdı. Köçən erməni qruplarına qoşuldulmuş az saylı yerli polis nəfərləri həmin hücumları dəf edə bilmirdi. Bir qayda olaraq, çoxlu ölüm hadisəsi olsa da, qadınlar oğurlansa da və adamların var-yoxu əlindən alınsa da, kürdlər erməniləri kütləvi surətdə qırmırdılar. Kürdlər ermənilərin onsuz da az olan ərzağını onların əlindən alırdı. Bundan sonra baş verən ölüm halları aclıqdan və xəstəlikdən olurdu.

Professor MakKarti müharibədən sonra Osmanlı hökuməti Britaniyanın nəzarəti altında olarkən sənədləşdirilmiş 1397 cinayət hadisəsini təqdim edir. Bu ittihamlar guya ermənilərin əleyhinə törədilmiş cinayətlər haqqında hay-küy qaldıraraq türklərə qarşı yönəldilmişdir. Öz cinayətlərinə görə bəzi şəxslər ölüm cəzasına məhkum edilərək edam olunmuşdu. (10)



Bu Osmanlı ədaləti ilə hər hansı bir rus və ya erməni faktını müqayisə edin. Baxın görün onlar müsəlmanlara qarşı törətdikləri rəsmi müharibə cinayətlərinə görə hansı ermənini və ya rusu ittiham etmiş, məhkəməyə çəkmiş, cəzalandırmışlar? Əsl həqiqət isə belədir ki, müsəlmanlara qarşı daha geniş miqyaslı cinayətlər törədilmişdir. Tarixin müəyyən kəsiyində müsəlmanların verdiyi itkilər ermənilərinkindən dörd dəfə çox olmuşdur! Müdafiəsiz müsəlmanlara qarşı törədilmiş dəhşətli cinayət hadisələrinə görə isə heç bir rus və ya erməni heç vaxt cəzalandırılmamışdır.

Osmanlı hökuməti kəskin hərbi qərar qəbul edərək erməniləri döyüş zonalarından uzaqlaşdırmağa başladı və ermənilər köçüb gedəndən sonra döyüş xəttinin arxasındakı erməni hücumlarının arası kəsildi. Yerli ermənilərin müdafiəsini Osmanlılar kəsən kimi erməni quldurları əməliyyat apara bilmədilər. Erməni liderlərinin Osmanlı dövlətinə tabe olmamaq və zəif müdafiə olunan nöqtələrdən Osmanlılara hücum edərək ruslarla əməkdaşlıq haqqında qərarı nəticəsində minlərlə erməni vətəndaşı qurban getdi.



Bu bir həqiqətdir ki, Osmanlı dövləti öz mülki vətəndaşlarını müdafiə etmək üçün cəhd göstərirdi. Lakin rusların və ermənilərin hücumları ucbatından onlar sadəcə bu iş üçün canlı qüvvə tapa bilmirdilər.

Osmanlı İmperiyasını rusların və ermənilərin əlindən alan yeganə şey 1917-ci ildəki rus inqilabı oldu. Öz vətənlərində inqilab başlandığını görən əksər rus qoşunu fərarilik edərək geri döndü. Ruslar gedəndən sonra hakimiyyəti ermənilər və onların quldur dəstələri ələ keçirdi. Ruslar çıxıb gedəndən sonra erməniləri müsəlman torpaqlarında heç nə saxlamırdı. Bu barədə tarixi məlumat aydındır.

MakKarti yazır: "Ermənilərin qısa rəhbərlik etdiyi ilk dövrdə hadisələr o vaxt üçün tez-tez rast gəlinən məcrada davam etdi – silahsız müsəlman kəndlilərinin qətli, sonralar heç vaxt gözə görünməyəcək kəndlilərin oğurlanması, müsəlman bazarlarının, qonşuluqlarının və

kəndlərinin alt-üst edilməsi, hər yanda baş alıb gedən soyğünçuluq və zorlama!" (11)

MakKartinin istinad etdiyi mənbələr xristian ermənilərinin müsəlmanlara qarşı geniş surətdə həyata keçirdiyi iyrənc siyasətin üstünü açır. Ermənilər rus silahları və avadanlığı ilə yaxşı təmin olsalar da, onlar rusları izləyən Osmanlı qoşunlarına bərabər deyildi. Erməni qüvvələrinə Osmanlı əsgərlərinin ilk hücumunda ermənilər dərhal geri çəkilməyə başladı. Sonrakı illərdə erməni qüvvələrinin dönə-dönə təkrar edəcəyi məsələ budur. Onlar ilk dəfə olaraq qarşılarında həqiqi qoşunları görən kimi silahlarını atıb pərən-pərən düşməyə başladılar.

Geri çəkilən ermənilər dərhal başa düşdülər ki, onların oxu daşa dəyib və nə onlar, nə də Rusiya şərqi Anadolunu işğal edə bilməyəcəkdir. İndi ermənilər müsəlmanlara işğal və istifadə üçün imkan daxilində az yer vermək fikrindəydi. Nəticədə ermənilər şərqi Anadoluda qoyub getdikləri yerlərdə öldürür, talayır, zorlayır və hər şeyi alt-üst edirdilər.



Osmanlı İmperiyasını tərk edərkən ermənilərin həyata keçirdiyi terrorun bariz nümunələrindən biri Ərzincandır: "Ərzincan faciə mənzərəsidir. Quyular müsəlman cəsədləri ilə doludur. Müxtəlif orqanları kəsilmiş bədənlər, əllər, ayaqlar, başlar evlərin yanındakı bağların hər tərəfinə səpələnib. Əsgərlər üç yüz iyirmi basdırılmamış meyit tapmışdı, 606 meyit quyu və xəndəklərə doldurulmuşdu; və, əlbəttə, bundan qat-qat çox adam öldürülmüşdü. Guya yol inşası üçün şəhərdən aparılmış 650 nəfər müsəlmanın taleyi məlum deyil." (12)

Öz liderlərinin dəhşətli qərarlarının nəticəsində ermənilər I Dünya Müharibəsi ərzində və müharibədən sonra xeyli əzaba düçar olmuşdur. Aclıq və xəstəlik geniş yayılmışdı və ölənlərin sayı çox idi. Heç şübhəsiz, ölümün birbaşa səbəbi ermənilərin ölkədən köçməsi və Osmanlı ordularının qarşısından qaçması idi. Bu ölümlər ermənilərin bəyan etdiyi kimi "soyqırım" və ya "genosid" adlandırıla bilməz.

Əgər tarixə düzgün xidmət etmək və obyektiv olmaq istəyiriksə, erməni ölənlərinin sayı kimi müsəlman ölənlərinin də hesabı aparılmalıdır. O adamların xristian deyil, müsəlman olması ucbatından onların böyük vəhşəti haqqında çox az həqiqət söylənmişdir. Tarixi re-



allıq isə belədir ki, öz rus xristian müttəfiqlərinin arxasınca qaçmazdan qabaq ermənilər on minlərlə müsəlmanı kütləvi qətlə yetirmişlər. Onlar bunu intiqam hissi ilə, regionu müsəlmanlardan təmizləmək ümidi ilə edir, günlərin birində şərqi Anadoluya qayıdacaqları vaxt əhalinin əksərinin ermənilərdən ibarət olduğunu bəyan etmək məqsədini güdürdülər. Həqiqət belədir ki, öldürülən müsəlmanların sayı ermənilərdən dörd dəfədən artıq çox idi!

"Hətta erməni məsələsinə dövləti maraq göstərən və erməni dövlətinin yaranmasına cəhd edən Britaniya belə formal olsa da, ermənilərin 'həm Ermənistanda', həm də Bakıda türkləri qırmasına görə onlara xəbərdarlıq etmişdi. Onlar ermənilərə demişdilər ki, əgər bu cür soyqırımlar davam edərsə, onlar bütün dünyanın rəğbətini itirəcəklər." (13)

Britaniya polkovniki A.Roulinson ermənilərin müsəlmanlara qarşı dəhşətli münasibətini müşahidə etmişdi. Polkovnik yazırdı:

*Mən bu yaxınlarda erməni silahlılarının Qars düzənliyində törətdikləri vəhşiliklər haqqında dəhşətli məlumat almışam. Onların mənə bağlı dəstələrə olan münasibətini də aydınlaşdıra biləndən sonra Zivindən Tiflisə teleqram göndərdim ki, insanlığın marağı xatirinə ermənilərə müsəlman əhali üzərində müstəqil rəhbərlik hüququ verilməməlidir. Onların qoşunları heç bir intizama tabe olmadığından və effektli nəzarət altında olmadığından ardıcıl surətdə vəhşiliklər törədirlər. Bütün bunlara görə, ədalət naminə biz də mənəvi məsuliyyət daşıyırıq. (14)*



Osmanlı İmperiyasında Amerika qüvvələrinin komandanı admiral Mark Bristol öz gündəliyində yazırdı: "Mən general Dro ilə birlikdə xidmət etmiş öz zabitlərimin məlumatlarına əsasən bilirəm ki, müdafiəsiz kəndlər əvvəlcə bombalanır, sonra zəbt edilir, qaçıb gedə bilməmiş sakinlər vəhşiliklə öldürülür, kənd talan edilir, bütün mal-qara aparılır və sonra isə kənd yandırılırdı. Müsəlmanlardan yaxa qurtarmaq üçün bütün bunlar sistematik şəkildə həyata keçirilirdi." (15)

Tarixin əsl həqiqi faktları təsdiq edir ki, Osmanlı torpaqlarının etnik təmizlənməsi prosesinə Rusiya çarları başlamışdır. Bundan sonra müsəlmanlar və xristianlar arasında nifrət artmağa başlamış-

dır, çünki təxminən yüz il ərzində zaman-zaman ruslar müsəlman yaşayış məntəqələrini və torpaqlarını tutmuş və həmin torpaqları xristian ermənilərə vermişdir.

Əgər hər hansı bir adam müsəlman olsaydı və bu vəziyyətə salınsaydı onun hiss və həyəcanları necə olardı?

Bu fəsildə və sonrakı fəsillərdə doktor Riçard G.Hovanissyanın münasibəti, habelə onun *Ermənistan Respublikası* adlı iki-və-bir-yarım-il tarixi əhatə edən dörd cildlik kitabından fikirlər olacaqdır. Bütün əsəri böyu adam bu erməni professorun tarixi təhrif edən mövqeyinin şahidi olur. I cildin giriş hissəsində o, qeyd edir: "Məni bu işə ardıcıl olaraq həvəsləndirən atam Kaspar Hovanissyan olmuşdur. Böyük bir ailənin üzvü olsa da, 1915-ci il genosidinin yeganə sağ qalmış nümayəndəsi olan atam Birləşmiş Ştatlarda öz yeni həyatına başlasa da, həmin həyat tarixi vətənin mənəvi dünyası ilə güclü təmasda olmuşdur."

III cildin giriş hissəsində Hovanissyan yazır: "Ermənistan Respublikasının tarixçisi kimi 1990-cı ildə Ermənistan Milli Elmlər Akademiyasına üzv seçilmək şərəfinə nail olanda həmin hadisədən aldığım məmnunluq çox dərin idi." Bu məmnunluq nə dərəcədə dərin olsa da, öz ailə təcrübəsinə əsasən bu gün Ermənistan adlandırdığı ərazi ilə bağlı dediklərində qətiyyən obyektiv deyil. Belə bir cəhəti də qeyd etmək lazımdır ki, Hovanissyanın dörd cildlik tarix kitabına diktator Ermənistan dövləti deyil, Kaliforniyanın vergi ödəyən vətəndaşları maya qoymuşdur.

Osmanlı İmperiyasına millətçilik Qərbi Avropadan gəlmişdir. Osmanlı İmperiyasındakı milli azlıqlar arasına kilsənin girməsi və millətçilik toxumu səpməsinin bir səbəbi Osmanlı dövlətinin hamıya din azadlığı verməsidir. Orada hər bir dini birliyə geniş muxtariyyət səlahiyyəti verilmişdi. Müsəlmanlar digər dinə tapınanların müsəlmançılığı qəbul etməsi üçün heç bir xüsusi cəhd göstərməmişdir. Bəzi kitabların və lobbi qruplarının iddia etdiyi kimi guya insanlara "zorla" İslamın qəbul etdirilməsi konsepstyasının heç bir əsası yoxdur.

Professor Hovanissyan I Dünya Müharibəsinin ərəfəsində Osmanlı İmperiyasından və Rusiyadakı Ermənistan Yaylası adlandırdığı məkandan söz açır. Həmin torpaqları təsvir edən müəllif onun Fərat çayının qərb sahilindən başlayaraq Qafqaz dağlarına və Qarabağ yüksəkliklərinə qədər yayıldığını söyləyir. Səkkiz yüz ildən artıq bir dövrdə o yerlərdə ermənilərin heç bir dövlət qurumu olmasa da, guya həmin yerlər erməni yerləridir. Hətta səkkiz yüz il əvvəl orada olmuş kiçik erməni krallığı Vizantiya İmperiyasının, ondan qabaq isə Romanların vassalı idi. Güman ki, üç min il ərzində ermənilərin heç bir həqiqi krallığı olmamışdır. Bu tarixi faktın əksinə olaraq Hovanissyan etiraf edir ki, ermənilər onun Türk Ermənistanı adlandırdığı ərazidə heç vaxt əksəriyyət təşkil etməmişdir. (16)

I Dünya Müharibəsinin tufanlı buludları qaralanda ermənilərin özlərinin üfürərək icad etdikləri Türk Ermənistanını azad etmək üçün siyasi təşkilatlar yaratdığını Hovanissyan etiraf edir. Əgər səkkiz yüz ildən artıq olan bir dövrdə Osmanlı İmperiyasının ən kiçik parçasında belə ermənilər əhalinin əksəriyyətini təşkil etməmişdisə, onda görəsən onların azad etmək istədikləri nə idi?

O, sözünə davam edərək yazır ki, ermənilər bütün səylərini şərqi Anadolunun azad edilməsinə yönəltdi. Məhz müstəqil dövlət yaratmaq istədikləri həmin torpaqların onların tarixi beşiyi olduğunu iddia etməyə başlamışdılar. Ermənilər Ermənistan İnqilabi Federasiyası adlandırdıqları siyasi təşkilat yaratdılar. Onlar açıq şəkildə etiraf edirdilər ki, Osmanlı İmperiyasını yıxmaq və ermənilərin Türk Ermənistanı adlandırdığı ərazidə dövlət yaratmaq istəyirlər. Ermənilər düşünürdü ki, bu torpaqlar onların dövlətinin mərkəzi hissəsi olacaqdır. Hələ 1890-cı ildə Erməni İnqilabi Federasiyası bəyan etmişdi ki, öz məqsəd və məramlarına yetişmək üçün terrordan istifadəyə üstünlük verəcəkdir. Həmin terrorçu bandalar bu gün də öz terrorçu siyasətini yeridir.

Hovanissyanın erməni tarixi belə adlana bilərdi: *Terror kampaniyaları – erməni yalanı.* Erməni professorunun gətirdiyi faktlar göstərir ki, Ermənistan öz terror kampaniyasını davam etdirir və həm Birləşmiş Ştatları, həm də bütün dünyanı aldadır. Aydındır ki, ermənilər özlərini beş yüz ildən artıq dinc şəraitdə yaşadıqları Osmanlılar əleyhinə müharibəyə hazırlamışdır. Ermənilərin əsas üstünlüyü orasında idi ki, onlar Osmanlıların döyüş xətlərinin arxasında yaşayır, dost və qonşu kimi qəbul olunurdu. Ermənilər bu inamdan xaincəsinə istifadə edərək, öz ölkələrini rus hücumundan qoruyan Osmanlı qoşunlarının arxasına xəncər saplayırdı.

O, "Tiflisdə yaradılsa da, Erməni İnqiabi Federasiyası özünü Türkiyə ermənilərinin azadlığına sərf etməlidir" bəyanatını verərək öz oxucularını aldadır. Aşağıdakı nümunə sübut edir ki, Hovanissyanın Erməni İnqilabi Federasiyası terrorçu təşkilatdan başqa bir şey deyildi.

Erməni İnqilabi Federasiyası haqqında K.S.Papazyan yazmışdı: "E.İ.Federasiyasının (Daşnak) yaradılmasının səbəbi üsyanlar vasitəsi ilə Türkiyə Ermənistanında siyasi və iqtisadi azadlığa nail olmaq idi." Qafqazdakı Daşnak Komitəsi tərəfindən bəyənilmiş ilkin vasitə terrorizm idi; bu, məqsədə çatmaq siyasəti və ya metodu kimi qəbul olunmuşdu. 1892-ci ildə qəbul edilmiş proqramın "vasitələr" başlığının altında yazılmışdır: "Öz məqsədinə üsyanlar vasitəsi ilə çatmaq istəyən Erməni İnqilabi Federasiyası (Daşnak) inqilabçı qruplar yaradır." 8 saylı metod belədir: "Döyüş aparmaq, dövlət rəsmilərini və tacirləri terrorizm obyektinə çevirmək." 11 saylı metod belədir: "Dövlət qurumlarını dağıntı və talanlara məruz qoymaq."

Daşnak siyasi təşkilatının banisi doktor Cin Loris Melikoff yazırdı: "Həqiqi olanı budur ki, partiya (Daşnak Komitəsi) oliqarxiya tərəfindən idarə olunurdu və onlar üçün partiya maraqları xalqın və millətin maraqlarından üstün idi. Onlar (Daşnakçılar) burjuaziya və böyük tacirlər arasında seçim aparırdılar. Nəhayət, bu vasitələr tükənəndə rus inqilabçılarının sonluq vasitələrinə ədalət donu geyindmək təlimini öyrənəndən sonra onlar terrora əl atdılar."

Erməni terrorçularının öz millətini terror etməsi haqqında şahid ifadələri vardır. Osmanlıda yəhudi vətəndaşı Albert C. Amateau tərəfindən imzalanmış yazılı izahata nəzər salın. Bu adam öz yazılı bəyanatını 11 oktyabr 1989-cu ildə Kaliforniyanın Sonorma Kaunti şəhərindəki notariat dinləməsində and içərək imzalamışdır. Mister Amateau bəyan etmişdir ki, 1906-cı ildə bir qrup varlı erməni İzmir şəhərində qətlə yetirilmişdir. Mister Hayik Balqosyan və onun dostu mister Artin Balokyan İzmirin varlı məhəlləsi olan Karataşda Balqosyanın iqamətgahı qarşısında iki kişi tərəfindən güllələnmişdir. Bir neçə gün sonra isə İzmir Bazarının mərkəzində ev əşyaları və ərzaq məhsulları satılan geniş Sivri-Ssaryan binası partladılmışdır. Nəticədə mister Akop Sivri-Ssaryan və çoxlu erməni fəhləsi qətlə yetirilmişdir. Sonra isə cinayətkarlar erməni dilində çap edilmiş məxfi məktub-





larını bir sıra erməni taciri, həkimi, hüquqçusu və memarına göndərərək onları hədələmişlər ki, əgər onlar məxfi cəmiyyətlərin liderlərinin təyin etdiyi məbləğləri "ödəməsələr", onları da Balqosyan və Sivri-Ssaryanın taleyi gözləyir.

Bitlis və Vanda rus konsulu general Mayevski idi. O, 1912-ci ildə Moskvaya aşağıdakı məlumatı verdi: 1895 və 1896-cı illərdə erməni inqilabçı komitələri buradakı ermənilərin və yerli əhalinin arasında elə şübhə yaratmışdır ki, indi bu rayonlarda hər hansı bir istilahlar aparmaq mümkün deyil. Erməni keşişlər dini təhsilə məhəl qoymamış, onun əvəzində millətçi ideyalar yaymışdır, bu isə monastrların divarlarına hopmuş və orada dini ayinlərin yerinə yetirilməsi əvəzinə müsəlmanlar əleyhinə xristian düşmənçiliyi qızışdırılır. 1895 və 1896-cı illərdə Türkiyənin əksər əyalətində baş vermiş üsyanlara səbəb nə erməni kəndlərindəki aclıq, nə də müsəlmanların onlara hücumu olmuşdur. Doğrusu, bu kəndlər öz qonşularına nisbətən nəzərə çarpacaq dərəcədə varlı idi. Əslində, erməni üsyanları üç səbəbdən yaranmışdı:

1. Siyasi cəhətdən onların artmaqda olan dünyagörüşü;
2. Erməni birliyi arasında millətçilik, azadlıq və müstəqillik ideyalarının yayılması;
3. Bu ideyanın qərb dövlətləri tərəfindən dəstəklənməsi və erməni keşişləri tərəfindən onların cəhdlərinin bəyənilməsi.

Aydınca görünür ki, erməni üsyanlarının əsasında nə aclıq, nə zülm, nə də yenidənqurma arzuları dayanmamışdır. Bu işin mayasında daha çox erməni inqilabi komitələrinin və Erməni Kilsəsinin Qərb dövlətləri və Rusiya ilə əl-ələ verərək Osmanlı İmperyasının əsaslı çökümünü təmin etmək istəyi dayanmışdır. Dövlətlər tərəfindən maliyyələşdirilən missionerlər və erməni inqilabi komitələri xristianların müsəlmanlar tərəfindən qeyri-adi dərəcədə soyqırıma məruz qalması haqqında Avropada əhvalatlar uydurur və yayırdılar. Deyilənlərin tamamilə əksi baş versə də, bu əhvalatlar mətbuatda da həqiqət kimi çap edilirdi.

Ermənilər özlərinin "tarixi Ermənistan" adlandırdığı ərazilərdə əhalinin çox kiçik azlığını təşkil edirdi. 1910-cu ildə çapdan çıxmış *Encyclopedia Britannica* məlumat verir ki, ermənilər iddia etdikləri

ərazidəki əhalinin yalnız 15 faizini təşkil edirdi. Əgər güclü xarici köməklik göstərilərək türk çoxluğu o ərzilərdən köçürüləndən sonra ermənilərlə əvəz olunmazsa, Osmanlı İmperiyasının heç bir hissəsində onların müstəqillik qazanacağı mümkün deyil.

Ermənistanın həsrətini çəkdiyi bütün torpaqları professor Hovanissyan dönə-dönə Erməni Türkiyəsi, Erməni Rusiyası, Erməni yaylası və s. və i. a. adlandırır. Bu, Hovanissyanın öz kitabında etdiyi "zahiri yalan" bəyanatlarından biridir. "Erməni torpağı" iddiaları Amerikanı və bütün dünyanı aldatmaq üçün 1890-cı illərdən işlədilməyə başlanmışdır. Hovanissyanın iddiaları həqiqətə, faktlara və ya müasir sivilizasiyanın inkişafına qətiyyən əsaslanmır.

*Nyu York Herald* qəzetinin müxbiri Sidney Uitmən 1895-ci ildə Ərzrumdakı Britaniya konsulundan müsahibə almışdır. Uitmən soruşmuşdur: "Əgər erməni inqilabı bu ölkəyə gəlməsəydi, əgər onlar erməni inqilabı adlanan qarmaqarışıqlığı salmasaydı, bu qanlı hadisələr baş verərdimi?" Britaniya rəsmisinin cavabı belə olmuşdu: "Əlbəttə yox. Əminəm ki, heç bir erməni öldürülməzdi." Uitmən erməni mövzusunda yazan az qrup müəlliflərdəndir ki, erməni inqilabi cəmiyyətlərinin məqsədi haqqında açıq-aşkar yazaraq göstərir ki, onlar inqilab törətmək istəyirdilər və metodları terror idi.



## MÜASİR TÜRKİYƏ TORPAQLARINA DAHA ÇOX KİM İDDİALIDIR - KEÇMİŞİN BÖYÜK SİVİLİZASİYALARI VƏ YA ERMƏNİSTAN?

Müasir Türkiyə qədim torpaqdır. Sübut olunmuşdur ki, hələ 400,000 il əvvəl burada insanlar yaşamışdır. Xristian Bibliyasında qeyd olunur ki, bu Kiçik Asiya adlanan torpağa iyirmi doqquz böyük sivilizasiya gəlmiş və getmişdir.

Balaca Ermənistan krallığı tarixin qısa bir kəsiyində mövcud olmuş, sonra isə dağılmışdır. Onu heç cür böyük sivilizasiya kimi dəyərləndirmək olmaz. Həmin sivilizasiya müasir Türkiyənin bir hissəsində mövcud olmuşdur. İndi özünüz deyin: Kiçik Asiyaya Ermənistandan daha çox kimin hüququ vardır?

Buranı Hittite Türkiyəsi, Hittite Rusiyası və ya Hittite yaylası adlandır, dəxli yoxdur. Hər halda, ermızdan əvvəl 2000-ci ildən 600-cü ilədək burada Hittite mədəniyyəti aparıcı rol oynamışdır. Xristian Bibliyasının birinci kitabı olan Genezisdə Hitttitelər haqqında qeyd vardır. Bibliyanın heç bir yerində ermənilər xatırlanmır. Yaxşı, bu torpağa Hittitelərin iddiası daha çox olmalıdır, ya ermənilərin?



Əgər siz erməni professorunun məntiqinə əsaslanacaqsınızsa:

- Orada Frigiya Türkiyəsi–Frigiya Rusiyası və Frigiya yaylası ola bilərdi.
- Orada Urartu Türkiyəsi–Urartu Rusiyası və Urartu yaylası ola bilərdi.
- Orada Lidiya Türkiyəsi–Lidiya Rusiyası və Lidiya yaylası ola bilərdi.
- Orada Traki Türkiyəsi–Traki Rusiyası və Traki yaylası ola bilərdi.
- Orada Qalisiya Türkiyəsi–Qalisiya Rusiyası və Qalisiya yaylası ola bilərdi.
- Orada Fars Türkiyəsi–Fars Rusiyası və Fars yaylası ola bilərdi.
- Orada Yunan Türkiyəsi–Yunan Rusiyası və Yunan yaylası ola bilərdi. Əslində, I Dünya Müharibəsindən sonra yunanlar müasir Türkiyənin böyük bir hissəsini zəbt etməyə cəhd göstərdi, lakin yeni milli türk ordusu onları ölkədən qovdu. İndi yunanlar bu gün həmin torpaqlara Yunan Türkiyəsi və ya Yunan yaylası adlarını vermir.
- Orada Roma Türkiyəsi–Roma Rusiyası və Roma yaylası ola bilərdi.
- Orada Bitiniya Türkiyəsi–Bitiniya Rusiyası və Bitiniya yaylası ola bilərdi.
- Orada Treys Türkiyəsi–Treys Rusiyası və Treys yaylası ola bilərdi.
- Orada Aeolian Türkiyəsi–Aeolian Rusiyası və Aeolian yaylası ola bilərdi.
- Orada İonian Türkiyəsi–İonian Rusiyası və İonian yaylası ola bilərdi.
- Orada Karian Türkiyəsi–Karian Rusiyası və Karian yaylası ola bilərdi.

• Orada Qalatia Türkiyəsi–Qalatia Rusiyası və Qalatia yaylası ola bilərdi.

• Orada Kappadokia Türkiyəsi–Kappadokia Rusiyası və Kappadokia yaylası ola bilərdi.

• Orada Lisia Türkiyəsi–Lisia Rusiyası və Lisia yaylası ola bilərdi.

• Orada Pamfiliya Türkiyəsi–Pamfiliya Rusiyası və Pamfiliya yaylası ola bilərdi.

• Orada Suriya Türkiyəsi–Suriya Rusiyası və Süriya yaylası ola bilərdi.

• Orada Kommagen Türkiyəsi–Kommagen Rusiyası və Kommagen yaylası ola bilərdi.

• Orada Pontus Türkiyəsi–Pontus Rusiyası və Pontus yaylası ola bilərdi.

• Orada Vizantiya Türkiyəsi–Vizantiya Rusiyası və Vizantiya yaylası ola bilərdi.

• Əlbəttə ki, orada Osmanlı Türkiyəsi–Osmanlı Rusiyası və Osmanlı yaylası ola bilərdi.



Bu siyahını elə hey uzatmaq olar.

Məgər gülməli deyil ki, insanların balaca bir qrupu bu torpaqları Erməni Türkiyəsi və Erməni yaylası və s. kimi adlandırır? Bu, ermənilərin başqalarını aldatmaq və bu cür iddialarla yalan söyləyərək Amerikadan və dünya ölkələrindən pul qopartmaq istəyindən başqa bir şey deyildir. Onlar özlərinin "genosid sənayesini" yarada-yarada terrorçu kampaniyalara əl atır və xristian dünyasını aldadaraq pul çırpışdırırlar.

Bu da erməni professorun öz kitabındakı bəyanatlarını necə "maskalamasının" ikinci nümunəsi:

Özünün dörd cildlik tarix kitabı boyu professor konkret şəhərin müasir adı olan "İstanbul" sözünü deyil, "Konstantinopol" sözünü işlədir. Konstantinopol adı 1453-cü ildə İstanbul sözünə çevrilmişdir – Kolumbun Amerikanı kəşf etməsindən otuz doqquz il qabaq! Əgər Hovanissyan hamıya yaxşı məlum olan bu tarixi məlumatı bilmirsə, ona tarixçi professor kimi necə inanmaq olar?



İstanbul şəhərinin əsası eramızın 330-cu ilində Konstantin tərəfindən yenidən qoyulmuşdur (bu, Roma İmperiyasının sonlarına yaxın baş vermişdi); əvvəlcə onun adı Denterra Roma, və ya İkinci Roma qoyulmuşdu. Həm də Nea Roma, mənası Yeni Roma deməkdir. Konstantin tərəfindən dünyanın ən böyük kilsəsi olan Müqəddəs Sofiya kilsəsinin tikildiyi həmin vaxtlar xristian dünyasının ən yüksək mərhələsi idi. Bundan sonra Katolik Kilsəsinin mərkəzi burada yenidən yaradıldı.

O dövrün vizantiyalıları şəhəri Konstantinopol adlandırmırdılar. Əksinə, çox kiçik ölçülərinə görə onlar onu sadəcə *polis* (şəhər) adlandırırdılar. Onlar "şəhərə" demək istəyəndə *"eist enpolin" (is-tin-o'polin)* söyləyirdilər və İstanbul sözünün mənşəyi də buradan gəlir. Son dövrlərin tədqiqatları göstərmişdir ki, əgər Vizantiya dövründə İstanbul sözü işlənmirdisə, hər halda on birinci əsrdə işlədilirdi və türklər bu şəhəri həmin adla tanımışlar.

Kolumbun Amerikanı kəşf etməsindən azı əlli il qabaq dünya xalqları İstanbul sözünü işlədirdi. "Mədəni dünyanın" İstanbul sözünün istifadəsindən imtinası ya nadanlıqdır ya da müştəbehlik. Konstantinopol sözünün əsas mənası isə "xristian" deməkdir. Əgər müasir Türkiyə vətəndaşlarının 98 faizinin müsəlman olduğunu nəzərdə saxlasaq, bu sözün işlədilməsi böyük bir millətin qəlbini incitmək üçün hesablanmış cəhddir. Bu, xristian iddiasının bütün türk millətinin əleyhinə yönəldiyini sübut edir. Məgər xristianlar başqa yerləri 548 il əvvəlki adı ilə çağırardılar? Bilərəkdən edilmiş bu səhv təqdimat oxuculara onun müəllifinin necə keyfiyyətsiz alim olduğunu faş etmirmi?



Hovanissyan özünü yer üzünün ilk xristian milləti adlandıran azsaylı erməni bandasının bütün dünyadan aldığı maliyyə təminatı haqqında da yazmışdır. Əsl həqiqətdə o, xristian/etnik kartından məharətli oyunbaz kimi istifadə edən ermənilərin fırıldaq yolu ilə kilsələrdən və milli hökumətlərdən milyardlarla dollar pul çırpışdırması haqqında məlumat verir. Əvəzində isə bu cırtdan ölkə terror kampaniyalarına rəhbərlik edir.

İrqi və dini nifrət çoxdan arxada qalasıydı. Sivil dünyamızda etnik təmizləmə günləri başa çatmışdır. Əsl həqiqətdə isə hətta müasir günümüzdə Ermənistan öz qonşusu Azərbaycanın ərazisinin 1 milyondan artıq müsəlman yaşamış 20 faizini qamarlamaq istəyir. Bu

məqsədə çatmaq üçün onlar Rusiyadan aldıqları 1 milyard dollarlıq hərbi yardımdan (1988-1994) və Birləşmiş Ştatlar hökumətinin 1.4 milyard dollarlıq ümumi pul yardımından (1991-2001) və bütün dünya kilsələrindən alınmış saysız-hesabsız milyonlarla dollar puldan istifadə edirlər. Məhz bu pulların və hərbi yardımın hesabına Ermənistan Azərbaycana hücum edərək 1 milyondan artıq müsəlmanı öz yurdlarından qovmuş, xristian olmayanların etnik "təmizlənmə"sini aparmış və torpaqları müftə-müsəlləm ələ keçirmişdir. 1915-ci ildə öz millətinin buna bənzər köçürülməsini ermənilər "genosid" adlandırırlar. Lakin onlar 1992-ci ildə daha betər oyunu eyni sayda müsəlmanların başına gətirəndə onu xristian olmayanlardan torpaq "təmizlənməsi" adlandırır və beləliklə, bunu mümkün hadisə hesab edirlər.

Hovanissyan iddia edir ki, 1914-cü ildə Rusiyada rusların, gürcülərin və müsəlmanların arasında 2 milyon erməni dinc şəraitdə yaşayırdı. O, sözünə davam edərək yazır (s.2): "...Türkiyədə yaşayan təxminən 2 milyon erməni isə Rusiya İmperiyasındakı ermənilərə nisbətən daha geniş əraziyə səpələnmişdi. Onlar Konstantinopolda, sahil şəhərlərində, on birinci əsrdən on dördüncü əsrə kimi erməni knyazlığı və krallığı olmuş Aralıq dənizi boyundakı münbit torpaqlı Kilikiyada nəzərəçarpacaq element idilər. Belə geniş əraziyə səpələnmələrinə baxmayaraq, Türkiyə ermənilərinin çoxu öz tarixi yaylasındakı torpaqlarda məskunlaşmışdı ki, orada isə Sivas, Ərzrum, Xarput, Diyarbəkr, Bitlis və Van kimi altı şərqi Osmanlı vilayəti yaradılmışdı. *(Oxucular üçün qeyd: Hovanissyanın dörd cildlik seriyasına çoxsaylı müraciətimizlə bağlı olaraq hər bir fəsildəki ilk sitatın yeri göstəriləcək, sonrakı nümunələrdə isə yalnız səhifə nömrələri yazılacaqdır.)*

O, tarixi həqiqəti açıq-aydın şişirdərək ermənilərin sayını daha 500,000 nəfər artırır. 1915-ci ildə bütün yer üzündə heç o qədər erməni yaşamırdı. Nəzərə alın ki, Osmanlı torpaqlarında 2 milyon ermənininin yaşadığını iddia edən Hovanissyan heç bir mənbəyə istinad etməmişdir. Oxucu 1915-ci ildə Anadoluda ermənilərin yaşaması haqqında təxminən on tarixçiyə istinadən verilmiş məlumatla kitabın birinci fəslində artıq tanış olmuşdur. 1915-ci il zaman kəsiyindən bəhs edən heç bir tarixçi orada yaşayan ermənilərin sayını 1.5 milyondan artıq göstərməmişdir. 2 milyonluq "erməni nəfəri" heç bir tarixi fakta əsaslanmır, bu soyqırım cinayətlərini şişirtmək üçün Hovanissyanın təqdim etdiyi saxtakarlıqdan başqa bir şey deyildir.





Hovanissyan qeyd edir: "...On doqquzuncu əsrin axırlarında Vanda yaşayan erməni icması qanun və iqtisadi sahələrdə islahatlar aparmağa başladı. Konstantinopol və Kilikiyada xüsusilə nüfuzlu olan Hunçak İnqilabçı Partiyası (sonralar Hunçak Sosial Demokrat Partiyası) müstəqil Ermənistan dövləti yaratmaq üçün qara-qışqırıq qaldırmışdı. Öz şəbəkəsini Qafqazdan Türkiyə Ermənistanına genişləndirmiş Daşnaksütyun Osmanlı İmperiyasında yaşayan ermənilərin müstəqilliyi, habelə məkrlə düşünülmüş sosial və iqtisadi dəyişikliklər tələbi ilə təzyiqini gücləndirirdi." (s.9)

Professor Hovanissyan Osmanlı dövləti haqqında yazır ki (s.11), "I Dünya Müharibəsi imperiya üçün ermənilərdən yaxa qurtarmaqla erməni məsələsini həll etmək imkanı yaratdı..." O, sözünü yekunlaşdıraraq qeyd edir: "1915-ci ilin aprelində nazirlər kabinetinin əksər üzvü tərəfindən müdafiə olunan Osmanlı İmperiyasının Daxili İşlər naziri Tələt Paşa ermənilərin döyüş zonasında məskunlaşdığını və düşmənə yardım etdiyini və digər şərait yaratdığını bəhanə gətirərək, onların şərq vilayətlərindən [şəhərlərindən] köçürülməsi haqqında əmr verdi." (s.12)

Məsələnin həqiqi cəhəti isə burasındadır ki, ermənilərin sıx yaşadığı yerlərdən, döyüş xətlərinin arxasından onlar Osmanlılara hücum edirdilər. Bu ermənilər min illər ərzində müqavimət hərəkatlarının tarixin sınağından çıxmış vur-və-qaç taktikasının mahir ustası idi. Ermənilərin sədaqətinə inanmamağa Osmanlıların tutarlı səbəbi var idi. Hovanissyan bu əsas tarixi fikrin üzərindən sükutla keçir.

O, bəyan edir: "... 'köçürmə' və 'soyqırım' arasında fərq yox idi." (s.13) O, həm də hökm verir ki, "saysız-hesabsız qadınlar və uşaqlar müsəlman evlərinə nökərçiliyə götürülür, müsəlmançılığı qəbul etməyə məcbur olunurdu." (s.13) O, sözünə davam edərək yazırdı ki, "Vanda yaşamış təxminən 200,000 erməni vilayəti [Vanı] tərk edərək sərhədlərə sığışmayan faciə dalğası ilə birlikdə Zaqafqaziyaya axışdı."

Hovanissyanın gətirdiyi rəqəmlər necə düzgün ola bilər? O, iddia

edir ki, Osmanlılar müharibə zonasındakı altı əyalətdən təxminən 1 milyon ermənini köçürmüşdür. Sonrakı fəsillərdə Hovanissyan bəyan edir ki, 500,000 erməni qaçqını rus Ermənistanına köçmüşdür. Əlavə olaraq, "saysız-hesabsız qadınlar və uşaqlar müsəlman evlərinə nökərçiliyə götürülür və müsəlmançılığı qəbul etməyə məcbur olunurdu." Yaxşı, onda indiki ermənilərin iddia etdiyi guya 1.5 milyon erməni necə öldürülə bilərdi? Axı, elə professorun özü iddia edir ki, Osmanlı İmperiyasında təxminən 2 milyon erməni əhalisi yaşayırdı. Müharibə zonasında yaşamayan ermənilər ki, heç yerə köçürülməmişdi!

Hovanissyanın rəqəmləri sadəcə olaraq artırılmır. Bu erməni tarixçisinin təqdim etdiyi rəqəmlər erməni keşişlərinin Osmanlıların erməniləri genosidə düçar etməsi haqqında iddia etdikləri rəqəmlərlə düz gəlmir. Sonrakı fəsillərdə Hovanissyan təxminən 2 milyon ermənin Osmanlı torpaqlarını sağ-salamat qaçqın kimi tərk etməsini öz gözləri ilə görmüş amerikalı şahidlərin adlarını verir.

Heç öz faktlarını yoxlamaq üçün də Hovanissyan vaxt ayırmamışdır. Kitabın bir yerində onun çoxsaylı qətl və soyqırım yaratmaq ehtiyacı olur. Kitabın digər yerində isə, qaçqınların dəhşətli vəziyyətini göstərmək ehtiyacı yarananda, o, digər rəqəmlər silsiləsinə əl atır. Hovanissyanın unutduğu bircə məsələ varsa, o da 1915-ci ildə Osmanlı İmperiyasında yaşayan ermənilərin sayının 2 milyon olmasını göstərməsidir. Öz tarix kitabının hər yerində o, həm "genosid"ə məruz qalanların, həm də "qaçqınlar"ın sayını eyni rəqəmlə təqdim etmişdir. Əsl həqiqət isə budur ki, Osmanlıların satqın erməniləri köçürməsini 1915-ci ildən bu günə kimi ermənilər əvvəlcə "qırğın", indi isə "genosid" adlandırırlar. Güman ki, ermənilər bu sözlərin arasındakı fərqi bilmirlər. Onlar çoxsaylı insanların soyuqqanlılıqla qətlə yetirilməsini nəzərdə tuturlar. Osmanlıların döyüş xətlərinin arxasındakı ermənilər öldürülməyib. Öz qanuni hökumətlərinə qarşı satqınlıq etdikləri üçün onlar köçürülmüşdür.

Bu gün erməni-amerikanlar II Dünya Müharibəsində yəhudilərə qarşı törədilmiş faşist genosidi ilə müqayisələr aparır. Onlar belə bir tarixi faktı yaddan çıxarırlar ki, Osmanlılar vaxtilə onların əcdadlarına nə İstanbulda, nə də digər ərazilərdə toxunmamışdılar. Söhbət yalnız rus ordusu ilə döyüş xəttinin arxzasında yaşayan ermənilər-





dən gedir ki, onlar da genosidə deyil, köçürülməyə məruz qalmışdır. Nasistlər isə heç yerdə heç bir yəhudini əldən buraxmır və tapa bildiyi hər yəhudini ölüm düşərgələrinə daşıyırdı; 5 milyondan artıq yəhudi dövlətin əmri ilə öldürülmüşdür. 1915-ci ildə ermənilər belə hadisəyə məruz qalmayıb.

Belə fakt mövcuddur ki, həmin dəhşətli vaxtlarda minlərlə erməni dünyasını dəyişmişdir. Çoxlu türk də eyni aqibətlə üzləşmişdir. Həm Osmanlıların, həm də ermənilərin böyük məşəqqətə düçar olmasına isə bir qrup özündən müştəbeh erməni lideri baisdir – onlar müftə-müsəlləm torpaq ələ keçirmək istəyirdilər və müharibəni də bunun üçün başlamışdılar.

Erməni professoru "xristian" ermənilərinin həyatını açıq-aşkar yüksək dəyərləndirir, "müsəlman" türklərini isə əks qütbdə götürür. Ən kədərlisi budur ki, "mənim" xalqımın həyatı "sənin" xalqının həyatından daha qiymətlidir münasibəti tarix boyu neçə-neçə dəhşətli müharibələr doğurmuşdur. Erməni xristianlığı ondan xəcalət çəkməlidir ki, həm müsəlmanlar, həm də xristianlar eyni Allaha sitayiş edirlər.

Türklərin dəhşətli ölüm-itim faktlarına professor Hovanissyan açıq-aşkar məhəl qoymür. *Ermənistan Respublikası* tam həqiqətə söykənən faktlar tarazlığından məhrum olan bir kitabdır. Daha çox tərəfkeş baxışlar, yarım-həqiqətlər və bilərəkdən səhv təqdimatlar qələmə alınmış, başqa faktlara isə ya sadəcə məhəl qoyulmamış, ya da erməniləri razı salan tarix yaratmaq üçün onlara müraciət olunmamışdır. Bu sayaq faktlara və rəqəmlərə seçim əsasında yanaşılaraq "sifarişlə-edilmiş tarix"in nə alimliklə, nə də xristianlıqla heç bir bağlılığı yoxdur.

Qeyd edilməlidir ki, 1800-cü ildə ermənilər indiki Ermənistan, Gürcüstan, Azərbaycan və Şərqi Türkiyə əraziləri boyu səpələnmişdi. Bəzi kiçik ərazilərdəki kiçik nüfuz qrupları nəzərə alınmazsa, ölkənin hər yerində ermənilər əhalinin kiçik azlığını təşkil edirdilər. Ruslar Qafqaz dağlarının cənubunu ələ keçirəndən sonra müsəlman sakinlərini öz nəzarətləri altına keçmiş ərazidən köçürtdülər. Müsəlmanlar xristianlarla əvəz olundu; ruslara xristian dövlətinə itaətkar olan əhali lazım idi. Xristian ermənilərə bu siyasətin mərkəz nöqtəsi kimi baxılır, məhz buna görə də, torpaqlarından qovulub çı-

xarılmış müsəlman sahibkarların yerinə ermənilər doldurulurdu. Bu, ermənilərə müftə-müsəlləm nəsə verilən və indi də davam edən siyasətin başlanğıcı idi.

Əsas erməni sadiqliyi kilsəyə yönəlmişdi. Çoxsaylı erməni müsəlman üsul-idarəsində yaşamaqdan bezmişdi və onları Rusiyaya gətirib boş torpaqlarla təmin etməkdə məqsəd xristian ölkəsinin bir parçasına çevirmək idi.

Belə bir cəhəti qeyd etmək maraqlıdır ki, köçürülməzdən qabaq müasir Ermənistanın qəlbi olan İrəvan Quberniyasında əhalinin əksəri müsəlman idi. Ruslar onların yerlərinə erməniləri doluşdurdu və özlərinin "tarixi vətən" adlandırdıqları torpaqlara ermənilərin gəlişi haqqında əsas həqiqi fakt budur. Onlar iddia etdikləri kimi heç də Bibliyadakı Nuhun bu yerlərdəki törəmələri deyillər, 1827 və 1878-ci illərdə bura ruslar tərəfindən gətirilmişlər.

Ruslar müsəlmanları zorla köçürən vaxtlarda çoxlu müsəlman tələf olurdu. Torpağından və əmlakından zorla qovulan müsəlmanların təxminən üçdə biri buna tab gətirməyərək ölürdü. Bu gün ermənilər bu "qədim" vətəndə necə məskunlaşmaları haqqında heç vaxt danışmırlar. Onlar çoxsaylı müsəlman ölümləri bahasına boşaldılmış torpaqlara sahib durmalarını heç vaxt dilə gətirmirlər.

1827 və 1878-ci illər arasında ruslar zor gücünə təxminən 1.3 milyon müsəlmanı köçürmüşdür. Rusiya 1828, 1854 və 1877-ci illərdə Osmanlılarla müharibələrə başlamışdır. Hər dəfə ruslar torpaqları zəbt edəcək, sonra isə geri çəkilməyə məcbur olacaqdı. Ruslar geri çəkiləndə isə xristian olmayanlara tutduqları divana görə müsəlmanların intiqamından qorxuya düşən ermənilər onlarla birlikdə çıxıb gedəcəkdi. Beləcə hər iki tərəfin nifrəti artırdı.

1890-cı illərdə şərqi Anadoluda erməni üsyanları baş verirdi. Son nəticədə çoxlu müsəlman və xristian qırılırdı. 1905-ci il Rus İnqilabı dövründə Azərbaycanda da eyni əhvalat təkrar olundu.

I Dünya Müharibəsi başlayan kimi xristianlar və müsəlmanlar arasında vətəndaş müharibəsi alovlandı. Əksərinin Rusiyada təlim gördüyü erməni inqilabçıları şərqi Anadolunun əsas şəhərlərini silah gücünə ələ keçirmək üçün cəhdlər göstərdilər. Onlar əliyalın Van şəhərini zor gücünə zəbt edərək onu rusların gəlişinə qədər saxladılar. Ermənilər şəhər və ətraf kəndlərin əhalisinin əksərini qırıb tökdülər.





Müharibə rəsmən qurtarandan sonra hər iki tərəfdən öldürmək prosesi iki il – 1920-ci ilədək davam etdi. Türk Osmanlı müsəlmanları və erməni xristianları aclıq və xəstəlikən də tələf olurdu.

Şərqi Anadoluda "rəsmi" erməni terrorizm taktikasından istifadə haqqında Avropa rəsmilərinin təqdim etdiyi çoxsaylı sənəd-sübut nümunələri vardır. Orada əslində nələrin baş verməsi haqqında çoxlu Qərb diplomatı və konsulluq nümayəndəlirinin (amerikalılar da daxil olmaqla) hesabatları vardır. Onlar belə bir nəticəyə gəlmişlər ki, üsyanları müsəlman qətllərini və qırğınlarını erməni inqilabçı cəmiyyətlər həyata keçirmişdir. Rəsmilər belə bir inamlarını etiraf etmişlər ki, ermənilərin həyata keçirdikləri kütləvi qırğınların bir səbəbi bu əraziyə Avropanın müdaxiləsini təmin etmək olmuşdur. Ermənilər həm özləri dinc sakinləri öldürür və qırğın törədir, həm də həmişə imkan tapıb özlərinin öldürülməsi haqqında vay-şivən hesabatları göndərirdilər.

Professor Hovanissyana görə,

*...Tükiyədə yaşayan ermənilərdən fərqli olaraq Rusiya erməniləri əvvəcədən müharibənin başlanmasını alqışlayırdı. Romanovların ermənipərəst siyasətinin xəttinə müvafiq olaraq onlar Türkiyə Ermənistanını təmizləyəndən sonra ermənilərə görünməmiş inkişaf vəd etmiş çar Nikolayın vassallığı altında məqam gözləyirdilər. Böyük nikbinlik içində olan ermənilər nəinki nizami rus qoşunlarına 100,000 nəfərdən artıq adam verdilər, həm də Türkiyə Ermənistanını 'azad etmək' üçün yeddi könüllü batalyon yaratdılar. Könüllülərin partizan taktikası və mürəkkəb relyefli ərazini yaxşı tanıması rusların müharibə əməliyyatlarına böyük yardım göstərirdi. Lakin 1916-cı ildə ermənilərin ümidləri kökündən laxladı. Rus rəhbərliyi gözlənilmədn könüllü birliklərin yaradılması haqqında əmr verərək ermənilən vətəndaş fəaliyyətini qanundan kənar elan etdi və ciddi mətbuat senzurası həyata keçirməyə başladı. Bu qəflətən edilmiş əsaslı dəyişiklik erməniləri təlatümə saldı.*

*...Sonralar Sovet hökuməti tərəfindən çap edilmiş rus arxiv materialları sübut edir ki, həmin çar strategiyası tamamilə məntiqi addım olmuşdur. 1916-cı ilin ortalarında Rusiya, Böyük Britaniya və Fransa Osmanlı İmperiyasının öz aralarında bölüşdürülməsi haq-*

*qında müzakirələri başa vurmuşdur. Həmin razılığa əsasən Erməni yaylasının əksər qərb hissəsi, Kilikiya və Suriya sahilyanı torpaqları Fransaya, Mesopotamiyanın əksər hissəsi və Suriyanın daxili ərazisi Böyük Britaniyaya, Konstantinopol, Bosforyanı sahillər və Türkiyə Ermənistanının əsas hissəsi Rusiyaya pay-puş ediləcəkdi. İndi tamamilə aydındır ki, Rusiyanın müharibədən sonrakı planlarında heç bir halda Türkiyə Ermənistanı haqqında muxtariyyət məsələsi olmamışdır. Əksinə, bu region Romanov İmperiyasının tərkib hissəsi kimi ilhaq olunurdu və güman ki, rus kəndliləri və kazakları tərəfindən məskunlaşdırılacaqdı. 1916-cı ilin yayı üçün Erməni yaylasına möhkəm nəzarəti ələ keçirmiş rus ordusunun ermənilərdən ötrü əlavə qayğı göstərməsinə ehtiyacı qalmamışdı. (s.14)*

Rusların öz milli maraqları naminə Osmanlı torpaqlarını işğal etməsi erməniləri nə üçün təəccübləndirirdi? Əzəl gündən bütün müharibələr məhz bu səbəbdən başlayıb – başqasının torpağını qamarlamaq! Belə bir cəhəti qeyd etmək maraqlıdır ki, ermənilər həmişə onlar üçün vuruşmaqdan ötrü digər ölkəyə yalvarmış, sonra isə döyüşlə alınmış torpağı ermənilərə verməyi ondan xahiş etmişdir. Belə şey, əlbəttə, heç vaxt baş verə bilməz, lakin ermənilər bu gün də həmin yolla gedir, daha kimlərisə onların əvəzinə müharibə aparmağa cəhd göstərirlər.

Məhz buna görə də, çar Rusiyası böyük ordu ilə gələrək türklərə qarşı döyüşəndə ermənilər özlərini xoşbəxt sayırdılar. Onlara elə gəlirdi ki, ruslar ermənilərə torpaq almaq üçün qoşun yeritmişdir, lakin çarın gəlişinin səbəbini biləndən sonra ermənilər bərk dilxor oldular. 1917-ci ildə kommunistlər Rusiya Romanovlarının üç yüz illik üsul-idarəsini devirəndə ermənilər sevinirdi. İndi ermənilər inanırdı ki, yeni kommunist Sovet Rusiyası hökuməti gələcək və onların iddia etdikləri Osmanlı torpaqlarını almaqda köməklik edəcəkdir. Əlbəttə, heç bu da baş vermədi və çox qısa müddətdən sonra kommunistlər Ermənistanı Sovet İttifaqına qatdılar.

Professor Hovanissyanın ermənilərin 1905-ci ildən başlayaraq Osmanlı torpaqlarını ələ keçirmək üçün "sxemlər" qurması faktının üstünü açması haqqında oxumaq da maraqlıdır (s.18): "...1917-ci ildə onlar Osmanlıların hansı spesifik torpaqlarının





Ermənistana aid olacağı haqqında çoxsaylı 'sxemlər' düşünməkdə davam edirdilər."

1918-ci ilin qışında kommunist Rusiya hökuməti Osmanlı İmperiyasının Türkiyə Ermənistanını yenidən tutmaq hüququnu tanıdı və onun Qars, Ərdəhan və Batuma genişlənməsini mümkün hesab etdi." (s.23)

Ermənilərin qəzəbi aşıb-daşırdı. Nə üçün? Axı, onsuz da Osmanlı türkləri bu torpaqları beş ildən artıq müddətdə zəbt etmişdi. Həmin əraziyə nəzarət üçün türklər dərhal qoşun göndərdi. Professor Hovanissyana görə, bu cəld hərəkətin səbəbi "...türklər qətlə yetirilirdi və Osmanlıların bəyan etdiyi kimi, erməni bandalarının işğal olunmuş şərq vilayətlərində müsəlmanlara qarşı amansız dəhşətlər törətməsi" idi. (s.24)

Başqa cür ola bilməzdi, lakin Ermənistan iddia etdiyi kimi, xristian ölkəsi olduğu üçün kafir müsəlmanların kökünü kəsməliydi. Hər halda, müsəlmanlar Allaha fərqli inam bəsləyirdilər – buna görə də, müsəlmanları qırıb-çatmaq onların xristian vəzifəsi idi. Osmanlılar özlərini satqın ermənilərdən qoruyanda dəhşətli genosid törətməkdə ittiham olundular. Hər şeydən əvvəl bu, öz qonşusunun torpağı üçün təşnə olan erməni uydurması idi.

Dünya xristianları üçün hər bir erməni bəyanatını yoxlamaq və onların hər bir iddiasının arxasında ucuz satışa buraxılmış yalançı nağıldan savay heç nəyin dayanmadığını öyrənmək keçmişdə qalmışdır. Bütün bunların yeganə səbəbi dünya xristianlarını barmağına fırlayıb aldatmaq və onlardan milyon-milyon dollar çırpışdırmaqdır. Öz balaca ölkəsi adından terrorçuluq fəaliyyətini həyata keçirən, lakin bunu İisus Xristin əməli kimi bəyan edən Ermənistana belə hərəkət əsla şərəf gətirmir.

ÜÇÜNCÜ FƏSİL

# ERMƏNİSTAN DİKTATOR ÖLKƏ KİMİ YARADILMIŞDIR

## ERMƏNİSTAN XALQ SƏSVERMƏSİ ƏSASINDA RESPUBLİKA OLMAMIŞDIR

I Dünya Müharibəsinin buludları çəkilməyə başlayanda ermənilərin azsaylı bir qrupu Rusiyanın dağlıq ərazisinin kiçik bir hissəsində özünü "respublika" elan etdi. Əslində müxtəlif fərdlərdən ibarət olan bu balaca banda diktatordan başqa bir şey deyildi. Hovanissyanın bəyan etdiyi kimi: "Qanunsuzluğun və əzabların arasında, əvvəllər olmamış idarəçilik və ənənələrdən qətiyyən bəhrələnmədən onlar dövlət yaratmaq qərarına gəldilər." (1) Hovanissyan həm də yazırdı ki, "ölkənin daxilində nə 'sənaye', nə də 'ticarət' mərkəzi var idi." (s. 39)

Hovanissyanın müşahidələrinə görə, "ölkə Türkiyə Ermənistanından asılı olmayan inqilabçı cəmiyyət kimi yaranaraq nə strukturu, nə də heç bir qanuni orqanı olmayan qurum idi." O, sözünə davam edərək yazırdı ki, "idarəçiliyin yeganə görüntüsü 1915-ci il Van üsyanının qəhrəmanı Aram Manukyanın rəhbərlik etdiyi İrəvan ətrafındakı kəndlərdə və 1918-ci ilin mayında tanınmış partizan komandiri Dro (Dresdomat Kanayanın qısa deyilişi) tərəfindən idarə olunan İrəvanda qalmışdı." (s.40) "Tanınmış partizan komandiri" Dro? Dro silahsız və müdafiəsiz kəndlərə uğurlu basqınlarına görə daha çox tanınmışdı! Tarixi faktlar şəhadət verir ki, əsl əsgərlərə rast gələndə Dro dabanına tüpürüb qaçırdı.

Yenu diktatorluğun ilk günündən ermənilərin öz qonşuları Türkiyə, Gürcüstan və Azərbaycanla problemlər yaratdılar. Ermənilər iddia edirdilər ki, onların təxminən 1 milyon nəfəri Gürcüstan və Azərbaycanın ərazisində yaşayır – öz millətinin yaşadığı ərazilərə və beş əsrdən tutmuş səkkiz əsrə qədər yaşamış olduğu torpaqlara təşnə olan ermənilər həmin torpaqları geri tələb edirdilər. Osmanlı torpaqlarında ermənilərin sayının azlığına baxmayaraq, onlar o torpaqlar üçün də böyük haqq-hesab iddiası ilə çıxış edirdilər.





Həm Azərbaycanda, həm də Gürcüstanda ermənilərin sıx yaşadığı kiçik ərazilər vardır. Erməni məntiqinə görə, həmin ərazilərdə yaşayan ermənilər səsvermə hüququ əsasında hər bir ölkədən ayrılıb Ermənistana birləşə bilər. Bu taktikaya əsaslansalar, onda gərək Birləşmiş Ştatlarda yaşayan yerli amerikanlar səsvermə keçirərək yaşadıqları torpaqları da götürərək Meksikaya birləşsinlər. Gürcüstana münasibətdə ermənilər ardıcıl olaraq öz millətinin ayrılmaq hüququ olması haqqında hay-küy qoparır. Birləşmiş Ştatlar bir dəfə bu cür müharibə ilə üzləşmişdi – vətəndaş müharibəsi ilə – onda cənub ştatları bütün xalqdan ayrılmaq cəhdləri göstərirdi. Onda hər iki tərəf dəhşətli itkilər vermişdi.

Ermənistan xalqın səsverməsi yolu ilə respublika olmamışdır. Hovanissyan yeni dövlətin başlanğıcı haqqında danışır: "Əvvəlki "amorf xaos"un ortasında Ermənistan qanuni yaranmanın əsasını qoydu. O vaxt seçkilər haqqında söhbət ola bilməzdi, dörd siyasi partiya müştərək Milli Şura yaratmaq və onu qanuni hökumət formasına salmaq razılığına gəldi." (s.42)

Hovanissyan məlumat verir: "Respublikanın kiçik ölçülərə malik olmasına, öz gözəl torpaqlarından məhrum olmasına və bütün vətəndaşlarını əhatə etməməsinə baxmayaraq, Ermənistanın sərhədləri heç də həmişəlik dəyişməz qalmayacaqdı." Liderlərdən biri olmuş Anetik Sahakyanın bəyanatından Hovanissyan sitat gətirir: "Mən inanıram ki, bizim işğal edilmiş torpaqlar (türk) uğrunda ədalət və qeyd-şərtsiz hüquqlarımızın müdafiəsi nəticəsində həyatın dəmir qüvvəsi ilə sərhədlərimiz genişlənəcəkdir..." (s.42)

Aşğıdakılara nəzər salın:

1. Hovanissyan Ermənistanı "respublika" adlandırır, sonra isə deyir ki, "seçkilər haqqında söhbət ola bilməzdi". Əsl həqiqətdə isə hökumət "əvvəl mövcud olmuş diktator erməni dövlətinin" aktual törəməsi idi.

2. Ermənilər doğrudan da başqasının müftə-müsəlləm torpaqlarına iddialı idi.

3. Əvvəlcə erməni liderləri "bizim işğal edilmiş torpaqlar (türk) uğrunda ədalət və qeyd-şərtsiz hüquqlarımız" çağırışları səsləndirirdi. Bu yalandır, çünki tarix boyu daha geniş torpaqlara iddialı olan iyirmi doqquz digər sivilizasiya olmuşdur. Erməni məntiqi qonşunun torpağını qamarlamaqdan başqa bir şey olmamışdır və indi də deyil. Tarix bu məqamda çox aydındır: Hovanissyanın dünyanı inandırmağa çalışdığının əksinə olaraq türklərin ermənilərdən qopartdığı torpaq olmamışdır. Osmanlı türkləri təxminən səkkiz yüz il ərzində həmin torpaqların sahibi olmuşdur. Ondan qabaq bu torpaqlar Vizantiya İmperiyasına, ondan qabaq isə Romanlara mənsub idi. Təxminən üç min il ərzindəki uzun tarixi dönəm müddətində orada heç bir "erməni torpağı" olmamışdır. Ermənilər "qədim" vətən iddiasında olduqları torpaqlarda heç vaxt əksəriyyət təşkil etməmişdir. Məsələ burasındadır ki, Hovanissyanın öz iddialarında bulunduğu indiki balaca dövlətin ərazisində ermənilər təxminən yetmiş beşcə il bundan əvvəl məskunlaşmışdır.



Bir neçə erməni millətçisinin dövlət qurmaq istəyinə baxmayaraq, uğursuzluğa düçar olmaq üçün də əsaslı problemlər mövcud idi. Öz liderlərinin siyasi korluğu sayəsində erməni xalqı dəhşətli qurbanlar vermişdir (və verməkdə davam edir).

"Dövlətin əsas məqsədi öz xalqını anarxiyanın caynaqlarından qurtararaq əminamanlığa çıxarmaq, əhalinin mülkiyyət sahibliyini təmin etmək, kommunikasiya əlaqələrini bərpa etmək və qaçqınlar problemini çözməkdir." (s.43) Orta erməni adamı üçün bu, heç vaxt baş verməmişdir. Həm o vaxt, həm də indi ermənilər öz qonşularının hesabına yaşamağa üstünlük vermişdir; kimin necə qəbul etməsindən asılı olmayaraq, xəstəlik resepti! Zor gücünə həyata keçiriləcək bu növ ideyalara meyllilik Azərbaycana qarşı Ermənistanın indiki hücumunun izahını da verə bilər.

Xarici işlərə qalınca, ermənilər "...türkləri respublikanın ələ keçirilmiş torpaq hissələrindən qovmaq və qaçqınları öz doğma kəndlərinə göndərmək" istiqamətində iş aparırlar. (s.43)

Bu bəyanatın əsas problemi odur ki, Ermənistan "respublika" deyil, diktator ölkəsi idi. Zor gücünə yaradılmış və zor gücünə idarə olunan qəribə varlıq! Ermənilər guya onların olduğunu iddia etdikləri və türklərin "işğal etdiyi" torpaqlara heç vaxt sahiblik etməmişdir. Ermənilər deyirdilər ki, onlar "qaçqınların öz doğma kəndlərinə qayıtmasını" istəyir. Bu necə ola bilər ki, bu gün ermənilər 1915-ci ildə "doğma kəndlərində" türklər tərəfindən 1.5 milyon soydaşının öldürülməsini iddia edirlər? Hər şeydən əvvəl, iddia edilən 1.5 rəqəmi o vaxt orada yaşamış ermənilərin ümumi sayından da çoxdur. Orada doğrudan da yüz minlərlə qaçqın olmuşdur, bu cür az sayın arasından ermənilərin bu gün iddia iddia etdikləri 1.5 milyon adamı tapıb qətlə yetirmək olmazdı.



Məsələnin ən dramatik cəhəti isə budur ki, bu açıqlama türklərin genosidə yol verməsi haqqında erməni haray-həşirini erməninin öz sifətinə çırpır. Axı, öz əcdadının sistematik surətdə, ifrat vəhşiliklə məhv edildiyi yerlərə qayıtmağı kim arzulayar? Məgər yəhudilər Osvensimə qayıtmaq arzusuna düşər? Məgər İsrail yəhudilərin "təhlükəsizliyinin təmin edilərək" Osvensimə qayıdışı üçün planlar cızarmı? Məgər o, sui-qəsd olmaz? Məsələnin ağlabatan yeganə izahı budur ki, əslində bu, satqın ermənilərin başladığı silahlı konflikt olmuş və I Dünya Müharibəsi ərzində onların zorla köçürülməsi ilə nəticələnmişdir.



"Bütün demokratik ölkələrdə yeganə mümkün ölçü hesab olunan erməni sərhədləri ilə Gürcüstan və Azərbaycan sərhədlərinin etnik prinsiplər əsasında müəyyənləşdirilməsi" ermənilərin digər məqsədi idi. (s.43) Sadə dillə desək, ermənilər həm Gürcüstandan, həm də Azərbaycandan torpaq qoparmaq istəyirdi. Əlavə olaraq, Hovanissyanın öz kitabı boyu təkrar-təkrar təsdiq etdiyi kimi, Ermənistan heç də "demokratik ölkə" deyil. Həqiqət olanı budur ki, insanların bu balaca dəstəsi hakimiyyət və bir başqasının torpağını istəyirdi və onlar hər ikisinə nail olmaq üçün hər şey danışası və edəsidirlər. Sonrakı fəsillərdə bu ölkələr arasındakı müharibə vəziyyəti haqqında məlumatlar olacaq – həmişə Ermənistan kimdənsə torpaq tələb edir və həmişə Ermənistan başqa ölkəni işğal edir.

Gürcüstan və Azərbaycana münasibətdə ermənilər bu ölkələrin müəyyən hissəsində öz millətinin olduğunu iddia edir – beləliklə, "etnik prinsiplər" iddiası! Lakin Türkiyəyə münasibətdə isə iqtisadi cəhətdən inkişaf etmək üçün ermənilər dənizdən dənizə torpaq tələb

edirlər. Bu torpaqla bağlı olaraq ermənilərin dəyişən əhvalını qeyd etmək maraqlıdır, çünki onlar ümumən əhalinin içində azlıqda qalacaqdır. Onların "etnik prinsiplər" iddiası Osmanlı torpaqlarına şamil oluna bilməz, belə ki, harada yaşamasından asılı olmayaraq ermənilər azlıqda qalmışdır. Onlar sadəcə olaraq yeni və yeni torpaqlar tələb etməkdə israrlı olmuş və məqsədə çatmaq üçün hər şeyə əl atmışlar. Qonşu torpaqlarına sahib çıxmaq iddiasında Qərbin köməyini təmin etmək üçün ermənilər təbliğatdan istifadə etmişlər.

Erməni hökumətinin üzləşdiyi digər problem yeni dövlət quruculuğunda siyasətçilərin cəhdlərinin müxtəlifliyidir. Biri şikayətlənir ki, dövlət fəaliyyətinin geniş bir sahəsi diqqətdən kənarda qalmışdır. Digər tərəf gileylənir ki, əməyin təşkilində hakimiyyət iflasa uğramışdır. Hakimiyyət rəhbərliyinin "nifrətəlayiq çar naziri Stolıpin kimi "əvvəl sülh, sonra islahatlar" deyərək kütlələri aldatmağa cəhd göstərməsi"ni sosial-demokratların sədri müqayisə kimi gətirmişdir. (s.43)

Ermənistan çoxlu problemin girdabına düşmüşdü. Hovanissyanın izah etdiyi kimi, "1918-ci ilin axırı üçün vəba xəstəliyi epidemiya həddinə çatdı. Onsuz da az olan tibbi və dezinfeksiya vasitələri tükənmişdi və xaricdən göndəriləsi gəmi yükü haqqında heç bir ümid yox idi. Kütlə arasında anti-sanitar vəziyyətdə yaşayan infeksiyalı xəstələr üçün qarantin vacib idi. Ərzaq axtarışı ilə ölkənin künc-bucağına baş vuran qaçqın kütləleri xəstəliyi bütün ərazi boyu yayırdı." (s.44)



## ERMƏNİSTANIN REAL YARADILMASI

1918-ci ildə Ermənistanda cinayətkarlıq ölüm-dirim problemi idi. "Hökumət quldur dəstələrinin dağıdıcı hərəkətlərindən təngə gəlmişdi; onlar günün günorta çağı quldurluq edir və öldürürdülər. Hökumət qanun-qayda yarada bilməmişdi və əslində hakimiyyətə sahib deyildi. Ta geniş əhali kütlələrinin tərksilah olunması və intizama tabe edilməsinə qədər məhz belə oldu. Hakimiyyətin qənaətinə görə, silahlı əhali vacib hərbi balans yaradırdı; əslində isə bu yalnız anarxiyaya səbəb olurdu." (s. 45)

Kiçik, lakin hay-küylü bir qrup hakimiyyətin "vətəndaşların tərksilah edilməsi" təklifini rədd etdi. Vətəndaşlar anarxiyanın tanınmadığı



çoxlu ölkədən silah əldə edirdilər. Onların dediyinə görə, həllinə ehtiyac olan əsas problem torpağı korrupsiyaçı rəsmilərdən təmizləməkdir; elələri hökumət direktivlərini vecinə almır və pozur, ərazidə çaşqınlıq yaradırlar." (s. 45) Rəsmi korrupsiyada Ermənistan çox məşhurdur.

Diktatorçu hakimiyyət yeni bir təklif qəbul etdi. Hər halda bu, yeni dekret vasitəsilə həll olunmaqdan çox-çox fərqli idi. "Hökumətin müdafiəsini arzulamayan və ya ondan asılı olmaq istəməyən Ermənistan sakinləri – xristian və ya müsəlman olmasından asılı olmadan – öz silahlarına sarıldılar." (s.46)

Orada "Erməni Kilsəsinin təhsildə ənənəvi rolunu məhdudlaşdırmaq" cəhdi də olmuşdur. "Kilsəni dövlətdən ayırmaq" səsləri də eşidilmiş, lakin həmin cəhd uğurlu alınmamışdır. (s.47) Hətta bu gün də Erməni Kilsəsi dövlətin idarə olunmasında vacib rol oynayır. Əlbəttə, azad və demokratik ölkələrin heç birində nə kilsəyə, nə də hər hansı bir dinə dövlət işlərinə qarışmağa icazə verilmir. Yalnız "xristian" Ermənitstanında belə deyil.

Türkiyə və Ermənistan arasındakı fərqi müqayisə edin. Türkiyə əhalisinin 98 faizi müsəlman olsa da, dinə heç bir halda dövlət işlərinə qarışmağa icazə verilmir. Bu gün Türkiyədə həqiqi demokratiya vardır, həm də məscid və ya kilsə və dövlət arasında əsl ayrılıq mövcuddur. Xristian dövləti olan Ermənistan haqqında bunu demək olmaz.



1918-ci ildə Ermənistanın digər problemləri də var idi. "İrəvan quberniyasındakı evsiz-eşiksiz, xəstəliyin əldən saldığı kütlələr hökumətin dərd yükünə çevrilmişdi. Təxminən 300,000 qaçqın torpağı bar verməyən respublikanın nəfəsini kəsə-kəsə ölkənin boynundan asılmışdı." (s.48)

"Qaçqınları yedirtmək üçün daxili işlər nazirliyi müharibənin xarabaya çevirmədiyi bir neçə kənd üzərinə qanuni ərzaq payı qoydu. Bu qeyri-qanuni tədbirlər həmin kəndlərin və Qarabağdakı məntəqələrin kəskin etirazına səbəb oldu. Əbədi diktatorluq qaydalarına nəzarət Aram Manukyana həvalə olundu. İnsanların daha kəskin etirazları səslənməyə başlandı – hərbi geyimdə olan adamlar kəndliləri vahimə içərisində saxlayır və Ermənistan hökuməti adından onların var-yoxunu əllərindən alırdı." (s.48)

Ermənilər öz öikələrini yaratdıqları iki il yarım ərzində kəskin maliyyə böhranı ilə üz-üzə gəldilər. "Taxılın alqı-satqısı üzərində hökumət monopoliya yaratmışdı." (s.48) İnzibati saxtakarlığa yol verildiyi üçün bu sistem ciddi narazılıqlar yaratdı. Öikənin çox az müddətli tarixində rəsmi korrupsiya ayaq tutub yeriyirdi.

Özlərinin biznes fərasətlərini nümayiş etdirən populistlər iddia edirdilər ki, monopoliya bilərəkdən ərzaq qıtlığı yaradır. Hökumətin qoyduğu qiymətin taxılın real qiymətindən xeyli aşağı olduğunu yaxşı başa düşən kəndlilər məhsulu gizlətməyə və qanundankənar satmağa üstünlük verdilər. Populistlər izah edirdi ki, əgər monopoliya azad iqtisadiyyata yol açarsa, çoxlu taxıl camaata çatar və aclıq aradan qalxardı." (s. 48) Deməyə ehtiyac yoxdur ki, azad iqtisadiyyat yaratmaq təklifi diktatorlar tərəfindən rədd edildi. Xalq yenə dəhşətli zülm içində idi, çünki siyasi hakimiyyətdə olan fərdlər azadlıq ideallarından korluq çəkirdi.

Erməni diktator hökuməti başa düşdü ki, əgər o, mövcud olmaq istəyirsə, inkişaf etmiş ölkələrdən kömək almalıdır. Avropanın əsas ölkələrinə, habelə Ukrayna və Sovet Rusiyasına çoxlu erməni agenti göndərildi. "I Dünya Müharibəsi başa çatandan sonra beş ay ərzində onlar yeganə vasitələri kimi yalvarışlar, hesablamalar və məntiqli cəhdlər göstərir, vəziyyəti daha da gərginləşdirirdilər." (s. 49) Başqa sözlə desək, yaranmış dövlətlərə əvəz təklif etmək üçün ermənilərin heç nəyi yox idi. Ermənilər dilənçi payı axtarırdı. Hovanissyanın təbircə desək, həmin yaranmış ölkələr onlarla sırtıq dilənçi kimi münasibət bəsləyirdi.



1918-ci ilin sentyabrı üçün "erməni diplomatik zəhməti... hədər getmişdi. Rişxəndli paradoks olsa da, Ermənistan Osmanlı İmperiyasına üz tutdu." (s.51)

Əgər ermənilərin iddia etdiyi kimi, Osmanlı İmperiyası 1915-ci ildən 1919-cu ilədək ermənilərə qarşı genosid törətmişdisə, onda yenicə təsis olunmuş Ermənistan nə üçün 1918, 1919 və ya 1920-ci illərdə təzədən Osmanlı İmperiyasının ətəyindən yapışırdı?

Konfrans başlanında ermənilər "Ermənistan Respublikasının yaranmasına dözümlü münasibət bəslədiyi üçün Osmanlı İmperiyasına minnətdarlıq bildirməyi özlərinə rəva gördülər". Danışıqlar zamanı türk rəsmisi qeyd etdi ki, erməni problemləri "kürdlər, hərbi dairələr və məsuliyyətsiz yerli rəhbərlər, habelə ermənilərin Osmanlı vətənlərinə satqınlığı" nəticəsində yaranmışdır." (s.52)



Əlbəttə ki, ermənilər beş yüz ildən artıq birlikdə yaşadıqları Osmanlıları satmışdı. Osmanlıların düşmənlərinə kömək məqsədi ilə ermənilərin inqilabi fəaliyyətindən Hovanissyan bəhs edir, lakin erməni hücumlarının Osmanlı döyüş xətlərinin arxasından başlandığına qətiyyən işarə vurmur. Məhz ermənilərin bu fəaliyyəti Osmanlı rəsmilərini erməni əhalisini müharibə zonasından köçürməyə vadar etmişdi. Öz qoşunlarını düşməndən qorumaq istəyən hər bir xalq nə lazımdırsa, onu etməlidir. Özlərinin vur-və-qaç hücumları ilə ermənilər Osmanlıların düşməni olduqlarını dönə-dönə sübut etmişlər. Məhz bu səbəbdən imperiyanın qərbində yaşayan və Osmanlıların müharibə əməliyyatları üçün təhlükə törətməyən İstanbul, İzmir və Ədirnə ermənilərini çıxmaq şərti ilə lazımi ərazidəki bütün erməni əhalisi köçürüldü. Həmin vəziyyətə düşmüş hər bir millət məhz bu cür hərəkət edərdi. Sonralar ermənilər öz satqınlıqları üçün üzr istəməyə cəhd göstərdilər, lakin onlar Osmanlıları öldürməyə başladıqları faktı yaxın buraxmadılar. Ermənilər soyqırım qurbanları olduqlarını iddia edərək öz bəd əməllərini pərdələməyə çalışırdılar ki, onları döyüş xətlərinin arxasından guya nahaq yerə köçürmüşlər.



Əgər Osmanlılar bütün erməni əhalisini süpürüb atmaq siyasəti yeridirdisə, onda nə üçün İstanbul, İzmir və Ədirnədə və döyüş xətlərindər aralı digər ərazilərdə yaşayan ermənilərə toxunmamışdı? Döyüş xətlərindən uzaqda yaşayan ermənilərə qaşın altında gözün var deyən olmamışdı. "Genosid" sözünün mənası isə heç bir istisna olmadan millətin məhv edilməsidir.

Müharibə ərzində çoxminli erməni öldü, onlardan da daha çox türk! Osmanı İmperiyası öz həyatının son mərhələsini yaşayırdı. Öz balaca krallığını yaratmaq istəyən ermənilərin müştəbeş tamahı ucbatından minlərlə günahsız adam öz həyatını itirdi. Məsələnin həqiqi olan tərəfi isə budur ki, ermənilərin ruslarla birləşdiyi yerlərdə türklər dəhşətli soyqırıma məruz qalmışdır. Hovanissyan hələ də sağ olan və dəhşətli erməni vəhşiliyinin məşəqqətlərinə düçar olmuş çoxlu türk şahidinə məhəl qoymur. Əgər obyektiv olsaydı, Hovanissyan yəqin ki, müharibə dəhşətlərinin qurbanı olmuş yüz minlərlə günahsız türkün hesabatlarını da kitabına salardı. Müsəlmanların,

xüsusilə də türklərin əzablara düçar edilməsi haqqında faktlara qətiyyən fikir verməməsi Hovanissyanın əqidəsini və genosid haqqında erməni uydurmasına əsaslandığını sübut edir.

*Ermənistan Osmanlı hökuməti ilə İstanbulda görüşdüyü müddətdə həm də Avropanın güclü dövlətlərinin köməyini təmin etməyə səy göstərirdi.* "Erməni missiyası diaqramlar cızmış, xəritələr və statistik məlumatlar hazırlamışdı ki, Ermənistan üçün ayrılmış balaca qayalıq ərazidə dövlətin mövcudluğu üçün nələr edilməlidir." (s. 53) Bunu da qeyd etmək lazımdır ki, avropalılara təsir göstərmək üçün ermənilər faktların və statistik göstəricilərin erməni versiyasını hazırlamışdılar. Erməni istəyinin ən əsas xətti isə onların Osmanlılardan, Gürcüstan və ya Azərbaycandan əlavə torpaq iddiası idi. O iddia indi də qüvvədə qalır.

11 noyabr 1918-ci ildə I Dünya Müharibəsi başa çatdı. Hovanissyan yazır: "İndi Müttəfiqlər məğlub edilmiş Türkiyədən erməni ədaləti və intiqamını yerinə yetirmək tələbini ön plana çəkməli idi. Lakin onlar qaydaları diqqətlə oxuyub... atəşin dayandırılmasının kiməsə nəsə verməsi ilə bağlı heç bir vəd etmədiklərini gördülər. Bu, ermənilərə münasibətdə tamamilə yüngül və biganə mövqe idi." (s. 55) Burada Hovanissyan yenidən müasir Türkiyəyə olan çəpəki münasibətini göstərir. 1918-ci ildə müharibəni uduzan Türkiyə idi. Öz müstəqilliyi uğrunda 1919-cu ildən 1923-cü ilədək keçirdiyi uzun və ağır döyüşlərdən sonra 1923-cü ilədək Türkiyə əslində heç mövcud deyildi.

Gərək belə bir fakt diqqətdən yayınmasın ki, Osmanlı hökuməti monarxiya idi və türklərin qurduğu əsl demokratik respublika isə bu gün də yaşayır. Ermənistan haqqında bunu demək olmaz.

Hovanissyanın şərhlərində adamı narahat edən və məəttəl qoyan odur ki, ilk növbədə 1918-ci ildə ermənilər qalib gəlmiş Müttəfiqlərdən nəyi isə "tələb etmək" üçün ya çox az etmişdi, ya da heç nə etməmişdi. *Ermənilərin istədiyi özlərinin müəyyən etdiyi "ədalət" və "intiqam" idi, başqa sözlə desək, heç nəyin əvəzinə nəsə almaq!* Məhz buna görə də Paris Sülh Konfransının sülh stolu ətrafında oturmuş Müttəfiqlər ermənilər üçün heç nə etmədilər.

"Atəşkəsin Türkiyə Ermənistanı üzərində Osmanlı suverenliyini təsdiq etməsi erməni liderlərini qorxuya saldı. Onlar həmin əyalətlər-





də qarmaşıqlıqlar nəticəsində ermənilərin ayağa qalxacağı, xristian əhalinin köçürülməsi, soyqırım və ya sürgün edilməsi haqqında acı-acı suallar verirdilər." (57)

O, yenə də davam edir. Erməni professoru yerinə düşməyən termini (özü də dönə-dönə) işlədir: "Türkiyə Ermənistanı". Bu termin heç də tarixi faktı əks etdirmir, lakin onun partizancasına işlədilməsi düşünülmüş informasiya səhvi yaradır. Aydındır ki, Müttəfiqlər həmin iddiaya "xristianlar köçürülmüşdür, soyqırım edilmişdir və ya sürgünə göndərilmişdir" qədər məhəl qoymurlar.

Hovanissyan təsdiq edir ki, "güclü müttəfiqlər olan Fransa, Böyük Britaniya və Birləşmiş Ştatlar dəfələrlə bəyan etmişdir ki, ermənilərin təhlükəsizliyi təmin olunacaq və onlar bir daha "türk tiranıyasının zülmünə" məruz qalmayacaq. Müttəfiqlər vəd etmişlər ki, erməni məsələsi "humanizm və ədalətin ali qanunları əsasında" həll olunacaqdır." (s. 60)

Bu çox dəhşətli çaşdırıcı bəyanatdır. Əvvələn, indiyə kimi nə Fransa, nə Böyük Britaniya, nə də Birləşmiş Ştatlar Ermənistanla "ermənilərin təhlükəsizliyi təmin olunacaq və onlar bir daha "türk tiranıyasının zülmünə" məruz qalmayacaq haqda *heç vaxt* razılığa gəlməmişdir."

Əslində, Birləşmiş Ştatlar heç vaxt Osmanlılara müharibə elan etməmişdir. Əgər Amerika bu ölkə ilə heç vaxt müharibə aparmamışdırsa, onda ermənilərin təhlükəsizliyinin təmin olunacağı haqqında necə "iddia" qaldıra bilər?

Hovanissyan yalnız erməni maraqlarını güdən az qism adamın dediklərini yada salır. Ermənilər bəzi adamların şüurunu zəhərləmişdir və onlar guya xristianların müsəlmanlar tərəfindən incidilməsi haqqında dəhşətli bəyanatlar vermişdir. Bu fərdi bəyanatlar ermənilərin xristian kartı ilə oynayaraq yaratdığı dini-irqi hay-küyünə müvafiq olaraq verilmişdir. Bu sözlər qabaqcadan səhv düşünülmüş fərdi izahlardan başqa bir şey deyildir. *Məhz buna görə də rəsmi razılaşmalarda və müqavilə şərtlərində ermənilərə heç vaxt* belə zəmanət və ya rəsmi təminat verilməmişdir. Ermənilərin vəhşi bəyanatlarının fərqinə varan rəsmi tədqiqatlar başa çatandan sonra Müttəfiqlər öz bəyanatlarını geri götürdülər. Bu barədə daha geniş söhbət isə sonrakı fəsillərdə aparılacaqdır.

DÖRDÜNCÜ FƏSİL

# ERMƏNİ OYUN NÖMRƏLƏRİ VƏ ONLARIN İKİ KİTAB TOPLUSUNDAN İSTİFADƏSİ

Gürcüstan, Azərbaycan və Ermənistan bir vaxtlar Rusiyadan aldıqları iqtisadi dəstəkdən daha bəhrələnməyəcəkdir. "Bu azmış kimi, yeni yaranmış respublikaların hər biri nəzarət etdiyi ərazidə öz siyasi və iqtisadi təhlükəsizliyini dərhal ölçüb-biçərək imkan dairəsində makismum torpaq qazanmaq yolları arayır. Ermənistan, Gürcüstan və Azərbaycan arasında baş verən ərazi mübahisələri normal münasibətlər yolunda böyük əngələ çevrilmişdir." (1)



Ermənistan öz torpaq-çırpışdırmaq iddiaları ilə həm Gürcüstanı, həm də Azərbaycanı işğal edərdi. Məsələ belədir ki, 1992-ci ildə, Sovet İttifaqı dağılandan az sonra Ermənistan ərazi iddiaları ilə qonşu Azərbaycana hücum etmişdir və hərbi işğalçılıq bu gün də davam edir. Rusiyadan bir milyard dollarlıq hərbi yardım alan Ermənistan xristianlara kömək bəhanəsi ilə hücum edərək Azərbaycan torpaqlarının 20 faizini ələ keçirdi və bu ərazinin onların "tarixi vətəni" olduğunu bəyan edərək 1 milyondan artıq müsəlmanı doğma ocaqlarından qovdu.

Məsələnin əsl mahiyyəti isə orasındadır ki, Ermənistan öz dəhşətli iqtisadiyyatını dirçəltmək üçün əlavə torpaqlar istəyirdi. On ildən artıq müddətdir ki, 1 milyondan çox Azərbaycan qaçqını respublikanın hər tərəfinə səpələnmiş çadır şəhərciklərində ümumi aclıq içində yaşayır. I Dünya Müharibəsi ərzində ermənilər dilənçi kökündə yaşayarkən dünyadan dilənçi payı yalvarırdılar. Bu gün isə Birləşmiş



Ştatlardakı erməni lobbisi Azərbaycan qaçqınlarına yardım verən Amerikaya etirazını bildirir. Bu həm qəribə, həm də ədalətsiz deyilmi? Baxın, özünü ilk xristian millət "elan edən" Ermənistan evlərindən qovub çıxardığı zavallı qonşusuna kömək göstərilməsini belə istəmir. Bu, xristian düşüncə tərzi deyildir!

Hovanissyan xatırlayır ki, "ermənilər və gürcülər dinc qonşular kimi iki min ildən artıq müddətdə yaşamışdır. Onlar xristian xalqları kimi keçmiş dinastiya ailələri daxil olmaqla çoxlu adətlərini bölüşmüşlər." Ermənilər gürcülər üzərinə hücumuna haqq qazandırmaq üçün guya gürcülərin aimanlar tərəfindən müdafiə olunması haqqında işbirliyi qurması və "erməniləri türk quldurlarının ümidinə buraxması" ilə əsaslandırırlar." (s. 66) Bu, qəribə mühakimədir, çünki hadisələrin baş verdiyi dövrlərdə nə Ermənistanda, nə də Gürcüstanda dövlətçilik olmamışdır.

Hovanissyan xatırlayır ki, "ermənilərin əksəriyyət təşkil etdiyi şəhər sonralar Gürcüstanın paytaxtına çevrildi." (s. 66) Öz kitabının növbəti səhifəsindəcə o, "Cədvəl 1 – 1916-cı ildə Zaqafqaziya əyalətlərinin əhalisi"ni vermişdir. Onun təqdim etdiyi mənbə "Amerika Birləşmiş Ştatları, milli arxivlər, 256-cı məlumatlar qrupu, 867 B/10" adlanır.



Hovanissyanın istinad etdiyi mənbə göstərir ki, Tiflis əhalisinin ümumi sayı 1,473,000 olmuşdur. Həmin sayın 580,000 nəfəri gürcü, 411,000 nəfəri isə erməni olmuşdur. Başqa sözlə desək, öz paytaxtlarında gürcülərin sayı ermənilərdən 169,000 nəfər çox idi. Nəticə isə belədir ki, "Tiflisdə erməni əksəriyyəti" bəyan edən Hovanissyan yalan danışır. Bu, onun dörd cildlik kitabında bir-birinin ardınca dediyi yalanlardan biridir. Baxmayaraq ki, onun əsəri Ermənistandakı başdan-başa millətçi olan qardaşlarını məmnun edə bilər, lakin bu çox zavallı alimlikdir.

Həmin o 1-ci Cədvəl daha maraqlı faktların üstünü açır: Zaqafqaziyada Ermənistan, Gürcüstan və Azərbaycanın ümumi əhalisi 1916-cı ildə 6,670,000 nəfər olmuşdur.

Bu, əksəriyyət haqqında rəqəmlərə işıq salır, çünki həmin dövrdə ərazidə müsəlmanların sayı digər qruplardan çox idi – 2,503,000. Bu, sayı 1,758,999 nəfər erməni və 1,663,400 nəfər gürcünün fövqündə dayanır. Digər qruplar əhalinin yerdə qalanını təşkil edirdi.

Ötən fəsillərdə Hovanissyanın erməni xalqının və torpaqlarının Ermənistana verilməsi haqqında mövqeyini oxucu yəqin ki, xatırlayır. Qeyd etmək maraqlıdır ki, əhalinin əksəri müsəlmanlardan ibarət idi, lakin Hovanissyan onları bəşər övladı hesab etməyi yaxın buraxmır.

Ermənilər iddia edir ki, 1915-ci ildə müsəlman türkləri onların 1.5 milyonunu öldürmüşdür. Birləşmiş Ştatların 1916-cı il hesablamalarına görə bu regionda 1,758,000 nəfər, üstə gəl bir milyondan xeyli artıq erməni Osmanlı İmperiyası daxilində yaşayırdı. Əlavə olaraq, Suriya, İraq, İran və digər ölkələrdə yüz minlərlə erməni yaşayırdı. 1916-cı ildə sadəcə olaraq xeyli erməni sağ idi; 1915-ci ildə onların 1.5 milyonu öldürülsəydi belə olmazdı.

Hovanissyan gileylənir ki, "türk ordusunun qovduğu qaçqınların qarşısını gürcü hökumətinin yaratdığı qüvvələr kəsmişdi. Axalkalakidən olan təxminən 80,000 erməniyə sığınacaq verilməmişdi. Bərk ehtiyac içində olan bu kütlə Dünya Müharibəsinin axırına kimi qayalı Bakussiani yüksəkliyində daldalandı və onların 30,000 nəfəri öldü." (s. 68)



Rus ordusunun qabağına salıb qovduğu yüz minlərlə müsəlmana ermənilərin köməyi və ya yardımı haqqında Hovanissyanın deməyə sözü yoxdur.

"Gürcülər hər cür ittihamı qəzəblə rədd edir və özünü xilas etmək istəyən millət günahlandırıla bilməz deyirlər. Onlara görə, vəziyyət imkan verərsə, ermənilər də eyni cür davranardılar. Bu azmış kimi, Gürcüstanda sığınacaq tapan ermənilər bir neçə onillikdən sonra ölkədə hakimi-mütləqliyi ələ keçirmək məqsədi ilə gürcü xalqının xeyirxah münasibətinə qorxu və vahimə toxumları səpməklə məşğuldur." (s. 68)

Osmanlılar 1915-ci ildə öz ölkələrinin xilasına çalışarkən ermənilər dübbədüz belə satqın hərəkətlər etmiş və köçürülməyə məruz qalmışdılar. O cür vəziyyətə salınmış hər bir ölkə həmin vaxt məhz o cür hərəkət edərdi. Ruslarla birləşərək Osmanlıları yıxmaq istəyən və öz ölkəsini müdafiə etmək istəyən Osmanlıların cavab reaksiyasından sonra ermənilərin genosid hay-küyü! Ermənilər Gürcüstanda da eyni əməli həyata keçirmək istəyəndə gürcülər öz ölkələrini müdafiə üçün reaksiya verdilər. Ədalət gürcülərin tərəfində idi. Gürcülərin guya onları "genosid" etməsi haqqında heç bir erməni uydurması yoxdur. İki qonşu ölkə ilə ermənilərin eyni gərginlik və satqınlığı; hər iki ölkənin ermənilərə eyni cür münasibəti və ermənilər onun birinə "genosid", digərinə isə "üzrxahlıq" adı yapışdırır.



"Əslində Gürcüstan minlərlə qaçqına yiyə durmuşdu, bu isə onun iqtisadi durumunu təhlükəli hala salmışdı. Bu adamlar heç bir qanuna tabe olmayan quldur dəstələri kimi ölkəni dolaşır, çalıb-çapır, soyğunçuluq edir və yoluxucu xəstəliklər yayırdı. Öz vətəndaşlarını qorumaq istəyən Gürcüstan üçün sərhədlərini bağlı saxlamaq çox vacib idi." (s. 68) Bu cür bəyanatın verilməsinin məntiqi səbəbi aydın olmur; öz vətəndaşlarını qorumaq istəyən Osmanlı hökuməti nə üçün sərhədlərini bağlamamalı idi? Lakin bu, genosid haqqında erməni hay-küyünü inkar edər və onun həqiqiliyinin üstünə kölgə salardı.

Bu, erməni diktator hökumətinin Osmanlı (1), Gürcüstan (2) və Azərbaycan (3) torpaqları üçün təşnə olduğu vaxtlar idi. Ermənilər Osmanlıların əleyhinə olan tərəfi tutdular və nəticədə o xalq böyük qurbanlar verdi. İndi isə, müharibədən sonra erməni liderləri hər bir qonşusundan əvəzsiz torpaq qoparmağın sxemini çəkmişdir. Türk milli hərəkatı başlananda da erməni xalqı böyük itkilər vermişdi. Ermənilərin Gürcüstan və Azərbaycandan torpaq qamarlamaq cəhdləri də eyni cür qurtaracaqdır.



Uzun illər ərzində erməni liderləri xristian və müsəlmanlar arasında dini düşmənçilik alovunu üfürürlər. İşin əsas motivi isə kimdənsə əvəz vermədən torpaq qamarlamaqdır. Bu, xristian olmayanlara qarşı dözümsüzlükdən başqa bir şey deyildir və bu gün də davam edir – Xristin əməli uğrunda döyüşdüyünü bəyan edən Ermənistan həmin siyasəti bu gün də davam etdirir və qonşu Azərbaycan ərazisinin 20 faizini ələ keçirərək həmin torpaqlardakı 1 milyondan artıq müsəlmanı qaçqına çevirmişdir. 1918-ci ildə bu torpağa ermənilərin münasibətini yoxlamaq pis olmazdı. 1916-cı il üçün rus statistikasına nəzər salmaq da yerinə düşərdi – orada göstərilir ki, bu *quberniyada* müsəlmanların sayı ermənilərinkindən iki dəfə çoxdur. *Qubernlyanın uyezdləri* dağlıq ərazidən düzənliyə uzanaraq yaradılırdı və yalnız Şuşa (Şuşi) uyezdində ermənilər çoxluq təşkil edirdi.

Hovanissyan xaincəsinə hücumlara aşağıdakı kimi haqq qazandırır:

*Qarabağ erməni yaylasının şərq komponentini formalaşdırırdı və dəniz səviyyəsindən bir neçə min metr yüksəkliyə qalxdığı üçün uzaq aşağılardakı Azərbaycanın səhra torpaqları ilə kontrast yaradırdı. Filiz yataqları, meşələr, alp çəmənlikləri-otlaqları ilə zəngin olan, öz balı, mumu, ipəyi və gön-dəri məmulatları ilə şöhrət qazanmış bu ərazi Ermənistan üçün təbii sərhəd rolunu oynayır və Araz vadisindəki yolların və Ararat düzənliyinin keşiyini çəkirdi. Qarabağsız Ermənistanın fiziki birliyi dağılardı və Azərbaycan müsəlmanları və Osmanlı İmperiyasındakı türklərlə arada olan əsas maneə aradan götürülərdi. (s. 80)*

On birinci əsrdə məhv olmuş "krallıq" olmamışdır. Bu balaca ölkə haqqında ən yaxşı halda onu söyləmək olar ki, hətta on birinci əsrdə də o, vassal ölkədən savay heç nə olmamışdır.

Hovanissyan xatırladır ki, hətta on birinci əsrdə Ermənistanın mövcudluğuna son qoyulandan sonra da erməni ənənəsinin prinsipiallığı davam etmişdir. O, bəyan edir ki, həmin prinsipiallıq dağlarda yaşayırdı, xristianlar müsəlmanların əlindən yalnız dağlara qaça bilərdi. Çoxlu tarixçi onun bəyanatı ilə razılaşmasa da, Hovanissyan həmin yerin Qarabağ olduğunu iddia edir.



*On yeddinci əsr ərzində Qarabağda erməni azadlıq mübarizəsi başladı, qapı-qapı gəzənlər Rusiya və digər Avropa monarxlarını dilə tutaraq böyük yaylanı azad etmək üçün onları səlib yürüşünə səsləyirdilər. Bu ərazidə ilk rus hərbi qüvvələri on səkkizinci əsrdə göründü, müsəlmanların üzərinə çoxsaylı qəfil hücumlardan sonra Qarabağ Romanov İmperiyasına ilhaq olundu... Rusiya üsul-idarəsinin ilk mərhələsi erməni arzularına düz gəlmirdi. Muxtariyyət yaratmaq əvəzinə buranı daha geniş inzibati vahidlərə qoşurdular... (s. 81)*

Hovanissyan onu da etiraf edir ki, Azərbaycanın da bu torpaqlara qanuni iddiaları vardır.

*Azərbaycanın Qarabağa münasibəti cəlbedici deyil. Sadəcə, erməni mübahisələrinin əks tərəfidir. Keçmişdə ermənilər muxtariyyət dərəcəsi qazansa da, buna baxmayaraq, ərazi Gəncə və Qarabağ müsəlman xanlıqlarına daxil edilirdi. Rusların işğalından əvvəl bir neçə əsr ərzində müsəlmanlar bütün Zaqafqaziyada üstünlük təşkil edirdi və rusların xristianlara verdiyi üstünlüyün əksinə olaraq, müsəlmanlar hər bir xristiana nisbətən daha çox üstünlüyə malik idi. Yelizavetpol quberniyasındakı səkkiz uyezddən yeddisində əhalinin əksərini müsəlmanlar təşkil edirdi. Hətta Qarabağın dağlıq hissəsində kifayət qədər tatar (azərbaycanlı – Z.A.) və kürd yaşayırdı. Azərbaycan Respublikası ittiham edir ki, ermənilər siyasi sonluğu onlar üçün münasib olan kəndləri Yelizavetpoldan doğrayıb qoparmış, lakin bunu etməklə bütün regionun coğrafi, iqtisadi və siyasi birliyini təhlükə altında qoymuşlar. Xristian yönlü adamlar yaşayan kiçik ərazilərin bu üsulla Ərəmnistana əlavə olunması ədalətsiz və məntiqdənkənar, həm də bütün tərəflər üçün ziyanlı olardı.*

*Yelizavetpolun nə düzənlik, nə də dağlıq hissəsinin Azərbaycan üçün fərqli cəhəti yox idi; əksinə, orada yaşayanlar sadə bir birliyin tamamlayıcı komponetləri kimi müsəlman heyvandarlıq iqtisadiyyatına tam uyğun gəlirdi. Əgər düzənlik və dağlıq hissələr ayrılsaydı, onda yaylaqlardan məhrum edilmiş saysız-hesabsız müsəlman heyvandarı faktiki tənəzzüllə üzləşəcəkdi... Azərbaycan inanırdı ki, Ermənistan üçün olduğu kimi, Qarabağ Azərbaycan üçün də strateji baxımdan həyati əhəmiyyət kəsb edir. Bu, qala kimi sipər olan təbii sərhəd idi, əgər o, digər dövlətin nəzarətinə keçsəydi, Azərbaycanın əbədi yaralı yerinə çevrilərdi. Yelizavetpol quberniyasının Azərbaycana bağlılığını açıqca sübut edən faktlardan biri də oradan keçən bütün yolların qərb istiqamıtində İrəvana deyil, şərq istiaqmətində Bakıya tərəf uzanmasıdır. Qarabağ erməniləri yardımlarının əksər hissəsi üçün Bakıdan asılı idi, minlərlə erməni ya müvəqqəti iş üçün, ya da neft mədənlərində və idarələrində daimi iş üçün Xəzər dənizi üzərində sürətlə böyüyən bu şəhərə üz tuturdu. (s. 82)*

Hovanisyan belə bir faktı qəbul edir ki, I Dünya Müharibəsi yaxınlaşdıqca Azərbaycan, Ermənistan və Gürcüstan arasında "beynəl-irqi" müharibə qızışırdı. Əslində isə beynəl-irqi müharibəni ermənilər başlamışdı. Hər halda, türk ordusu regiondan çıxan kimi ermənilər dağlarda nəzarəti ələ keçirmək üçün hər cür cəhdlərini işə saldılar.

"Ərazisi 2,744 mil$^2$ olan Zəngəzur uyezdi... Zaqafqaziya ilə İrəvan quberniyası arasında strateji keçid sayılırdı. Qarabağ kimi Zəngəzur əhalisi də qarışıq idi, 1916-cı ildə orada 101,000 erməni və 120,000 müsəlman yaşayırdı." (s. 86)

1918-ci ilin baharında Ermnistan o əraziyə qoşun yeritməyə cəsarət etmədi, çünki türk hərbi qüvvələri onların paytaxtının bir neçə milliyində düşərgə salmışdı. Lakin qarmaqarışıqlıq toxumu səpmək üçün həmin əraziyə erməni "xristian" agentləri göndərilmişdi. Nəticədə, Zəngəzurda beynəl-irqi müharibə alovlandı.

Erməni hökumətinin siyasətinin mayası ilə şirin-şirin axan əsas həyati əhəmiyyətli fakt belə idi: nəyin bahasına olursa-olsun, ya erməni xristianlarının, ya da Azərbaycan müsəlmanlarının neçə-neçə fərdi həyatının bahasına olursa-olsun "Ermənistan Azərbaycan ilə Türkiyə arasında ümumi sərhəd olmasına imkan verməyəcəkdir." (s. 92)

Erməni diktator rəhbərliyi iki islam xalqının ümumi sərhəddini ağıllarına sığışdıra bilmirdilər. Təxminən beş yüz il ərzində xristian və müsəlmanların dinc əminamanlıq içərisində yaşamasına baxmayaraq, indiki kimi onda da ermənilərdə xristan olmayanlara qarşı qorxu sindromu var idi. Bu təzə erməni diktatorçu müharibə lordları öz arzuları naminə öz xalqlarını qurban verdilər ki, silahların gücünə özləri üçün bapbalaca bir dövlət yaratsınlar. Elə bir dövlət ki, Birləşmiş Ştatlardan və dünyanın hər yerindəki başqa xristian millətlədən hədiyyələr, yardım və sədəqə almadan heç vaxt yaşamağa qadir olmasın.

1918-ci ildən bu günə kimi Ermənistanın iki əsas ixracı olmuşdur: öz "tarixi vətən"lərindən xaricə axışan öz milləti və terrorizm! 1918-ci ildən bu günə kimi Ermənistanın bir əsas idxalı olmuşdur və olmaqda davam edir: başqa xalqlardan alınan xarici yardım!





BEŞİNCİ FƏSİL

# ERMƏNİSTAN GÜRCÜSTANDAKI ƏDALƏTSIZ MÜHARİBƏDƏ MƏĞLUB OLUR

## ERMƏNİLƏR XRİSTİAN DÜNYASINDAN DİLƏNÇİ PAYI UMUR

14 dekabr 1918-ci ildə torpaq ələ keçirmək üçün Erəmnistan öz qonşusu Gürcüstana qəflətən hücum etdi.

17 dekabr 1918-ci ildə ""Erməni qəsbkarlığı" uğurla davam edəndə..." Gürcüstanın Baş naziri Jordaniya öz xalqına müraciət etdi:

*Baş verməməli olan bir hadisə baş vermişdir: Təəssüf ki, ermənilər əvvəlcə üsyana qalxmış, sonra isə nizami ordusunu hərəkətə gətirmişdir. Bu cür xəcalətli konfliktə rəvac verən indiki Ermənistan hökuməti əvvəllər heç vaxt baş verməmiş bir işə başlamışdır – Gürcüstan və Ermənistan arasında müharibəyə. Əgər bir-iki kənddə olan hadisələr nəzərə alınmazsa, bu iki tərəf müharibə haqqında heç vaxt heç nə eşitməmişdi. Əsl izah Kaçaznuni hökumətinin xarakterində tapıla bilər; canavar kimi dananı ona görə yeyir ki, bu onun xistlətidir. O hökumət sülh şəraitində yaşaya bilmədi və bu və ya digər qonşusu ilə döyüşə atıldı, çünki əsl canavar kimi hər şeyi qamarlayıb udmaq istəyir. Ermənilər heç olmazsa onu anlamırlar ki, müsəlmanlara olan düşmənçilik münasibətlərinə görə heç olmazsa gürcülərə dözümlülük nümayiş etdirməlidirlər? Lakin bunun əvəzinə indi onlar bu körpünü də yandırdılar.*

*Ermənistanda," Jordaniya davam edirdi, "biri dinc yanaşı yaşamağa, digəri isə millətçilik hisslərini alovlandırmağa çalışan iki siyasi axın var idi. Güman ki, son nəticədə ikinci ekstremistlər qalib gəlmişdir. Lakin bu mauzerist quldurlarla döyüş üçün Gürcüstan ayağa qalxacaqdır. (1)*

Gürcülər Ermənistan hökumətinin vacib sənədlərini ələ keçirib çap etdilər. Ermənilərin özlərindən gələn sübuta əsasən onlar "Xram çayına qədər ərazini ələ keçirmək üçün hərtərəfli plan hazırlamışlar və erməni hərbi fəaliyyəti həmin sənədlərin düzgün olduğunu təsdiq edirdi." (s. 111)

Əslində bu müharibə cəmi iki həftə çəkdi – Britaniya qüvvələri əraziyə daxil olduğundan hər iki ölkə ermənilərin qəfil hücumundan əvvəlki mövqeyinə qayıtdı. Britaniya iki ölkə arasındakı "neytral zona"nı tutdu.

Kiçik bir hərbi hücumla əlaqədar olaraq gürcülərin Gürcüstanda yaşayan ermənilərə qarşı kəskin münasibətini Hovanissyan təəccüblə qarşılayır. O yazır:



*Müharibənin əsas zərbəsi döyüşçülərin və hətta Lori kəndlərinin deyil, Tiflisdəki və onun ətrafındakı birliklərdə yaşayan bütün ermənilərə dəydi. Jordaniya hökumətinin erməni militarist qruplaşması kimi təsvir olunan erməni xalqı ilə razılıq əldə olunduğunu dəfələrlə bəyan etməsinə baxmayaraq, ümumilikdə bütün erməni əhalisinə qarşı kəskin ölçülər götürülürdü. 24 dekabr 1918-ci ildə parlament dövləti xəyanətin ölümlə və əmlakının müsadirə edilməsi ilə cəzalandırılması haqqında qanun qəbul etdi. İki gün sonra isə Tiflis quberniyasının başçısı erməniləri müharibənin faktiki dustaqları elan etdi. Düşmən işğalı altında olan kəndəlrin doğma sakinləri olan Tiflis ermənilərinə təklif olunurdu ki, ya iyirmi dörd saat ərzində qeydiyyatdan keçsinlər, ya da onlar satqınlıq haqqında qanuna müvafiq olaraq cəzalandırılacaqdır. Bu elan saysız-hesabsız həbslərlə müşaiyət olundu... (s.122)*

Hovanssyan davam edir:

*Tiflisdəki erməni və rus təşkilatlarının etirazlarına məhəl qoyulmadı. Gürcüstandakı Ermənilərin Milli Şurasının qapıları möhürləndi və şuranın üzvləri ev dustağına çevrildilər. Gürcüstandakı erməni qəzetləri də bağlandı. Döyüşlər qurtarandan bir neçə həftə sonra Gürcüstan yüzlərlə insanı həbs edərək sürgünə göndərdi. Sonralar Gürcüstandakı Erməni Şurasına fəaliyyət göstərmək icazəsi veriləndə o, Gürcüstan hökumətinin ədalətsizliyi və kobud münasibəti haqqında öz kəskin etirazını bildirdi. Onun etiirazının bir hissəsi belə idi: "Bu milli təqibin yalnız bəzi fərdi adamların fəaliyyəti olduğu kimi başa düşülməsini izah edən daxili işlər nazirinin mövqeyi erməni ictimaiyyətinə birmənalı surətdə iyrənc təsir bağışlayır. Xüsusilə, axır zamanlar ümumi hala çevrilmiş əhvalatlar baş verəndən sonra izahat gəlir – erməni millətinə gözlənilən ehtiram haqqında vəd, mənliyi ən kəskin surətdə alçaldan və məşəqqətli vəziyyətdə yaşayan insanların heysiyyatını yaralayan vəd." (s.123)*



Bütün Gürcüstanın reaksiyası dərhal və birmənalı oldu. Hovanissyan yazır: "Bu müddətdə kənd yerlərindəki qanundankənar bandalar və Xalq (Qırmızı) Qvardiyasının təşkil etdiyi birləşmələr qanuna tabe olmayan və satqın sakinləri cəzalandırmaq üçün erməni kəndlərini viran qoyur və intiqam məqsədi ilə terror yayırdı." (s. 124)



Bir daha təkrar edirəm ki, öz liderlərinin başqasının torpağını silahlı yolla ələ keçirmək cəhdlərindən adi ermənilər zülm çəkdilər.

Ermənilərə inanmamaq üçün gürcülərin xeyli səbəbi var idi. Tiflisdəki iş yerlərində gülləyə tutulmuş çoxlu günahsız erməni də ziyan çəkdi. Hakimiyyət yeni seçkilərə başladı (Ermənistan isə bircə seçki də keçirməmişdi).

"Gürcüstandakı ermənilər bunu qanun pozuntusu hesab edərək öz hədsiz etirazlarını bildirdilər ki, bu yolla Gürcüstan hər bir seçicini öz vətəndaşı kimi "qeydiyyatdan keçirəcəkdir". Minlərlə rus kimi, Tiflisdəki erməni icması da qəzəbini, qorxusunu və alçaldılmasını seçki qutularına yaxın düşməməklə ifadə etdi. Beləcə, ermənilər Gürcüstan subyekti olmağı qəbul etmədiklərini göstərdilər. Beləliklə, Tiflis gürcülərin idarə etdiyi gürcü şəhərinə çevrildi. Əvvəllər Qafqazın bu möhtəşəm paytaxtından başqa bir yerin sakini olmağı ağıllarına belə gətirməyən ermənilərin baxışları yavaş-yavaş İrəvana dikilməyə başladı." (s. 124)

Hər hansı bir fərd səs verməzdən qabaq bütün demokratik respublikalar ona vətəndaşlıq təklif edir. Lakin ermənilər bəyan edir ki, onlar hər yerdə "ermənistanlı" olmaqla yanaşı, həm də başqa respublikaların vətəndaşlığını qəbul etmədən tamhüquqlu vətəndaş kimi seçki hüququna malik olmalıdır. Başqa bir millətin tarixində bu sayaq hər hansı bir nümunəyə rast gəlmisinizmi? İki həftə çəkən müharibədən Gürcüstan üstün nəticələrlə çıxdı.

*Onların ordusu sınağa çəkildi və həlledici məqamda möhkəm dayandı. Ermənilərin müharibə ərzində ələ keçirdiyi bütün torpaqlara iddialı olmalarına baxmayaraq, Gürcüstan Axalkalaki torpaqlarını geri qaytarmağa nail oldu. Bu azmış kimi, bütün qərbi Zaqafqaziyaya nəzarət edən Britaniya komandanlığının baş qərargahı Tiflis şəhərində yerləşdiyi və Qafqazın digər paytaxtlarına nisbətən Avropaya daha çox meylləndiyi üçün Gürcüstan həm öz problemlərini təqdim etməyə, həm də Müttəfiqlərin nümayəndələri ilə birbaşa danışıqlar aparmağa müvəffəq oldu. Bu isə Ermənistan üzərində həlledici üstünlük demək idi. Jordaniyanın hökuməti ümid edirdi ki, Ermənistan monopoliyasına Avropa rəğbəti dağılmağa başlamışdır və Parisdə öz işinə başlayan ümumdünya sülh konfransında Gürcüstan Respublikasının hüquqlarına hörmət ifadə olunacaqdır. (s. 125)*



Ermənistan öz yaralarını yalamağa və daha kiminsə torpaqlarını qamarlamaq cəhdi olaraq növbəti qurban kimi Azərbaycana tərəf baxmağa başladı.

Birinci qış xüsusilə ağır idi. Erməni xalqı ağır əzablara düçar oldu. Hovanissyan yazır: "Ermənistandakı xaotik vəziyyət təxminən 500,000 nəfər qaçqının ucbatından daha da pisləşdi." (s. 126) Amerika və Britaniya rəsmiləri, habelə ictimai əməkdaşlar da bu rəqəmi təsdiq edir.

Hovanissyan davam edir: "Zəngəzur və Qarabağda, Gürcüstanda, şimali Qafqazda və Rusiyanın düzənlik torpaqlarında müvəqqəti sığınacaq tapmış əlavə minlərlə adam bu rəqəmə aid deyildi." (s. 127) Əlavə olaraq, Ərəb dünyasına səpələnmiş soxminlik erməni qaçqını da bu rəqəmə aid deyildi.



Bir daha, ermənilərin sayı şişib çoxalmırdı. Əgər Osmanlı döyüş zonalarından 1 milyon erməni köçürülmüşdüsə, və onların 500,000 nəfəri Ermənistana getmişdisə, əgər digər yerlərdə də çoxminlik erməni qaçqınları var idisə, əgər minlərlə erməni qadını müsəlman evlərində kənizliyə məcbur olunmuşdusa, onda ermənilər sadəcə olaraq necə iddia edə bilərlər ki, guya 1.5 milyon erməni genosidə məruz qalmışdır? Professor Riçard G.Hovanissyanın erməni tarixinə əsaslanan rəqəmləri, 1.5 milyon ermənininin genosidi haqqında iddiası sadəcə olaraq baş verə bilməzdi.

Faktlar çılpaqlıqla sübut edir ki, erməni xalqı ağlagəlməz dəhşətlərdən keçmişdir, lakin həmin əzablar başlanğıcda onların özündən müştəbeh liderlərinin səhv qərarlarının nəticəsində baş vermişdir: Osmanlı İmperiyasında vətəndaş müharibəsi; Gürcüstanda vətəndaş müharibəsinə başlamaq cəhdi; və Azərbaycanda vətəndaş müharibəsinə başlamaq cəhdi!

Erməni xalqının yaşadığı terror haqqında Hovanissyan məlumat verir:

*1918-19-cu illərin qışı İrəvanın tarixində ən uzun və ən kəskin qışlardan biri olmuşdur. Ərzaq, geyim və dava-dərman axtaran ev-eşiksiz kütlələr fırtınalı vəziyyətdə cəhənnəm əzablı aylardan keçdilər. Ac-yalavac adamlar arabir ərzaq tələbi ilə nümayişə çıxır və ya qiyam qaldırır, lakin bu təsadüfi hadisələrin heç bir xeyri olmurdu. Dövlətin xəzinəsi boş idi. Müttəfiqlərin İrəvana gəlmiş nümayəndələri xaricdən gələsi yardımlardan xeyli qabaq özləri ilə ümid gətirmişdilər. O vaxta kimi millət dözməli idi. Lakin tezliklə bu ümid də puça çıxdı. Bu dəhşətdən riqqətə gəlmiş bir amerikalı şahid yazmışdı: "Dəhşətli əhali. Qeyd-şərtsiz çirkli və cır-cındır içində batmış kütlə; burdan vurub ordan çıxan, sifətlərinə ölüm çökmüş ev-eşiksiz kütlələr; hündürdən ağlaşan uşaqlar; acı hıçqırtılarla hönkürən qadınlar; tamamilə ümidsiz, zəiflikdən valay vuran, çirk içində olan sifətləri ilə aşağı yuvarlanan göz yaşlarına məhəl qoymayan kişilər. Ermənistanda ermənilərin halının təsviri üçün tez-tez rast gəlinən bu mənzərələrə bundan artıq heç nə deyə bilmədiyimdən başqa başıpozuq dəstələrə üz tuturam: orada-burada gözə dəyən insan dəstələri, gözləri bərəlmiş, hövsələsiz, canavar caynağı kimi irəli uza-*

*naraq dilənən əllər; təbəssümün nə olduğunu çoxdan bəri dadmayan açıq dişlərin dəhşətli istehzası – heydən düşmüş, dərisi dartılmış, sərrast və nəzarət olunmayan istehza.*

*Zavallı kütlə qar içində, bəzi hissələri dağıdılmış binalarda, kilsələrin pillələri üzərində nə etitraz etməyə, nə də dilənməyə taqəti olmadan yıxılıb qalmışdı. Onlar ölümə sürükləyən torpaqda yaşayırdılar; sallaq sifətləri və şişkin qarınları ölüm mələyinin yolunu gözləyirdi. Və ölüm gəlir, minlərlə qaçqını və qaçqınabənzər yerli sakini bu zülmdən qurtarırdı.*

*Bu çətinliyə tab gətirən adamların çoxunu isə çarəsiz xəstəliklər yaxalayır və yoluxucu xəstəliklər daha çox kimsəsiz kütləni əhatə edirdi. Tif xəstəliyi əsas qatil idi, o, hər bir kənddə və hər bir yaş qrupundan olan adamları, daha çox isə uşaqları birdəfəlik yıxırdı. Ağla gələn və gəlməyən hər yerdən ölüm fenomeni hücum çəkirdi. Hər həftə küçələrdən yüzlərlə meyit yığılır və əksər hallarda dua oxunmadan və son ayinlər yerinə yetirilmədən kütləvi qəbirlərdə basdırılırdı. Həmin il təkcə paytaxtda təxminən 19,000 adam xəstəliyə tutulmuş və dərəbəylik, aclıq və epidemiya adlı üçbaşlı əjdaha təxminən 10,000 adamı öldürmüşdü. (s. 127-128)*



Bu, erməni xalqının əsl genosidi idi və onu onların öz diktator liderləri törətmişdi. Onlar öz-özlərini lider təyin etmiş erməni liderləri idi – onların Osmanlı İmperiyası hüdudlarında başladığı qiyam gətirib bu dəhşətli və qorxunc vəziyyətə çıxarmışdı.

"İqtisadi burulğan yaratmaq üçün bir neçə yüz minlik ev-eşiksiz və işsiz qaçqının özü bəs edirdi. Hətta ən normal vaxtlarda belə torpaq erməni hökumətinin tabeliyində olanda əhalinin tələbləri yerinə yetirilə bilmirdi. Araz vadisinin münbit torpaqları və Türkiyə Ermənistanının nə vaxtsa əkilib-becərilən torpaq sahələri indi müsəlman nəzarətindədir." (s. 130)

Hovanissyan dünyanı inandırmaq istəyir ki, müsəlmanlar həmin torpaqları guya ermənilərin əlindən alaraq onları aclığa düçar etmişdir. Erməni üsyanları başlanmazdan əvvəl müsəlman türklər beş yüz ildən artıq müddətdə bu torpaqlara sahiblik etmişdir. Bütün bu müddət ərzində xristian ermənilər öz qonşuları olan müsəlmanlarla əminamanlıq şəraitində yaşamışdır. İndi isə iki cüt bir tək erməni



müharibə bossu üsyan qaldıraraq Osmanlı İmperiyasını yıxmağa cəhd göstərir. Əsas məsələ isə odur ki, bu erməni müharibə bossları uduzmuşdur və onların xalqı böyük itkilər vermişdir. Türk xalqı da!

Ermənilərin dəhşətli vəziyyətini nümayiş etdirmək üçün Hovanissyan aşağıdakı rəqəmləri çap etmişdir: "1919-cu ildə hər 1000 nəfər erməniyə 8.7 doğum və 204.2 ölüm düşürdü; 195.5 adam itirilirdi. Bura sözün həqiqi mənasında ölüm torpağı idi." (s. 133) Türklər də eyni dəhşətlərin girdabından çıxmışdır, lakin professor Hovanissyan onların itkilərindən qətiyyən söz açmır. Bu azmış kimi, o, xristianları aldatmaq üçün xristian Bibliyasından kəlmələr işlədir. Xristianların "kod" sözlərini işlətməsi ermənilərin müdafiəsi üçün Hovanissyanın cəhdlərinə əlavə nümunədir. O, hadisələrin yarısını danışsa da dəxli yoxdur. Əgər o, həqiqi tarixçi olsaydı, "xristian" ermənilərdə olduğu kimi, müsəlmanların da doğum və ölüm nisbətlərindən söz açardı. Hər şey bir yana, axı müsəlmanlar da Allah bəndəsidir. Xristianların əzablarının yasını saxlamaq, müsəlman əzablarını isə qulaqardına vurmaq xristiana yaraşan sifət deyildir.

Rusların köynəyindən çıxaraq yaranmış yeni Ermənistan fermer təsərrüfatına əsaslanırdı. Səniyenin hər hansı bir növü çox az yayılmışdı. Camaat şərab çəkir, evlərdə kustar üsulla mebel və toxuculuq malları, alətlər və s. düzəldirdi, vəssalam.



Kənd təsərrüfatı məhsullarının müharibə illərində başlamış kəskin tənəzzülü erməni faciəsinə ciddi təsir göstərdi. 1914-cü ilin qıt məhsulunun ardınca minlərlə kəndlinin orduya səfərbərliyi gəldi, sonra bütün Rusiya İmperiyasını bürümüş inqilabi çevrilişlər və vətəndaş qarşıdurması, Zaqafqaziyaya türk hərbi müdaxiləsi və təxminən yarım milyon qaçqının axışıb gəlməsi ermənilərin dövlət qurmaq səylərini puça çıxaran vəziyyət yaratmışdı.

Hovanissyanın soruşmadığı sual belədir ki, əgər erməni xalqının liderləri Osmanlıların döyüş xətlərinin arxasında üsyana cəhdlər göstərməsəydilər və gənc fermerlər erməni hərbiçiləri sıralarına cəlb olunmasaydı, bütün bunlar baş verərdimi?

Orada başqa problemlər də var idi: "Dərin inflasiya bu böyük itkilərin nəticəsində yaranmışdı. Ərzağın və digər vacib əşyaların qiymətinin günbəgün və dəfələrlə artması nəticəsində müxtəlif məbləğli kağız pullar heç nəyə yaramırdı. Diribaş erməni manipulyatorları

və möhtəkirləri onsuz da qıt olan ərzaq ehtiyatlarını gizlədir, başını itirmiş camaatın son var-yoxunu da əlindən alaraq onlara tula payı verirdilər. Hökumət özünün yaratmadığı, lakin hesabat verməyə məcbur edildiyi fəlakətli vəziyyətlə üz-üzə qalmışdı. Problemləri çözmək üçün onun çox az imkanı vardı, aclıq çəkən kütlələrin qarnını isə nə qanunun gücü ilə, nə də fərmanlarla doydurmaq olmazdı." (s. 133)

Bu, yarım-həqiqətin daha bir nümunəsidir.

"Kağız pullar" demək olar ki, kara gəlmirdi: arxasında nə qızıl, nə gümüş, nə də digər bir təminatı olmasa da, erməni hökuməti kağız pulları elə hey çapdan buraxırdı. Heç təəccüblənməyə dəyərmi ki, onların bir qara qəpiklik də qiyməti yox idi?

Tarix sübut etmişdir ki, arxasında heç bir təminat dayanmadan xeyli miqdarda pulun çap edilərək tədavülə buraxılması Ermənistanda olduğu kimi öz arxasınca inflasiya gətirir. Ona görə də, "ərzağın və digər vacib əşyaların qiyməti günbəgün və dəfələrlə artırdı". Ermənilərin özlərini lider təyin etmiş başçılarının öz xalqını pis günə qoymasının bir nümunəsi də budur. Qonşu həyatlarının, torpaqlarının və ehtiyatlarının bahasına "böyük Ermənistan" yaratmaq və onu xristian dünyasının dilənçi payı hesabına yaşatmaq haqqında tüstülənən xəyallar bumeranq kimi geri qayıdaraq öz xalqlarını yandıran alova çevrildi.

Erməni liderləri bilirdi ki, "diribaş erməni manipulyatorları və möhtəkirləri onsuz da qıt olan ərzaq ehtiyatlarını gizlədir, başını itirmiş camaatın son var-yoxunu da əlindən alaraq əvəzində onlara tula payı verirdi". Nə üçün erməni hökuməti bu fəaliyyəti cinayət kimi qiymətləndirmədi? Onlar nə üçün öz xalqının başına belə dəhşətli oyun açan fərdləri həbsə almadı? Erməni hökumət rəsmiləri bu gəlir gətirən əməliyyatlara ortaq idilərmi?

Hovanissyan göstərir: "Hökumət özünün yaratmadığı, lakin hesabat verməyə məcbur edildiyi fəlakətli vəziyyətlə üz-üzə qalmışdı." Bu, boş çərənləmədir! Aydındır ki, sonralar boğularaq öz xalqını dəhşətli vəziyyətə salmış inqilaba məhz erməni diktator liderləri başlamışdır. Onlar heç kimə lazım olmayan pul çap edirdilər və onu çap edəndə bilirdilər ki, bu heç kimə lazım olmayacaq. Bu hökumət başqa cür düşünür və gizlətməyə də, qaz vurub qazan doldurmağa da icazə verirdi.





Əgər Amerika onları xilas etməyə gəlməsəydi Ermənistan adlandırılan bu ölkə parçalanıb itəcəkdi. Hovanissyan bunu aşağıdakı kimi ifadə edir: "Erməni xalqının tarixindəki həmin çətin məqamda Amerika Birləşmiş Ştatları həyat nəfəsi verərək, yeni ümidlər oyadaraq və yeni üfüqlər açaraq onları xilas etməyə gəldi." (s. 133)

Ermənilərin muzdlu agentləri Birləşmiş Ştatlara gedərək xristianlara müsəlman irqi-etnik kartı haqqında ağlaşma qurduqları və hüsnrəğbət qazanmaq naminə olmamış soyqırım haqqında əhvalatlar uydurduqları üçün amerikanlar erməniləri xilas etməyə gəldilər. Müsəlmanlar həmin əhvalatları inkar etmədiyi üçün ermənilərin bu qurğusu işləməyə başladı. Erməni qara-qışqırığının qarşısına çıxmaq üçün müsəlmanların debat mexanizmi yox idi. Hər şey bir tərəfə, axı xristian ermənilər yalan danışa bilməzdilər, elə deyilmi? Ermənilərin hapgopla dolu nağılları xristian dünyası tərəfindən tələ, xətt və yağlı kökə kimi alındı. Ermənilərin muzdlu agentləri xristianların xoş məramını və gözəl arzularını başayaq işlədərək təhqir etdilər.

Zavallı erməniləri təmin etmək üçün Amerikada özəl xeyriyyə cəmiyyətləri yarandı:

*Missionerlər, hamilər, sənayeçilər və təhsil işçiləri Amerika Kömək Komitəsini yaratdılar. Həmin komitə Konstantinopol və Suriyadakı erməni rəsmiləri vasitəsilə vəsaitlər alınması üçün az müddət içində 100,000 dollar pul topladı. Erməni faciəsinin böyüklüyü aşkar olunduğu üçün həmin komitə öz fəaliyyət əməliyyatlarını genişləndirərək 1915-ci ilin sonunda Süriya və İrandakı kömək qruplarını ermənilərin və Suriyanın ixtiyarına verdi. Sonrakı iki il ərzində Yaxın Şərqdə xristian qaçqınları üçün pul və vəsaitlərin sabit axını erməni və Suriya kömək qruplarına çatırdı. Bu vəsaitlər xüsusilə susuz ərəb çöllərindəki əyalətlərə köçürülmüş erməni qaçqınlar üçün nəzərdə tutulmuşdu. (s. 133-134)*

I Dünya Müharibəsi başa çatandan sonra erməni ictimaiyyəti "ermənilərin və Suriyanın kömək əməliyyatlarını təzələməyə nail olaraq, artıq Yaxın Şərqə Kömək üçün Amerika Komitəsi (ACRNE) adı altında fəaliyyət göstərirdi. Bu komitə 30 milyon dollarlıq kampaniyaya başladı və şəxsi adamların xeyriyyə vəsaitləri hesabına 1919-

cu ilin axırı üçün təxminən 20 milyon toplaya bildi. Bu, tarixdə analoqu olmayan hadisə idi." (s. 137)

Ermənilər amerikanların açıq qəlbi haqqında hər şeyi öyrənmişdilər. 1991-ci ildən 2001-ci ilədək Birləşmiş Ştatlar hökuməti Ermənistana 1.4 milyard dollar həcmində xarici vəsait vermişdir! Adambaşına illik kapital hesabı ilə bu, güman ki, yer üzünün hər bir millətindən artıq göstəricidir. Ermənistana verilmiş Amerika vergi ödəyənlərinin bu böyük məbləği təsadüfi deyildi. Bu hədiyyə Birləşmiş Ştatlar hökumətində erməni lobbisinin bapbalaca, lakin çox nüfuzlu olmasının nəticəsi idi.

Həmin o 1.4 milyard dollar pul görəsən neçə dəfə yenidən Birləşmiş Ştatlara qayıtmışdır ki, erməni muzdlu agentlərinin xidmətləri satın alınsın? Və onlar daha həvəslə işləyərək öz cırtdan ölkələri üçün Amerikadan daha çox vergi pulu çırpışdırsınlar? 1919-cu ildə Birləşmiş Ştatlardan aldığı kreditlərə görə Ermənistan bir qara qəpik də ödəməkdən imtina edir. Görünür, ermənilər əl açıb dilənməyin texnikasına yaxşı yiyələnmişlər, çünki Ermənistanda sənaye yaratmağa səy göstərməkdənsə, Birləşmiş Ştatlardan pul xahiş eləmək daha asandır.



"1918-ci ildə Almaniya ilə atəşkəsə nail olandan dərhal sonra Birləşmiş Ştatların Ərzaq Nazirliyi bir-birinin dalınca Avropa sahillərinə yük gəmiləri göndərməyə başladı və Amerika agentliklərinin müharibədən sonrakı kömək əməliyyatlarına rəhbərlik etmək üçün Herbert Huver Fransaya gəldi." (s. 137)

1919-cu ilin fevralında Birləşmiş Ştatların Konqresi 100 milyon dollarlıq fond qanunu qəbul etdi. Bu pullar "ermənilərin, suriyalıların, yunanların və indi və ya əvvəllər Türkiyənin subyekti olmuş Kiçik Asiyadakı Amerika ilə düşmən olmayan digər xristian və yəhudi əhalisinə" kömək üçün nəzərdə tutulmuşdu." (s. 138)

Anti-türk, anti-müsəlman lobbi Konqreslə öz işini yaxşı qurmuşdu. Türklərin əlindən əzab çəkmiş ermənidənsə, ermənilərin əlindən daha çox türkün əzab çəkməsi faktına baxmayaraq, həmin münasibət bu gün də davam edir. Bu faciəli müharibənin hər iki tərəfi heç vaxt Birləşmiş Ştatların əhalisinə təqdim edilməmişdir. Səbəb isə sadə idi – Ermənistan xristian millətidir, Türkiyə isə yox. Ermənilərin Osmanlı hökumətini yıxmaq niyyəti ilə özlərini bu əzaba düçar etməsini isə amerikanlara demək vacib sayılmır.



*1919-cu ilin son rübünə kimi dövlət tərəfindən maliyyələşdirilən və özəl amerikan kömək təşkilatları erməni xalqına 20 milyon dollardan artıq qiymətləndirilən ərzaq və pul yardımı etmişdi. Bu məbləğin yarısından çoxu, xüsusilə birbaşa Ermənistan Respublikasına verilən hissə Amerika Kömək İdarəsi vasitəsilə maliyyə yardımı aldı. İdarənin baş direktoru Herbert Huver ARA və ACRNE təşkilatlarının fəaliyyətini tənzimləyirdi. ARAnın hər gəmisi üçün erməni hökuməti Birləşmiş Ştatların Xəzinəsinə ödənməli olan xüsusi vəd sənədi yayırdı, ACRNEnin bütün köməkliyi isə Amerika xalqının erməni xalqına birbaşa hədiyyəsi idi. (s.12)*

Hər bir ölkə üçün öz borclarını ödəmək milli şərəf hesab edilir. Borcunu ödəməli olan ölkə bunun öhdəsindən gəlmirsə həmin ölkə "ölümcül-vurulmuş" kimi tanınır. Ermənistan şərəfsiz ölkələr sinfinə aid edilməlildir, çünki son səksən iki ildən artıq müddət ərzində Birləşmiş Ştatlara verməli olduğu puldan bir qara qəpik də qaytarmamışdır.

2001-ci ilin axırlarında Birləşmiş Ştatlar Konqresinin nəzdindəki komissiya evi Ermənistana Amerika vergi ödəyənlərinin hesabından daha bir yığın pul ayrılmasına səs verdi – dəqiq desək, 90 milyon dollar! Amerika siyasətçiləri bu balaca ölkəyə nə üçün bu qədər böyük məbləğdə pul verir? Cavab tapmağın və özünü Ermənistan Respublikası adlandıran bu qatillər bandasına böyük məbləğlərin ödənməsini saxlamağın vaxtı keçmişdir. Hər şey bir yana, onlar "etnik təmizləmə"ni (Azərbaycandakı və Gürcüstandakı müsəlmanlardan) "etnik prinsip" adlandırırlar, elə deyilmi?



1919-cu ildə ermənilər dənizdən dənizə azad torpaqların iddiası ilə lobbiçilik edirdilər. Görün ermənilər nə istəyirdi:

*...Təklif olunurdu ki, o adda müstəqil ölkə yaradılsın və həmin ölkə Millətlər Birliyinin nəzarəti altına keçsin. Yeni ölkənin sərhədləri "təbiət tərəfindən" aydınca müəyyənləşdirilmişdir; qərbdə Anti-Taurus dağları və cənubda Taurus dağları - "birinci dərəcəli topoqrafik əlamətləri olan" ərazi. Ermənistan Adana da daxil olmaqla Kilikiya ərazisini və Aralıq dənizi çıxıntısını, Qara dəniz sahilləri ilə birgə Trebizond torpaqlarını və Taurusun cənubundakı və Anti-Taurusun*

*qərbindəki əraziləri çıxmaq şərtilə Türkiyə Ermənistanının altı vilayətində yerləşəcəkdir. Rusiya Ermənistanının Qars və İrəvan əyalətləri və Axaltisix (Ermənistan Respublikası tərəfindən rəsmi bəyan ediiməmişdir) və Axalkalakl knyazlıqları da bu torpaqlara əlavə olunacaqdır. Qəbul edildiyi kimi, yaşadıqları ərazilərin hamısında ermənilər azlıqda qaldığı və əhalinin 30 və ya 35 faizindən artıq olmadığı üçün erməni problemi həmişə "sadəcə çətin" olmuşdur. Buna münasib olaraq şəxsi qətiyyətin liberal şərhi münasib sayılır. (s. 265)*

Başa düşmək olmur: ermənilər guya əhalisinin əksəriyyət təşkil etdiyi Gürcüstan və Azərbaycan torpaqlarını necə tələb edə bilərdi? Sonra isə əhalisinin cəmi 30-35 faizini təşkil etdikləri Türkiyə torpaqlarına necə iddia edə bilərdi? Ermənilərin Birləşmiş Ştatlar kimi güclü dövlətə ehtiyacı var idi ki, o öz pulunun və qoşunlarının həyatları bahasına ərazidə ermənidən 65-70 faiz çox olan başqa xalqların üzərində nəzarəti bu qatillərə və başkəsənlərə həvalə edəydi!



Ermənilər özlərinə belə haqq qazandırırdılar ki, beş yüz il ərzində azlıqda olmalarına baxmayaraq, sülh şəraitində yaşadıqları Osmanlılara tabe olmaq istəmir və azadlıq arzulayırlar. Bir baxın, I Dünya Müharibəsi başa çatandan sonra ermənilər özlərindən qat-qat çox olan müsəlmanlar üzərində tam nəzarəti istəyirdilər.

Oxucu xatırlayır ki, Osmanlı döyüş xətlərinin arxasında satqınlıqla məşğul olduqları ucbatından ermənilər həmin yerlərdən köçürüləndə bunu soyqırım kimi "damğalamışdılar". İndi isə həmin müharibə qurtarandan sonra ermənilərin Qarabağ haqqında planlarına nəzər salın.

Hovanissyan erməni düşüncəsinin bir xəttini izah edir: "Tarixi nöqteyi-nəzərdən o (Qarabağ), Ermənistana qatılmalıdır, lakin oradakı əhalinin tərkibində güclü Azərbaycan elementi vardır. Erməniləri azərbaycanlılardan ayırmağın ən düzgün həlli Qarabağ ermənilərini İrəvan ərazisinə, İrəvan azərbaycanlılarını isə Qarabağa köçürməkdir." (s. 267)

Bütün azərbaycanlıların öz doğma torpaqlarından süpürülüb atılmasını və bütün ermənilərin İrəvan ətrafında, başqa birisinin torpaqlarında bir yerə yığılmasını həyasızcasına istəyən Hovanissyanın məntiqi hansı qəbildəndir? Burada Hovanissyan növlərin "genosidini" təklif etmirmi? Bu cəhdlər Adolf Hitlerin yaddan çıxarmadığımız taktikasına və irqçi hərəkətlərinə bənzəyir.



1919-cu ilin yanvarında Müttəfiqlərin Sülh Konfrası açıldı. Ermənistanın həmin konfransda bərabər hüquqlu yer tələb etməsinə baxmayaraq, onlara etiraz edildi və deyildi ki, "yalnız formalaşmış ölkələr iştirakçı ola bilər". (s. 276)

Ermənilərin bərabər hüquqlu yeri ilə bağlı bir problem də var idi. "Ümumilikdə Müttəfiqlər və xüsusilə Fransa "demokratik Rusiyanın" yenidən qurulmasında maraqlı idilər və bütövlükdə Rusiyanın məsələsi həll olunmadan Ermənistana münasibəti formalaşdırmaq çətin olardı." (s. 276) Axı, Türkiyə, Gürcüstan və Azərbaycan torpaqlarına əlavə olaraq Ermənistan Rusiya torpaqlarına da iddialı idi. Torpaq iddialarına digər baxış isə belədir – əslində ermənilər adi gözüboşlar idilər.

Ermənilər mübahisə edirdilər ki, "Diri və ölü olan bütün ermənilərin səsi eşidilməlidir. Hərbi kampaniyalar və onun nəticəsində yaranmış epidemiya və aclıq yerli müsəlman əhalisinin də axırına çıxmışdır, ona görə də köçürülmüş və digər ölkələrə emiqrasiya etmiş ermənilər, xüsusilə Rusiya erməniləri əyalətləri ilə birgə burada yeni müstəqil millət kimi erməni əksəriyyətini təşkil edəcəkdir". (s. 278)



Gəlin elə buradan başlayaq: Ermənilər həm ölüləri, həm də diriləri saymaq istəyirdi. Onlar həm də hesab edirdilər ki, saysız-hesabsız "köçkün və emiqrant" Osmanlı torpaqlarına qayıdacaqdır. Əlavə olaraq, onlar deyirdi ki, əgər Rusiya erməniləri də hesaba alınsa, əhalinin əksəri ermənilərdən ibarət olcaqdır. Bəs türklərin genosidi vaxtı ermənilər qırılıb qurtarmamışdı? İndi ermənilər çoxluq qazanmaq üçün necə xəyallara dala bilərdi? Əgər ermənilər türklər tərəfindən sistematik surətdə və böyüklü-kiçikli öldürülmüşdüsə, onda bu köçkünlər və emiqrantlar haradan pırtlayıb çıxmışdı? Başqa sözlə desək, əgər genosid olmuşdusa, onda köçkünlər, emiqrantlar, yenidən yaradılmış erməni çoxluğu və sair və ilaxır haqqında danışmaq olmazdı! Onlar Amerikanın xristian kilsələrindən şəfqət (və dollarlar)

axtaranda pis türk və dəhşətli genosid haqqında danışırlar; lakin Avropanın konfrans stolları arxasında "dənizdən dənizə" torpaq axtaranda onlar köçkünlər, emiqrantlar və yeni formalaşmış ermənilərin çoxluğundan söz açırlar. Yaxşı, bunlardan hansıdır? Genosiddir ya köçürülmə?

Belə bir cəhəti qeyd etmək də maraqlıdır ki, ermənilər müharibə ərzində müsəlmanların da böyük itkilər verdiyini etiraf etməyə məcburdur (əslində öz itkilərinin daha çoxsaylı olduğunu göstərmək naminə). (Əlbəttə, ermənilər heç vaxt işarə vurmurlar ki, müsəlmanların əksərini onlar öldürmüşdür.)

Hovanissyanın bəyan etdiyi kimi, Paris Sülh Konfransının zallarında addımlayan erməni agentləri onların ölkəsinə "dənizdən dənizə" torpaq verilməsi üçün yalvarırdılar. Onlar həm də yalvarırdılar ki, onları müdafiə etmək üçün əsas məsələ "mülki əhalini tərksilah etmək, erməni-iddialı torpaqlardan türk rəsmilərini qovmaq, qırğınlarda təhrikçiləri və iştirakçıları cəzalandırmaq, ərazidə narahatlıq yaradan köçəri tayfaları süpürüb atmaq, son vaxtlarda regionda məskunlaşmış müsəlman immiqrantlarını geriyə göndərmək və müsəlman evlərində saxlanılan xristian qadınlarını və uşaqlarını geri almaqdır. Bu azmış kimi, Sülh Konfransı vurulmuş ziyanın əvəzində təzminat ödəməyi, erməni millətinə vurulmuş bütün növlərdən olan zərərləri aradan qaldırmağı Osmanlı hökumətinə təkiif etməlidir..." (s. 280)

Ermənilər bir elə də çox istəmirdilər, elə deyilmi? Baxın görün onlar nə istəyirdilər:

1. Mülki əhalini tərksilah etmək: Əlbəttə ki, ermənilər istəyirdi ki, kimsə başqası əhalinin erməni olmayan 65-70 faiz çoxluğundan bütün silahları yığsın. Hər kəs başa düşə bilər ki, ermənilər hakimiyyətə gələndən sonra istəməzdilər ki, əhalinin böyük əksəriyyəti özünü müdafiə edə bilsin. Axı, Osmanlı döyüş xətlərinin arxasında ermənilərin silahı olmuşdu və onlar 1915-ci ilin təcrübəsinə əsasən bilirdilər ki, xalq hökumətin ayağının altını qazmağa qadirdir.

2. Ermənistan güclü bir dövlətin beş yüz ildən artıq bu torpaqlara sahiblik etmiş türk rəsmi dövlətini qovmasını istəyirdi ki, həmin yerləri ələ keçirsin.

3. Ermənistan güclü bir dövlətin "erməni-iddialı qırğınlarda təhrikçiləri və iştirakçıları cəzalandırmasını" istəyirdi.





Osmanlılar üçün cəza axtarmalarında ermənilər öz arsuna çatdı. Böyük Britaniya bir neçə nəfəri həbsə aldı və məhkəmə prosesləri başlandı. Maraqlıdır ki, hər iki tərəf öz şahid-sübutunu təqdim edəndən sonra dəhşətli cinayətlər ittihamı ilə məhkəməyə çəkilmiş Osmanlıların çoxu günahsız hesab edilərək bəraət aldı. Yalnız bəzi fərdlər "qırğın"da günahkar hesab edildi. Bundan sonrakı fəsildə spesifik məqamlara aid çox yazılacaqdır. Deməyə ehtiyac yoxdur ki, müsəlmanları soyqırım etdiyinə görə bircə nəfər də xristian ermənisi istintaqa cəlb edilməmişdir. Tarix isə sübut edir ki, Ermənistan ağlagəlməz sayda müsəlmanı qanına qəltan etmişdir!

Yeri gəlmişkən, madam ki, Ermənistan güclü dövlətdən "qırğınlarda" günahı olanları tapıb cəzalandırmağı xahtş edir, onda belə bir sual yarana bilər ki, nə üçün milyonlarla yox, cəmi bir neçə günahkar tapıldı? Və ya yüz miniərlə və ya minlərlə? Və ya heç olmazsa yüzlərlə günahkar tapılmadı? Ermənilərin bu gün iddia etdiyi kimi bir neçə nəfərlik Osmanlı günahkarı 1.5 milyon adamı necə qırıb-çatmışdı?

Erməni xristianları tərəfindən neçə Osmanlı müsəlmanının soyqırıma düçar edilməsini ermənilər təhqiq etmək istəmir; onlar heç ümumi sayla da marqlanmır.

4. Ermənilər güclü dövlətin "narahatlıq doğuran köçəri tayfaları süpürüb atmasını" istəyirdilər. Başqa sözlə desək, ermənilər güclü dövlətdən Osmanlı dövlətinə sadiq olan kürdləri köçürməyi istəyirdilər. Sonrakı fəsildə ermənilərin və kürdlərin verdiyi itkilər haqqında müqayisə aparılacaqdır. Belə bir cəhəti qeyd etmək maraqlıdır ki, kürdlər ermənilər qədər əzab çəkməmişdi. Bax, sadiqliyin və satqınlığın fərqi budur!

Həm də qeyd etmək lazımdır ki, düşmənin tərəfini saxladıqları üçün Osmanlıların döyüş xətti arxasından köçürülmələrinə ermənilər etiraz etmişdilər. İndi isə ermənilər arzu etdikləri torpaqların kürdlərdən təmizlənməsini güclü dövlətdən istəyirdilər.

5. Müsəlman immiqrantları geri göndərmək: Bu yenə də ikili standart və onların nifrət dolu etnik diskrinimasiyasına nümunədir, elə deyilmi? "Xristian" ermənilər "müsəlmanlara" (türklər və kürdlər) dözə bilmir. Maskaları yırtılır, elə deyilmi? Bu növlü "xristian olmayan" ideyaları və dəyərləndirməni "xristian" ermənilər harada öyrəniblər?

Əgər Hovanissyanın açıqca bəyan etdiyi kimi ermənilər belə dözümsüzdürsə, onda nə üçün onlar özlərini xristian adlandırmaqda israrlıdır? Ermənilər "dözümsüzlüyü" "xristianlıq" ilə necə uyuşdururlar?

6. Xristian qadınlarını və uşaqlarını müsəlman evlərindən geri almaq. Ermənilər zaman-zaman bu haray-həşiri qaldırır, lakin heç vaxt nə say, nə ad, nə də ünvan göstərmirlər. Müsəlmanlar dəhşətli iqtisadi zamanlarla üzləşmişlər, lakin ermənilərin əksinə olaraq onlarda ümumi məfkurə belədir ki, bu barədə dünyaya car çəkmək olmaz (heç vaxt da danışmayıblar).

7. Ermənilər istəyirdi ki, güclü dövlət I Dünya Müharibəsində vurduğu hər növ ziyana görə "Osmanlı hökumətini təzminat ödəməyə" məcbur etməlidir. Sülh Konfransı onlara heç nə vermədi.

Bunu da qeyd etmək maraqlıdır ki, Paris Sülh Konfransında "Mərkəzi Asiya" adlanan torpağa İran da istək iddiası irəli sürmüşdü. Düzünə qalsa, bu qədim dövlət "Persiya Türkiyəsi" və ya "Persiya Rusiyası" və ya "Persiya Yaylası" adlandıra biləcəyi torpaqlara görə iddia qaldıra bilərdi. Hər şey bir yana, bu torpaqlara tarixi iddia üçün onların Ermənistandan daha çox hüququ var idi. Deməyə ehtiyac yoxdur ki, ermənilər onların iddiasına etiraz etdilər.



Ermənilərin satqınlığını və xainliyini sübut edən və bu mübahisəyə qatılmasına ehtiyac duyulan mənbə Poğos Nubaryan tərəfindən yazılmış məktubdur. O, Paris Sülh Konfransında erməni milli nümayəndə heyətinin başçısı idi. Onun yazdığı və Londonda çıxan *Tayms* qəzetinin 30 yanvar 1919-cu il tarixli nömrəsində dərc olunmuş məktubunda göstərilir ki, müharibə başlanandan bəri ermənilər de-fakto döyüşən tərəf olmuşdur. Onlar bütün cəbhə xətləri boyunca, habelə Fələstində və Suriyada Müttəfiqlərin sıralarında döyüşmüşlər. Fransız hökumətinin xahişinə əsasən Erməni Milli Nümayəndəliyi tərəfindən toplanmış erməni könüllüləri əslində fransız kontingentinin yarıdan çoxunu təşkil edirdi. Heç yerdə qeyd olunmasa da, Qafqazda döyüşən Rus İmperiya Ordusunun tərkibinə 150,000 erməni qatılmışdı və o könüllülərin 40,000 nəfərdən çoxu Türkiyə qoşunlarına müqavimət göstərirdi.

Hovanissyanın kitabı kimi bu məktub da kimin işğalçı olduğunu aydın göstərir: ermənilər! Bəzisi fransız hərbi geyimində, digərləri



rus qiyafəsində, bir başqaları Osmanlı libasında, yerdə qalanları isə geyimsiz-zadsız. Müxtəlif hərbi qiyafədə olsalar da eyni kin-küdurət: türkləri məhv etmək! Budur, erməni lideri qalib Müttəfiqlərə deyir: "Türklərə arxadan zərbə vurmaqla biz sizə kömək etdik – bəs mükafatımız hanı?"

Fikir verin ki, orada genosid haqqında bircə işarə də yoxdur (1948-ci ilədək həmin termin hələ qəlibdən çıxmamışdı). Genosid kimi anlaşıla bilən təsvirlər də yox idi. Əgər ermənilər doğrudan da genosidə məruz qalmışdısa, onda nə üçün onların "nümayəndə heyətinin başçısı" Müttəfiqlərə ünvanladığı məktubunda bunu qeyd etməyi unutmuşdur? Yox, əgər Müttəfiqlər erməni iddialarına o vaxt məhəl qoymamışdısa, onda nə üçün həmin iddiaları indi qəbul etməlidirlər?

ALTINCI FƏSİL

# AMERİKA ADMİRALI ERMƏNİ İDDİALARINI "TAMAMİLƏ SAXTA" ADLANDIRIR

## MADDİ ZİYANLAR HAQQINDA ERMƏNİLƏRİN TƏLƏBİNİ DİNLƏYƏN SÜLH KONFRANSI ONLARA HEÇ NƏ VERMƏDİ

Paris Sülh Konfransı 28 iyun 1919-cu ildə öz işini başa çatdırdı. Konfransın materialları Versal Müqaviləsi kimi tanındı. Orada Avropa məsələləri müzakirə olundu və Millətlər Birliyi yarandı. Müqavilə Osmanlı İmperiyasına münasibət bildirmədi. Bu məsələ sonralar çözələnəsi idi.



Konfransda bərabərhüquqlu yer almasına imtina olunmuş ermənilər konfransın gedişinə hər vəchlə müdaxilə etməyə çalışır, onları dinləmək istəyən hər kəsdən dilənçi payı almağa cəhd göstərirdilər. Aşağıdakı spesifik məsələlərdə Müttəfiqlərin onların tələblərinə məhəl qoymaması ermənilərin ciddi narazılığına səbəb oldu: "(1) Ermənistan Respublikasını tanımaq, (2) Türkiyə Ermənistanınıdakı yaşayış məntəqələrindən müsəlmanların çıxarılması və oraya erməni qaçqınlarının yerləşdirilməsi, (3) Türkiyə Ermənistanını hərbi müdaxilə vasitəsilə işğal etmək və (4) Ermənistan üçün dərhal mandatlı millət statusu yaratmaq. Hər bir məsələ üzrə Parisin cavabı ya neqativ, ya da tərəddüdlü oldu." (1)

Bütün bu müddət ərzində isə erməni agentləri xristian dünyasından sədəqə almaq üçün etdikləri xahişə tərəfdar axtarırdılar.

*Böyük Britaniya, Fransa, İtaiiya, İsveçrə, Danimarka və xüsusilə*



*Birləşmiş Ştatlardakı ermənipərəst cəmiyyətlər Ermənistanın bu sifarişini müdafiə edirdilər. Ermənistanın Müstəqilliyi Uğrunda Amerika Komitəsi İrəvandakı hökumətin de fakto tanınması haqqında minlərlə adamın xahişini toplamışdı. Sülh Konfransı öz işinə başlayan kimi isə yüzlərlə Amerika keşişinin fərdi xahişi əsasında Ermənistanın "öz tarixi sərhədlərində" yenidən qurulmasına iyirmi beş qubernatorun ümid bəsləməsi ictimaiyyətin diqqətinə çatdırıldı. 1919-cu ilin apreli üçün Parisdəki Amerika nümayəndə heyətinin bir neçə məsləhətçisi Ermənistana 20 milyon dollar həcmində kredit verilməsi təklifini irəli sürdü. (s. 293)*

Bu, Amerika xristianlarının ürək telləri ilə məharətlə oynayan ermənilərin heç nə vermədən hər şeyi alması haqqında gözəl nümunədir!

Din xadiminin oğlu olan prezident Uilson bu nağılların təsiri altına düşmüşdü. Erməni agentlərinin Uilsona münasibətdə çox uğurlu işi haqqında Hovanissyan lovğalıqla söz açır. O, qeyd edir ki, prezident "heç şübhəsiz, ona müraciət etmiş otuz ştat qubernatorunun xahişindən təsirlənmişdi. Erməni hökumətinin de fakto tanınması və məsələləri müzakirə edilərkən cəsur erməni xristian milləti nümayəndələrinin Sülh Konfransında tərəf kimi iştirakına icazə alınması ondan xahiş olunmuşdu." (s. 294)



Bu da Hovanissyanın yarım-həqiqətlərə necə münasibət bəsləməsi haqqında başqa bir nümunədir. Əsas həqiqət isə budur ki, 8 yanvar 1918-ci ildə prezident Uilson Vaşinqton şəhərində Konqresin birgə sessiyasında çıxış edərək I Dünya Müharibəsindən sonrakı mərhələdə Birləşmiş Ştatların sülh axtarışları ilə bağlı olaraq öz məqsəd və vəzifələrinin şərhini verdi. O, kömək ediləsi bir neçə spesifik millətin adını çəkdi: Rusiya, Belçika, Fransa, İtaliya, Avstriya, Macarıstan, Rumıniya, Serbiya və Polşa. Prezident bir dəfə də Ermənistanın adını çəkmədi.

Sülh ilə bağlı olaraq prezident bunları söylədi:

*Ona görə də, bu müharibədən tələb etdiklərimiz qətiyyən özümüzə aid deyildir. Bizim istədiyimiz dünyadakı əminamanlıqdır ki, orada bizim kimi yaşamaq mümkün olsun, hərə öz ömrünü başa*

*vura bilsin, öz dövlətini qura bilsin, güc və qəsbkarlıq əleyhinə özlərini qoruya bilib ədalət və qanunçuluqla təmin olunsun.*

*Yer üzünün bütün xalqları bu məsələdə effektli tərəfdaşdır və öz tərəfimizdən biz tamamilə aydın görürük ki, əgər başqalarında ədalət bərqərar olmursa, bizdə də olmaz. Ona görə də dünyanın sülh proqramı bizim proqramdır; və həmin proqram, yeganə mümkün olan proqram kimi gördüyümüz bu işdir." (2)*

Sonra prezident Uilson Konqresə Dünya Sülhünün 14 maddəsi kimi tanınan təklifini təqdim etdi. 12-ci maddədə prezident Osmanlı İmperiyasına münasibətini bildirdi: "Müasir Osmanlı İmperiyasının türk hissələrində möhkəm suverenlik təmin olunmalıdır, lakin türk nəzarətində olan digər millətlərə də şübhəsiz həyat təhlükəsizliyi və hüquqlarına tamam müdaxilə edilməyən muxtariyyyət inkişafı verilməli, Dardanel boğazı isə beynəlxalq təminat altında bütün millətlərin gəmilərinin azad keçidi və ticarəti üçün dərhal açılmalıdır." (3)

Bu bəyanatlar ermənilərin Uilsonun vədi haqqında iddialarından və onların almaq istədiklərindən tamamilə fərqlidir. Ermənilər və müstəqillik istəyən digər millətlərin istəyincə Uilson yalnız bunu demişdi: "Həyat təhlükəsizliyi və hüquqlarına tamam müdaxilə edilməyən muxtar inkişaf." Ermənistan belə bir imkan qazandı.

Prezident yalnız Osmanlı İmpenriyasının tərkibində olan "digər millətlərə" *"hüquqlarına tamam müdaxilə edilməyən muxtar inkişaf"* vəd etmişdi, vəssalam. Ermənilər onu və daha artığını qazandı, lakin Gürcüstana və Azərbaycana edilmiş eyni vədlərin inkarına çalışmasına da ara vermədi.

Xristian rəsmiləri daha çox humanitar yardım istədi və onu aldı. (4) Amerikanların Ermənistana xeyriyyə köməyi bütün il boyu davam etdi. Əslində, özəl xeyriyyəçilər bu cırtdan ölkəni pul selinə saldılar. Həmin ilin payızı girməmiş təkcə Amerika İctimai İdarəsi Ermənistana 50,000 tondan artıq ərzaq çatdırmışdı. Nəzərə alın ki, bu cür geniş miqyaslı humanitar yardım bir yana, daha çox insan həyatı və əmlak itirərək daha dəhşətli əzablara düçar olmuş müsəlmanlar heç xatırlanmır da.

Verilən hər mümkün növ yardımı qamarlamaq məqsədi ilə bir erməni rəsmisi hətta "Avropadakı Amerika Ekspedisiya Qüvvələri tərə-





findən göndərilən müxtəlif yardım və ləvazimatı ələ keçirməyə" cəhd göstərmiş, "lakin beynəlxalq tanımanın və xarici kreditin azlığından Ermənistan həmin hüququ qazana bilməmişdi." (s. 294)

Hovanissyan məlumat verir ki, "Zaqafqaziyada yarım milyon qaçqın toplanmışdı." (s. 295) Digər yerlərdə isə o, dəfələrlə bəyan edir ki, ərəb torpaqlarında da çoxminlik erməni qaçqını vardı. Öz kitabının əvvəllərində isə Hovanissyan demişdi ki, Türkiyənin döyüş zonasında təxminən 1 milyon erməni xristianı var idi və onlar köçürülmüşdü. Çox sadə riyazi hesablama bu faktın absurdluğunu ortaya qoyur: ermənilərin təsəvvür imkanlarını kənara qoyaq, sadəcə erməni lobbisinin bu gün iddia etdiyi kimi, türklər öz erməni əhalisinin 1.5 milyon nəfərini necə soyqırım edə bilərdi?

Hovanissyan irəli gedərək daha bir səbəbi əlavə edir ki, bu da 1915-ci ildə türklərin çoxsaylı erməni öldürməsinin mümkün olmadığını təsdiq edir. "Osmanlı İmperiyasının çox-çox əvvəllər məğlub olmasına baxmayaraq, Türkiyə Ermənistanı hələ də cəlladın əli altında inləyir, qaçqın dəstələrinin öz kəndlərinə qayıtmaq hüququ yoxdur, onlar bütün sərhədlər boyunca aclıq və xəstəlikdən ölüb gedirlər, saysız-hesabsız xristian qadın və uşağı hələ də hərəmxanalarda əsir saxlanılır." (s. 295)

Bu ambisiyalı tarixçi "hələ də cəlladın əli altında inləyir" kimi sözləri necə işlədir? Aydındır ki, belə təyinlər işlətməklə Hovanissyan tarixin yeni və əyri təfsirini verməyə cəhd göstərir ki, öz doğma Ermənistanını ədalətə calayaraq təmizə çıxarsın.

Bu barədə heç bir söhbət ola bilməz: minlərlə və yenə də minlərlə erməni "aclıq və xəstəlikdən" ölmüşdür. Lakin nə üçün? Tarixi həqiqət belədir ki, bu adamların çoxu öz fərsiz diktator liderlərinin arxasınca bu qupquru torpaqlara qaçmış və bu onlara baha başa gəlmişdi. Osmanlı vətəndaşları olan digərləri (məsələn kürdlər) öz ölkələrinə sadiq qalmış və ermənilərin taleyini yaşamamışdır. Türkləri "cəllad" adlandırmaq sadəcə cəfəngiyyatdır. "Hələ də cəlladın əli altında inləyir" deyiminin əvəzində "hələ də müştəbeh erməni diktator liderlərinin əli altında inləyir" deyilsəydi daha düzgün olardı.

Hovanissyan çığır-bağır salır ki, "saysız-hesabsız xristian qadın və uşaqları hərəmxanalarda dustaq qaldı". Bu, yenə də tamam-kamal cəfəngiyyatdır. Hovanissyan öz dörd cildlik seriyasının heç bir

yerində adi bir "hərəmxananın" belə adını çəkmir. Nə ad var, nə ünvan, heç nə. O, heç birinin adını çəkə bilmir, çünki beləsi yerli-dibli olmamışdır!

1919-cu il iyulun ortalarında Birləşmiş Ştatlar Donanmasının arxa qüvvələr admiralı Mark Bristol Aralıq dənizinin şərq regionu üzrə Birləşmiş Ştatların hərbi-dəniz qüvvələrinin komandanı təyin edildi. Onun qərargahı İstanbulda yerləşirdi.

Feldmarşal ser Henri Hyuciz Uilson Versal Sülh Müqaviləsi tərəfindən təsis edilmiş Baş Müharibə Şurasının Britaniya daimi nümayəndəliyinə rəhbərlik edirdi. 1918-ci ilin əvvəllərində o, İmperial Heyətin başçısı oldu.

Bu hər iki neytral hərbi komandan ermənilərin heç nə ödəmədən torpaqlara sahib çıxmaq istəyi haqqında öz tənqidi mövqelərini bəyan etdi. Başqa hökumətlər həmin torpaqlar üçün pul ödəməyə hazır idi.

"Türklərin konfransda iştirakı məsələsi təxirə salındığından vəziyyətdən səmərəli istifadə edən erməni emissarları Müttəfiqlərin rəğbətini qazanmaq üçün dəridən-qabıqdan çıxır, dünyaya səpələnmiş erməni təşkilatlarını onların əli ilə... erməniləri müdafiə etməyə çağırırdı. Qafqazdan və Anadolu sahil qəsəbələrindən qovularaq Mesopotamiya, Suriya və Misirdəki çadır düşərgələrinə səpələnmiş qaçqınlara beynəlxalq qurumlar ictimai və şəxsi xeyriyyəçilik nümayiş etdirdilər." (s. 4)

İctimai əlaqələr meydanında öz muzdlu agentəlrinin fəaliyyəti nəticəsində başqalarından yardım və pul almaqda Ermənistan hamıdan yüksəkdə dayanırdı. Hətta ən kütləvi yardım proqramlarından sonra da erməni xalqı əziyyət çəkirdi. Nə üçün Ermənistan hökumətinə verilən pul və yardımı sadəcə hesablayan yox idi? Hovanissyanın I cilddə qeyd etdiyi kimi, hökumət səviyyəsində böyük korrupsiya hökm sürürdü.



Aşağıdakı müşahidələr Ermənistanın adi vətəndaşlarının necə dəhşətli əzab çəkdiyini göstərir: "Xəstəliyin aramsız dalğaları adamla dolu olan infeksiyalı daxmalardan bayıra püskürürdü; dəlik-deşiyindən və sınmış pəncərələrindən dondurucu küləyin və sulu qarın içəri təpildiyi pis təmin edilmiş xəstəxanalar daha çox ölüxanalara bənzəyirdi." (s. 7)

Zavallı müsəlmanların göylərə bülənd olan naləsini isə erməni standartları hesaba almır, çünki onlar xristian deyil. Məgər indiki sivil dünyada qonşuya hücum edərək onun torpaqlarını qamarlamaq və ordunun gücü ilə təxminən milyon nəfər adamı sənin dininə yox, digər dinə aid olması ucbatından qaçqına çevirmək qəbuledilən hərəkətdirmi? Cavab gur və aydındır. *Yox!* Bu terrorizmdirmi? *Bəli!* Dövlət terrorizmi? *Bəli!* Dini etnik təmizləmə? *Bəli!* İşğal? *Bəli!* Ermənilərin terrorçu ölkəsinin 1 milyondan çox azərbaycanlını zorla



doğma yurdlarından qovması Ermənistanın məhz bu işlə məşğul olduğunu sübut edir.

Erməni liderlərinin digər problemləri də var idi: "Bu vəziyyətdə maliyyə qabiliyyətinin olmasından söhbət belə gedə bilməzdi, çünki 1919-cu ildə dövlət idarələrindəki ümumi mədaxil 30 milyon rubl olduğu halda, məxaric xərcləri milyard rublu ötmüşdü." Hovanissyan izah edir: "Mərkəzi bank sisteminin, qiymətli metallar ehtiyatının diqqətəlayiq ehtiyatları və məxaric məhsullarının olmaması ucbatından yay fəslinin başlanğıcı üçün yerli rubl rus imperial banknota nisbətən dörd dəfə ucuzlaşmışdı. Orta hesabla təxminən 100 rubl alan taleyi üzünə gülmüş əməkdaşların çoxunun ailəsi hətta satışda olan əsas ərzağı almağa da qadir deyildi..." (s. 7) Hakimiyyətin tamam-kamal bilgisi altında Ermənistanda korrupsiyanın necə at oynatması inanılmazdır.

*Bürokratizm rəsmiliyi ilə aşağı-yuxarı gezişən kənd komissarları və milis başçılarının müftəxorluğu hakimiyyətə qarşı inamsızlıq yaratsa da, hadisələr burulğanı inzibati islahatlar keçirməyə imkan vermirdi. Keçmiş rejimin çoxlu prinsipsiz bürokratı öz vəzifəsidən beşəlli yapışmışdı və yeni təyinatlar heç bir səmərə vermirdi. Bacarıqsız və təcrübəsiz olan bu adamlar yerli ehtiyaclara və adətlərə qarşı kobud biganəlik göstərirdilər. Buna baxmayaraq, daxili işlər nazirliyi öz azsaylı təcrübəli personalı ilə birgə öz üzərinə qoyulmuş vəzifəni imkanı daxilində yerinə yetirdi ki, ölkədə daha kəskin anarxiya yaranmasın. (s. 7-8)*



Bu diktatorların necə rəhbərlik etmək haqqında təsəvvürü belə yox idi. Pul çırpışdırmaq! Onlar yalnız pulkəsən maşının qulpundan yapışmışdılar və əlbəttə, onun əvəzində qoymağa heç nələri olmadığından, həmin pullar tezliklə lazımsız kağıza çevrilirdi. İnflasiya məsuliyyətsiz hərəkətlərin təbii nəticəsi idi.

Hətta "daxili işlər nazirliyi öz üzərinə qoyulmuş vəzifəni imkanı daxilində yerinə yetirirdi ki, ölkədə daha kəskin anarxiya yaranmasın" kimi üzrxahlıq olunsa belə, hökumətin yerli-yataqlı bilgisinə baxmayaraq, korrupsiyaçı rəsmilərin öz vəzifəsində saxlandığı bir ölkədəki vəziyyəti hər hansı bir sivil adam başa düşə bilərmi? Belə bir

dövlətin yaranması və saxlanmasının əsasında nəsə dəhşətli səhv dayanır – elə bir dövlət sistemi ki, oradakı bütün rəsmilər şərəfsiz və korrupsiyaçıdır. Başqa bir millət, qoy lap balacası olsun, bu cür şəraitdə uğur qazana bilərmi?

Bu yeni Ermənistanın adi vətəndaşının münasibətini gözünüzün qabağına gətirin. "Kəndlilər ənənəvi olaraq inzibati idarələrə zülm agentlikləri kimi baxır, bilirdilər ki, onları görəndə ya gözə görünməməlisən, ya da aldatmağa çalışmalısan. Təbiidir ki, onlar yaşamaq üçün vacib olan mallarını ya gizlədir, ya da özləri üçün ehtiyatda saxlayır, vətəndaş kimi ödəməli olduqları vergidən yayınırdılar." (s. 9)

Adi erməni üçün Ermənistan adlı ölkənin olmasının heç bir xeyri yox idi. Əgər keçmişdə hər hansı pis hökumət olmuşdusa, indi o, yüz minlərlə insan üçün daha da betər olmuşdu. Əhalinin əksərinin həyatı daha da ağırlaşmış, yaşayış standartları çürümüşdü. Adi erməninin həyatı ona görə pisdən də pis olmuşdu ki, onların liderləri xalqı aldadaraq daha betər aclığa düçar etmişdi.

Görün adi erməni daha nə edirdi:



*Hərbi xidmətdən yayınmanın kütləvi xarakter alması ölkənin sistemli bəlasına çevrilmişdi. Aqrar siniflər kişilərin beş illik xidmətindən və stabil əzablardan təngə gəlmişdi. Orduya çağırışın əsas ağırlığı kasıb-küsubun çiyninə düşürdü – onlar özlərini əsgəri xidmətdən yayındıra bilmirdi, yerli komissarlara rüşvət vermək üçün isə əllərində bir şey yox idi. Müdafiə Nazirliyi ümumi hərbi xidmətin tətbiqi haqqında qanun yaratmağa cəhd göstərirdi. Orada üç illik fəal əsgərlik, on beş illik ehtiyatda dayanmaq, on səkkiz-iyirmi yaşlı tələbələrə müvəqqəti möhlət nəzərdə tutulurdu. On altı yaşından tutmuş qırx üç yaşına kimi bütün kişilər öz hərbi statusu haqqında sənədləri təqdim edəndən sonra onlar işə qəbul edilə və dövlət yardımı ala bilərdi. Lakin 1919-cu ilin hərbi çağırışı tez uğur qazansa da, tezliklə məlum oldu ki, problemlər təkcə çağırışla həll olunmur. Tamamilə başını itirmiş hökumət nəhayət yenidən ölüm hökmünü və səlahiyyətli hərbi-səhra tribunallarını bərpa etdi. (s.9)*

Bu, müstəqil "Ermənistan Respublikası"nın mahiyyətini açan gözəl nümunədir. Dövlət rəsmiləri pul yığmaq və fırıldaqla məşğul idi.



Məgər təəccüblüdür ki, Ermənistanın zavallı, kasıb gənci hətta ölüm cəzasının qorxusu altında hərbidə xidmətdən imtina edirdi? Bu cavan oğlanlar üçün Osmanlı hökumətinə sadiq qalmaq çox-çox yaxşı olardı, orada onlar öz erməni rəsmilərinin başlarına açdığı belə terrora məruz qalmazdılar.

Digər problemlər də var idi. Əsl həqiqətdə xalqın ehtiyaclarına xidmət üçün Ermənistanın heç bir nəqliyyat və əlaqə sistemi yox idi.

*Respublikadakı yolların yararsızlığı yay aylarında müsəlmanların yaylağa qalxdığı dövrdə xüsusilə nəzərə çarpır və xeyli daxili çətinliklər yaradırdı. Mətbuat məsələ qaldırırdı ki, hətta İrəvan ətrafını da qorumağa qadir olmayan yaylaqlara köçmə sxeminin çəkilişi üçün məsuliyyəti kim daşıyır? Hələ də Osmanlı məğlubiyyətinin qorxusu altında tir-tir əsən hakimiyyət nə üçün müsəlman mərkəzlərini tərksilah edə bilmədi? Nə üçün Osmanlı ordusu onun tərəfində dayananda ağzından alov püskürən Zəngibasar kəndlərinə Şərur-Dərələyiz, Sürməli və Aleksandropola aparan əsas arteriyalar üzərində nəzarəti hələ də əldə saxlamaq imkanı verilib? (s. 22)*



Diktator dövlət bu suallara heç vaxt cavab vermədi.

Güya "müstəqil" Ermənistanın varlığı görüntüsünü yaratmaq üçün 1919-cu ilin yayında parlament seçkiləri keçirildi. Seçkinin keçirilməsi qaydalarını diktator rəhbərlikdə olan Erməni İnqilabçı Federasiya Partiyası hazırladığı üçün bu partiya yerlərin 90 faizini tutdu. İkinci yeri tutanın cəmi 5 faizlik səsi var idi. Düzgün hesabat aparan hansı yaxşı tarixçi belə diktator ölkəni necə Ermənistan Respublikası adlandıra bilər?

Əgər bu diktatorlar mövcud olmaq istəyirdisə, onda mütləq xarici güclü dövlətlərin yardım və köməyinə nail olmalı idilər. Səbəb çox sadə idi: Onların nə kifayət qədər siyasi, nə hərbi, nə də iqtisadi qüvvəsi var idi.

Dünyanın bu regionu üçün Britaniyanın münasibəti aşağıdakı kimi idi:

*Martın 6-da Yaxın Şərq məsələlərinə həsr edilmiş İnter-Departament Konfransında bu məsələ bir də müzakirə obyektinə çevriləndə Çörçill qoşunların təcili geri çağırılmasında israr etdi, çünki o, "han-*

*sı Britaniya marağının qorunduğunu doğrudan da görmürdü". Rusiyanın sərhədlərini aşmazdan qabaq bolşevizmi öz beşiyində boğmaq məqsədinə çatmaq üçün Zaqafqaziyanın vacib nöqtə olduğunu ölkənin müdafiə naziri xüsusi vurğuladı. Heç şübhəsiz, gələcək rus hökuməti yenidən bu regiona qayıdacaqdır, indiki fasilə məqamında baş verənlər əsas problem deyil, lakin Britaniya qoşunları o ərazidə nə qədər çox qalacaqsa, "bizim caynaqlarımız bir o qədər dərinə işləyəcəkdir". (s. 23)*

Məhz bu cür də oldu. Bir neçə aydan sonra ruslar bircə güllə də atmadan Ermənistanı tutdular.

Ermənilərin iddia etdikləri torpaqlarda qoşunu olan yeganə ölkə Böyük Britaniya idi və o da qoşunlarını geri çəkmək istəyirdi. Lakin "Adriatik və Aralıq dənizləri boyu torpaqlara, bu azmış kimi, uzaqdakı Qara və Xəzər dənizlərinə kimi ərazilərə italyanların iddiaları da ayaq tutub yeriyirdi. Qafqazda Britaniya qüvvələrini əvəz etmək gəlirli bazarları, neft, kömür, mis və digər vacib faydalı qazıntıların bol ehtiyatlarını ələ keçirməklə bərabər, həm də Yaxın Şərq müqaviləsinin son variantı ilə bağlı danışıqlarda italyanların mövqeyini möhkəmləndirəcəkdi." (s. 41)

Erməni liderləri anlayırdı ki, əgər onlar haçansa dənizdən dənizə torpaqlaprı qamarlamaq istəsə, gərək digər xalqın ordusunun gücündən istifadə etsinlər.

O vaxtlar Ermənistianla bağlı bir Britaniya rəsmisi yazmışdı: "Narahatlıq doğuran məsələ odur ki, bizim xaricdəki nümayəndələr qaçqınların öz yerlərinə qaytarılması, qayda-qanun yaradılması və təhlükədə olan xristian maraqlarının qorunması məqsədi ilə hazırladıqları və həm insan, həm də pul itkisi ilə bağlı olan bütün planlarımızı qəbul etməyə hazır deyillər və əslində şərq ölkələrinin hamısının ümumi siyasəti ilə biz birbaşa konfliktə giririk..." (s. 41)

Ermənilərin rifah naziri bir sxem düzüb-qoşmuşdu.

*O, bütün dünyanı əhatə edən köç planı təqdim etmişdi. Planın ilkin hərəkət fazasına görə İran, Qafqaz, Qara dənizin sahil regionları və Rusiyadakı ermənllər şərqi Anadoludakı əyalətlərə köçürülməli idi. O, təklif edirdi ki, xaricdəki erməni kommunalarında məsul*





*əlaqə komitələri təşkil etmək üçün xüsusi departament yaradılmalı, informasiya proqramları həyata keçirilməli, varlı soydaşların əməkdaşlığına nail olunmalı və yenidən məskunlaşan hər bir ərazi üçün kənd təsərrüfatı, təminat, sağlamlıq və yenidənqurma üçün inzibati şuralar təsis olunmalıdır. Qərbi Ermənistan qaçqınları başıpozuq halda sərhədlərə doğru gedirdi və bu hərəkət hansısa təəssüfdoğurucu hadisələrə aparıb çıxara bilərdi. Hər şey hazır idi və Müttəfiqlərdən razılıq alınan kimi onun yerinə yetirilməsinə başlaya bilərdilər. (s. 42)*

Başqa sözlə desək, Ermənistanın diktator hökuməti Müttəfiqlərdən hərbi dəstək alan kimi bir başqasının torpaqlarını qamarlamağa hazır idi. Tarix həm də göstərir ki, ermənilərin özünə caladıqları, xəyali "tarixi vətən"ə "bütün dünyanı əhatə edən köç"ü heç vaxt olmamışdır. Sadə həqiqət isə budur ki, ermənilər öz xəyali "tarixi vətən" adladırdıqları yerlərə cəld girə bildikləri kimi, cəld də çıxıb gedirdilər. 1990-2000-ci illərdə 1 milyondan artıq erməni öz "tarixi" vətənindən qaçıb getmişdir. 1990-cı ildə Ermənistanda təxminən 3.7 milyon adam yaşayırdı. 2000-ci il üçün orada yalnız 2.7 milyon adam qalmışdı və onların əksəri imkan tapan kimi cəld çıxıb getmək istəyir.

Amerika tibb xristian missioneri doktor Usşer başqa birisinin torpağını ermənilərə vermək üçün mövcud sxemlərdən birində təkliflərini verir. O, güman edir ki, "Osmanlı hökumətinin razılığı ilə sağlam bədənli kişi qaçqınlar payız əkini zamanı şərqi vilayətlərə (şəhərlərə) qaytarılır. Əvvəlcə toxum və avadanlıqla təmin edilmiş fermerlər və texniki işçilər gedir. Sonra isə məhsul yığımına kömək üçün bir qədər yaşlı yetimlər əraziyə gətirilir; haradasa 1920-ci ildə isə qadınlar və uşaqlar gəlirlər." (s.44) Doktor Usşor həm də təklif edirdi ki, bu planı xarici dövlətlərdən biri nəzarətdə saxlamaldır.

Erməni müdafiə qrupları Usşerin təkliflərini geniş maraqla qəbul etdi, lakin

*Hübert Huverin həlledici dəstəyini qazana bilmədilər. Layihədəki siyasi dolaşıqlığı gözdən qaçırmayan və həmin ərazidəki özəl və missionerlərin hamilik etdiyi təşkilatlara inanmayan Huver həm də*

*Konstantinopolda Amerikanın komissarı Admiral Mark L.Bristolun ifşaedici etirazlarını və xəbərdarlıqlarını dəfələrlə eşitmişdi. Bristol Usşerin planını missionerlərin sadəlövhlüyü ilə Britaniya manipulyatorlarının Birləşmiş Ştatları dibsiz erməni yarğanına salmaq üçün çirkin kombinasiya adlandırırdı. Müsəlman əhalisinin istəyi əleyhinə olaraq köçürülmə göstərəcəkdir ki, Müttəfiqlər də Smirnanı yunanların istilası kimi eyni əməliyyata rəvac verirlər. Ermənilər qaçqın məsələlərini humanitar məqsədlərdən daha çox siyasi məqsədlər üçün qabardırlar, çünki bu məsələnin həlli Ermənistan adlı ölkəyə yeni ərazilərin təqdim edilməsi kimi mükafat olacaqdır. Birləşmiş Ştatlar başa düşməlidir ki, ingilis-erməni qəsdi bütün ərazini Müttəfiqlərin hərbi işğalı deməkdir. (s. 47)*

Hovanissyan xristlan kartı ilə oynamaqda davam edir. Burada o, "Smirna"nın yunanlar tərəfindən işğalından danışır. Smirna min illər bundan qabaq salınmış böyük bir şəhərin kiçik bir hissəsinin adıdır, həmin şəhər isə bir neçə əsrdir ki, İzmir adlanır.



Admiral Bristolun 1919-cu ildəki baxışları necə də düzgün idi! Bu gün Ermənistan vaxtilə onun dediyi kimi "dibsiz erməni yarğanı"dur. 1991-ci il illə 2001-ci il arasındakı on il ərzində Amerika hökuməti öz vətəndaşlarının vergisi hesabına bu cırtdan ölkəyə yardım kimi 1.4 milyard dollar peşkəş etmişdir. 2002-ci ildən başlayaraq bu məbləğ hər il təxminən 90 milyon dollar artacaqdır. Özəl xristian və xeyriyyə cəmiyyətləri də saysız-hesabsız milyonları qurban verirlər. Hələ bir iş də var ki, öz siyasətinə müvafiq olaraq ona qulaq asan hər kəsdən pul diləyən Ermənistan eyni zamanda kəsiyində Rusiyadan da 1 milyard dollarlıq hərbi sursat yardımı almışdır. (2) Əldə etdiyi kapitalın əsas hissəsini ermənilər öz qonşusu Azərbaycana hücum üçün sərf etmişdir. Onlar qonşu respublikanın ərazisinin 20 faizini işğal etmiş, etnik təmizləmə kampaniyasında 1 milyondan artıq müsəlmanı öz ata-baba yerlərindən qovmuşdur – bütün xərci isə amerikan və rus vergi ödəyənləri çəkmişdir.

Son yüz il ərzində heç kimə sadiq olmayan, hər tərəfdən qapalı bu cırtdan ölkə üçün Amerika siyasətçiləri bu boyda işi niyə görürlər? Məgər son on ildə Amerikaya satılan yanacağın qiymətini qaldırmış Yaxın Şərqin müsəlman ölkələri üçün bu çox gözəl səbəb



deyilmi? Məgər bu, dünyanın bütün müsəlman ölkələrinin Amerikanı xoşlamaması üçün çox gözəl səbəb deyilmi? Nə üçün biz Azərbaycana yaxşı münasibət bəsləmədik?

1919-cu ilin yazında keçmiş səfir Morgentau general Harborda yazmışdı ki, "750,000 erməni faktiki olaraq Zaqafqaziyada yerləşdirilmişdir." (3)

Hovanissyanın dörd cildi boyu qaçqınların sayına ehtiyacdan asılı olaraq hesabat bu cür verilmişdir – *çoxsaylı qaçqınlar ordusu*. Onda, ermənilərin bu gün iddia etdikləri 1.5 milyon genosid qurbanı haradadır? Baxın, keçmiş səfir (ermənilər ondan sitat gətirməyi xoşlayırlar) 1919-cu ildə Ermənistan, Gürcüstan və Azərbaycan ərazisində 750,000 qaçqının olduğunu bəyan edir. Bu rəqəmi 1.5 milyonun üzərinə əlavə edin, üstə gəl amerikalıların şahidlik etdiyi kimi, Osmanlıların ərəb ölkələrinə göndərdikləri – nəticədə 2,250,000 qaçqın alınır. Aydındır ki, ermənilər döyüş zonalarından köçürülmüş hər adamı hesaba salır və iddia edirlər ki, onlar əvvəlcə öldürülmüş (sonralar genosid kimi iddia) və sonra – onlar bu cür yaxşı xristian *olduğundan – 1.5 milyon nəfəri İisus kimi zühur etmişdir. Hər şey bir* yana, erməni liderləri xəyali genosidi "çarmıxa çəkilmə", yeni diktator ölkənin yaradılmasını isə İisus kimi "zühur etmək"lə müqayisə edirlər. Bu saxtakarlıqdır!



I Dünya Müharibəsindən sonra Avropanın dirçəlməsinə gələcək ABŞ prezidenti Hübert Huverin böyük köməkliyi tarixdə əks olunmuşdur. Lakin buna baxmayaraq, onun bir problemli ərazisi olmuşdur – Ermənistanın yerləşdiyi region.

"1919-cu ilin ortaları üçün Huver Yaxın Şərqdə Amerika Yardım Komitəsinə az inanır, onu "icra və biznes keyfiyyətləri tamamilə olmayan" korrupsiya yeri hesab edirdi. Əgər faktlar haqqında ucadan danışılsaydı, bu, Amerika xeyriyyəçiliyi tarixində ən böyük hay-küyə səbəb olardı. Huver gileylənirdi ki, Qafqaz onun cidd-cəhdlərinin təsirli nəticə vermədiyi yeganə regiondur, çünki oradakı xeyriyyəçilik bütünlüklə onun əlində cəmlənməmişdir." (s. 49)

Yalnız bir məqam şərh edilməlidir: Tarix sübut etmişdir ki, Huver çox namuslu və bacarıqlı inzibatçı olmuşdur; Ermənistan isə nə namuslu idi, nə də səlahiyyətli. Məsələnin əsl həqiqəti burasında idi ki, erməni liderləri bu regiona göndərilən yardımların Huverin əlində

cəmləşməsini istəmirdi. Ermənilər bütün dünyanın xristianlarını lobbiləşdirmiş və təşkilatlandırmışdılar, ona görə də ermənilər o əməliyyatlara rəhbərlik edən yeganə qrup kimi göndərilən bütün yardımların yeganə qəbulediciləri olmaq istəyirdilər. Məhz buna görə də bu regionla bağlı Huverin başı çox ağrıyırdı və onun gileyləndiyi Ermənistana yardım proqramında bu qədər natəmizlik var idi.

Eyni il ərzində erməni liderləri Birləşmiş Ştatlardan kredit almaq üçün dəridən-qabıqdan çıxırdılar. Huver bu təmin olunmayan gümanı məhv etdi. Amerika vergi verənlərinin ödəncinin Ermənistana vermək istəməməsinin səbəblərindən biri onun "bu cür ölçülər Birləşmiş Ştatların öz ölkəsi qarşısında məsuliyyətinin dərk olunmaması"ndan qorxması səbəbindən idi. (s. 53)

*Paris komissiyasının qarşısında qoyduğu memorandumda və tövsiyələrində Huver humanitar üsuldan başqa Ermənistanla əlaqənin hər hansı növünün neqativ cəhətlərini xüsusi vurğulamışdı. İyulun 1-də o, xəbərdarlıq edirdi ki... Ermənistan "Avropanın iş evidir", ermənilər tabeçilikdə döyüşən olublar, ona görə də onların bir neçə nəsli özünü qorultmağa qadir olmamışdır və onları öz yerlərinə qaytarmaq üçün 50,000 nəfərdən 100,000 nəfərə kimi xarici qoşunlara ehtiyac olacaqdır. Əgər Birləşmiş Ştatlar o dağılmış regionun yəhərini öz belinə qoysa, onda hər il aşağısı 100 milyon dollar pul sərf edilə bilər. (s. 53)*



Parisdə "dənizdən dənizə torpaq" tələb edən Ermənistanın iddialarını öyrənən Müttəfiqlər belə bir nəticəyə gəldilər ki, hətta həmin torpaqlar onlara verilsə belə, Ermənistan o cür geniş torpaqları nə tuta, nə də idarə edə bilər. Sonuncu məruzə

*məlumat verirdi ki, erməni məşəqqətlərini azaltmaq üçün artıq bəzi tədbirlər görülmüşdür və bütün hərbi ekspertlərin belə bir baxışı mövcuddur ki, hətta türklərin silah və sursatları qurtarsa belə, ermənilərin onları qovmağa gücü çatmayacaq. Erməniləri yenidən geri qaytarmaq üçün təxminən 60,000 nəfərlik xarici qoşunlara ehtiyac yaranacaqdır, uzun illər boyu bu məsələyə polis nəzarəti isə ən azı 300 milyon dollara başa gələcəkdir. Bütün bunlara geniş mənada insanların vəziyyətini yüngülləşdirmək cəhdi kimi baxılmalıdır. Əgər kimsə belə bir addım atarsa, həm ərazidə yaşayan qarışıq əhalilərlə, həm də başlanğıcı neçə-neçə əsr əvvələ gedən irqi antoqonizmə görə bu bütün ətraf ölkələrlə daimi siyasi çətinliklər yaradacaqdır. (s. 55)*



Öz çətinliklə qazandığı pulunu ermənilərin yeyib-içməsinə xərcləməyən hər bir xalqa qarşı Hovanissyan tənqidi münasibət bəsləmişdir. Müttəfiqlərin ermənilərlə bağlı müzakirələri başa çatandan və erməni iddiaları ilə bağlı olaraq Amerika hərbi missiyası öz işini başa vurandan sonra o yazır:

*Harbord missiyasının təkliflərinə Huver çox az maraq göstərdi. Əlbəttə, Ermənistanın "Avropanın iş evi" olması haqqında onun ifadəsi hər hansı adi bir baxışın da nəticəsində əmələ gələ bilərdi. Çoxistiqamətli hadisələr mozaikası heç də ermənilərin xeyrinə işləmirdi. İyulun 9-da onun sərəncamı ilə təyin olunmuş polkovnik Haskell nə inzibati bacarığı, nə də Zaqafqaziyadakı mürəkkəblikləri tənzimləmək üçün xarakter möhkəmliyi olmayan şəxs idi. O, impulsivliyə, özündən müştəbehliyə və tez-tez panikaya düşməyə meylli adam idi və növbəti aylarda onun bu keyfiyyətləri Harbordun möhkəm xarakteri ilə kontrast təşkil edəcəkdi. (s. 56-57)*



Senator Rid qeyd etmişdir ki, general Harbord Birləşmiş Ştatların Senatına bacardığı qədər münasib olan hesabat göndərmişdi ki, Senat mandat haqqında Ermənistanın xahişini təsdiq etsin. (4)

Prezident Uilson "Ermənistan üçün Birləşmiş Ştatların mandatı"nı qəbul etməyi Konqresdən xahiş etmişdi. (5) Prezident bundan artıq nə edə bilərdi? O, erməni diktatoru deyildi ki, sadəcə mandat fərmanı verəydi.

1919-cu ilin yayında Robert Vansittard məlumat verirdi ki, "ermənilər hər tərəfdə elə çoxsaylı ölürlər ki, gələcək Ermənistan üçün tezliklə heç kim qalmayacaqdır və biz "bütün mümkün yollarla hələ sağ qalanları saxlamağın vacibliyini xüsusi qeyd etməliyik"." (6)

Öz diktator liderlərinin səfehliyi nəticəsində yüz minlərlə erməninin ölməsi faktı vardır. Özünü lider təyin etmiş adamlar Osmanlı

döyüş xətlərinin arxasında terror kampaniyasına başladılar. Məhz buna görə də Osmanlılar onların hamısını köçürtdü, lakin İstanbul, İzmir və Ədirnə, habelə beşinci erməni sütununun fəaliyyəti Osmanlıların müharibə işlərinə qorxu törətmədiyi üçün İmperiyanın qərb hissələrində yaşayan ermənilər heç yerə köçürülmədi. Çox-çox min illər ərzində müharibə aparan ölkə üçün bu bir qayda olmuşdur. Aydındır ki, faktın üstündən qırx il keçəndən sonra 1919-cu ildə baş vermiş erməni ölümlərini genosid kimi dünyaya sırımaq istəyirlər. Lakin ədalətli olan heç kim deyə bilməz ki, 1915, 1916, 1917, 1918, 1919, 1920-ci illərdə ölən və ondan sonra kommunistlərin rejimi vaxtı ölən ermənilər xəyali türk genosidinin birbaşa nəticəsidir.





DOQQUZUNCU FƏSİL

# QANA SUSAMIŞ ERMƏNİ QULDURLARI

## DESPOTÇU ERMƏNİ REJİMİ

1919-cu ilin yayında Ermənistan daha bir müharibəyə başladı; bu dəfə qonşu Azərbaycanla. Müttəfiq ölkələrin hər birinin ermənilərin özünü idarə etməyə qadir olmamasını başa düşdüyü üçün, bunun elə bir xalqdan gəlməsi qəribə görünürdü. Hovanissyan bu dövrü "qiyamlar yayı" adlandırır. (1) Bu söz birləşməsi düzgün işlədilməmişdir, çünki onun öz doğma Ermənistanı daha bir torpaq qamarlamaq üçün müharibəyə başlamışdı.

*1919-cu il ərzində Azərbaycan Respublikası Qars əyalətinin hamısına və İrəvanın çox hissəsinə torpaq iddiaları qaldırırdı. Qarsı ələ keçirməyin mümkünsüzlüyünü sözsüz başa düşən Bakı hökuməti Paris Sülh Konfransının qərarlarına qədər hesab edirdi ki, müttəfiq olmayan ölkələrin hərbi qüvvələri daxil olmaqla əksəriyyətin ümumi fikrini ifadə edərək "qana həris erməni quldurları" fikri formalaşmalıdır. Azərbaycan və Osmanlı İmperiyası arasında həlledici körpü olan İrəvan quberniyasının cənub hissəsi ilə bağlı heç bir güzəşt ola bilməzdi. Nəsib bəy Usubbəyovun kabineti türk-azəri kəndlərində erməni siyasətinin qılınc və od olduğunu bəyan etmiş, Van və Sasunda günahsız qurbanların qanını tökərək minlərlə qadını dul, uşağı yetim qoyan erməni quldurlarını ittiham etmişdi. Yalnız Qarabağ, Zəngəzur, Ordubad, Culfa, Naxçıvan, Şərur, Surmala və Vedibasar üzərində Azərbaycan hakimiyyəti bərqərar olandan sonra Ermənistanla əlaqələr normallaşa bilərdi. (s. 63-64)*

XX əsr ərzində Ermənistan 1992-ci ildə ikinci dəfə başqasının torpağını müftə-müsəlləm qopartmaq cəhdi ilə Azərbaycana təcavüz etdi. Erməni tamahkarlığının ucbatından bu ziddiyyət bu gün də davam edir. Sovet rejiminin yetmiş ildən artıq qaba dövrü də daxil olmaqla təxminən bir əsr vaxt tarixi erməni müştəbehliyi, orta əsrlərin ekspansionist siyasəti və qonşu torpağının zəbtinə yönəlmiş iştahının azalması yolunda heç nəyi dəyişdirməmişdir.

1919-cu ildə Azərbaycandan torpaq qamarlamaq üçün ermənilər Müttəfiqlərin dəstəyini qazanmağa cəhd göstərdilər. Ermənilər bilirdi ki, göz qoydüqları torpaqları ələ keçirmək üçün onlara mütləq xarici kömək lazımdır. Onların ordusu elə miskin gündə idi ki, xarici kömək olmadan özləri bir qarış da torpaq ala bilməzdi.

*Bu arada isə Naxçıvanın Müsəlman Şurası "despotik erməni rejimi"nin müdaxiləsinə görə Paris Süih Konfransındakı Müttəfiqlərin nümayəndələrinə etirazını biidirdi. Kinli ermənilərin "Avropa geyimi"nə bürünməsi müsəlmanların ləkələnməsinə, hətta qiyam qaldırmağa vadar edilərək onlara olan inamın itirilməsinə hesablanmışdı. Özlərini idarə etməyə bacarığı olmayan ermənilər irqi və dini ayrı olan insanlara rəhbərlik edə bilməzdilər. "Əbdül Həmidin tələbələri" kimi ermənilər öz müxalifliyinə pan-islamçılıq əleyhinə sürdükləri təbliğat arabası vasitəsilə haqq qazandırır, əhalinin bir hissəsini o birinin üzərinə qaldırırdı. Məhz buna görə də Naxçıvanın dinc sakinləri Ermənistanın rəhbərliyindən azad edilmək üçün yalvarır və müəyyən vaxt ərzində Müttəfiq dövlətlərə düşmən olmayan hər hansı müsəlman dövlətinin nəzarətində olmağı istəyirdilər. (s. 65)*

Ermənilər insanların ayağının altını qazımaq peşəsini yaxşı öyrənmişdilər. Məhz bu keyfiyyətlərinə görə onlar beş yüz il ərzində Osmanlı İmperiyasında dinc və əminamanlıq şəraitində yaşadıqlarına baxmayaraq, təxminən 1827-ci illərdə Osmanlı İmperiyasını işğal etmək istəyən Rusiyaya kömək üçün qoşulanda Osmanlılara xəyanət etdilər. Onlar on doqquzuncu əsrin bütün illəri ərzində ruslara köməkliyi davam etdirdilər. Özlərini "ermənilər" adlandıran bu balaca diktatorlar bandası bu gün də müharibə istəyən döyüşçü kompleksini davam etdirir. Yeganə fərq burasındadır ki, bu "dəhşətli"





döyüşçülər öz köməksiz qonşularına hücum etmək üçün başqa xalqların pulundan, canlı qüvvəsindən və silahlarından istifadə edirlər.

1919-cu ildə ermənilər Azərbaycana hücum etdilər. "Böhran dövründə Xan Tekino öz hökumətini erməni hərbi əməliyyatları haqqında məlumatlandırır və əsaslı əks tədbirlər görməyə çağırırdı. İyulun 14-də o, teleqram vurmuşdu ki, erməni qüvvələri Vedibasara yaxınlaşır və hətta "din xadimləri də öz ayinləri vaxtı əsl müqəddəs səlib döyüşü kimi Arxa-Vedi üzərinə hücuma səsləyirdilər"". (s. 68)

Bu da "rəsmi" Ermənistan kilsəsinin "müqəddəs səlib" çağırışı – bircə səbəb üzündən müsəlmanları öldürmək və ya qovmaq; onda gözəl erməni xristianları dəhşətli müsəlmanların torpaqlarını sərbəst surətdə qamarlaya bilərdilər. Ona görə də təəccüblü deyil ki, Ermənistan terrorçu hücumları ilə bütün dünyanı lərzəyə salanda "rəsmi, konstitutsiyalı Erməni Qriqoryan Kilsəsi" adlanan varlıq ağzına su alıb susdu. Həmin siyasət bu gün də davam edir. 1973-cü ildən 2001-ci ilə qədər erməni terrorçuları yüzdən artıq türk hədəfinə hücum etmiş, içərisində heç nədən şübhələnməyən digərləri də olmaqla əksəri türk diplomatı olan yetmiş nəfərdən çox adamı öldürmüş, Ermənistanın "rəsmi" kilsəsindən isə adi məzəmmət də eşidilməmişdir.

Erməni terrorçularının qətlləri və bomba partlayışlarından dərhal sonra müdafiə ilə bağlı qanuni fond artırmaq kampaniyaları başlanmışdır. "Rəsmi" Ermənistan Kilsəsi bunu bilir və dəstəkləyirdi. Beyni zəhərlənmiş, öyrədilmiş və din adına nifrət cinayətləri törətməyə sövq edilən erməni gənci ilə Dünya Ticarət Mərkəzinin əkiz qəsrlərinə və Pentaqonun binasına sərnişin təyyarələrini çırpmış terrorçular arasında nə fərq var? Öz xəstə ambisiyaları ucbatından günahsız insanların qətlə yetirilməsində heç bir səhv görməyən hər ikisi beyinləri zəhərlənmiş dini fanatiklər deyilmi? Əgər biz onlardan birinə "yaxşı terrorçu", digərinə isə "pis terrorçu" kimi münasibət bəsləsək, özümüz üçün daha çox nifrətəlayiq cinayətlərin törənməsinə şərait yaratmarıq ki?

1919-cu ildə hadisə yerində olmuş bir Britaniya hərbi zabiti məlumat verirdi: "Xarici müdaxilə – Böyük Vediyə erməni qüvvələrinin hücumu bu böhranı yaratmışdır... ermənilər faktları saxtalaşdıraraq

guya silahları qeydiyyatdan keçirmək üçün cəhd göstərdiklərini, daha vacibi isə "qətllər və qırğınlar olmadan hər iki tərəfin bir-birinə qarşı anadangəlmə dözümsüzlüyünü " çözməyə gəldiklərini deyirdilər." (s. 69)

"Xristian" erməni hərbi qüvvələrinin qəflətən Azərbaycana soxulması

*minlərlə müsəlmanı cəbhə xətti boyu qaçmağa məcbur etdi və işğalçılardan qorunmaq üçün çoxlu yaşayış məntəqələrinin sakinlərinin yaxınlıqdakı türk komandirlərinə şikayətlənməsinə səbəb oldu. Erməni talançılığı, qətlləri və zorakılığı haqqında general Qarabəkir əsəbi tərzdə polkovnik Raubinsona məlumat verir və bütün Anadoluda yayırdı. Bu diplomatik sənədlərə əsaslanan Türkiyə mətbuatı "köməksiz" və "sivil" ermənilərin nəzarəti altına keçə biləcək torpaqlarda nələrin baş verəcəyini hamıya bəyan edirdi. Osmanlı baş qərargahı ermənilərin Zaqafqaziyada törətdiyi vəhşiliklər haqqında ətraflı sənəd hazırlamışdı... (s. 80)*



1992-ci ildə Azərbaycanda etnik təmizləmə kampaniyası aparması sübut edir ki, müsəlmanları öz ata-baba torpaqlarından qovmaq üsulu ilə ərazidə əhalinin çoxluğuna iddia edilməsi haqqında erməni təcrübəsi bu gün də davam edir.

Britaniya zabiti kapitan Prosser məlumat verirdi:

*Heç şübhəsiz, ermənilər britaniyalıların geri çəkilməsindən narahat olmuşdur, onlar Müttəfiqlərin adından ingilislərin köməyinə arxayın idilər. Ermənilər ölənə qədər mübarizə aparacaqları haqqında və s. danışırlar, lakin mənə elə gəlir ki, onların mübarizəsinin əsası bizim çıxıb getməyimizlə yox oldu. Prosser aşağıdakı təhlükəli proqnozla fikrini yekunlaşdırırdı: "İndiki məqamda Qars əyaləti ətrafında ermənilərin vəziyyətə nəzarət etməsi qətiyyən yaxşı hal deyildir...oradakı camaat düşmən əhatəsindədir və türklərin gəlişi ilə Qars çox güman ki, Ermənistanın hissəsi kimi varlığına son qoyacaqdır. (s. 86)*

Britaniya qüvvələri regionu tərk etməyə başlayanda ermənilər var



gücləri ilə cəhdlər göstərərək onların əvəzinə Birləşmiş Ştatların gəlişinə və dənizdən dənizə dövlət qurmaq üçün başqasının torpaqlarının ABŞ-ın əli ilə alınaraq ermənilərə verilməsinə çalışırdılar. Hovanissyana görə, Amerikanın bu məsələyə müdaxilə etməməsinin ən əsas səbəbi "Konstantinopol"dakı Birləşmiş Ştatlar admiralı Mark L.Bristolun "razılaşmayan gur səsi"ni eşitməsi idi.

Admiral

*birləşmiş erməni dövlətinin yaradılmasına, hərbi dəniz qüvvələrindəki həmkarları, dövlət idarələri, Amerika sülh nümayəndə heyətinin biznesmenlər, fırıldaqçılar, missionerlər və çoxrəngli siyasətçilərlə ermənilərin hər cür əlaqəsinə qəti etirazını ifadə edirdi. Bütün azsaylılara münasibətini bildirən Bristol ümid edirdi ki, məsuliyyət daşıyan amerikanlara yenidən savad vermək, məşhur "dəhşətli türk" portretinin saxtalığını onlara aydınlaşdırmaq və türklərin şərq xristianlarının zülmündən necə əzab çəkdiklərini söyləmək lazımdır. O, Amerika nümayəndə heyətinin hərbi məsləhətçisinə etirazını bildirirdi: "Məndə heç bir şübhəyə yer qalmamışdır ki, Amerikanın Ermənistanla bağlılığı uzunmüddətli olmalıdır. Qətiyyən! Belədə Amerika özünü Yaxın Şərqin qlobal problemlərindən kənarda qoymuş olardı." Öz dərdlərinin çoxunu ermənilər özləri öz başlarına açmışdır. Və Britaniya hakim dairələrinin və Amerika missionerlərinin onların arxasında dayanması erməni liderlərini aqressiv taktikaya əl atmağa şirnikləşdirmişdir. Birləşmiş Ştatlar özünü Ermənistanın daxilindəki hadisələrə qoşmamalıdır. "İngiltərə Qafqazda qalmağa məcbur olunmalıdır. O öz müştəbeh səbəbləri ucbatından Qafqaza girmişdi, indi də müştəbeh səbəblər üzündən oradan çıxır." Bristol türkmeyylli oldüğünü rədd edirdi. "Mən inanmıram ki, nəyəsə-meylli adamam, lakin nəyə inanıramsa o, tamam həqiqətdir, və mən həmin yolla getmək istəyir və mənimlə razılaşmayan heç kimə lənət yağdırmıram. Əgər mən türkmeylli hesab edilirəmsə, bu ona görədir ki, mən təxminən 2 milyon erməniyə arzuladığım kimi, 20 milyon müsəlmanın da müasir sivilasiyaya çatmasına kömək etməyi vacib hesab edirəm. Mən bu faktın tanınmasını və mənim də bu mövqedə dayanmağı arzuladığımı bəyan etmək istərdim. (s. 90-91)*

Əgər admiral Bristolun yenidənqurma görümü olmasaydı, görəsən müasir Türkiyə necə olacaqdı? Əgər olmasaydı, soyuq müharibə erasında Türkiyə kommunist Rusiyasının bir parçasına çevriləcəkdi. Türkiyə Birləşmiş Ştatların dostuna çevrilməyəcək, NATO-da onun tərəfdaşı olmayacaqdı. Kim bilir ki, tarixin çarxı necə fırlanacaq, nəticədə Sovetlər Egey və Aralıq dənizlərinin "ılıq suları"na sahib çıxacaq, rusların üç əsrdən də çox hədsiz arzuladıqları Bosfor və Dardanel boğazları onların əlinə keçəcəkdi.

1923-cü ildəTürkiyədə indiki respublika qurulandan bəri müasir Türkiyə həmişə Birləşmiş Ştatların həqiqi və sadiq dostu olmuşdur. Son əlli il ərzində türklər Koreya, Körfəz, Somali, Bosniya, Kosovo və Makedoniyada amerikanlarla çiyin-çiyinə vuruşmuşdur və terrorizmə qarşı indiki müharibədə də onunla birlikdədir. Ermənilərin və onlara xidmət edən dostlarının ciddi etirazlarına baxmayaraq, admiral Bristol bu növ əlaqənin yaradılmasında çox vacib bir rol oynamışdır. Bu gün Amerika ona görə daha yaxşıdır ki, 1918-1920-ci illərdə admiral Bristol hadisələrin fövqündə dayanmışdı.



Hovanissyan admiral Bristolu "manipulasiya ustası" adlandırır (s. 91), çünki o, Bristolun İstanbulda baş komissar təyin edilməsi haqqında Birləşmiş Ştatlar hökumətinin 12 avqust 1919-cu il qərarını bəyənmir, "bu post həm hərbi qüvvələr, həm də diplomatik idarələr üzərində nəzarət hüququnu ona verdi" deyə gileylənir. (s. 92)

Britaniya qüvvələri ərazini tərk etməyə başlayanda erməni liderləri az qala dəli oldular. Erimənistan parlamentində diktatorların nəzarət etdiyi yeganə partiyanın nümayəndəsi Avetik Saakyan "İrəvanın başı üstünü alan dəmir zəncirdən danışdı və xalqı hər bir sonuncu ehtiyatını da ortaya qoymağa çağırdı. Avqustun ortalarında parlament ölkədə milli fövqəladə vəziyyət elan etdi, cəbhədəki döyüşçüləri ruhlandırmaq və kömək üçün Böyük Britaniya, Fransa, İtaliya, Birləşmiş Ştatlar, Yunanıstan, Rumıniya, İspaniya, Portuqaliya, Belçika, Hollandiya, Norveç, İsveç, İran, Çin və Yaponiyanın qanunvericilik orqanlarına müraciətdən ötrü öz emissarlarını göndərdi." (s. 93)

Bu bəyanatı oxuyan adam düşünər ki, yəqin Ermənistan onu xarabazarlığa çevirmək istəyən düşmənlərin əhatəsindədir. Əsl həqiqətdə isə erməni liderləri əvvəlcə Osmanı İmperiyası ilə vətəndaş



müharibəsi yaratdı və erməni xalqı öz liderlərinin tamahı və vəziyyəti düzgün qiymətləndirməməsi ucbatından dəhşətli əziyyət çəkdi. Onlar qonşu Gürcüstanla istilaçı müharibəyə başladılar və məğlub oldular. Ermənilər Azərbaycanla müharibəyə başladılar və məğlub oldular. Erməni xalqı dəhşətli insani əzabları bahasına qurbanlar verdi.

Erməni rəhbərlərinin bütün dünyaya göndərdiyi aşağıdakı böyük yalan haqqında düşünün: "Beləliklə, hətta Müttəfiqlərin qələbəsindən sonra erməni xalqının fiziki mövcudluğu üçün ermənilərin və bütün sivilizasiyanın əbədi düşməni ilə qeyri-bərabər ölüm-dirim döyüşünə girməkdən başqa yolu qalmamışdır." Hovanissyanın dediyi ədalətsiz, kobud və əsası olmayan sözlər! Hovanissyan erməni liderlərinin adından öz "böyük yalanını" söyləməkdə davam edir: "Silahlanmağa çağırış əzabları ağırlaşdırsa da, aclığı və epidemiyanı çoxaltsa da, yeni yetimlər yaratsa da, əhalinin kütləvi gedişinə səbəb olsa da və xalqı yorub əldən salsa da, bu, türklərin əli ilə basdırılmağa alternativ olan yeganə yoldur." Hovanissyan burada da dayanmır. O, davam edir: "Əgər indi Müttəfiqlərin minlərlə əsgərinin Konstantinopol, Trabzon, Batumi, Tiflis və Bakıda yerləşdirildiyi məqamda və onların erməni xalqını cəlladalrın əllərindən alması tamamilə asan olanda erməni xalqının qismətinə məhv edilmək düşmüşdürsə, onda bəşəriyyətin şüuruna onun əzablı hönkürtülərini çatdırmaq və öz qismətini qarşılamaq üçün mətin iradə ilə şərəfli ölümə çatmaq yeganə yoldur." (s. 93-94)



Bu çox qəddar bəyanatdır!

Onlar müharibəni başlamışdılar və indi məğlub olurdular. Azərbaycanla müharibəni onlar başlamışdı, buna baxmayaraq türkləri günahlandıraraq "erməni xalqının cəlladları" adlandırırdılar. Erməni liderləri iddia edirdilər ki, onlar "şərəflə öləcəklər".

Şərəflə ölmək? Osmanlı İmpenraysına satqın çıxmaqla? Qonşu Gürcüstana düşmən kəsilməklə? Qonşu Azərbaycana nifrət dolu işğalçı hücuma keçməklə? Sivil dünyada bütün bunlar hansı cür şərəf sayılır? Sualların cavabı əsrlərin içindən çıxıb gəlir – bu, şərəf deyil, satqınlıqdır, şərəfsizlikdir! Bu cür hərəkət edən adamlar xristian adlana bilməz!

Gecələr döyüş xətlərinin arxasında Osmanlılara xaincəsinə

hücum çəkmək, gündüzlər isə özünü beş əsrdən artıq sülh və əminamanlıqda yaşadığın Osmanlıların dostu kimi qələmə vermək şərəf deyil!

Buna baxmayaraq, "belə ümidsiz müraciətlər xaricdləki erməni nümayəndələrini və erməniпərəst cəmiyyətləri daha geniş fəaliyyətə sövq etdi. Onlar 1919-cu ilin avqustunda ölkələrin rəhbərlərinə, xarici işlər nazirlərinə və daha aşağı çinli rəsmilərə yüzlərlə məktub göndərərək erməni məsələsini bir daha qaldırmaq üçün görüş xahişi edirdilər."(s. 94) Həqiqət burasındadır ki, ermənilər pis və satqın əsgərlər olmaqla bərabər, eyni zamanda yalan ustası idilər və heç nəyin hesabına nə isə qopartmaq üçün fırıldağa əl atırdılar. Onların heç nədən xəbərsiz xristian dünyasına sırıdığı "iyirminci əsrin ilk genosidi" əslində "əsrin ilk şişirdilmiş yalanı" idi, çünki əzab dünyəvidir və heç kimə fərq qoymur və xristian kimi "zavallı, aclıq çəkən ermənilər" üçün isə hüdudsuzdur – onlar sadəlövh xristianları buna inandırmışdılar. Əslində isə 1915 və 1922-ci illər arasında baş vermiş dəhşətli hadisələrdə ermənidən daha çox müsəlman qırılmışdı. Nisbətdə götürülərsə, eyni ərazidə, eyni səbəblərdən, eyni müharibədə hər erməni qurbanının müqabilində dörd müsəlman qurban verilmişdi. Genosidə daha çox bu bənzəyir.



Böyük Britaniyadan sərbəst yardım, sərbəst sədəqə və sərbəst hərbi yardım almaq üçün ermənilər xüsusi cidd-cəhd göstərirdilər. Erməni rəhbərliyinin öz fərasətsizliyini "ört-basdır etmək" və "gizlətmək" üçün necə dəridən-qabıqdan çıxması, özləri səhvə yol verəndə və üçüncü müharibəni də uduzduğundan qorxuya düşəndə bir başqasından da kömək tələb edəndə hansı oyunlardan necə çıxması haqqında Hovanissyan yazır:

*Böyük Britaniya Zaqafqaziyada həm canlı qüvvəsi, həm də silahları olan yeganə dövlət olduğundan qara-qışqırıq əsasən Londona yönəldilmişdi. Douninq Strit 10-a şikayətlər axdıqca Ümumilər Palatasındakı Ermənistanın müdafiəçiləri kabineti suallarla güllələbaran edirdi... Kiçik Asiyadakı və Qafqazdakı türklər və tatarlar (azərbaycanlılar – Z.A.) tərəfindən ermənilər yeni qırğınlara məruz qalmışdırmı? Xristianların bu cür genişmiqyaslı qırğınından sonra işğalçı qoşunların ərazidən çıxarılacağı haqqında Müttəfiqlərin nümayəndələri məlumat vermişdirmi? Kürdlər, tatarlar, türklər və gürcülər Ermənistan Respublikasının paytaxtı İrəvana hücum etmişlər və ya etməyə hazırlaşırlar? Əgər belədirsə, onda son müharibədə İngiltərənin dostu olmuş ermənilərə hər hansı bir kömək göstəriləcəkmi və ya onlar taleyin ümidinə buraxılacaqlar? Hökumət Paris Sülh Konfransına get-gedə çoxalan "dünyəvi təhlükə hissi" haqqında məlumat verəcəkmi, müharibə və qırğınlar nəticəsində artıq bir milyon adam itirmiş ermənilər yenə də "o çirkin və çoxsaylı qırğınları" törətməkdə günahkar olan eyni adamların əlinəmi veriləcək? (s. 94-95)*



Dəfələrlə etdikləri kimi burada da ermənilər Kiçik Asiyadakı dəhşətli müsəlman türkləri və tatarları haqqında xristian etnik kartı ilə oynayırdı. "Kiçik Asiya" onun bilərəkdən işlətdiyi digər xristian kodudur – Konstantinopol və Smirna kimi – Osmanlı İmperiyasının bir hissəsini göstərmək üçün bu, Bibliyadangəlmə ifadədir. Bibliyadan bu cür ifadələri işlətməklə o, xəbərsiz xristian oxucusu ilə dərhal ümumi zəmin yaradır və kişi və qadın oxucularını onun "güman ki, həqiqəti danışmasına" inandırır, axı, hər şeydən əvvəl "ermənilər xristiandır".



"Erməni rəhbərliyi müsəlman kürdlərin, tatarların, türklərin və gürcülərin Ermənistan Respublikasının paytaxtı İrəvana hücum etdiklərini və ya hücuma hazırlaşdıqları haqqında məsələ qaldırmışdılar?" Bircə dəqiqə! Bu bəyanatda nəsə səhvdir. Gürcülər müsəlman deyildi – onlar da ermənilər kimi xristian idi! Bir daha aydındır ki, həqiqət erməni liderlərinin vecinə deyildi – heç erməni professorun da! Heç nə vermədən nəsə almaq üçün nəyisə uydurmağın daha bir nümunəsi!

I Dünya Müharibəsindən sonra Müttəfiq ölkələr ordudan tərxis işlərinə başlayıb sülh haqqında düşünürdü. Ermənilərdən başqa! Erməni rəhbərliyi bu ölkələrdən müftə-müsəlləm hərbi ləvazimat almaq imkanının yarandığını görürdü. Lakin arada balaca bir problem var idi. Müttəfiqlər öz hərbi sursatının qalıqlarını pay vermirdilər – onlar silah-sursatı çox ucuz qiymətə satırdılar.

Hovanissyan şikayətlənir ki, "Rusiyanın Ağqvardiyaçı qoşunları min tonlarla silah aldı; mallar satılanda və ya çox ucuz və əksər hallarda kreditə veriləndə bir qədər kiçik müttəfiq ölkələr və tanınmış

yeni dövlətlər də hədiyyələndi. Avropadakı erməni nümayəndələri qaçqınlar və alt paltara, ayaqqabıya və qış geyiminə böyük ehtiyacı olan qoşunlar üçün yardım alacaqlarına ümid bəsləyirdi. Müttəfiqlər öz sərhədlərini hələ də müəyyənləşdirməmiş ölkələrə kredit verməyə meylli olmasalar da, ermənilər inanırdı ki, onların xüsusi vəziyyəti texnika ilə təmin olunacaqlarına təminat verir." (s. 96)

Hələ "sərhədlərini müəyyənləşdirməmiş" diktator, təcavüzkar, cırtdan ölkə üçün "texnika"! Onların rəsmi internet saytındakı məlumata görə üç min ildən artıq müddətdə Ermənistanın öz torpaq sərhədləri olmamışdır.

"Kredit" – Müttəfiqlər bilirdi ki, erməni liderləri öz köhnə pul kəsən maşınlarını var gücü ilə işlədərək pul adlandırdıqları lazımsız kağız istehsal edirlər. Ermənistanın krediti yox idi. Bu diktatorlar öz borclarını qaytarmayan "yorğun-arğın"dan başqa bir şey deyildilər.

Erməni agentləri Birləşmiş Ştatların Avropada "Amerika Ekspedisiya Qüvvələrinin silah-sursatının qalıqlarını yerbəyer etməklə" məşğul olan Ləğvetmə Komissiyasından nəsə almağa cəhd göstərdilər. Müqavilə layihəsi hazırlandı

*hərbi geyim, odeyallar, tibbi ləvazimat, idarə avadanlığı və ehtiyatda olanlar üçün digər materialların verilməsi haqqında. 1922-ci ildən başlayaraq ödənmək şərti ilə təxminən 4 milyon dollarlıq material. Lakin peşimançılıq dərhal gəldi... Ermənistanın xarici agentlərinə deyildi ki, bu müqavilənin Vaşinqtonda təsdiq olunması faydalı deyil, çünki Ermənistana satılması nəzərdə tutulan mallar da daxil olmaqla Müttəfiqlərin silah-sursat qalıqlarının hamısı fransız hökumətinin sərəncamına keçir. Fransa isə artıq bəyan etmişdi ki, o yalnız "stabil nağd pula və ya dəyişilmə qabiliyyəti olan pula" silah satacaqdır. (s. 96)*

Baxın, ermənilər həqiqəti necə eybəcərləşdirirlər. "Ermənistana satılması nəzərdə tutulan." Heç kimə satılası mal nəzərdə tutulmamışdı. Bu, alıcıların və satıcıların bazarı idi. Fransızlar ala bilərdi, "lazımsız pulu olan, kreditsiz və öz sözünün ağası olmayan adam reputasiyası qazanmış" ermənilər isə yox. Fransızlar erməni pulunun gərəksiz kağız olduğunu bilirdi və onu qəbul etməyəcəkdi. Onların





həm də erməni rəhbərliyinin öz borcunu ödəməyəcəyi haqqında ciddi əsası var idi.

1919-cu ilin yanvarında Parisdə öz işinə başlayan Müttəfiqlərin Sülh Konfransında ermənilərə yer verilməsinə imtina ediləndə erməni agentləri böyür-başda fırlanmaqda davam edirdilər ki, bəlkə bir-iki tör-töküntü ələ keçirə bilsinlər. Bir dəfə bir erməni muzdlu agenti Ermənistandakı diktatorlara məlumat verdi ki, o, "heç bir Britaniya hökumət agentliyi" ilə rəsmi əlaqəyə girə bilməmişdir. O, sözünə davam edərək deyirdi ki, "erməni natiqinin səsini eşidən hər bir adam təngə gəlmiş və yorğur görünür". (s. 100) Məgər Britaniya bu cür taqətdən düşmüşlərə qulaq asmaqdan təngə gəlməmişdi?

"Sentyabrda hadisələr və Britaniya rəsmilərinin məktublaşması arabir belə bir fikri ifadə edirdi ki, gözlənilən qırğınlar və Türkiyə silahlı qüvvələrinin Ermənistana soxulacağı haqqında proqnozlar şişirdilmişdir." (s. 102) Aydındır ki, erməni liderlərinin özlərini uşaq kimi apararaq "canavar" ulartısını Britaniya başa düşürdü.

Müharibə dövründə "Türkiyə ermənilərinin könüllü bandalarının keçdikləri müsəlman kəndlərini yandırması və Bayazit sərhəddi boyunca kəndliləri qaçqın həyatının əzabları ilə təhdid etmək" haqqında xəbərlər daxil olurdu. (s. 105)

Köməksiz insanlara qarşı belə hərəkətlər terrorçuluqdan başqa bir şey deyildir. Bu cür dağıntılar İisus Xristin adı ilə həyata keçirilirdi, çünki müsəlman xristian erməniləri "adlanan" adamlardan fərqli inanca malik idi.

Britaniya siyasətçiləri erməni agentlərinin yaratdığı təzyiqi öz ölkələrində hiss etməyə başladılar. Britaniya müharibə regionundan ləyaqətlə çıxıb getmək üçün Birləşmiş Ştatları öz yerinə yerləşdirməyə cəhd göstərdi. Amerikanın İngiltərədəki səfiri Con U. Deyvis idi. Onun mövqeyi belə idi: "Avropada təxminən 100,000 nəfərlik Amerika qoşunları qalmışdır, onların əksəri evə dönmək əmri gözləyir və Qafqazda polis rolu oynayacaq qüvvələri saxlamaq çətin olacaqdır. Hər halda, Konqresin razılığına ehtiyac vardır. Deyvis inanmırdı ki, təkcə humanitar nöqteyi-nəzərdən Amerika xalqı Monro Doktrinasının əleyhinə gedə bilər." (s 116)

Monro Doktrinasının Amerikanın xarici siyasəti üçün nə olduğuna nəzər salın: 2 dekabr 1823-cü ildə prezident Ceyms Monro Bir-

ləşmiş Ştatlar Konqresinə öz illik hesabatını göndərdi. Bu məktub sonralar Monro Doktrinası kimi tanındı və Amerikanın xarici siyasətinnin əsasına çevrildi.

Monro Doktrinası Amerikanın təsir dairəsinin fundamental surətdə müəyyənləşməsi idi. 1823-cü ildən başlayaraq Amerikanın xarici siyasəti belə olacaqdı:

1. Şimali və Cənubi Amerika Avropa dövlətləri tərəfindən işğala məruz qalmamaq üçün bağlıdır.

2. Birləşmiş Ştatlar Avropadakı müharibələrə qoşulmamalıdır.

3. Birləşmiş Ştatlar Avropanın hər hansı dövlətinin öz siyasi sistemini genişləndirmək cəhdini "bu yarımkürədə bizim sülh və əmin-amanlığımıza təhlükə" hesab edəcəkdir.

Üstündən yüz il vaxt keçəndən sonra, 1919-cu ildə korrupsiyaçı diktatorlar tərəfindən nəzarət olunan Ermənistan adlı cırtdan ölkə Amerikanın yüz illik xarici siyasətinin üzərindən qələm çəkməyi tələb edirdi. Ermənilər tələb edirdi ki, Birləşmiş Ştatlar öz əsgərlərini gətirərək onların keşiyini çəksin, ermənilərə milyon dollarlarla "yardım" versin və erməniləri qorusun – hamısı da amerikanların həyatı və dollarları bahasına!



Erməni rəhbərlərinin adından Hovanissyan Birləşmiş Ştatların yüz ildən artıq davam edən xarici siyasətinə etirazını bildirir. Hovanissyan heç vaxt izah etmir ki, Birləşmiş Ştatlar nə üçün bu cırtdan diktatorlar bandasını müdafiə etməlidir və nə üçün Amerika heç vaxt Osmanlı İmperiyası ilə müharibəyə girməmişdir.

Britaniya parlamentinin üzvləri korrupsiyaçı erməni liderlərinə ən çox münasib tərəfdaşlar olmuşdur. Lakin onların sayı o qədər az olmuşdur ki, erməniləri "müdafiə etməyi" Britaniyadan tələb edə bilməmişdir. Onlar Britaniya qoşunlarını və pulunu Ermənistana yardıma göndərməyə cəhd göstərmişdir.

"Əndryu Bonar Lou, Lord Prayvi Sil və Ümumilər Palatasının lideri bu məsələdə cavabdehlik daşıyırlar. Parlamentin hər bir üzvü Ermənistanda gözlənilən eybəcərliklərin qarşısının alınmasını istədiyinə baxmayaraq, hökumət ilk cavabdehliyi öz xalqı üçün daşıyırdı, "ümumən heç bir əlaqəmiz olmayan belə ölkələrdə qayda-qanun yaratmaq üçün" yox. Hökumət bilirdi ki, təhlükə haqqında söhbətlər şişirdilmişdir... (s. 120)



Britaniya hökuməti Qafqaz regionunda öz yerini tutmaq üçün Birləşmiş Ştatlara təzyiqi davam etdirirdi. Amerika hökuməti isə belə etməyəcəyini kəskin şəkildə bəyan edirdi. Erməniləri müdafiə etmək haqqında mandata sahib çıxmamaq üçün Amerikanın yaxşı səbəbi var idi: "...Birləşmiş Ştatlar nə 1856-cı il Paris Müqaviləsini, nə 1878-ci il Berlin Müqaviləsini və ya türklərin xristianlar üzərində nəzarətinə aid hər hansı bir digər beynəlxalq razılaşmanı imzalamamışdı ki, indi məsuliyyət daşıyaydı..." (s. 122)

Britaniya Batumidə iki min nəfərlik qoşun saxlayaraq 15 avqust 1919-cu ildə ərazini tərk etməyə başladı. Əgər Britaniya qüvvələri ərazini tərk edərsə, xalqının qırılıb-çatılacağını bar-bar bağıran erməni liderləri, əlbəttə, səhv edirdi. Heç nə baş vermədi.

ONUNCU FƏSİL

# ERMƏNİSTANDAN NƏYİ GÖZLƏMƏK OLAR?

## BİR GÜN ÖZ DOSTLUQ MƏQSƏDİNİ BƏYAN EDƏN SƏHƏRİSİ MÜTTƏFİQLƏRİN QARŞISINDA ÖZ QONŞULARINA BÖHTAN ATIR

1919-cu ilin axırlarında erməni rəhbərliyi bir rəsmi dövlət sənədi aldı: onların Gürcüstanla dostluğa ehtiyacı var idi.

*1919-cu ildə Ermənistanın birbaşa təcridi onun Gürcüstanla normal əlaqələr yaratmasını və beləliklə, Batumdan İrəvana gələn adi yolun qorunmasını vacib etdi. Manеələr dəhşətli idi, çünki erməni-gürcü münasibətləri geniş mənada malik olmaq və ya olmamağa söykənirdi. Mübahisəli ərazinin çoxu Gürcüstana baxırdı və Ermənistanın dəmir yolundan asılılığının yaralı yeri olduğunu bildiyi üçün gürcülər arabir onu kəsir, erməni-rus sosial-iqtisadi üstünlüyünü Tiflisdən uzaqlaşdırmiağı nümayiş etdirirdi. (1)*

Maraqlı deyil ki, Hovanissyan müharibənin adını çəkmir və onun erməni liderlərinin xaincəsinə hücumu nəticəsində başlandığına işarə vurmur?

"Tiflisdəki hakim dairələrdə Müttəfiqlərin rəsmilərinə olan nifrətli münasibət, dünyaya yayılmış ermənilərə rəğbətlə fikirlərin üst-üstə düşməsi gürcülərin inciklik hissini dərinləşdirirdi." (s. 140)

Əlbəttə, xristian Ermənistanın korrupsiyaçı diktatorları xristian Gürcüstanına demirdilər ki, onlar bütün dünyaya muzdlu agentlər – bəli, bəli, muzdlu agentlər – sədəqə diləmək üçün bütün xristian dünyasında təbil çalmağa muzdlu agentlər göndərirlər. Erməni öz başına sanki göydən tökülən asan gəlirlərini öz xristian qardaşları ilə bölüşmək istəmirdi.





"Gürcü qəzetləri ibarə ilə müşahidə edirdi ki, lideri olmadığından bədbəxt erməni xalqının başı bəlalar çəkir, çünki başda gedənlər hətta ən yaxın qonşu hökumətlə münasibət qura bilmirlər. *Borba* qəzeti yazırdı ki, belə rəsmilərdən daha nə gözləmək olar ki, onlar bir gün dostluq arzularından danışır, səhərisi gün isə Müttəfiqlərin qarşısında öz qonşularına böhtan atırlar?" (s. 141)

Gürcüstanın öz qonşusuna inanmaması üçün tutarlı əsası var idi – ermənilərin bu gün də davam edən əldəqayırma tarixi və ikilibaşlı oyun oynaması!

*Gürcüstanın Xarici İşlər Nazirliyi Ermənistan hökumətinin faktların saxtalaşdırılmasına dözməsinə və əsassız şaiyələr yaratmasına rəsmi etirazını bildirərək bunu Qafqaz problemlərinin Qafqaz həllini axtarmaqdan daha çox Paris Sülh Konfransının şübhəli siyasətindən ikiəlli yapışmaq adlandırdı. Ermənistanda müsəlman etirazlarının şiddətlənməsi faktını şərh edən gürcü mətbuatı bu cəhəti xüsusi vurğulayırdı. Həm Türkiyənin, həm də Müttəfiqlərin müdaxiləsində passivliyinə təəssüflənən siyasi icmalçılar qeyd edirdilər ki, ermənilər də günahsız olmamışdır. Daşnakçı strateqlər Dro, Hamoqasp və Andranik kimi quldur başçıların müsəlman əhalini vahiməyə salmasına imkan yaratmış, sağlam "Qafqaz" meylindən daha çox xəstə-taleli "Paris meylini" əsas götürmüşlər. (s. 141-142)*

Ermənistanın köhnə düşüncə tərzi vardır ki, başqa dinə inanan hər bir adam kənarlaşdırılmalıdır. Ermənistan xristianlığın xüsusi növünə malikdir və konstitusiya qanununa əsasən xristianlığın digər formalarını öz ölkəsinə buraxmır. Bu məsələdə bircə müstəsnalıq vardır: pul! Ermənilər xristianlığın bütün formalarından pul qəbul edir.

Əski dövrlərdə olduğu kimi, ermənilər müsəlmanlara nifrət və kin bəslədiyi üçün onları öz ölkəsindən qovmuşdur. 1992-ci ildə həm Rüsiyanın, həm də Birləşmiş Ştatların hərbi və maliyyə yardımı ilə

Ermənistan Azərbaycana hücum etdi. Məqsəd Azərbaycanın 20 faiz ərazisini qamarlamaq və 1 milyondan çox müsəlmanı yer-yurdundan edib onların torpağını ələ keçirmək idi. Azərbaycan torpaqlarını tutmaq üçün Rusiyadakı erməni dostlarının bir milyard dollarlıqdan artıq hərbi yardımı Ermənistana bağışlamasının məqsədi başa düşüləndir. (2) Bəs Birləşmiş Ştatlar hökuməti də bu qatillər bandasına bir milyard dollardan artıq əlavə xarici yardımı nə üçün vermişdir? Erməni agentləri əlavə fondlar üçün bu gün də ABŞ-da lobbiçilik edirlər.

Hətta 1919-cu ildə Gürcüstan xristianları ermənilərin korrupsiyaçı liderlərini müsəlmanlara qarşı öz terror əməllərinə son qoymağa çağırmışdı. Axı, korrupsiyaçı erməni diktator liderlərinin havayı torpaq qamarlamaq iddiası ilə müsəlmanlar əleyhinə başladıqları qiyam cəhdlərinə qədər xristianlar və müsəlmanlar min ildən artıq idi ki, sülh və əminamanlıq şəraitində yaşayırdılar. İşləri korlayan ən başlıca səbəb o idi ki, ermənilərin arzusunda olduqları ərazilərdə onlar deyil, həmişə müsəlmanlar əksəriyyət təşkil edirdi. Başqa sözlə desək, əgər ermənilər öz satqınlıq, arxadan zərbə və təcavüzkar niyyətləri ilə bağlı planları reallaşdırsa və böyük Ermənistan yaratsaydı belə, yenə də azlıqda qalacaqdılar. Bu isə öz növbəsində o deməkdir ki, ermənilər hələ bir neçə onilliklərdən sonra yaranacaq Cənubi Afrika Respublikasından xeyli əvvəl yer üzündə "ilk aparteid" sistem quracaqdılar. Beləliklə, ermənilərin heç nədən xəbərsiz olan xristianlara "iyirminci əsrin ilk genosidi" kimi sırıdıqları əslində iyirminci əsrdə ilk aparteid dövlət qurulması cəhdinin boşa çıxmasıdır.



Hətta Gürcüstanla müharibə başlayandan sonra da ermənilər gürcülərin dəmir yolunu işlətmək, bu yolla bütün dünyadan yalvarıb diləndiyi yardımları daşımaq istəyirdilər. Ermənilər gürcülərin dəmir yolu və avadanlıqlarını heç nə ödəmədən hazır görmək istəyir, hər dəfə gürcü limanına daxil olmuş yardımın daşınmasında üstünlük qazanmağa çalışırdı.

Ermənilər hay-küy salırdı ki, onların camaatı acından qırılır. Əgər gürcülər də eyni çətinliklərlə üzləşibsə və acından ölürlərsə, dəxli yoxdur, üstünlük ermənilərə verilməlidir. Gürcülər nəqliyyat haqqı üçün 15 faiz tələb edirdilər. Ermənilər Müttəfiqlərə etirazlarını bildirdilər, onlar isə öz növbəsində Gürcüstan hökumətinə hədə dolu xəbərdarlıq etmək üçün həmin etirazı Müttəfiqlərin Nümayəndəliklərinin Başçıları Şurasının prezidenti Corc Klemenseauya göndərdilər.



Bundan bir qədər sonra həmin etiraz məktubları Gürcüstan mətbuatında çap edildi. Ona reaksiya isə dərhal və birbaşa oldu:

*Onlar car çəkirdilər ki, öz iqtisadi vəziyyəti gərgin olsa da, Gürcüstan əsrlər ərzində ermənilərə sığınacaq vermiş, Dünya Müharibəsi ərzində minlərlə erməninin gəlişinə etiraz etməmişdir. Düşmən elementlərinin arasında olsa da, Gürcüstan Ermənistanın yaşaması üçün əlindən gələni etmişdir. İndi isə gürcü xalqı ermənilərin təşəkkür əlamətlərini almışdır. Daşnakçıların və digərlərinin məsuliyyətsiz qalmaqallı xəbərlər dolu məlumatları Parisə göndərilərkən birbaşa və ya dolayısı yolla erməni kanallarından istifadə edilmişdir. Erməni hökuməti Klemenseaunun teleqramının başdan-başa ədalətsiz olduğunu lənətləməyə borclu idi. Belə bir bəyanat verilmədən müasir problemlərin həllinə yönəldilmiş hər hansı erməni-gürcü danışığı gülməli görünərdi. (3)*



Erməni cavabı tipik idi. Bu korrupsiyaçı diktatorlar şikayətlənirdi ki, həm Gürcüstanın, həm də Azərbaycanın çoxlu dəmir yol texnikası və maşınları vardır.

*Hər respublikanın malik olduğu hər hansı bir əmlakın onun sərhədləri daxilində yerləşməsi haqqında Gürcüstanın mübahisəsi 1918-ci ilin mayında Zaqafqaziya Federasiyası dağılanda qəbul olunmadı. Elə olsaydı, onda Ermənistanın ixtiyarında bir neçə xarab lokomotiv və 300 avtomobil qalacaqdısa, Azərbaycanın təxminən 400 lokomotivi və 4,000 avtomobili, Gürcüstanın isə 500 lokomotivi və 8,000-dən çox avtomobili olacaqdı. Avadanlığın bərabər şəkildə bölünməsi söhbəti ortaya atılmışdı. Müzakirələr erməni-gürcü münasibətləri adlanan çoxlu mürəkkəb məsələləri ortaya çıxardı. (s. 146)*

Hovanissyan yazır ki, "Gürcüstandakı təxminən yarım milyon erməninin statusu həddindən artıq mürəkkəb və incə problem idi." (s. 147)

Əgər Ermənistanın Gürcüstanla təzəcə müharibə başlaması nəzərə alınarsa, əslində bu bəyanatdır. Erməni professoru deyir ki,

*inzibati islahatlar çoxlu erməni və rus mülki xidmətçilərinin işdən azad olunmasına aparırdı. Paytaxtda həddindən çox yüklənməni azaltmaq və eyni zamanda onu qaçqınlardan və digər arzuolunmaz elementlərdən təmizləmək məqsədilə Gürcüstanın Daxili İşlər naziri Ramişvili mülkiyyət sahibi olmayan bütün qeyri-vətəndaşların və ailə başçısı olmayan bütün vətəndaşların paytaxtı tərk etməsi haqqında müvafiq sərəncam verdi. Sonuncu qrupa xüsusilə kişiləri Ermənistanda və ya Ağqvardiyaçıların sıralarında xidmət edən ailə üzvləri daxil idi. Qayda-qanun yaradılmasına mane olanları ciddi cəza gözləyirdi. Erməni nöqteyi-nəzərincə, Gürcüstandakı yeni qaydalar Tiflis şəhər Dumasının millətçi deputatının ehtiyat tədbirləri idi: "Nəyin bahasına olursa-olsun biz daşnakçılardan və erməni nazirlərinin ailələrindən yaxamızı qurtarmalıyıq." (s. 148)*



Hər hansı bir ağıllı adam bu erməni diktator münasibətinə inana bilərmi? Hər şey bir yana, axı, həmin bu erməni liderləri indicə Gürcüstana qarşı əsassız müharibəyə başlamış və sonra məğlub olmuşdu. İndi isə xristian gürcülər xristian ermənilərə inanmağın lazım olmadığını bilir və öz hökumətindəki rəsmilərin sadiqliyini təmin etmək üçün bu addımları atırdı. Ermənilər isə etiraz edirdi.

Ermənilərin gürcüləri obyekt seçdiyi aşağıdakı yalana nəzər salın:

*Axalkalakidəki adamların əzabları Gürcüstandakı bütün başqa ermənilərin də bədbəxtliyinə səbəb olurdu. Türk işğalının nəticəsində otuz min adam qətlə yetirilmişdi, sağ qalanlar isə acından ölürdü. Öz qızlarını xilas etmək istəyən bəzi analar onları gürcü milis işçilərinə və əsgərlərə arvadlığa təklif edirdi. Rus, yəhudi və gürcü iş adamlarının gənc qızları 100 rubldan 300 rubla qədər satın alması və onları fahişəxanalara göndərməsi haqqında məlumatlar daxil olurdu; səkkiz-on iki yaşlı oğlanlar qəpik-quruş müqabilində Bakurianidə satılırdı; yüzlərlə qadın və uşaq qonşu müsəlman kəndlərində qul əməyinə vadar edilirdi. Axalkalakidən gedən bütün yollara qaçqın ermənilərin meyitləri səpələnmişdi... Tiflis hökumətinin Axalkalakini Gürcüstan Respublikasının tərkib hissəsi saymasına və hətta orada seçkilər keçirməyə cəhdinə baxmayaraq, o, ölüm əzablarını yüngülləşdirmək üçün heç nə etmədi. (s. 148)*



Nəhayət, Ermənistan və Gürcüstan torpaq mübadiləsinə razılıq verdilər. Ermənilər bəyan etdilər ki, "Axalkalakidəki yaxın tarixin erməni üstünlüyü 1828-1829-cu illər müharibəsində Türkiyə və Rusiya imperiaylarının arasında əhali mübadiləsi ilə bağlıdır, Aleksandropol yaxınlığındakı cənubi göllər ərazisini çıxmaq şərti ilə və birləşmiş Ermənistan dövləti yaranandan sonra əhalinin yenidən yerləşməsindən sonra erməni hökuməti ölkə ərazisini boşaldacaqdır." (s. 151)

*1800-cü illərdə ermənilər indi Ermənistan, Gürcüstan, Azərbaycan və Şərqi Türkiyə adlanan ərazinin eninə-uzununa səpələnmişdi. Birbaşa Türkiyənin, müsəlmanların nəzarəti altında olan ən balaca kəndlərdə belə ermənilər azlıq təşkil edirdi və orada təxminən 700 il sakit yaşamışdılar. Sonra rus imperiyası Qafqaz dağlarının cənubunda müsəlman torpaqlarını işğal etmək üçün öz imperiya iddialarına başladı. Əsas silahlardan biri əhalinin köçürülməsi – deportasiyası idi. Onlar bütün müsəlman əhalisini qəddarcasına öz torpaqlarından qovaraq onların yerini xristianlarla doldururdular. Ruslara elə gəlirdi ki, yeniləri xristian hökumətinə daha sadiq olar. Bu siyasətdə əsas alət ermənilər idi. Yaxın Şərqdəki digər millətlər kimi ermənilərin birbaşa sadiqliyi dini xarakter daşıyırdı. Ermənilərin əksəri müsəlman nəzarəti altında olmaqdan qəzəblənirdi, ona görə də onlar xristian ölkəsinə qovulmuş, onlara havayı torpaq təklif olunmuşdu (Türkiyədən və digər müsəlmanlardan alınmış torpaq!). Əsas əhali dəyişdirilməsi başlandı. İrəvan əyalətində (indiki Ermənistan Respublikası) türk əksəriyyətinin əvəzinə ermənilər yerləşdirildi. Gürcüstanın sahil rayonlarından, Çerkeziyadan və Krımdan digər xristianlar gətirilərək qovulmuş müsəlmanların əvəzinə yerləşdirildi. Tez-tez müsəlmanların kütləvi qırğını baş verir, bəzi hallarda onların üçdə biri həlak olurdu.*

*1827-ci ildən 1878-ci ilədək ruslar 1.3 milyon müsəlmanı öz ata-baba yurdundan qovmuşdu! Bu miqrasiyada rusların əsas bəhanə-*

*si ermənilər və müsəlmanlar arasında get-gedə artan nifrət və etnik konflikt idi. Rus müharibələrində öz ailələrinin ölümünü görmüş qovulan müsəlmanlar ermənilərə düşmənçilik hissi bəsləyirdi. Müsəlman ağalığına nifrət bəsləyən ermənilər ruslara xilaskarlar kimi baxırdılar. 1828, 1854 və 1877-ci illər müharibələrində ermənilər şərqi Anadoluda rus işğalçıları ilə işbirliyi qurmuşdular. Ruslar geri çəkiləndən sonra müsəlman intiqamından qorxan ermənilər də aradan çıxdılar. Hər iki tərəfdən nifrət artdı. (s. 162)*

Axırda "Simon Vratzyan güclü daşnakçı fraksiya haqqında danışaraq Gürcüstanla müharibəni "indi xəcalətlə yada saldığını" qeyd etdi və dedi ki, iki ölkə əvvəidən fərqlərin çözülməsi yolunda səylər göstərsəydi, bütün bunla baş verməzdi." (4) Əgər Gürcüstanla müharibəni korrupsiyaçı diktator ermənilər udsaydı, onda heç bir razılaşmadan söhbət gedə bilməzdi.





ON BİRİNCİ FƏSİL

# ERMƏNİ QƏDDARLIĞI

## ERMƏNİLƏR ÖZ ÖLKƏLƏRİNDƏ MÜSƏLMANLARA KÖMƏKDƏN İMTİNA EDİR VƏ MÜDAFİƏSİZ MÜSƏLMAN KƏNDLƏRİNƏ HÜCUM ÇƏKƏRƏK TERRORU DAVAM ETDİRİRLƏR

"Zaqafqaziya ölkələrinin ən böyük və ən çox əhalisi olanı, həm də ən rəngarəngi Azərbaycan idi." (1) Həmişə olduğu kimi ermənilər bu qonşunun torpaqlarını daha çox qəsb etmişdir.

"1919-cu ildə avropalılar və ermənilər Azərbaycan haqqında çox az bilirdi və bəzi qəzet hesabatlarında onlardan bəhs edilərkən əleyhinə danışılır, onları ya tartar, ya da tatar adlandırır, azərbaycanlıların geri qalmış müsəlman fanatikləri olduğu və türk planı əsasında erməniləri qırıb çatdıqları haqqında fikir yaradırdılar." (s. 173)

Deməyə ehtiyac yoxdur ki, muzdlu erməni agentləri bu dedi-qodunu bütün xristian dünyasına yaymışdılar. Səhifəaltı izahlarda Hovanissyan iki erməni qonşusunun birlikdə necə gəlib xristian mövqeyini qorumağa cəhd göstərməsi haqqında məlumat verir.

"1919-cu ilin oktyabrında Gürcüstan və Azərbaycan nümayəndə heyətləri onların məsələsində Amerikanın mövqeyini ifadə edən keçmiş Nyu-York konqresmeni Uolter M. Çəndlerin fəaliyyətini müdafiə edirdilər. Onlar erməni təbliğatı nəticəsində yaranmış pis təsiri aradan qaldırmağa çalışırdılar. Çəndler təklif etdi ki, mümkün olan hər şey edilməlidir ki, "ermənilərin düşməncəsinə apardığı fəaliyyəti neytrallaşdırılsın və iflic olsun" və Ermənistanın müstəqilliyi üçün onun bütün sərhədləri boyu Amerika nəzarətinin həyata keçirilməsində onların fikirləri üst-üstə düşdü." (s. 174)

Güman ki, bəşər tarixində elə bir ölkə olmamışdır ki, Ermənistan kimi yalnız danışmaqla bu qədər xarici yardım ala bilsin. Görəsən xristian millətlərinin ictimai fikrinə nüfuz edərək heç nəyin hesabına nəsə almaq üçün erməni liderləri nə qədər pul xərcləmişdir?

"Digər tərəfdən, Hind Ordusundakı çoxlu Britaniya zabiti müsəlmanlarla yaxın təmasa girmiş, gürcü və ermənilər kimi Asiya xristianlarının müəyyən rəğbətini qazanmış, ruslara isə bel bağlamamışdı." (s. 176)

Belə zabitlərdən biri polkovnik-leytenant Klaud B. Stouks idi. Hovanissyan yazır ki, "Tehranda keçmiş hərbi attaşe və Asiyada bir il xidmət etmiş zabit olan Stouks 1919-cu ilin payız tərxisindən sonra Bakıda qalmış və noyabrda Uodrop missiyasına cəlb edilənədək qeyri-rəsmi siyasi müşahidəçi kimi fəaliyyət göstərmişdir. Onun şəxsində Azərbaycan hökuməti sadiq müttəfiq tapmışdır. O inanırdı ki, azərbaycanlılar anadangəlmə anti-bolşevikdirlər və təhlükəli pantürkçü, panislamçı ideologiyadan uzaqlaşdırıla bilərlər, o vaxt Böyük Britaniya tərəfindən müdafiə edilən sabit milli ölkələr yaradıla bilər." (s. 176)



Hətta belə bir məsələ həqiqətə çevrilsəydi belə, erməni liderləri ona məhəl qoymayacaqdı. Ermənilər bəyan etmişdi ki, "yalnız türkləri və azərbaycanlıları bir-birindən ayrı salmaqla erməni dirçəlişi təminat ala bilər." (s. 168)

I Dünya Müharibəsi ərzində, 1918-ci ildə Ermənistandakı təxminən 350,000 müsəlman ac-yalavac qaçqına çevrildi, onların üçdə biri "Osmanlı sərhədləri boyu evsiz-eşiksiz, dilənçi kökündə yaşayırdı." (s. 178)

*Erməni hakimiyyəti altında olan türk əhalisinə qarşı dözülməz münasibətə arabir Azərbaycanın Xarici İşlər Nazirliyi və mətbuatı etiraz bildirirdi. Başıpozuqların törətdiyi vəhşiliklərin qarşısını almaq üçün Qərbi Ermənistanın heç nə etməməsi bir yana qalsın, İrəvan hökuməti dərin ehtiyac içərisində olan müsəlmanlara məhəl qoymur, onlara ev, tibbi diqqət və iş verməkdən imtina edirdi. Paytaxtın içərisində və ətrafında olan təxminən 15,000 ehtiyaclı adamın təxminən 2,500 nəfərindən azına gün ərzində bir qab şorba verilirdi. Üstəlik, erməni xeyriyyə agentlikləri yaxşı bilirdi ki, xəstəliyin yıxdığı Türkiyə erməniləri İrəvanın müsəlman məhəllələrindəki baraklara doluşmuşdur və onlar yoluxaraq yerli sakinləri məhv edəcəkdir. (s. 178)*



Və ermənilər guya Osmanlıların genosid törətməsi haqqında əhvalatı uydurdular:

*Avqustun 1-də Azərbaycanın İrəvandakı nümayəndəsi Xan Tekinski 1918-ci ilin əvvəlindən 300 müsəlman kəndinin dağıdılması haqqında bəyanat verdi. Orada göstərilirdi ki, ermənilərin yeganə siyasəti kişiləri, qadınları və uşaqları kütləvi surətdə qırmaqdan ibarət idi və müsəlman əzabları elə dəhşətli idi ki, minlərlə adam Azərbaycana qaçmağa cəhd göstərirdi. Əllərinə silah alıb erməni quldurlarına qarşı mübarizə aparanlar isə sadəcə öz həyatlarını, mülkiyyət və evlərini qorumağa çalışırdılar. Ermənilərin guya qurbanlar vermiş köməksiz xalq olması haqqında yaratdıqları yalanı puça çıxarmaq üçün və həmin ərazidəki xalqların erməni nəzarətində olacaqları təqdirdə nələr gözlənildiyi haqqında Parisdə azərbaycanlılar da təbliğat kampaniyası aparırdılar. Avqustun 20-də Topçubaşov sülh konfransına xəbərdarlıq edirdi ki, Qafqazdakı etnik və ərazi xarakteri terror və qorxu siyasəti altında radikalcasına dəyişikliyə uğrayır. İrəvan və Qars əyalətlərində erməni təcavüzü... müsəlman əhalisinin məhvi və özünütəyin prinsipini həyata keçirmək məqsədi daşıyır. Məsələn, yenicə aşkara çıxmışdır ki, altı kəndin kişiləri öldürülmüş, onların qadınları isə "erməni döyüşçülərinə" hədiyyə edilmişdir. Azərbaycan öz torpağının bir hissəsinin və adamlarının itkisi hesabına başa gələn belə vəhşiliklərə daha dözə bilməz. (s. 180)*



Bir fikir verin: erməni alimi müsəlmanların əleyhinə öz ölkəsinin hərəkətlərini "vəhşiliklər" adlandırır. Əgər ermənilər Xristə həqiqi inanandırlarsa, onlar gərək türkləri və ya başqa birisini üzrxahlığa dəvət etməzdən qabaq özləri öz qələtlərini düzəltsinlər. Ermənilər 1918 və 1919-cu illərdə müsəlmanların başına açdıqları dəhşətli işlərə görə üzr istəməlidirlər. Onlar gərək 1992-ci ildə evlərindən və təsərrüfatlarından zorakılıqla qovulmuş 1 milyondan artıq müsəlmanın torpalarını geri qaytarsınlar.

İndi təəccüblənməyə dəyər ki, dünyanın neft istehsal edən müsəlman ölkələri son on ildə amerikanlara satdığı məhsulun qiymətini qaldırmışdır? Əgər Birləşmiş Ştatlar hökuməti "xristian" Rusiya ilə birləşərək "xristian" Ermənistana milyardlarla dollar xarici yardım edirsə və nəticə etibarı ilə Azərbaycandakı 1 milyondan artıq müsəlmanı ev-eşiyindən zorakılıqla qovan Ermənistana kömək edirsə, bəs müsəlman ölkələri nə etməlidir? Çox pis məqsədlərə xərcləndiyi sübut olunduğu üçün Amerika Ermənistana pul verməyi dayandırmalıdır!

Erməni xristianlarının müsəlmanlara qarşı genosid törətməsi haqqında sübutlar çoxdur. Oktyabrda məlumatlar verilmişdi ki, "Qars ərazisində əksəri qadın və uşaqlar olan 25,000 müsəlman qaçqınının vəziyyəti dəhşətli haldadır. Ermənistanın paytaxtında daha 13,000 nəfər, paytaxt ətrafındakı kəndlərdə isə 50,000 müsəlman qaçqını erməni xristianlarının nəzarəti altında idi. Erməni xristianlarının paytaxtının cənubundakı ərazidə heç bir yaşayış vasitəsi olmayan 70,000-dən 80,000 nəfərədək müsəlman qaçqını var idi və erməni rəhbərliyi onlara hər hansı bir yardım göstərməkdən imtina edirdi." (s. 182-183)



Bugünkü dünyamızda ermənilər türkləri qətlə yetirdiyini və ya onlara qarşı genosid törətdiklərini danırlar. Onlar xristian dünyası qarşısında ağlayıb-sıtqayıb pul diləyirlər. Buna baxmayaraq, onların öz alimi etiraf edir ki, ermənilər qətllər törətmişdir. Öz erməni müttəfiqləri ilə eyni tərəfdə vuruşmuş rusların dediklərini saf-çürük edin. Rusların ordu zabitləri ermənilərin nələr etdiyinin şahidi olmuşdur və Moskvadakı rus arxivləri həmin şahidlərin məlumatları ilə doludur. Burada yüzlərlə erməni genosid kampaniyasının yalnız biri haqqında danışılır.

Tarix göstərir ki, ermənilər rusların müdafiəçisi olmuşdur. On doqquzuncu əsrin birici yarısında ruslar işğal etdikləri Osmanlı torpaqlarından müsəlmanları zorakılıqla qovandan sonra erməni-rus "dostluğu" başlanmışdır. Heç bir şübhə yoxdur ki, 1915-ci ildə ermənilər ruslara hərtərəfli hərbi yardım etmişdir.

Onda nə üçün ermənilərin qadınları, uşaqları və yaşlıları kütləvi surətdə qətlə yetirməsi haqqında son sözü ruslar deməsin? Ermənilər terror törətmişdirmi? Bu gün Rusiyanın Moskva şəhərindəki arxivlərində bir rus ordu zabitinin üç hesabatı saxlanır. Yüzlərlə digər hesabatda olduğu kimi, bu sənədlərdə də təkcə bir ərazinin adı sadalanır: bu rus zabiti heç şübhə yeri qoymadan sübut edir ki, iyirminci əsrdə ilk genosidi ermənilər törətmişdir! I Dünya Müharibəsinin başlanğıcında Osmanlı İmperiyasının torpaqlarına soxulmuş işğalçı rus ordusuna general L. Odişe Liyetze komandanlıq edirdi. Rus arxivlərindən tapılmış aşağıdakı qısa məlumatda bu generalın şahidi olduğu bir məsələdən danışılır: "11-12 mart gecələrində erməni cəlladları Ərzincan ətrafındakı ərazilərdə müsəlmanları süngülər və baltalarla qətlə yetirdilər. Bu vəhşilər öz qurbanlarını əksərən öz məşum planları məqsədilə qazılmış xəndəklərə atırdılar. Hər xəndəyə təxminən 80 nəfər müsəlmanın nəşi atılırdı. Mənim adyutantım 200 belə xəndək saymış və cinayətlərin üstünü açmışdır."



Təkcə bu ərazidə on altı min müsəlman vahiməyə salınmış və öldürülmüşdür! Öz erməni müttəfiqləri haqqında danışan general davam edir – "Bu, dünya sivilizasiyasının əleyhinə yönəldilmiş hərəkətdir." Polkovnik-leytenant Qryaznov da öz komandirlik etdiyi ərazisində erməni vəhşilikləri haqqında rəsmi raport yazmışdır:



*Kəndlərə aparan yollara müsəlman kəndlilərinin süngüyə keçirilmiş meyitləri, kəsilmiş bədən hissələri və dağıdılıb tökülmüş daxili orqanları səpələnmişdi... əfsus! Əsasən qadınlar və uşaqlar! Hakimlər və sahibkarlar qətlləri təşkil etmiş, erməni ordusu onu yerinə yetirmişdir. Dərin quyular qazılmış və köməksiz insanlar heyvan kimi kəsilərək bir-birinin ardınca quyulara atılmışdır. Sonralar öldürülmüş müsəlmanlar da quyulara doldurulmuşdur. Quyu meyitlərlə dolandan sonra onun yanında dayanmış erməni deyirdi: "Yetmiş nəfərin meyiti, quyuya daha on meyit atıla bilər." Sonra daha on müsəlmanın meyiti parça-parça edilib quyuya atılırdı və quyu dolandan sonra üstünü torpaqla örtürdülər. Qətllər üçün məsuliyyət daşıyan erməni bir evə səksən nəfər müsəlman doldurur, sonra isə bir-bir onların başını kəsirdi. Ərzicahan soyqırımının ardınca ermənilər Ərzruma tərəf hərəkətə başladılar... Erməni satqınları yol boyunca kəndlərə hücum çəkir, kəndlərlə birlikdə bütün əhalini də məhv edirdi.*

Polkovnik-leytenant Tverdoxlebov Eryerum və Dəvəboynu fortla-

rında təminat üzrə komandir idi. O, həm də Artilieriya Alayının 2-ci qarnizonunun komandiri idi. O da bu ərazidə günahsız müsəlmanlara qarşı ermənilərin genosidi haqqında raport yazmışdır: "Bu günlər ərzində ermənilər qonşuluqdakı Ərzincanda zavallı türk sakinlərinə qarşı ağlagəlməz qəddarlıqla qətllər törədirdilər; silahsız türklərin özünümüdafiə üçün heç nəyi yox idi. Yenicə cinayətlər törətmiş ermənilər türk ordusunun yaxınlaşdığını eşidən kimi Ərzrum tərəfə qaçdılar."

Ginayət törədilən səhnələri müşahidə etmiş zabitlərin də təsdiq etdiyi baş komandanın raportlarına əsasən demək olar ki, ermənilər Ərzincanda səkküz yüzdən çox türkü doğramış, guya bununla türklər tərəfindən öldürülmüş bir başkəsən erməninin intiqamını almışlar. Türklər isə özlərini müdafiə edərkən həmin erməni qətlə yetirmişdilər. Bu azmış kimi, ermənilər qadın və uşağa fərq qoymadan Ərzrumun qonşuluğundakı İlicənin bədbəxt Məhəmməd hümmətini də soyqırım etmişdi.

Polkovnik terrorun çoxlu fərdi hesabını da raportuna salmışdı. Bir nümunəyə nəzər salın: "Artilleriya polkunun erməni kadeti olan Qaraguedov nifrət və qəzəb qızışdırıcısı idi. Xüsusilə belə kampaniyalar üçün hazırlanmış erməni əsgərləri ilə türk evlərində qəddarlıqla axtarış aparan Qaraguedov mebel və digər ev əşyalarını da çırpışdırırdı. Digər erməni əsgərləri ilə birlikdə Qaraguedov həbs edildi. Hökumət komissarı Zetalov və onun assistentinin yanında həmin axşam hadisələr haqqında baş komandana məlumat verildi. Elə həmin gün ermənilər başqa türkləri qətlə yetirdilər və türk bazarını yandırdılar." Öz raportuna davam edən polkovnik ermənilərin əsas liderlərinin onun dustaqlarını necə azad etməsindən və bunun müqabilində onlara qaşın üstündə gözün var deyilməməsindən bəhs edir.

Osmanlı İmperiyasında erməni müttəfiqlərinin davranışı bütün rus ordusuna hədsiz nifrət oyatmışdı. Erməni qoşunlarının hərəkət etdiyi bütün yerlərdə türk məüsəlmanlarının soyqırım edilməsi haqqında rusların minlərlə raportu vardır. Ermənilər öz genosidlərini soyuq başla və öz zabitlərinin razılığı ilə həyata keçirirdilər? *Bəli!* Bu genosid hadisələri geniş masştabda baş veridi? *Bəli!*

Onda bu günkü ermənilər ulu babalarının belə nifrətəlayiq hərəkətlər etməsini hansı üzlə danırlar? Ermənilər heç vaxt baş verməmiş 1915-ci il genosidinə görə Türkiyə hökumətinin üzr istəməsini necə tələb edə bilir? Bu günkü ermənilər heç vaxt baş verməmiş nəyinsə şərəfinə 50 milyon dollar xərcləyərək genosid muzeyini və Vaşinqtondakı Ağ Evdən ikicə tin aralı heykəli necə qaldırmışdır?





Britaniya öz qoşunlarını çəkib aparandan az sonra Azərbaycan hökuməti "1918-ci ilin "mart günlərində" Bakıda müsəlmanların soyqırım edilməsi ilə bağlı təhqiqatlarını intensivləşdirdi və çoxlu erməni həbsə aldı..." (s. 185-186)

Ermənilər hay-küy salaraq müsəlmanların genosid edilməsi ilə bağlı həbsləri "irqi ayrı-seçkilik hisslərinin qızışdırılması məqsədilə düşünülmüş cəhd" adlandırdılar..." (s. 186)

Bu gün xristian ermənilər 1915-ci ildə olduğu güman edilən genosidə görə Türkiyənin üzr istəməsini tələb edirlər. Bu, Türkiyə Respublikasının qurulmasından səkkiz il əvvəl idi. Hadisələrin yönü dəyişəndə və müsəlmanları soyuqqanlıqla qətlə yetirən ermənilər həbsə alınanda, onlar bunun "irqi ayrı-seçkilik hisslərinin qızışdırılması məqsədilə düşünülmüş cəhd" olduğu haqqında vay-şivən qopartdılar.

**Amerika Ordusunun polkovniki Uilyam N.Haskell: Müttəfiqlərin Ermənistanda baş komissarı**

Polkovnik Uilyam N. Haskell Müttəfiqlərin Ermənistanda baş komissarı kimi avqustda Ermənistana gəldi.

*Avqustun 22-də parlamentə sədrlik edən spiker Novsep Arqutyan komissar Haskellin Ermənistana gəlişini rəsmən alqışladı və təəssüf etdiyini bildirdi ki, o, müflisləşmiş və dul qadınlarla, yetimlərlə, aclıq çəkən evsiz adamlarla dolu olan bir ölkəni görməli olacaqdır. Əlbəttə, Müttəfiqlər onlara beş il ərzində düşmənin əleyhinə etibarlı köməklik göstərmiş erməniləri müdafiə üçün öz öhdəliklərini yerinə yetirirlər. Öz hərbi gücünün qüdrətinə arxayın olsalar da, Müttəfiqlər məğlub edilmiş düşmənlə hesabı çürütməyə tələsməmişdir. Şərq despotizminin tipik nümayəndəsi olan düşmən isə yalnız güc qarşısında boyun əyirdi. Asan qələbədən və azsaylı olsa da, Müttəfiq qoşunlarının Ermənistana girməsindən vəcdə gələn "qara qüvvələr" gənc respublikanı yıxmaq üçün cəhdlər göstərirdi. Müttə-*

*fiqlər üçün Ermənistanın tək olmadığını və onun düşmənlərinin cəzasız qalmayacağını nümayiş etdirməyin məqamı yetişmişdi. Tarixin belə bir dövrü olmuşdur ki, "qoca dünyanın ən qədim xalqlarından biri olan" ermənilər Qərb mədəniyyətini zənginləşdirmişdir. İndi isə gənc Ermənistan demokratiyası Qərbə, kömək, istiqamət və ədalət üçün xüsusilə Amerika demokratiyasına tərəf baxır. (s. 196-197)*

Bir anlığa Ermənistan parlamenti spikerinin bəyanatını əks tərəfdən saf-çürük edin:

1. "Tarixin belə bir dövrü olmuşdur ki, qoca dünyanın ən qədim xalqlarından biri olan ermənilər Qərb mədəniyyətini zənginləşdirmişdir." Görəsən neçə nəfər amerikalı yada sala bilər ki, öz qədim tarixi ərzində bu və ya digər mənada adi erməni tərəfindən "zənginləşmişdir"? Bu günkü amerikalıların öz vergi dollarlarını bu əldən düşmüşlər yığınından ibarət olan adamlara ödəməsinin qədim tarixə nə dəxli var? Özü də bu adamlar heç nəyin müqabilində get-gedə daha çox pul qoparmaq istəyirlər.



2. "Müttəfiqlər üçün Ermənistanın tək olmadığını və onun düşmənlərinin cəzasız qalmayacağını nümayiş etdirməyin məqamı yetişmişdi." Osmanlı İmperiyası, Gürcüstan və ya Azərbaycanla heç vaxt müharibə aparmamış Birləşmiş Ştatlar nə üçün Ermənistandan ötrü bu xalqları cəzalandırmalı idi? Ermənistan diktatorlarının Amerikadan öz gücünü nümayiş etdirməsi tələbinin heç bir mənası yoxdur.

3. "Asan qələbədən və azsaylı olsa da, Müttəfiq qoşunlarının Ermənistana girməsindən vəcdə gələn "qara qüvvələr" gənc respublikanı yıxmaq üçün cəhdlər göstərirdi." Hər şeydən əvvəl, ermənilərin həqiqətən respublikası var idi – onlarda tamamilə Sovet İttifaqına bənzəyən diktator hökuməti mövcud idi. İkincisi, qalib Müttəfiqlər hər hansı diktatorların istəyinə görə deyil, özlərinin düzgün bildiyi əsasda qərarlar çıxarırdılar. Üçüncüsü, müharibə başa çatandan sonra öz qoşunlarını geri qaytarmaq qərarı müttəfiq xalqların qərarı idi. Daha çox torpaq qamarlamaq məqsədilə erməni liderlərinin öz qonşularına (xristian və ya müsəlman olmasından asılı olmayaraq) hücum əməliyyatları keçirməsi üçün Müttəfiqlər öz hərbi qüvvələrini



geri qaytarmağa borclu deyildi. Dördüncüsü, Osmanlılarla münasibətin ən yaxşısını qurmaq tamamilə Müttəfiqlərin hüququ idi. Beşincisi, "qara qüvvələr" gənc respublikanı yıxmağa cəhdlər göstərirdi."

"Qara qüvvələr" – Ermənistan öz qonşusu Gürcüstana qəfildən, əsassız və xaincəsinə hücum etdi.

"Qara qüvvələr" – Ermənistan öz qonşusu Azərbaycana qəfildən, əsassız və xaincəsinə hücum etdi.

"Qara qüvvələr" – Erməni liderləri öz xalqının beş yüz ildən artıq dinc və əminamanlıq şəraitində yaşadığı Osmanlı İmperiyasında qiyamlar təşkil etdilər.

"Qara qüvvələr" – Osmanlı İmperiyasını hərbi zorakılıqla yıxmaq cəhdində erməni liderləri Rusiya qüvvələri ilə birləşdilər.

"Qara qüvvələr" – Erməni Kilsəsi üsyana, vəhşiliyə, tarrorizmə və başqa xalqların torpaqlarını tutmağa xeyir-dua verir.

Erməni liderləri isə haray-həşir salır ki, "qara qüvvələr" Ermənistanı yıxmağa çalışır. "Qara qüvvələr" elə ermənilərin özü idi!



Kiminsə şeytan əməlləri ilə məşğul olması və öz günah dolu əməllərini başqasının boynuna qoyması haqqında klassik nümunədir! Tarixin şahidliyinə əsaslanan həqiqət isə budur ki, xristian Gürcüstanına, müsəlman Osmanlısına və ya müsəlman Azərbaycanına hücum etməyin əslində erməni quldur yığnağı üçün fərqi olmamışdır. Bunlar başqasına məxsus olan torpaqları qamarlamaq istəyən terrorçular idi və onlar istəyirdi ki, nə qədər ki, ermənilər öz qonşularının torpaqlarını oğurlayır, talan edir və qamarlayır Amerika və Müttəfiqlər onları müdafiə etməlidir.

Müttəfiqlərin Ermənistandakı yeni baş komissarı Ermənistan və Azərbaycan arasında sülh yaratmağa cəhd göstərəndə az müddət ərzində balaca Ermənistanın korrupsiyaçı diktatorlarının iştahı haqqında öyrəndi. Ermənistan Araz vadisinin onlara verilməsi tələbini qaldıranda komissar öyrəndi ki,

*Araz vadisində yaşayan müsəlmanlar erməni nəzarətindən çıxmaq üçün hər cür müvəqqəti razılığa əvvəlcədən hazırdırlar. Sentyabrın 9-da "cənub-qərbi Azərbaycan"ın nümayəndələri Haskellə məlumat verdilər ki, özünütəyin prinsipləri yerinə yetirilənə və*

*Paris Sülh Konfransı ərazini Azərbaycanın tərkibində təsbit edənə qədər onlar Amerikanın nəzarətini məqbul hesab edə bilərlər. Müsəlmanların erməni kəndliləri ilə heç bir mübahisəsi yox idi, onlar sağ-salamat öz kəndlərinə qayıda bilərdi, lakin daşnakçı quldurların zülmünü qəbul etməkdənsə, onlar ələ silah götürüb şərəfli ölməyi üstün tutacaqdır. (s. 203)*

Zaman bu müsəlmanların düzgün olduğunu sübut etmişdir. Ermənistan başqasının torpaqlarını qamarladığı bütün vaxtlarda müsəlmanları qırıb çatmışdır. "Erməni quldurlarının" onların torpaqlarını və mülkiyyətini müftə-müsəlləm çırpışdırması üçün müsəlmanlar həmişə zorakılıqla öz yurdundan qovulmuşdur.

*Sonralar general-qubernatorun funksiyalarını yerli müsəlman liderlərinə izah etməyə və onların təhlükəsizliyini təmin etməyə çalışan Amerika rəsmi zabitinə deyildi ki, Şərur-Dərələyiz, Naxçıvan və Vedibasar Azərbaycanın ayrılmaz hissələri olmuşdur və yalnız Azərbaycan qanunları altında fəaliyyət göstərəcəkdir. Onlar amerikalı qubernatoru deyil, nümayəndəni qəbul edəcək və bütün dinlərdən olan qaçqınlara Amerika yardımını alqışlayacaqlar. Lakin başa düşülməlidir ki, "əgər bizim istəyimizin əleyhinə olaraq kimsə torpaqlarımızı Ermənistana verməyə cəhd göstərərsə, biz onu özümüzə düşmən hesab edəcəyik; biz onu əlimizdə silah olaraq qarşılayacaq və bizim düşmənlər yalnız meyitlərimizin üstündən adlayaraq evlərimizə girə bilərlər." (s. 204)*

Azərbaycan torpaqlarının 20 faizini tutmaq və bir milyondan artıq müsəlmanı ev-eşiyindən qovmaq üçün Amerika Birləşmiş Ştatları Ermənistana 1.4 milyard dollardan artıq pul vermişdir. Eyni zamanda Azərbaycan öz torpaqlarını və əhalisinin ev-eşiyini qorumağa cəhd göstərdiyinə görə Amerika onlara verəsi xarici yardımı kəsmişdir. Bu, erməni quldurlarının tərəfini saxlamaqdan savay bir şey deyildir.

"Və hələ Zəngəzur və Goğtan da var idi. Dünya müharibəsindən qabaq Zəngəzur əhalisinin təxminən yarısı müsəlman, yarısı xristian idi." (s. 207) Baxın görün bu əraziləri müsəlmanlardan təmizləmək





üçün ermənilər hansı işləklərdən çıxmışdır: "Müsəlman heyvandarlarının yaz və yay köçü zamanı onların əleyhinə olan erməni quldurları dəfələrlə öz xarakterlərini göstərdilər. Həkəri vadisində kiçik atlı qruplarla birləşən tərəkəmələri azərbaycanlı və türk zabitləri müşaiyət edirdi. Bu dəstələr çoxsaylı dağ cığırlarına sıxışdırılır və dönə-dönə erməni dağlılarının hücumuna məruz qalırdı." (s. 209)

Min illər ərzində müsəlman heyvandarları hər yaz və yayda öz sürülərini dağlara qaldırırdılar. İndi erməni professoru onları "köçəri" adlandırır və erməni quldurları onların varlığına son qoymaq istəyirdi. Məgər bu "öz qonşunu özün kimi sev" xristian hərəkətinə bənzəyirdimi?

*Azərbaycan alayları Zəngəzur sərhəddinə yığışanda Bakıdakı qəzetlər o ərazidən olan müsəlman qaçqınların çıxılmaz vəziyyəti haqqında ağlaşırdı. Onlar hadisələri təhlil edərək yazırdılar ki, Andronik "Paşa" və digər ermənilərin vəhşilikləri başlanandan bəri yüz yaşayış məntəqəsindən çoxu dağıdılmış və ən azı 40,000 adam evsiz-eşiksiz qalmışdır. Heyvandarların təhlükə altında qaldığı və həm tərəkəmələrin, həm də heyvan sürülərinin bürküdən boğulan düzənliklərdə xəstəlikdən tələf olması haqda xəbərdarlıq edən Xosrov bəy Sultanov yaylaqdakı otlaqlara qalxan yolları kəsmiş "erməni quldurlarına" dərs vermək üçün öz hökumətinə yalvarırdı... (s. 213)*

Azərbaycanlılar xristian ermənilərin terrorçu əməlləri haqqında danışmağa başladılar. Onlar danışmaya bilməzdilər. "Bakı qəzetləri erməni qəddarlığı haqqında haray çəkən başlıqlar altında yazılar verməklə qara camaatı müharibə əhvalına hazırlayır və konfliktin həlli üçün komissiya yaratmaq haqqında İrəvanın çağırışının qarşısını almaq məqsədi daşıyırdı." (s. 213-214)

Bu, əsl erməni üsulu idi – ordunun gücü ilə aldığının, işğal etdiyi Azərbaycan torpağının və məhv etdiyi adamların müqabilində danışıqlar stolu istəmək! Azərbaycanın cavabı birbaşa və sərrast oldu: "Ermənistan Respublikasının Xarici İşlər Nazirliyinə məlumat veririk ki, Zəngəzur uyezdinin özü Azərbaycan Respublikası ərazisinin bir hissəsidir və ona görə də Ermənistan hökumətinin qeyd olunan notasında qaldırılan məsələ Azərbaycan Respublikasının daxili işlərinə

müdaxilə kimi qəbuledilməzdir. Azərbaycan hökuməti hansı vacib cavab tədbirlərini görəcəyi haqqında Ermənistana cavab verməyi özünə borc bilmir." (s. 215-216)

Ermənilərin belə dəhşətli hərəkətləri haqqında məlumiat verən Azərbaycan qəzetlərini hansı tarixçi alim "ağlaşırdı" sözü ilə təsvir edər? Hansı tarixçi alim belə vəhşi erməni təcavüzü haqqında xəbərlər verən Azərbaycan qəzetlərini "erməni qəddarlığı haqqında haray salan başlıqlar altında yazılar verməklə qara camaatı müharibə əhvalına hazırlayırdı..." təsvirini verərdi?

Azərbaycanın hərbi naziri Xosrov bəy Sultanov Zəngəzur sakinlərinə ünvanlanmış rus, türk və erməni dillərində dərc etdirdiyi vərəqədə

*çoxsaylı kəndləri xarabazara çevirərək minlərlə günahsız adamı yer-yurdundan didərgin salan "qara qüvvələri" ittiham edir və Zəngəzur ermənilərini özlərini vətənpərvər adlandıran, əslində isə əraziyə dağıntı və əzab gətirən elələrindən yaxa qurtarmağa səsləyirdi. Azərbaycan idarəçiliyinin ərazidə qırğınlar və quldarlıq qaydaları tətbiq edəcəyi haqqında yayılan şaiyələrin əsassız olduğu Qarabağda sübuta yetirilmişdir; indi orada insanlar istədikləri kimi əmin-amanlıqda yaşayırlar. Qarabağ kimi Zəngəzur uyezdi də ərzaq və təchizat sarıdan Yevlax yolundan asılıdır və təcrid olunmuş şəkildə özünü saxlamağa qadir deyil. Sultanov provakasiya yolundan uzaqlaşmaq haqqında ermənilərə xəbərdarlıq edir, əks təqdirdə onlara kömək etməyəcəyini və son nəticədə hamının İrəvana qaçacağını söyləyirdi. "Zəngəzur camaatı, fəhlələr və kəndlilər, mən sizə üz tuturam... nümayiş etdirin ki, sizin anarxist və avantürist elementlərlə heç bir əlaqəniz yoxdur. Elə olarsa, mən sizə şəxsiyyət və əmlak toxunulmazlığı təminatı verirəm və mən həmişə sözümün sahibi olmuşam. Lakin əgər siz qanundankənar elementlərlə əlaqəyə inad göstərəcəksinizsə, sizi Azərbaycan Respublikasının qanunlarına zorla tabe etdirmək üçün mənim kifayət qədər imkanlarım vardır. Belə olarsa, töküləcək qan üçün məsuliyyət sizin üzərinizdə qalacaqdır." (s. 215-216)*

Ermənilər sadəcə olaraq gec başa düşürlər. Onlar beş yüz ildən





artıq müddətdə Osmanlılarla sülh şəraitində yaşayandan sonra da eyni hərəkəti etmişdilər.

Onlar əsrlər ərzində sülh şəraitində yaşadıqları gürcülərlə də eyni hərəkəti etmişdilər.

İndi isə onlar eyni səhvi təkrar edir, başqa birisinin – bu dəfə Azərbaycanın torpağını tutmaq iştahlarını ödəmək üçün insanların qanını tökməkdən çəkinmirdilər.

Və müharibə başlandı: erməni qoşunları hücuma keçən kimi "Goğtan keçidini açaraq Njdenin başçılığı altında Zəngəzuru iki hissəyə ayıran Bərgüşad-Gehvadzor vadiləri boyunca olan kənlərdəki müsəlman partizanlarını və kəndlilərini qırıb-çatmağa başladı." (s. 218-219)

Xristian erməniləri adlandırılan adamların 1915-ci ildə guya müsəlmanların onları qırması haqqında dediklərini əslində özləri həyata keçirdi. 1915-ci il yalançı hay-küyü haqqında isə üstündən qırx üç il keçəndən sonra onlar "genosid" deyə bağırmağa başladılar. Bir baxın, xristian erməniləri müsəlman azərbaycanlılarını müharibə zonasından qovurdular. Sonra isə, özünü "xristian" adlandıran bu adamlar azərbaycanlıları yalnız ona görə qovurdular ki, onlar sadəcə müsəlman idilər və ermənilər müsəlmanların başına açdıqları terror hadisələrinin hesabını aparmırdılar. Sadə bir sual soruşulmalıdır: Ermənilərin etdiklərini İsus Xrist də edərdimi? Əlbəttə ki, yox!

Noyabrın 16-da Oliver Uordrop Britaniya rəsmilərinə xəbər verdi ki, ermənilər "güman ki, erkən qələbəyə arxalanaraq barışığa meyllənmək istəmədilər və indi hadisələr onların əleyhinə yönəlmişdir. Tatarları dəhşətli terrora düçar edən və Azərbaycanın ictimai fikrini minlərlə müsəlmanın qaçqına çevrilməsinə yönəltmək üçün təbliğat aparan ermənilər də günahsız deyillər." (s. 219)

"Admiral Bristol Konstantinopolda Haskellə şikayətlənirdi ki, Tiflisdə Rhea və digər amerikanlar faktlarla təbliğat arasında fərq qoya bilmirlər, çünki onlar Türkiyə və Azərbaycanın Qarabağ-Zəngəzur-Naxçıvanı birləşdirən torpaq körpüsü haqqında əsas planı ilə bağlı olaraq erməni xəttini qəbul etmişlər." (s. 227)

*Şərur-Naxçıvan müsəlmanlarının ağır vəziyyəti onların liderləri arasında fikir ayrılığına səbəb oldu. Ərazidə yarım-muxtariyyət təş-*

*kil etmək üçün göndərilən azərbaycanlı zabit Səməd bəy Camalinski şikayətlənirdi ki, fars agentləri minlərlə müsəlman qaçqınını Araz çayını keçməyə təşfiq edir, əvəzində isə onlara sakitlik, kömək və torpaq vədi verirlər. O, Usubbəyovun kabinetinə müraciət edərək ərazini müdafiə etmək və əhaliyə yardım göstərmək üçün canlı qüvvə və pul göndərməyi tələb edirdi; əks təqdirdə, əgər çoxiu sayda adamlar İrana keçsəydi, ermənilər Araz vadisini yenidən işğal edər, Zəngəzura asan keçidi tutmağa nail olar və beləliklə, bütün Azərbaycanı təhlükə altına alardılar. Camalinski Azərbaycan rəsmilərinin əleyhinə gedən və diktatora çevrilmək istəyən kapitan Xəlil bəyi günahlandırırdı. (s. 229-230)*

Ermənilər üçün hətta əksərən mülki adamlar üzərində qazanılmış hərbi uğurun dadı rüh yüksəkliyi yaradırdı. "Bütün erməni dünyasında balaca milli ordunun şərəfinə təriflər ayaq tutub yeriyirdi; həmin ordu isə öz torpağının müdafiəsi üçün heç bir itki verməmişdi. Mülki, dini, mədəni və siyasi cəmiyyətləri təmsil edən bir komitə yaradıldı. Bu komitə əldə silah tutan adamları dekabrın 19-dan 21-dək "Ordu Günləri" kimi qeyd olunan üç gün ərzində döyüşə ruhlandırmaq məqsədi daşıyırdı." (s. 231)



"Kiçik uğur" məsələləri balacalaşdırmaqdır. "Vətəni müdafiə etmək" isə birinci dərəcəli saxta nağıldır. Görəsən, qonşu üzərinə hücumu hansı üzlə "vətəni müdafiə etmək" adlandırmaq olar? Üç gün ərzində bütün Ermənistanda toy-bayram keçirmək kütləni şən əhvalda saxlamaq planından başqa bir şey deyildi. Romalıların haçansa dediyi kimi, "onlara çörək və sirk verin"." Əlbəttə, indi Roma yoxdur.

İndi isə ermənilər bir qara qəpik də ödəmədən öz hansısa qonşusunun torpağını qamarlayandan sonra torpağı əllərində saxlayaraq sülh danışıqlarına getmək istəyirlər. Diktator erməniəlr tərəfindən söylənmiş bu saxta nağıla nəzər salın:

*Tarix boyu siyasi və coğrafi amillər Ermənistanı əzablara düçar etmişdir, lakin 1917-ci ildəki Böyük Rus İnqilabı xalqlara mədəni birliklər kimi öz sərvətlərinə sahib çıxmaq imkanı bəxş etdi. İndi öz azadlığını və müstəqilliyini tələb edən ermənilər başa düşdülər ki,*



*bu məqsədə aparan yol öz qonşuları ilə harmonik münasibətlərdən keçir. Zaqafqaziyada bütün millətlərin azadlığı olmadan bir respublikanın azadlığı mümkün deyildir. Erməni nümayəndə heyəti məhz bu əhvalla konfransın işinə qatılmışdır. (s. 232)*

Belə şeylər danışanda ermənilərin açıq alınla başqalarına baxması doğrudanmı mümkündür?

Sadəcə fikirləşin, bu adam yığımı düşünürdü ki, "1917-ci ildəki Böyük Rus İnqilabı xalqlara mədəni birliklər kimi öz sərvətlərinə sahib çıxmaq imkanı bəxş etdi". Onlar hətta Sovet İmperiyasının qürubu vaxtı da səhv hesablama aparırdılar. Bu erməni liderləri qonşu qapıdakı torpağı necə qamarlamaq və işğal edilmiş torpaqlardakı etnikləri necə təmizləmək üçün baş sındırırdılar... Öz "şeytan" əməllərinə bəşəri hüquqi don geyindirən Ermənistan güman ki, "şeytan" Sovet İmperiyasından "bəhrələnmiş" yeganə ölkədir. Tamamilə bir-birinə bənzəyirlər!

"Ermənistan hökuməti ilkin konfederasiya ideyasına öz istəyini bildirsə də, əslində biganə mövqe tuturdu; belə olsaydı Azərbaycan layihəsi Dağıstandakı müsəlman dağlılarının torpaqlarını və Şimali Qafqazı özünə daxil edəcəkdi; Ermənistan dövlətinin Zaqafqaziyadan qərb tərəflərə uzanan öz tarixi və coğrafi məkanına yayılmaq istəyi Azərbaycanı əks addımlara sövq edəcəkdi." (s. 232)



Aydındır ki, erməni xristianları Zaqafqaziyada heç bir müsəlmanın qalmasını istəmirdi. Onlar bütün bu torpaqları saf saxlamaq isətyirdilər – lap Hitler öz xalqını saf saxlamaq istədiyi kimi. Bu, ardıcıl surətdə öz ərazisini genişləndirməyə cəhd göstərən, silah gücünə müsəlmanlardan qamarladıqları yeni torpaqlara sahiblik etmək və sonra isə həmin torpaqları elə xarabaya çevirmək ki, evinə qayıdan müsəlmanlar üçün heç nə qoymamaq müasir Ermənistanın dəqiq davranışıdır.

# MÜASİR ERMƏNİSTANIN AZƏRBAYCANDA HƏYATA KEÇİRDİYİ TERRORİZMİN VƏ QƏDDARLIĞIN SÜBUTU

"Xristian" ermənilər öz hökumətlərinin və yeganə dövlət kilsəsinin xeyir-duası ilə öz qonşusunun torpaqlarını qamarlayarkən silahsız müsəlman qadınlarını, qocalarını və uşaqlarını qırıb-çatmışdır.















ON İKİNCİ FƏSİL

# ZORAKILIQ VƏ TERROR KAMPANİYALARINI MÜDAFİƏ MƏQSƏDİLƏ ERMƏNİ LİDERLƏRİ DÜNYAMİQYASLI SİYASİ TƏŞKİLAT YARADIRLAR

## "AMERİKADA ERMƏNİ MƏRKƏZİ KOMİTƏSİNİN" YARADILMASI



Dörd kitablıq seriyasının II cildinin doqquzuncu fəslini Hovanissyan "Partizan siyasətçilər"ə həsr etmişdir. Erməni liderlərinin əməlləri haqqında Hovanissyan qeyri-adi detallara aydınlıq gətirir. Erməni tarixçisi qiyamların ermənilər tərəfindən başlanması haqqında sübut gətirir, bu isə I Dünya Müharibəsində Osmanlıların erməniləri döyüş zonasından köçürməsi ilə nəticələnmişdi. Heç şübhəsiz, erməniləri köçürmək üçün Osmanlıların ciddi əsası var idi, çünki onlar gündüzlər özlərini ruslarla döyüşən Osmanlı ordusunun dostu kimi göstərir, gecələr isə arxada terrorçuya çevrilirdilər. Üsyanlar mərhələsinə qədəm basandan sonra öz satqın hərəkətlərini müdafiə etmək üçün erməni liderlərinin beynəlxalq təşkilat yaratmaq istiqamətində iş aparması haqqında da Hovanissyan sübut gətirir.

*Erməni İnqilabçı Federasiyası yarandığı 1890-cı ildən keçən on il ərzində ümumdünya milli-siyasi təşkilata çevrildi. Mərkəzləşmiş struktur yayıldığı siyasi, ictimai və coğrafi nöqtələrdə əməliyyatlar keçirir, həm əlaqə, həm də rəhbərlik iki büro tərəfindən normal surətdə aparılırdı. 1918-ci ilədək Tiflisdə yerləşən Şərq (Arevelyan) bürosu Rusiya İmperiyasının və İranın regional komitələrinə, bir neçə il isə Meds Hayk – dörd şərqi Osmanlı vilayəti (şəhəri) olan Trabzon, Ərzurum, Bitlis və Van komitələrinə rəhbərlik etdi. Cenevrədəki Qərb (Arevmtyan) bürosu isə Amerika, Qərbi Avropa, Balkanlar, və Konstantinopol dirsəyindən başlayaraq Osmanlı İmperiyasının böyük hissəsindəki əməliyyatlara rəhbərlik edirdi. 1913-cü ildə altı türk-erməni vilayətində və Trabzonda muxtar region yaradılması haqqında beynəlxalq səviyyədə danışıqlar gedərkən bu partiyanın Yeddinci Qurultayı Ərzurum Erməni (Hayastan) yeni əlaqələndirici bürosunu yaratdı. Həmin əyalətlər üzrə məsuiiyyət Konstantinopoldakı Qərb bürosuna ötürüldü. Bir il sonra İngiltərə Konqresi Qərb bürosunu Erməni bürosunun bir hissəsinə çevirərək siyasi intibahın rəhbərliyini erməni yaylasının qəlbinə köçürtdü.*

*Lakin bu hərəkətlər tezliklə boşa çıxdı, çünki Türkiyənin müharibəyə qoşulması, qırğınlar və erməni əhalisinin ərazi iddiaları ilə bağlı köçürülməsi azadlıq hərəkatının qarşısını aldı. Osmanlı İmperiyasındakı daşnakçı şəbəkə çalxalandı; yüzlərlə lider və minlərlə tərəfdar öldürüldü, sağ qalanlar isə qaçaraq Suriya, Mesopatomiya, İran və Qafqaza səpələndilər. (1)*





Bu, faşist Almaniyası ilə kommunist Rusiyasına bənzəyir, elə deyilmi? Erməni liderlərinin iyirmi beş il ərzində hökuməti yıxmaq istiqamətində iş aparmasından sonra 1915-ci ildə bütün erməniləri döyüş zonalarından köçürən Osmanlıların haqlı olmamasına bircə nəfər adam inana bilərmi? Bu balaca diktatorlar öz terror kampaniyasını "azadlıq hərəkatı" adlandırırdı. Osmanlılar və ya istənilən sivil ölkə isə belə vahimə taktikasını vətən xainliyi və satqınlıq adlandırırlar. Öz ölkəsini və xalqını bu cür terror kampaniyalarından xilas etmək üçün Osmanlıların hər cür qanuni hüququ var idi. Amerikan rəsmilərinin vaxtilə qeyd etdikləri kimi, ermənilər çox dəhşətli əsgərlərdir. Lakin məsələ anti-müsəlman hərəkatı üçün xristian-etnik kampaniyasına çatanda ermənilərin yalan və fırıldaq ustası olması aşkara çıxdı. Həmin eybəcər sima bu gün də davam edir, çünki onların anti-müsəlman kampaniyası heç nədən şübhələnməyən xristian qərbindən Ermənistana milyardlarla dollar pul gətir-

mişdir. O pul isə müsəlmanlar əleyhinə cılız, çirkin müharibələrə xərclənmişdir.

"Yalnız Müttəfiqlərin qələbəsi və xarabalıqlar arasından çıxmış ermənilər üçün yaranmış qəfil imkan Hai Heğapaxakan Daşnaksyütunu tamamilə məhv olmaqdan xilas etdi." (s. 255) Başqa sözlə desək, Hovanissyana görə, Müttəfiqlərin qələbəsi erməni liderləri üçün yeməyə tikə saxladı. Onların heç nəyi yox idi, ona görə də hər şeyi qazanmaq və heç nə itirmək qorxusu olmayanda onlar göydəki ayı da istəyə bilərdilər. Məhz buna görədir ki, bu cırtdan Ermənistanın korrupsiyaçı diktatorları heç nə vermədən imkan daxilində daha çox pul qoparmaq üçün özlərindən saxta, vəhşi əhvalatlar uydururlar.

1919-cu ildə diktatorların nəzarətində üç ayrıca və əlahiddə partiya hərəkatı var idi, onlar

*Ermənistanın içərisində müxtəlif siyasi istiqamət yeridirdilər. Müttəfiqlərin rəsmiləri bu hərəkatları böyük maraqla izləyirdilər. İyulda Qara dənizdəki ordunun kəşfiyyat bölməsi məlumat verdi ki, Daşnakıstan güclü daxili və xarici təzyiqlər altındadır, bu isə qorxulu metodlara və maksimalist ideologiyaya apara bilər. Partiya daxilində olan üç qruplaşmadan öz sıralarında az qala bütün Qərbi Ermənistan üzvlərini birləşdirən ən güclüsü inqilabi sosial islahatlara üstünlük verirdi; başqa bir dəstədəki beynəlxalq sosialistlər radikal terminologiya işlətməkdə davam edirdi; orta mövqedə dayanan yaşlı ziyalılar isə inqilabi taktikanı lazımsız hesab etsələr də, Müttəfiq hökumətlərin bəzi nazirlərinin türkmeyilli hisslərinin Ermənistan probleminin qənaətbəxş həllinə mane olacağından narahatlıqlarını bildirirdilər. (s. 256)*

Bu da 1890-cı ildən başlayaraq erməni diktatorlarının vahimə və terrorla bağlılığı haqqında daha bir sübut!

"Erməni İnqilabçı Federasiyasının doqquzuncu qurultayı 27 sentyabr 1919-cu ildə parlament binasında öz açılış mərasiminə başladı; səhnə bayraqlarla və partiya və dövlətin birliyini əks etdirən parçalarla, ölkənin baniləri olan üçlüyün – Kristapov, Rostom və Zavariyanın foto-şəkilləri ilə bəzədilmişdi. "Yaşasın birləşmiş və müstə-





qil Ermənistan" və "Sosialist İnternasionalına doğru" şüarları asılmışdı." (s. 257)

Baş nazir

*Aleksandr Xatissyan respublikanın yaranmasını və müdafiəsini partiyanın adı ilə bağlayaraq belə bir inam ifadə etdi ki, tezliklə bütün dünya Ermənistanın müstəqillik hüququnu tanıyacaq və Qafqaza sülh gələcəkdir. Əsas məruzəçi Nikal Ağkalyan dedi ki, Müttəfiqlərin müharibəsində onların tərəfində könüllü birləşmələrimizlə iştirakımız Ermənistanı suveren dövlətlər ailəsinə birləşdirmişdir. O, əlavə etdi ki, Daşnaksütyun beynəlmiləl sərhədlər boyu erməni xalqını birləşdirdi və elə şaxələnmiş qüvvəyə çevirdi ki, xalq öz taleyi üçün həmin partiyaya minnətdar olmalıdır. (s. 258)*

Hovanissyanın cavabında qeydə alınmış necə cəzbedici sübutun üzərinə işıq salınmışdır! Bu diktator liderlər hətta öz xalqlarına yalan deməyə cəhd göstərmişdir. Könüllü birləşmələr – məgər bu, başqa Müttəfiqlərin qoşunlarının necə adlanmasından uzaqlaşmaq üçün əla yol deyil?

Liberal sosialistlər partiyanın daxilindəki bu müxtəlif fraksiyalar arasında balans yaratmağa cəhd göstərirdi. "Fərqli mülahizələr arasında barışıq nadir hallarda baş tuturdu, lakin ambisiyalı söz pəhləvanlarının kömək üçün bir-birinə müraciətləri və bütün inciklikləri aradan qaldırılması səs-küysüz ötüşmürdü. Əsasən qərbi Ermənistan döyüşçülərindən ibarət olan ifrat millətçi qanadın əsib-coşması nəticəsində otuz üç punktdan ibarət olan ittihamnamə əvvəllər general Andronikin dəstəsində ştab zabiti olmuş, qurultayın nümayəndəsi olmayan Sinkat (Baroyan) tərəfindən rəyasət heyətinə təqdim edildi. Hər punkt müxtəlif qəzəb işarəsi püskürürdü." (s. 258)

Bəzi punktlar aşağıdakı kimi idi:

- 1915-ci ildə ermənilərin Muş və Bitlisi tərk etməsinin məsuliyyəti kimin üzərindədir?
- 1918-ci ildə cəbhədəki məğlubiyyət üçün?
- Partiya daxilində qan intiqamına və "mauzerizmə" dözümlülük və dövlət rəhbərliyində korrupsiya üçün?
- Hərbi qulluğa çağırışda anti-demokratik hərəkətlər üçün?

• Qərbi Ermənistanın əsgərlərinə, rəsmi şəxslərinə və qaçqınlarına qarşı ayrı-seçkilik üçün?

• Vətənə qayıdışın yubanması üçün?

• Büro üzvlərinin öz səlahiyyət hədlərini aşdığı və dağıdıcı siyasət apardığı, tanınmış qərbi ermənistanlı yoldaşların onlara çatacaq fondlardan bixəbər olduğu və məsuliyyətsiz hərəkətlərə, partiya jurnallarının konflikti və ziddiyyətləri dərinləşdirən məqalələr dərc etdiyi və absurd sosialist təbliğatı apararaq milli azadlıq uğrunda vətənpərvər mübarizəni dağıtdığı bir zamanda partiya nə vaxta kimi lal-kar dayanacaqdır?

• Yenidən doğulmuş Ermənistan partiyanın bir fraksiyasının ata yurdudur və ya bütün erməni xalqının?

Hovanissyan bu sualları aşağıdakı kimi izah edir: "Qurultay bu və digər məsələləri həll etməyənə və həqiqəti pərdələməyə yönəlmiş yarımçıq növbətçi ölçülər götürməyənə və tiraniyanı əbədiləşdirməyənə qədər Ermənistan İnqilabçı Federasiyası öz müqəddəs missiyasını yerinə yetirə bilməyəcəkdir. Şəxsi ambisiyalar və şişirtmələrlə müşaiyət olunmasına baxmayaraq, hər halda ittihamlar çox real məsələlərə toxunurdu." (s. 259)



Ermənilərin bütün diktatorçu hərəkətlərini "özünün müqəddəs missiyası" adlandıran bu erməni tarixçi professoruna hər hansı bir erməni olmayan adam inanarmı? Heç olmazsa, o, 1890-cı ildə yaradılmış və əslində "tiraniyanı əbədiləşdirən" Erməni İnqilabçı Federasiyasını qəbul edir.

Bu sosialist siyasi partiyasının yığıncağı müasir ermənilərin qəlp yolla genosid adlandıraraq pul qopartmaq vasitəsinə çevirdiyi 1915-ci il hadisələrinə münasibət bildirməyə də cəhd göstərmişdir:

*Könüllülər hərəkatı haqqında müzakirələrdə də rasionallıq qeyd olundu. Keçmişə nəzər salınaraq 1914-cü ildə Qafqazda hərbi birləşmələrin yaradılmasının Türkiyənin köçürmə və digər tədbirlərdə tərəddüdlərinə son qoyduğu vurğulandı. Digər tərəfdən, yeni istiqamətvericilər qeyd etdilər ki, həmin hərəkat fanatik pan-turançılara və İktihadistlərin erməniyönümlü doktrinasına yönəldilmiş qarşısıalınmaz cavab olaraq erməni milli ideallarına müvafiq manifestasiya*



*idi və Daşnaksütyun onu nəzərə almaya bilməzdi. Böyük əksəriyyət bu son mövqeyi əsas tutaraq bəyan etdi ki, "erməni bədbəxtliklərinin birbaşa könüllülər əsas hərəkatının nəticəsi olması haqqında fikirləri qətiyyətlə rədd etmək lazımdır və əksinə, həmin hərəkata erməni xalqının tarixi özünümüdafiə epizodu və öz siyasi azadlığının çağırışı kimi münasibət bəslənməlidir. (s. 259)*

1890-cı ildən fəaliyyətə başlayan terrorçu təşkilat indi onların öz xeyir-duası ilə Osmanlılarla döyüşən "könüllü" qoşunları adlandı. Ermənilər öz davranışlarına "özünümüdafiə" adı qoydular. Quldur diktator siyasətçilərdən daha nə gözləmək olardı ki? Onların əməllərinin əsl adı satqınlıq və xainlikdir!

Hər bir siyasi yığıncaqda olduğu kimi burada da ermənilər qərarlar qəbul etdilər. 1919-cu ildə qəbul olunmuş həmin qərarlardan biri illərin üzərindən aşaraq bizə çatmış və bu gün bütün dünyada hay-küyə səbəb olmuşdur:



*...Qarabağ və Zəngəzur üzrə ayrıca qərara ehtiyac vardır ki, "müstəqil və birləşmiş Ermənistanın ayrılmaz sektoru" olan bu əraziyə respublikanın daimi nəzarətini təmin etsin. Osmanlı İmperiyasına qarşı Müttəfiqlərin kəskin münasibətini gözləyən qurultay Türkiyə hökuməti ilə hər hansı dipomatik əlaqələrin qurulmasına ehtiyac bilmədi; nəhayət, Koriun Xaqazyanın Milli (Nasionalist) hərəkatın doğurduğu təhlükə haqqında izahından sonra qurultay Büronu Türkiyə, Azərbaycan və Gürcüstandan gələn milli ədavətlərin qarşısını almaq üçün konkret addımlar atmağa çağırdı. (s. 262)*

Diktator partiyanın 1919-cu ildə Qarabağla bağlı qəbul etdiyi qərar bu gün də qüvvədədir və davam edir. Konqresin hesabatına görə (Bax: Karol Miqdalovitz. "Ermənistan-Azərbaycan konflikti", IB92109, 7 iyun 2001, Xarici İşlər, Müdafiə və Ticarət departamentləri), 1992-ci ildə Rusiyanın 1 milyard dollarlıq hərbi sursatının köməyi ilə Ermənistan bu əraziyə soxuldu və Azərbaycanın 20 faizini işğal edərək silah gücünə 1 milyondan artıq müsəlmanı öldürdü və doğma yurdundan didərgin saldı. Nə üçün Birləşmiş Ştatlar həm Azərbaycana işğalçı hücumu, həm də orada etnik təmizlənməni

həyata keçirən Ermənistan liderlərini 1.4 milyard dollarla mükafatlandırır?

1992-ci ildən 2001-ci ilədək Birləşmiş Ştatlar hökuməti bu torpaq qamarlayan quldurlara 1.4 milyard dollardan artıq xarici yardım pulu vermişdir – adambaşına hesablansa, güman ki, dünyanın hər hansı xalqından daha çox! Eyni zamanda, Azərbaycan özünü müdafiə etməyə başlayanda Birləşmiş Ştatlar ona xarici yardımı xeyli azaltmışdır. Niyə? Ermənilərin Birləşmiş Ştatlardakı siyasi-pul lobbisinin ucbatından!

Ermənialrin digər bir "əhval" problemi isə budur ki, onlar 1919-cu ildə öz qonşuları ilə diplomatik əlaqələr yaratmaqdan imtina etmişlər. Və həmin bu ermənilər özlərini yer üzünün birinci xristianları adlandırmaqda davam edirlər! Bəlkə də 1890-cı ildə Erməni İnqilabçı diktator partiyası yaranandan bəri onların Osmanlılara qarşı həyata keçirdikləri satqınlıq və xainlik ucbatından erməni şüuru erməniləri incidir? Onlar Osmanlılara qarşı riyakar mövqe tutanda özlərini "ermənilər" adlandıran bu diktatorlar digər hər bir adamdan xoş rəftar tələb edirdi. Onlar başqa birisinin torpaqlarına sahib çıxmaq istəyirdilər. Onlar dünyanın hər bir xristian ölkəsindən nağd pul və sədəqə diləyirdilər.



1918-ci ildən başlayaraq bütün dünyanın xristian ölkələrində ermənilərin muzdlu agentləri var idi. 1919-cu ildə onlar Türkiyə, Azərbaycan və Gürcüstan arasındakı dostluq əlaqələrinə rəxnə salmağa cəhd göstərdilər. Yeri gəldikcə oxucu xatırlayacaq ki, bu diktatorlar hirs-hikkə içində çığır-bağır salaraq onların torpaq qamarlamaq cəhdlərinə xarici müdaxilə haqqında əhvalatlar uydururdular. Yox, əgər onlar bunu digər ölkələrdə edirsə, onda hər şey öz qaydasındadır.

Qurultayda daxili işlərə aid erməni qərarı da var idi.

*Orada qeyd olunurdu ki, fiziki təhlükəsizliyin və əməkçi kütlələrin siyasi yetkinliyinin təmini üçün milli müstəqillik yeganə yoldur, türk-azərbaycanlı bəylərin və ağaların əks-inqilabçı ünsürləri ermənilərin məhvinə çalışır. Mədəni geriliyi və sinfi şüurunun inkişaf etmədiyi ucbatından işləyən tatar ünsürlər bəy və ağaların əllərində səfeh destruktiv alətlərə çevrilmişlər. Bu vəziyyəti aradan qaldırmaq*



*üçün Ermənistan Şərq xalqları arasında irqlərarası harmoniya, sinfi qarşıdurma və maarifçi beynəlmiləlçilik konsepsiyalarını artırmalıdır. Erməni İnqilabçı Federasiyasının doqquzuncu qurultayı aşağıdakı addımların atılmasını lazım bildi: partiya proqramında irəli sürülən sosial islahatları imkan dairəsində sürətlə həyata keçirmək; mənşəyindən və hansı növ müdafiə olunmasından asılı olmayaraq hər cür reaksioner və hökumət əleyhinə yönəlmiş hərəkatların kökünü kəsmək; bütün millətlərdən olan fəhlə və kəndliləri istismarçı siniflərə qarşı ümumi sinfi mübarizəyə gətirmək... (s. 262)*

Lap kommunizmə bənzəyən çağırışlardır! Məgər təəccüblənməyə dəyər ki, bir neçə aydan sonra Ermənistan tutulanda erməni xristian diktatorları cınqırını da çıxarmadı? Bu sözlərin yazılmasından bir neçə ay qabaq Ermənistanın Kommunist Partiyası əhalisi 2.7 milyon olan ölkənin 1 milyon nəfərdən çoxunun imzaladığı müraciəti öz hökumətinə tədim etdi. Orada Ermənistanın yenidən Rusiyanın bir hissəsinə çevrilməsi xahiş olunurdu. Bunu da qeyd etmək lazımdır ki, son on il ərzində 1 milyondan çox erməni öz ölkəsindən getmişdir. Əgər bu axın davam edəcəksə, iyirmi beş ildən sonra bu cırtdan ölkədə bir nəfər də erməni qalmayacaqdır!



Paris Sülh Konfransında ermənilərin Müttəfiqlərdən etdiyi tələblər arasında bir əsas çatışmazlıq var idi. Ermənilər konfrans stolları arxasında bərabərhüquqlu yer tələb edirdilər. Müttəfiqlərin qarşılaşdığı yeganə problem isə kiminlə oturmağı müəyyən etmək idi, çünki Parisdə öz ölkələri adından müxtəlif tələblərlə çıxış edən iki müxtəlif erməni qrupu var idi və qrupun hər biri konfransda eyni yeri tələb edirdi.

Bü vəziyyəti Hovanissyan belə izah edir: "Parisdə iki erməni nümayəndə heyətinin iştirakı ölkənin uzun əsrlər boyu ayrılıqda mövcud olması ilə izah edilə bilsə də, buradakı ikilik qrupçuluqla bağlı idi və aradan qaldırıla bilərdi. Qərbi ermənistanlıların çoxunun müstəqillik yolunun Rusiya Ermənistanından asılı olduğunu iddia etməsi məsələni çətinləşdirirdi. Axı Türkiyə Ermənistanı təxminən yarım əsr ərzində azadlıq hərəkatının mərkəzi olmuşdu." (s. 277)

Adi dilə tərcümə olunarsa, Hovanissyan deyir ki, təxminən əlli il ərzində ermənilər Osmanlı hökumətini yıxmağa planlar cızır, fəaliy-

yət göstərirdi. Bu o deməkdir ki, ermənilər 1869-cu ildən başlayaraq uzun müddət sülh şəraitində yaşadıqları hökumətə qarşı satqınlıq və xainlik yolunu tutmuşdular. Bu, 1890-cı ildə diktatorların Erməni İnqilabçı Federasiyasını dünyaya gətirməsindən iyirmi bir il əvvələ gedib çıxır.

*Ermənistanda diktator hakimiyyəti qamarlamaq istəyən iki müxtəiif fraksiya var idi. Hakimiyyət uğrunda mübarizə partiyanın qurultayı ərzində də davam etdi. Son iclas noyabrın 16-na təyin edilmişdi. Hər iki tərəf yaxşı bilirdi ki, razılığın əldə olunmaması son nəticədə xaricdəki birliklərin fikir ayrılığına səbəb olacaqdır, buna baxmayaraq, heç biri güzəştə getmək istəmirdi. Vahan Tekeyan bəyan etdi ki, Milli Nümayəndə Heyətinin planının xoşagəlməz surətdə qarşılanması danışıqları kəsməkdən başqa heç bir alternativ üçün yer qoymur. Qoy növbəti addımın nədən ibarət olacağına Milli Nümayəndə Heyəti qərar versin. Simon Vratziyan əsəbi tərzdə məlumat verdi ki, bu tərəfin irəli sürdüyü əks təkliflər və güzəştlər Milli Nümayəndə Heyətini qane etmədi. İclaslar azad, birləşmiş və müstəqil Ermənistan uğrunda birgə mübarizəyə heç bir maneə olmayacağını əks etdirən qarşılıqlı ümid ifadəsi ilə təxirə salındı. (s. 277)*



Buna baxmayaraq, bütün diktator dövlətlərdə olduğu kimi, adi sözlər bu "xristian" erməni quldurlarını razı salmazdı.

*Birləşmiş hökumət yaratmaq bir yana, danışıqlar daha çox inamsızlıq və qarmaqarışıqlıq yaratdı. Noyabrın 24-də İrəvanı tərk etməzdən qabaq Tekeyan və Ter-Stepanyan açıq bəyanatla çıxış edərək öz qəzəb və ümidsizliklərini göstərdilər, eyni zamanda Milli Nümayəndə Heyətinin birlik axtarışlarının davam edəcəyinə söz verdilər. Digər tərəfdən, Vratziyan Amerikadakı daşnakçı mərkəzi komitəyə yazdı ki, sülh konfransında uğursuzluq qarşılıqlı ittihamlara səbəb olacaqdır və o öz yoldaşlarına "heç bir vəchlə iştirak etməməyə və ya fövqəladə dərəcədə ehtiyatla və səbrlə bu kampaniyada iştirak etməyi" tövsiyə edirdi. Əgər hücumlar eybəcər xarakter alacaqdısa, konfrans sənədlərinin şərhsiz dərc edilməsi ən effektli*



*cavab olardı. Vratziyan davam edirdi ki, ermənilərin özlərinin birləşmiş olduqlarını dünyaya nümayiş etdirə bilməməsi xəcalətverici haldır. (s. 278)*

Özlərini xristian erməniləri adlandıran bu quldurlar dəstəsi "Amerikadakı Mərkəzi Komitə" vasitəsilə nə edirdilər? Ümumiyyətlə, bu komitə nə ilə məşğul idi və onların haqqını kim ödəyirdi?

Ermənilərin amerikan qəbilli olmayan davranışına heç kim heç vaxt mane olmamışdır, onları necə varlarsa, elə də qəbul etmişlər – başqa xalqların torpaqlarına göz dikən və özlərini İisus Xristin qanına bələyərək həmin torpaqları qamarlayan, xristian olmayan quldur-terrorçular kimi!

"Ermənistan daxilində fikir ayrılığı haqqında qorxu əsassız deyildi. Tekeyanın və Ter-Stepanyanın Poğos Nubara məlumat verməsindən az sonra Ramkavar mətbuatı hakimiyyətə susayan Daşnaksütyunu və Parisdəki daşnakçı məruzəçini riyakarlıqda kəskin şəkildə ittiham etdi. Üzdə birliyə çağıran daşnakçılar İrəvandakı danışıqların altına məxfi surətdə mina basdırırdılar." (s. 278)

Bu, diktator hökumətin onunla münasibətdə olan hər bir kəsə, hətta öz partiya üzvlərinə qarşı riyakarlığına sübutdur.

## ON ÜÇÜNCÜ FƏSİL

# MUZDLU ERMƏNİ AGENTLƏRİ BİRLƏŞMİŞ ŞTATLARDA İCTİMAİ FİKİR FORMALAŞDIRIR

### AMERİKALI ŞAHİDLƏR SÜBUT EDİRLƏR Kİ, TÜRKLƏR ERMƏNİLƏRƏ QARŞI QIRĞIN VƏ YA GENOSİD TÖRƏTMƏMİŞDİR



Bu, belə olmalı idi, çünki erməni liderləri Birləşmiş Ştatlara o qədər çox agent göndərmiş və o qədər çox pul sərf etmişdir ki, onlar Amerikanın Ermənistana kreditlər, milyonlarla dollar və nizami qoşunlar verəcəyinə inanmışdır. Bu quldur rejiminin nə üçün belə düşündüyünə Hovanissyan cavab verməyə çalışır.

"Dünya Müharibəsinin axırında ermənilərin əksəri Birləşmiş Ştatların onların azadlıq və quruculuq prosesinin qarantına çevriləcəyinə inanırdı. Bu inam Amerika ictimaiyyətinin uzunmüddətli rəğbətinə, Konqresdəki partizansayağı müdafiəyə və Uodrou Uilsonun Ermənistanın müdafiəsinin "sivilizasiyanın müqəddəs etibarı" olması haqqında möhkəm əqidəsinə əsaslanırdı. Lakin müasir amerikanlar tərəfindən müdafiə olunmasına baxmayaraq, ABŞ prezidenti Paris Sülh Konfansına möhkəm təzyiq göstərməyə qadir olmadı." (1)

"Onların azadlıq və quruculuğunun qarantı!" Hovanissyanın işlətdiyi bu kod-sözlər real dünya dilinə tərcümə ediləndə bu mənanı verir: Birləşmiş Ştatlar qoşunlarını gətirərək amerikanları ziyana salır, ermənilərin bütün xərclərini öz üzərinə götürür və erməni liderlərinə deyilməmiş dərəcədə çox milyonlarla dollar verir ki, sadəcə bu quldurlar xəyallarında yuxu kimi yaşatdıqları dənizdən dənizə olan qonşu torpaqlarını tutmağı reallığa çevirə bilsinlər.



Bəzi amerikanların kömək üçün onlara təklif etdiyi yolları ermənilər bəyənmədilər. Bu təklif yaxşı nümunə idi:

*Osmanlı İmperiyası üzrə məsələnin həllinin Amerika mandatı Yaxın Şərq ölkələrində zəngin təcrübəsi olan missionerlər, diplomatlar və iş adamlarından istifadə üzərində qurulmuşdu. Çox güman ki, bu qrup üçün ən münasib başçı Robert Kollecinin prezidenti Kaleb F. Qeyts ola bilərdi. O, xəbərdarlıq etmişdi ki, müstəqil Ermənistan ölkəsinin yaradılması siyasi və iqtisadi nöqteyi-nəzərdən ziyanlı olardı. Bu istiqamətdə danışıqlar həm türkləri, həm də əvvəlki qırğınlardan sağ qalanları ayağa qaldırmış olardı. Özünü idarə etməyə hələ hazır olmayan hər cür irqi və dini elementləri aradan götürmək çox vacibdir. Osmanlı İmperiyası üzərində Amerika nəzarəti həyata keçirilsəydi, ermənilər sağ-salamat öz yerlərinə qayıdar və şərq vilayətlərində kifayət qədər erməni yenidən yerləşdiriləndən sonra onlara "daxili qanunlar" yaratmaq dərəcəsinin təminatı verilərdi. İmperiyanın ərazi bütövlüyünü qorumaq yolunda Amerikanın nəzarətini qəbul edən Türk Uilson Liqasını K.Qeyts fəal surətdə alqışlayırdı. Hətta 1917-ci ildə türk-amerikan diplomatik əlaqələri kəsiləndən sonra da Türkiyə Robert Kollecini bağlamayaraq Amerikaya inamını ifadə etmişdi. (s. 317)*



Bu, təbii görünməzdi, çünki I Dünya Müharibəsi ərzində Birləşmiş Ştatlar heç vaxt Osmanlı İmperiyasına müharibə elan etməmişdi. Bu dövrdə soyuqqanlı amerikanlar tərəfindən müxtəlif üsullarla dəfələrlə soruşulan sual isə belə idi: "Birləşmiş Ştatlar nə üçün qoşunlarını gətirərək hansı müddətə verilməsi bilinməyən tərzdə erməni borclarını ödəməli, ermənilərin arzusunda olduğu Osmanlı müsəlmanlarının torpaqlarını ermənilərə verməli və onları türklərdən qorumalıdır?"

Eyni zamanda muzdlu erməni agentləri Birləşmiş Ştatlarda gərgin iş apararaq amerikanların ictimai fikrini formalaşdırırdı.

*Birləşmiş Ştatlarda fəaliyyət göstərən Ermənistanın Müstəqilliyi üçün Amerika Komitəsi, Erməni Mətbuat Bürosu və Erməni Milli*

*Birliyi K. Qeytsin motivlərini yıxıb-sürüyürdülər. Dövlət Departamenti və Sülh Konfransı yüzlərlə teleqram və bəyanat alırdı. Otuz ştat qubernatorunun imzaladığı sənədlərdən birində bütün Ermənistana dərhal müstəqillik verilməsi xahiş olunurdu. "Nyu-York Tayms" qəzeti Qeytsin təkliflərini əxlaqsızlıq adlandırdı, Rabbi Stiven S. Uays isə Osmanlı İmperiyasının saxlanması üçün Robert Kollecini danışıqlarda işlətməyi nəzərdə tutan amerikan missionerliyinə və təhsil idarəsinə təəccübünü bildirdi: "Bizim erməni xalqı qarşısında öhdəliyimizlə bir araya sığmadığına görə mən doktor Qeytsin məsləhətini qəbuledilməz sayıram. Erməni xalqı təbii olaraq doktor Qeytsə və onun kimi düşünənlərə deyə bilər ki, bu adamlar bizi öz dostlarımızdan ayırır." Türk zülmünə güzəştə getməkdənsə Robert Kollecinin qapılarını bağlamaq daha yaxşı olardı.*

*Amerikanın həvəsləndirici təhsilindən və qərbşünaslıqdan şərəf duyan erməni protestant liderləri Qeytsin bəyanatlarından peşmançılıq keçirirdilər. İyunun 5-də Klivləndin H.Doc ofisində onunla görüşən Erməni Yevangel Birliyinin nümayəndələri soruşurdular ki, türk vəhşiliklərindən tamamilə xəbərdar olan Qeyts necə ola bilər ki, iki irqin davamlı birgəyaşayışını təklif edir? Qeyts türkləri müdafiə etdiyini və ya gələcək Ermənistan ölkəsinin mümkünlüyünə şübhələndiyini inkar etdi. Lakin o, belə bir dərin inamını ifadə etdi ki, Anadolunun yarısına olan şişirdilmiş erməni iddiaları yeni qırğınlarla nəticələnəcəkdir. Yalnız bütün imperiya üzərində Amerikanın protektoratlığı nəticəsində ermənilər nəzərdə tutulan ərazidə özünüidarəyə yönəlmiş inkişafa ümid bəsləyə bilərlər. Xarici Missiyalar üzrə Amerika Sərhəd Komissarlığının Ermənistanın müstəqilliyinə əngəl törətməsi faktı da erməni protestantlarının peşimançılığını artırmışdı. (s. 318-319)*

Amerikanın Xarici Missiyalar Palatası "həmin siyasi fəaliyyətin onun sərhədlərindən kənarda yerləşdiyini" xoş məram kimi təlqin edirdi. (s. 319) Digər Amerika dini qruplarının şişirdilmiş erməni iddialarına meyl etməkdənsə, məsələyə eyni münasibət bəsləməməsi çox pis idi.

Öz mövqeyində inad edən digər qüdrətli səs isə təchizat admiralı Mark L. Bristola məxsus idi. "Yaxın Şərqdə Amerika iqtisadi maraqlarının fəal müdafiəçisi kimi və Avropa qüvvələrinin ərazini tərk edərək Birləşmiş Ştatların Ermənistanda "pul kisəsi" vəzifəsində saxlanmasına ehtiyatla yanaşan admiral Bristol Osmanlı torpağının bölünməsini və Ermənistanın müstəqilliyini qətiyyətlə rədd edirdi." (s. 317-318)





Hər cür əlavə sözü kənara qoyaraq yalnız əsas faktın özünə nəzər salın: Bristol və Qeyts Osmanlı İmperiyasında fəaliyyət göstərir və öz gözləri ilə görürdülər ki, Ermənistan nə ölkə olmaq üçün, nə də daha artıq dərəcədə xalq olmaq üçün hazır deyil.

1920-ci il martın 20-də prezident Uodrou Uilson "Müttəfiqlərin kəşfiyyat missiyasının Yaxın Şərqdə təsir dairələrinə" nəzər salmasını təklif etdi. (s. 322) İki nəfərin rəhbərlik etdiyinə görə bu missiya Kinq-Kreyn Komissiyası adını aldı. "Oberlin Kollecinin prezidenti Henri S. Kinq və Uilsonun sənayeçi dostu və Robert Kollecinin etibarlı nümayəndəsi Çarlz R. Kreyn." (s. 323)

Bu komissiya çoxsaylı məsələləri araşdırdı. Baxılan məsələlərdən biri Fələstində Yəhudi evi haqqında mülahizələr idi.

İstanbulda xeyli vaxt sərf edən komissiya həm türk, həm də erməni nöqteyi-nəzərlərini dinlədi. "Türk qəzetləri siyasətçilərin bacarıqsızlığını tənqid edir və yenə də erməniləri satqınçılıqda və terrorizmdə, siyasi və iqtisadi zorakılıqda, Türkiyəni dünya xəritəsindən silmək üçün beynəlxalq meydandakı iştirakda ittiham edirdi". (s. 326)

Həm erməni, həm də türk tərəfi bir-birindən fərqli münasibətlər təqdim etdi və həmişə olduğu kimi ermənilər "Qara və Aralıq dənizlərində limanları olacaq yenidən qurulmuş ölkə uğrunda mübahisələr açırdılar..." (s. 323)

""...Çoxsaylı insanlara çox böyük yaxşılıq" etmək üçün "böyük nöqteyi-nəzəri" müzakirəyə çıxaran admiral Bristol britaniyalılara, ermənilərə və yunanlara nifrətinə son qoya bilmirdi." (s. 328)

"Uzun müddət Oberlin missioneri olmuş və Sivasda müəllim işləmiş Meri Luiz Qrəffəm qədər alovlu surətdə Ermənistanın müstəqilliyini müdafiə edən ikinci adam olmamışdır." (s. 328) Heç şübhə ola bilməz ki, xanım Qrəffəm öz tələbələrinə sadiq olan ləyaqətli qadın idi. Lakin bütün vəziyyət haqqında onun hərtərəfli biliyi yox idi, habelə o, dini və siyasəti birləşdirən biznes adamı da deyildi.

Kinq-Kreyn Komissiyasının qarşısında dayanan çaşmış, lakin

xoş məramlı olan digər şəxs isə Marsovanda Anadolu Kollecinin prezidenti doktor Corc E. Uayt idi. Doktor Uayt bəyan edirdi ki, "türk hökumətində "insanın həyatı, qadın ləyaqəti, uşaq rifahı, sakinin varlanması və ya atanın hüquqları üçün real təminat yoxdur". Ermənistan Amerikanın himayəsi altında dərhal müstəqilliyə nail olmalıdır; məsələnin təxirə salınması çox dəhşətli ola bilər, çünki Mustafa Kamal türkləri "qan tökməyə, talançılığa və müharibəyə" təhrik edir." (s. 329)

Doktor Uaytın bəyanatı haqqında düşünün: "Ermənistan Amerikanın himayəsi altında dərhal müstəqilliyə nail olmalıdır, çünki "Mustafa Kamal türkləri "qan tökməyə, talançılığa və müharibəyə" təhrik etdiyi üçün məsələnin təxirə salınması çox dəhşətli ola bilər." "Savadlı" centlmenin bu bəyanatı hər hansı bir adamın haçansa etdiyi ən pis şərh kimi tarixə düşəcəkdi. Mustafa Kamal öz xalqını xilas etdi və böyük müstəqil dövlət yaratdı; doğrudan da o, iyirminci əsrin ən böyük şəxsiyyətlərindən biridir. Məqsədinə çatması və öz xalqına, xüsusilə onun kasıblar-kasıbına kömək etməsi istiqamətindəki islahatları bütün dünya üçün model ola bilər. O, azad seçilmiş parlamentin onu Atatürk – Türkiyənin Atası adlandırması şərəfinə həqiqətən layiqdir. İyirminci əsrdə heç bir başqa lider xidmətlərinə görə öz xalqı tərəfindən belə şərəf və hörmətə layiq görülməmişdir. Əsl hərbi qəhrəman olan bu Atatürk heç bir döyüşdə məğlub olmamış, "vətəndə sülh və dünyada sülh"ü müdafiə edən dövlət xadiminə çevrilmişdir.

Kinq-Kreyn Komissiyası təsis ediləndən düz beş ay sonra, avqustun 28-də öz hesabatını çapdan buraxdı. Komissiya Fələstin, Suriya, Mesopotamiya və Osmanlı İmperiyası ilə bağlı təkliflərini verdi. Türklərlə bağlı olaraq komissiya bəyan etdi: "Yaxın Şərqə stabillik və dünyaya sülh gətirmək üçün Avropa dövlətləri Osmanlı İmperiyasını parçalamaq və istismar etmək yolundan çəkinməlidir; Anadolu toxunulmaz şəkildə Türkiyənin tərkibində qalmalıdır.

"Erməni azlığının müsəlman çoxluğu üzərində rəhbərliyinə Kinq və Kreyn barmaqarası baxmaq istəmir, erməni ərazi iddiaları daha çox "imperialist" səciyyə daşıyır və faktların saxta şərhinə əsaslanır. Qədim dövrlərdə qısa bir zaman kəsiyindən savay Kilikiyadan Qafqaza qədər olan torpaqlar heç vaxt ermənilərə məxsus olmamışdır." (s. 331-332)





Məsələ burasındadır! Ermənistan Türkiyəsi və erməni yaylası kimi iddialarda israr etmək ermənilərin arzu dolu xəyallarının üzərində qurulmuş boş sözlərdən başqa bir şey deyildir. Ağlı başında olan hər hansı bir adam erməni hərəkətlərini müdafiə edə bilərmi? Osmanlılara qarşı əvvəlcə satqınlıq mövqeyi tutmaq və azlıqda qalan xalq olduğu üçün inqilaba başlamaq, sonra isə müsəlmanlara ağalıq etmək üçün xarici dövlətdən onu müdafiə etməyi istəyən ermənini kim müdafiə edər?

Kinq-Kreyn hesabatı davam edərək yazırdı ki, Ermənistanın torpağı olmalıdır və "ona görə də yeni ölkə Rusiya Ermənistanının əyalətlərində və Trabzon, Ərzurum, Bitlis və Van vilayətlərinin təxminən 1916-1917-ci ildə rus qoşunlarının işğal etdiyi hissələrində hüdudlanmalıdır." (s. 332) Müharibə illərində Osmanlı İmperiyası torpaqlarının rus qoşunları tərəfindən qısa müddətə işğal edilməsinin nə üçün komissiyanın sənədinə daxil olunmasını Hovanissyan şərh etmir. Ermənilərin iddia etdiyi torpaqların onlara verilməməsini nə üçün tövsiyə etdiyini də komissiya izah edirdi: "Bütün bunlar onlara xəyali deyil, real imkanlar verilməsi haqqında ermənilərin nəzərdə tutduğu əsas maraqla uyğun gəlmir. Erməni lap çox qamarlamaq və hər şeyi itirmək dahiyanə təhlükəsi deməkdir." (s. 332)

Bu, tarixin ən böyük təsdiqlərindən biri olmalıdır. Buna baxmayaraq, erməni liderləri Amerika qoşunlarının köməyi ilə dənizdən dənizə başqasının torpağının tələbində təzyiqi davam etdirirlər. Xərci isə Amerikanın vergi verənləri ödəməlidir.

Ermənistanla bağlı olaraq Amerikanın daha iki rəsmi kəşfiyyat sənədi var idi. Birinci səfər Birləşmiş Ştatların ordu kapitanı Emori Naylz və Artur Sazerlənd tərəfindən edilmişdi.

### *Naylz-Sazerlənd hesabatı*

I Dünya Müharibəsinin axırlarında erməni liderləri bütün xristian xalqları qarşısında hay-küy qaldıraraq onların gəlməsini və erməniləri "qorxulu türkdən" xilas etməsini istəyirdi. Onların guya türklər tərəfindən qırılması və pis davranışa məruz qalması haqqında ermənilər xeyli əhvalat uydurmuşdu.

Birləşmiş Ştatlar hökuməti erməni qara-qışqırığını təhqiq edərək ordu kapitanı Emori Nayls və mülki vətəndaş Artur Sazerləndi şərqi

Anadoluya göndərdi. Bu iki adama vəziyyəti öyrənmək və aktual faktlar əldə etmək tapşırılmışdı. Naylz-Sazerlənd Hesabatı Yaxın Şərqə Kömək üzrə Amerika Komitəsinin (ACNRE, və daha çox "Yaxın Şərq Köməyi" kimi tanınan) maliyyə yardımı fəaliyyətində əsas sənədinə çevriləcəkdi.

Naylz və Sazerlənd regionu başdan-başa gəzərək etnik və ya dini aidliyindən asılı olmayaraq gördüklərini və eşitdiklərini qələmə alırdılar. Bu iki adam türk müsəlmanlarının, habelə xristian ermənilərinin dəhşətli vəziyyəti haqqında qərar verdi. Onlar şahid oldular ki, əzab çəkənlərin böyük əksəriyyəti müsəlmanlardır.

Görəsən bu hesabat nə üçün gizlədilmiş və sonrakı Amerika təhqiqat komissiyaları tərəfindən işlənməmişdir? Nə üçün Birləşmiş Ştatların arxivlərindən həmin hesabatın natamam bir nüsxəsi bu gün tapılır? Həmin nüsxə isə "tamamilə müxtəlif mövzulara aid olan sənədlər arasında ustalıqla gizlədilmişdir, xoşbəxtlikdən, məhv edilməmiş, yalnız basdırılmışdır". (2)

Müşahidələrinə və qaldırdığı suallara görə MakKartinin kitabının 252-ci səhifəsinin sonundakı qeydlər böyük maraq doğurur. (3) "Harbord və Kinq-Kreyn Komissiyasının hesabatları kimi digər hesabatlar da yəqin ki, yaxşı reklam edilmişdi. Məntiqə görə, Naylz və Sazerləndin bəyanatları bütünlüklə Harbord Hesabatlarına daxil edilməli idi, lakin edilməmişdi. Adam özünü inanmaqdan saxlaya bilmir ki, onların şahidliyi hakimiyyyətdə olanların eşitmək istədiyi ilə düz gəlmirdi. General Harbord öz hesabatında qeyd etmişdir ki, kapitan Naylz şərqi Anadoluda Harbord Komissiyasının görmədiyi ərazilərə baş çəkmiş, lakin Harbord Naylzın yazdıqları haqqında heç nə təqdim etməmişdir. Həm Harbordun, həm də Kinq-Kreynin hesabatları, əraziyə baş çəkilməsə də, Van və Bitlis kimi vilayətlərdə vəziyyəti bütün təfərrüatı ilə təsvir edir. Türk nöqteyi-nəzərindən və ya şahid ifadələrindən istifadəyə çox az cəhd göstərilmişdir. Əlbəttə ki, Harbord Komissiyası yalnız erməni mövqeyini şərh edirdi, ona görə də dəqiq hesabatda türklərin düşündükləri ilə oxşarlıq sırf təsadüfi xarakter daşıyırdı."

Naylz və Sazerləndin hesabat hazırlamaq üsulu sadəcə öz gördüklərini heç bir izahsız qələmə almaq idi. Onlar şərqi Anadolunun dərinliklərinə üz tutduqca öz hesabat hazırlamaq üsulunu dəyiş-





dilər və müsəlman türklərlə xristian ermənilərə münasibətdə tipik Qərbi xristian adlanan mövqedən çıxış etməyə başladılar.

Naylz və Sazerləndin tapıntılarına diqqət yetirin:

*Bu geniş ərazidə [Vandan keçərək Bitlisdən Bəyazitə] bizə məlumat verildi ki, ziyan və dağıntıları ermənilər törətmişdir. Rus ordusu geri çəkiləndən sonra ölkədə işğal altında qalmış, Türkiyə Ordusu hücuma keçəndə isə müsəlmanlara məxsus olan hər şeyi ermənilər dağıtmışlar. Bundan başqa, hər bir izahatda ermənilər müsəlman əhaliyə qarşı törətdikləri qətl, zorlama, yanğın və dəhşətli vəhşiliklərdə ittiham olunurlar. Əvvəllər biz bu söhbətlərə çox da inanmırdıq, lakin nəhayət biz onlara inanmalı olduq, çünki şahidlik tamamilə anonim aparılır və maddi dəlillərlə sübuta yetirilirdi. Məsələn, gördüyümüz kilsələrə və evlər üzərindəki naxışlara görə belə qənaətə gəldik ki, Bitlis və Van şəhərlərində yeganə salamat qalan yerlər erməni məhəllələridir, müsəlman məhəllələri isə tamamilə dağıdılmışdır. Ermənilərin olduğu deyilən kəndlər indi də yerindədir, lakin müsəlman kəndləri tamamilə dağıdılmışdır. (4)*

Naylz və Sazerlənd yekun vururdular: "Biz inanırıq ki, ermənilər türklərin ermənilər əleyhinə olduğundan daha çox cinayətlərdə günahkardırlar." MakKarti qeyd edir: "Əlbəttə, fərq burasındadır ki, onlar erməni cinayətlərinin sübutlarını öz gözləri ilə görmüş, türklərinkini isə yox – ittihamın biri şahidliyə əsaslanır, digəri isə şaiyələrə. Məhz buna görə də onların faktiki olaraq nə gördükləri daha inandırıcıdır, özləri istəməsə də onlar ermənilər tərəfindən həyata keçirilmiş şeytan əməlləri haqqında hesabat vermişlər." (5)

Naylz-Sazerləndin Hesabatını oxuyandan sonra anlayırsan ki, ermənilər öz son qiyamlarına başlayandan sonra vaxtilə çiçəklənən bu ərazi necə də xarabazara çevrilmişdir. Ərazini dolaşdıqca Naylz və Sazerlənd görürdülər ki, taxıl zəmiləri, evlər və insan həyatları necə alt-üst edilmişdir. Türk ordusunun gəlişindən qabaq qaçıb getmiş ermənilərdən bir az sonra amerikanlar müsəlmanları görmüşlər. Xristian ermənilərinin öz qonşularının başına gətirdiklərini görmək dözülməz idi.

Türklər erməniləri Anadoludan qovandan sonra Naylz və Sazer-

lənd görürdülər ki, qaçıb gedən ermənilər yoliarı üstündəki bütün müsəlman şəhər və kəndlərini xarabalığa çevirmişlər. Güman ki, Naylz və Sazerləndin əldə etdiyi ən tutarlı şahidlik faktı erməni qiyamlarından qabaqkı Anadoluda yaşamış müsəlmanlar və ermənilər Anadoludan qaçıb gedəndən sonra sağ qalmış müsəlmanlar idi. Məsələn, Van və Bitlisdə müsəlman əhalinin yalnız təxminən 10 faizi sağ qalmışdı. Demək olar ki, müsəlman ictimai binalarının və ibadət yerlərinin hamısı məhv edilmişdi. Naylz və Sazerlənd erməni nəzarəti altında olmuş hara baş çəkirdilərsə eyni vəziyyətlə üzləşirdilər. Bunun əksinə olaraq erməni kəndləri toxunulmaz qalmışdı.

Bu Amerika hesabatının yekununda deyilir: "...Torpağın üzərində olan maddi dəlillər bizi belə bir ümuml faktlar həqiqətinə gətirib çıxardı ki, birincisi, ermənilər xüsusi qəddarlıqla geniş masştabda müsəlmanları qırmış, və ikincisi, şəhərlərə və kəndlərə dəymiş əksər dağıntı üçün məsuliyyəti ermənilər daşıyır... Nəticədə əvvəlki əhalisinin təxminən dörddə biri sağ qalmış ölkə tamamilə dağıdılmışdır." (6)



Tarixçi Castin MakKarti nəticə vurur: "Otuz İllik Müharibə və Qara Ölüm kimi dünya tarixinə böyük qurbanlar verilmiş hadisələrdən biri də bu qırğındır. Əlbəttə, ölənlər təkcə müsəlmanlar deyildi. Ermənilərin ölüm hadisəsi də az deyildi və erməni itgilərinin üzərindən də sükutla keçmək olmaz. Lakin dünya erməni əzabları haqqında çoxdan bəri xəbərdardır. İndi isə dünyaya şərqdəki müsəlman əzabları və onun necə dəhşətli olması haqqında car çəkməyin vaxtı çatmışdır... Təəccüblü dərəcədə çoxsaylı müsəlmanlar ya öldürülmüş, ya da aclıq və xəstəlikdən qırılmışdır." (7)

### Harbordun hesabatı

Ermənistanda Amerikanın ikinci təhqiqatı da olmuşdur. "General-mayor Ceyms G. Harbord tərəfindən başçılıq edilən Ermənistanda Amerikan Hərbi Missiyası 1919-cu ilin iyununda Henri Morgentauzun təşəbbüsü ilə yaradıldı və Türkiyə-Ermənistanı qaçqınlarının geri köçürülməsi və hüquqlarının qorunması işi Harborda həvalə edildi. Xüsusilə Hübert Huver əleyhinə olduğu üçün bu təyinata maddi təminat verilmədiyindən, polkovnik U.N.Haskell köçürülmə ilə



deyil, Müttəfiqlərin Baş Komissarı kimi Ermənistana kömək fəaliyyətlərinin koordinasiyası ilə məşğul olmağa başladı. Sonra Huver yeni erməni dövlətinin yaradılması ilə bağlı olaraq uğurlu köçürülmə, siyasi və iqtisadi problemlərə yönəldilmiş tədbirlərlə əlaqədar sahələrə rəhbərliyin Harborda həvalə edilməsinə razılıq verərək Morgentaunun könlünü aldı." (8)

Amerika rəsmiləri bu hərbi missiyanın çox az imkanlara malik olduğunu Müttəfiq ölkələrin aydınca dərk etməsini istəyirdi. Paris Sülh Konfransında Amerika nümayəndə heyəti xəbərdarlıq edirdi: "...Həyata keçirilməsi nəzərdə tutulan çoxsaylı rəsmi hərəkətlərdən ona görə imtina edilir ki, bu, Birləşmiş Ştatların erməni hökumətini və indi Zaqafqaziyada mövcud olan hər hansı digər hökuməti rəsmi tanıması kimi başa düşülə bilər. Ermənistandakı təxminən altmış nəfər üzvü olan Amerika Hərbi Missiyası təlim, təcrübə və ekspertiza baxımından çox diqqətlə seçilmişdir." (s. 335) Amerikalı ermənilərin dörd hərbi adamı da həmin missiyaya daxil edilmişdi.

Hərbi Missiyanın yaradılması haqqında elan verilən kimi erməni agentləri işləmək üçün Birləşmiş Ştatlara cumdular. Bu missiya geniş təbliğ edilirdi. Orada "bu missiyanın yaradılmasının Ermənistanın taleyini həll edəcəyi və əgər Amerika mandat hüququ qazanacaqdısa, Harbordun Ermənistanın qubernatoru olacağı haqqında şaiyələr dolaşırdı. Ermənipərəst qəzetlər də öz şəxsi qiymətləndirməsini aparırdı..." (s. 334)



"Ermənistanın Müstəqilliyi Uğrunda Amerika Komitəsi bu missiyaya ən gözəl arzularını bildirərək... ona erməni məsələsinin sürətli həllini və "müvafiq olaraq uzun müddət əzab çəkmiş ləyaqətli xalqın layiq olduğu arzusuna tamamilə çatmasını" həvalə edirdi. (s. 336) Qısa tərzdə deyilmiş bu özündənmüştəbeh bəyanat əslində xarici dövlətin Amerikanın xarici siyasətinin öz eqoist maraqlarının həllinə təsir etməsi üçün göstərdiyi cəhd idi.

Lakin ortada qərargahı İstanbulda olan admiral Bristol da var idi. Hovanissyan qeyd edir ki, "Bu missiyaya inanmamaq üçün admiral Bristolun səbəbləri tamamilə müxtəlif idi. Məqsədləri daha çox lənətlənmək deyil təriflənmək olan türk millətçilərinin hər bir hədəsini nəzərə almaq. Bristol şikayətlənirdi ki, Haskell və Harborda verilmiş səlahiyyətlər ermənilərə qeyri-adi münasibət nümayiş etdirir və beləlik-

lə, müsəlmanlar arasında narahatlıq əmələ gətirir. O, Harbordu inandırırdı ki, vacib və dəqiq təhqiqatdan savay digər hallar üçün elanlar və ya özününümayişə ehtiyac yoxdur." (s. 337)

Tarix admiral Bristolun haqlı olduğunu sübut etmişdir. Bugünkü Türkiyə milli hərəkatın yaranışıdır. Amerika kənara çəkilsə yaxşıdır, çünki xüdpəsənd Ermənistan onları saxlamağa çalışsa da, Türk Milliyyətçiləri müstəqillik uğrunda döyüşlərdən qalib çıxmışdır.

Hərbi missiya Osmanlı İmperiyasına çatanda iki hissəyə bölündü: Harbordun rəhbərliyi altında torpaq hissəsinə və bir aydan sonra Batumidə Harhardın rəhbərliyi altına keçəcək dəniz hissəsinə. "Min mildən artıq məsafəni qət etməli olan Harbordun qrupu dəmir yolundan, avtomobillərdən, faytonlardan və hətta atlardan istifadə edərək təxminən nəzərdə tutulmuş vaxtda mənzil başına çatdı." (s. 338)

Məhz bu hərbi missiya vaxtı Hovanissyanın çap etdiyi Amerika şahidlərinin ifadələri sübut edir ki, heç şübhəsiz, 1915-ci ildə ermənilərin birtərəfli qırılması və ya genosidə məruz qalması olmamışdır. Bu bəyanatın əsasında çoxsaylı amerikanların şahidliyi dayanır. Ümumilikdə götürüləndə, onlar sübut edirlər ki, qiyama başlayandan sonra Osmanlı döyüş zonalarından köçürüləndə ermənilər sağ-salamat idilər. Əlbəttə, orada sui-istifadə halları olmuş, insanlar qətlə yetirilmişdir, lakin bu, həm türklərə, həm də ermənilərə şamil edilməlidir, bu gün ermənilərin iddia etdiyi "genosid" isə heç vaxt olmamışdır. Vacib şəhadətə nəzər salın:

"Konyadakı Amerikanın yardım direktoru Meri Kuşmən məlumat vermişdir ki, 1915-ci ildə yarım milyon köçkün şəhərdən keçib getmişdir və o, bir neçə yüz erməni yetimini öz qayğısı altına almışdır." (s. 338)

Harbordun qrupu şimali Suriyadakı Aleppo şəhərinə yönəldi. "Aleppo qaçqınların səpələndiyi əsas nöqtə olduğu üçün Amerika konsulu Cessi B. Cəksonun şahid izahları nifrətlə dolu idi. Kilikiya katalikosu II Sakal (Xakayan), arxiyepiskop Muşağ Serokyan və yerli erməni icması üzvlərinin ifadələrinə əsaslanan Cəkson qeyd edirdi ki, cənuba köçürülmüş bir milyon erməninin təxminən 100,000 nəfəri Suriya və Mesopotamiyanın ərazisində yaşayır..." (s. 339)

Konya şəhərindən keçmiş 500,000 qaçqın var idi və 1 milyon nəfərin isə Aleppodan keçdiyi göstərilir – ümumilikdə artıq 1.5 milyon yaşayan, nəfəs alan ermənidən söz gedir – daha da çox ermənidən.





"Xarput erməni yaylasında ən böyük kömək məntəqəsi idi; 3,000-dən çox yetim o vaxt tərk edilmiş Dəclə Kollecində və daha iyirmi komada yerləşdirilmişdi. Doktor Henri H. Riqqz və onun köməkçiləri olan Levan Harputlyan və doktor Mikayel (Hakakyan) məlumat verirdilər ki, əyalətdəki 175,000 ermənininin 25,000 nəfəri yerindən tərpənməmişdir." (s. 341)

Yaxşı, 1.5 milyon üstə gəl 3,000 üstə gəl 25,000 bərabərdir 1,528,000 nəfər erməni elə buradaca hesablanır.

"Xarputun cənub-qərbindəki münbit torpaqlı, meyvə bağları ilə zəngin düzənlikdəki Malatyada 12,000 ermənidən 1,000 nəfərdən bir qədər az sakinin evlərindəcə qalmasını missiya aşkara çıxardı." (s. 342)

İndi isə yaşayan və nəfəs alan ermənilərin ümumi sayı 1,528,000 nəfərdir.

Əsərin I cildində Hovanissyan bəyan etmişdir ki, Osmanlı İmperiyasında bütövlükdə təxminən 2 milyon erməni var idi (baxmayaraq ki, Osmanlıların vergi hesabatları onların təxminən 1.3 milyon nəfər olduğunu göstərir, bu da öz növbəsində ermənilərin sayının 1 milyon olduğunu göstərən Avropa mənbələrinə uyğun gəlir). Döyüş zonalarında olmayan İstanbuldakı və digər şəhərlərdəki ermənilər "köçürülməmişdi". Erməni tarixçisinin öz hesablamalarına əsaslanaraq söyləmək olar ki, qırılmaq üçün 1.5 milyon erməni ümumiyyətlə ola bilməzdi. Belə çıxır ki, köçürülən hər bir adamı ermənilər genosid qurbanı hesab edirlər. Yerdəyişmə isə genosid deyildir!

Hesabatlar yığımı Bostondakı Erməni İnqilabçı Federasiyasının saxlanclarında və Ermənistanın paytaxtı İrəvandadır. Son iyirmi ildə Osmanlı hesabatları alimlərin üzünə açıqdır. Ümumi mənzərəni aydınlaşdırmaq üçün adam gərək həm çar Rusiyası və Sovet İttifaqı, həm də Britaniya, Amerika, Almaniya, Fransa, İtaliya və digər ölkələrin arxivlərindəki materialları da nəzərə alsın. Heç bir məqsəd güdmədən əldə olan sənədlərlə tanışlıqdan sonra hər bir kəs aydınca görə bilər ki, dünya müharibəsində yalnız öz mövcudluğu üçün mübarizə aparan türklərə qarşı ədavətçi Osmanlı erməniləri satqınlıq və arxadan zərbə vurmaq yolunu tutanda Osmanlı İmperi-

yası bütün ermənilərı döyüş zonalarından köçürməyə məcbur olmuşdur (Suriyaya, Şimali İraqa və Qafqaza). Hesabatlar və yazılı əmrlər göstərir ki, köçürülmə vaxtı Osmanlı liderləri erməniləri müdafiə etmək kimi çox nəcib iş aparmışdır. Buna görə də, 1915 və 1916-cı illərdə baş verənlər genosid adlana bilməz.

Lakin ermənilərin iddia etdiklərinin əksinə olaraq genosidin olmamasını sübut edən daha çox şahid ifadələri və faktlar vardır. Həmin dövrdə Osmanlı İmperiaysının vergi hesabatlarına nəzər salın – cəmi 1.3 milyon erməni!

Bu faktı və mənbəni də nəzərdən qaçırmayın: ermənilərin öz "rəsmi" kilsəsi bəyan edir ki, xəyali genosidin baş verdiyi vaxtda Osmanlı İmperiyasında yalnız 1.1 milyon erməni yaşayırdı. Həmin dövrün dörd avropalı tarixçisi də ermənilərin ümumi sayının 1.1 və 1.4 milyon nəfər olduğunu qeyd edir.

Qeyd edilir ki, Harbord "imkan düşəndə yerli varlılarla ermənilərin və digər xristianların hüzurunda görüşür, yerli irqi-dini münasibət haqqında soruşur, siyasi mənsubiyyət haqqında mövqeləri aydınlaşdırır və Ermənistanın çiçəklənməsində Amerikanın marağını ön plana çəkirdi." (s. 341)



Harbord türk lideri Mustafa Kamalla uzunmüddətli görüş imkanı qazanmışdı. "Harbord ermənilərdən ötrü narahatlığını bildirəndə Kamal xristian elementlərə qarşı hər hansı kinli münasibəti inkar edərək müharibə dövrünün qırğınlarını lənətlədi, həm də qeyd etdi ki, zorakılıq "hakimiyyətə soxulmuş kiçik bir komitənin" işi olmuşdur. Digər tərəfdən Smirnada yunan zorakılığı Müttəfiqlərin donanmasının hamiliyi altında baş verirdi, "İrəvan Respublikası" isə yerli müsəlman əhalini "qanlı vəhşilik dalğasında" qırıb-çatmağa çalışır." (s. 343)

Tarix Mustafa Kamalın həqiqəti söylədiyini sübut etmişdir.

Harbordun missiyası Sivasa çatanda onlar daha çox erməni qaçqınının olduğunu öyrəndilər. Harbord öyrəndi ki, on min erməni ərazidə qalmışdır və daha on min adam başqa yerlərdən gəlmişdir. Harbordun missiyası qaçqınların ümumi sayının 1,548,000 nəfərə çatdığını hesablamağa nail oldu." (s. 344) Əlavə olaraq yüz minlərlə ermənin Rusiya Ermənistanına köçürülməsini və onların bu hesaba daxil olmadığını nəzərdə saxlayın.

I cildin 295-ci səhifəsində Hovanissyan bəyan edir ki, Zaqafqaziyada (Ermənistan, Gürcüstan və Azərbaycan) məskunlaşan "500,000" erməni qaçqını var idi. Bu da Osmanlıların öz ölkəsindən qovduğu ermənilərin ümumi sayı – 2,058,000 nəfər! I cildin 8-ci səhifəsində Hovanissyan bəyan edir ki, Osmanlı İmperiyasında 2 milyon erməni olmuşdur – yaxşı, onda bu günkü ermənilərin iddia etdiyi 1.5 milyon erməni necə qırıla və ya genosidə düçar edilə bilərdi? Erməni tarixçi aliminin öz qələmindən çıxmış sübut isə ondan ibarətdir ki, *heç bir qırğın və ya soyqırım olmamışdır*. Admiral Bristolun doktor Ceyms L. Bartona (Xarici Missiyalar üzrə Amerika Komissarlığı İdarəsi) yazdığı 28 mart 1921-ci il tarixli məktubundakı bəyanata nəzər salın: "Türklərin Qafqazda minlərlə ermənini qətlə yetirməsi haqqında hesabatların Birləşmiş Ştatlarda ayaq tutub yeridiyi mənə məlumdur. Belə məlumatlar o qədər çox təkrar olunur ki, nəticədə ürəyimdən qara qanlar axır. Yaxın Şərq İdarəsinin Yərroudan və bizim öz amerikan adamlarımızdan aldığı məlumatlar erməni məlumatlarının tamamilə saxta olduğunu aydın göstərir. Birləşmiş Ştatlarda belə *məlumatların heç bir düzəliş verilmədən ayaq tutub yeriməsi zorakılıqdır...*"





Əvvəlcə baş komissar, sonra isə Amerikanın Türkiyədəki ilk səfiri təyin edilməzdən qabaq admiral Bristol dünyanın bu regionunda Birləşmiş Ştatların hərbi qüvvələrinə komandanlıq etmişdi. Doktor Bartona göndərdiyi məktubunda admiral sözünə davam edərək yazırdı: "Bizim Qars və Aleksandropoldakı adamlarımızdan və Yərrou kimi şəxslərdən aldığımız məlumatlardan əlavə mənim əlimdə öz kəşfiyyat xidmətimin hesabatları da var və mən bilirəm ki, *erməni məlumatları yalandır.*"

"Ərzurumda amerikanlar qubernator Rəşad Paşa və XI Ordunun korpus komandiri Kazım Qarabəkir tərəfindən böyük ehtiramla qarşılandılar... Qarabəkir gələnləri strateji cəhətdən vacib olan şəhərin qəsrinə apardı. İki binanın tör-töküntüsünü qonaqlara göstərən Qarabəkir dedi ki, rus işğalı dövründə orada ermənilər min nəfər türkü diri-diri yandırmışdır. Qarabəkir acı-acı şikayətləndi ki, erməni qəddarlığı indi də azalmamışdır; bu yaxınlarda 40,000 köməksiz müsəlman cəbhə boyu yerləşən kəndlərdəki ev-eşiyindən qovulmuşdur." (s. 345)

Və ermənilər hələ "genosid" şikayəti qaldırmaq istəyirlər!

Qars erməni nəzarətində olanda oraya gəlmiş Harbordun təəssüratına nəzər salın. Erməni liderləri amerikanları baxmaq istədikləri ərazilərə aparırdı. "Ayrılıq ərəfəsində Amerika missiyasına Qafqaz qonaqpərvərliyinə layiq ehtiramla, mahnı və rəqslərlə, sağlıqlar və çıxışlarla dolu olan ziyafət verildi, lakin Qarabəkirin etirazları haqqında yenicə xəbər tutan və Həsənqala və Xorasanda çoxlu müsəlman qaçqını görmüş Harbord üç-dörd saatlıq şadyanalığın daha dərin təhqiqata mane olduğundan şübhələndi." (s. 346)

Harbordun qrupu İrəvana çatanda "ermənilərin zənginliyi amerikanların diqqətindən yayınmadı: "Türkiyədə müsəlman inancı ilə uzun-uzadı əlaqələrimizdən sonra xristian ermənilərinin arasında olmaq nəsə müəyyən bir rahatlıq hissi verən aydınlıq gətirdi..."" (s. 347)

Harbord və onun hərbi missiyalı komandası İstanbuldan çıxaraq Marsel şəhərinə yollandı və mənzil başına çatandan iki gün sonra Parisdəki Amerika nümayəndə heyətinə öz hesabatını göndərdi. Ağ Ev onu geri göndərdiyi üçün həmin hesabat heç vaxt heç kim üçün heç bir əhəmiyyət kəsb etməyəcəkdi. Yalnız 1920-ci il müzakirələri üçün Birləşmiş Ştatların Senatı həmin hesabatın ona verilməsini xahiş etdi. Hesabatın bir hissəsində qeyd olunurdu ki, "Yəhudilər kimi ermənilər də heç vaxt digər irqləri qəbul etmirlər; qan tökülməsində və qəddarlıqda onlar günahsız deyillər." (s. 357)



Amerikaya qayıdaq. Orada Birləşmiş Ştatların Senatı Paris Müqaviləsi və ölkənin Millətlər Birliyinin üzvü olub-olmaması haqqında müzakirələrə başladı. Həm Paris Müqaviləsinin, həm də Birləşmiş Ştatların Millətlər Birliyinə girməsinin əleyhdarı olan Senat rəhbərləri

*...Monro Doktrinasını zəifl ədən məxfi diplomatiyaya, Avropa dövlətləri ilə manipulyasiyalarına və Amerika prezidentinin neft, xammal və bazarlar ələ keçirməkdə sadəlövhlüyünə qarşı xəbərdarlıq etdilər. İngiltərə və Fransa tezliklə müqaviləni paraflayacaq və Almaniyanın Afrikadakı keçmiş müstəmləkə ölkələri və Yaxın Şərqdəki zəngin yataqlarla dolu ərazilərlə özlərini mükafatlandıracaq, maliyyə sıxıntısı və hərbi çətinlikləri olan Ermənistanın qupquru torpaqlarını isə Birləşmiş Ştatlar üçün saxlayacaqlar. Bu azmış kimi,*



*hələ Amerika ilə müharibə vəziyyətində olmamış türklər üçün dayə rolunu oynamağı da! Birləşmiş Ştatların "üfunət iyi verən Avropada" nə işi var idi!?*

Senatın həm Paris Müqaviləsi, həm də Millətlər Birliyinin üzvlüyü əleyhinə çıxması indi tam müəyyənləşəndə senator Uilyam Kinq "Müttəfiqlərə və dost dövlətlərə müraciət edərək onları erməni xalqının azadlığına və yenidən inkişafına köməklik üçün səy göstərməyə həvəsləndirmək, türkləri erməni vilayətlərini boşaltmağa məcbur etmək və öz effektli hökumətini təşkil etmək və "milli ərazilərinə" nəzarəti ələ keçirmək üçün ermənilərə silah və sursat vermək" haqqında birgə qərarı təqdim etdi." (s. 372)

Amerikadakı muzdlu erməni agentləri daha yüksək səviyyələrə dırmaşaraq bu qərarı müdafiə etmək üçün təbil çalmağa başladılar. "Ermənistanın Müstəqilliyi uğrunda Amerika Komitəsi isə Uilsonun şəxsi dostu Con Şarp Uillyamz və Senatda at oynadan Henri Kəbot Loc və Senatın Xarici Əlaqələr Komissiyası vasitəsilə əsl partizan cəhdlərini nizamlayırdı." (s. 373)



Həmin qərarı ilk müzakirə edən də Locun xarici əlaqələr yarımbölməsi olacaqdı. Bu vaxt ərzində Amerikanın İstanbuldakı baş komissarı admiral Bristol bu işlə bağlı olan bütün rəsmilərə öz nöqteyinəzərini çatdıraraq Ermənistanda və ya Osmanlı İmperiyasında Amerikanın bircə kiçik hərbi qüvvəsinin də qalmamasına çalışırdı.

*Britaniyalılar, o deyirdi, Amerikanı Ermənistana girməyə vadar etməklə müsəlman dünyasını Amerikadan iyrəndirməyə cəhd göstərirdi. Lakin Avropa dövlətləri Türkiyə ilə müharibə apardıqları və hazırki vəziyyətin yaranmasında iştirak etdikləri üçün özləri hərbi əməliyyatlara son qoyuimasına nail olmalıdırlar. Əgər Birləşmiş Ştatlar oraya bircə əsgərini göndərsə belə, ən azı 150,000 başqa əsgər də onun arxasınca göndərilmək üçün hazırlanmalı olacaq. Belə bir addım atmağın məsuliyyəti o qədər böyükdür ki, nə sentimentalizm, nə də hətta minlərlə ermənin aclıq çəkməsi ortaya çıxacaq sonrakı çətinlikləri bizə unutdurmamalıdır. (s. 376)*

Birləşmiş Ştatlar Senatının yarımkomissiyası bu qərarı müzakirə

edərkən Ermənistanın mülki nümayəndə heyəti Nyu-Yorka gəldi. "Bu dəstənin əsas vəzifəsi Amerikanın iqtisadi və siyasi köməyinə nail olmaq idi. O, həm canlı qüvvəsi, həm də texniki vərdişləri müstəqil ölkənin inkişafı üçün həlledici əhəmiyyət kəsb edən parçalanmış erməni-amerikanları bir yerə toplamaq məqsədi də daşıyırdı." (s. 383)

Ermənistanın keçmiş baş naziri Hovannes Kaçaznuni bu xüsusi iqtisadi və siyasi missiyaya başçılıq edirdi. Oktyabrın 10-da o, Konqres yarımkomissiyasının qarşısında peyda olaraq sorğu-suala tutuldu və yardım üçün xahiş etdi. "Kaçaznuni dedi ki, belə bir kömək yardımdan daha artıq dərəcədə kapital qoyuluşu olacaqdır: "Bizim iki qarantiyamız vardır. Onun biri budur ki, Ermənistan təbii ehtiyatları zəngin olan bir ölkədir; ikincisi isə odur ki, erməni xalqı zəhmətkeş və qənaətcildir – o öz borclarını həmişə qaytarır."" (s. 383-384)

Keçmiş baş nazir dediyi "böyük yalan" üçün günahkardır, çünki: (1) Ermənistanda deyiləsi zəngin təbii ehtiyatlar yoxdur və (2) Ermənistan heç bir borcunu qaytarmır. Həqiqət burasındadır ki, 1918-ci ildən başlayaraq Ermənistan Birləşmiş Ştatlar hökumətindən elə hey milyonlarla dollar pul alır, üstəgəl öz maraqlarını həyata keçirir. Ermənistan aldığı milyonlardan bir qara qəpik də geri qaytarmayıb və qaytarmaq fikrində deyil, lakin daha çox Amerika sədəqəsi qoparmaq üçün yalvarışlarını davam etdirir.

28 mart 1921-ci ildə doktor Bartona yazdığı məktubunda admiral Bristol Ermənistanın Birləşmiş Ştatlara olan borcları haqqında yazırdı: "Sizin məktubunuzdan öyrənəndə ki, Ermənistana borc pul verilməsi naminə hərəkat başlanmışdır, həqiqətən çox təəccübləndim. Biz artıq Ermənistana 50 milyon dollardan artıq vermişik və o pul itirilib. Mən belə borclar verilməməsini vaxtında təklif edirəm. Başqa bir borc verilməsi sadəcə yaxşı pulu pis işə sərf etmək olardı."

Birləşmiş Ştatlara bir missiya göndərmək erməni liderlərinə kifayət etmədi – onlar zərbəni var gücləri ilə endirməyə cəhd göstərərək bir neçə həftədən sonra mülki missiyanı hərbi missiya ilə əvəz etdilər.

*"Avropada rəsmi və qeyri-rəsmi qapıların döyülməsinin" səmərəsizliyini başa düşən Ermənistan Respublikasının Paris nümayəndə heyəti general Hakop (Yakov) Baqratunini qərarı Uilyamsa çatdırmaq üçün lobbi köməyi axtarmaq və mülki missiyanın fəaliyyətini*





*ruhlandırmaq üçün Amerikaya göndərməyi qərara aldı. Baqratuninin 25 oktyabr 1919-cu ildə imzalanmış mandatında ona Amerika hərbi yardımı istəmək, əgər icasə veriiərsə erməni-amerikan ekspedisiya hərbi birliyi yaratmaq və Amerika təiimatçı və texniklərini erməni ordusunun yenidən quruiması işinə cəlb etmək səlahiyyətləri verilirdi. (s. 383)*

Əlbəttə, belə cəhd üçün xərci Amerika vergi verənlərinin 100 faiz ödəyəcəyini erməni liderlərinin gözlədiyini Hovanissyan qeyd etməmişdir.

*Hərbi missiya noyabrın 22-də Nyu-Yorkda Kaçaznuninin altı həftə qabaq qarşılandığı eyni həvəs və eyni hay-küylə qarşıiandı: şən izdiham, təbəssümlü qəbul komitəsi, soyuqdan əsən məktəbli qızların tutduğu buketlər, daiğalanan bayraqlar, Beşinci Avenyu iiə aşağı axan avtomobii və atlıiardan ibarət müşaiyət eskortu. Holland evində erməni kəşfiyyatçıları və hərbi geyimli veteranlar böyük rəqs salonuna aparan yol boyu düzülmüşdülər. Orada Baqratuni cavanları xalqın epik əcdadı Hək kimi ləyaqətlə dayanmağa və Ermənistanın yüksəkliklərdə uçan qartalı Androniklə bəhsə girməyə səslədi. Minlərlə Amerika ermənisinin illər uzunu öz doğma və sevimli adamlarından gözlədiyi yenilik eşitmək arzusu görüşün emosional tərəfi idi. (s. 386)*

Bütün o erməni veteranları Nyu-Yorkda nə edirdilər? Nə üçün bu qədər çoxsaylı erməni öz "tarixi vətən"ini tərk edərək Amerikaya üz tutmuşdu? Bu yandan isə erməni diktatorları Ermənistan Respublikasını qurmaq üçün mübarizəyə səsləyirdilər. 1919-cu ildə də, 1991-2001-ci illərdə də bir milyondan artıq ermənin "tarixi vətəni" adlandırılan yeri tərk edərək Ermənistandan savay hər yerə üz tutanda da cavab eyni idi. İqtisadiyyat dəhşətli vəziyyətdə idi, hökumət isə ondan da betər!

*Dekabrın 7-də Nyu-Yorkun cıdır meydanındakı kütləvi mitinqdə Hovannes Kaçaznuni 5,000 qaçqına qədim Masis (Ararat) dağlarının uca zirvələrindən, Araqadın çiçəkli yamaclarından, Artsaq və Si-*

*unikin qala divarlarına bənzəyən dağlarından və dərin dərələrindən, Ana Arazın yaşıl sahillərindən, Sevanın büllur sularından, Ani və Dvinin adamı lərzəyə gətirən xarabalıqlarından, Eçmiadzindəki Ana Kilsədən və Hağpat, Tatev, Qandzasar monastrlarından salamlarını çatdırdı. İndi oralarda nə çar var idi, nə şah, nə də sultan: həmin müqəddəs torpaqlar bu gün bizimkidir, həmvətənlərim – sizin və mənim. Orada erməni ərazisinin başı üzərində artıq erməni bayrağı dalğalanır – eşidirsinizmi, erməni bayrağı! "Bütün əzablarına baxmayaraq ermənilər yazıq görünmək istəmirlər. Onlara yalnız müvəqqəti kömək lazımdır ki, öz hüceyrə vəziyyətində olan ölkəsini qoruya və onun ərazisini Van, Məraş, Karin (Ərzurum) və digər tarixi-milli ərazilərə qədər genişləndirə bilsinlər." Biz xəcalət hissi keçirmədən bunu xahiş edirik, "çünki Dynüa Müharibəsindəki rolumuz bizim təbii ehtiyatlarımızdan və bacarığımızdan xəbəri olan qüdrətli dövlətlər, inkişaf etmiş, proqressiv xalqlar qarşısında bu məsələni qorxmadan qaldırmaq üçün bizə hüquq verir." (s. 387)*



Kaçaznuni torpağın bir neçə spesifik hissəsinin adını çəkdi. Onun danışığında yeganə səhv burasında idi ki, həmin torpaqlar başqa birisinə məxsus idi. Üç min ildən artıq dövrdə ermənilərin heç bir milli torpağı olmamışdır, indi isə onlar tarixin zibil qablarından qalxaraq müftə-müsəlləm "tarixi, milli ərazilər" iddiasına düşmüşlər.

Kaçaznuni bəyan etdi ki, ermənilər "yazıq görünmək istəmirlər". O, hay-küy salırdı ki, "onlara yalnız müvəqqəti kömək lazımdır...". Bir adam qəflətən soruşa bilər – bu "müvəqqəti köməyə" hələ neçə müddət ehtiyac olacaq? Artıq səksən üç ildən çox keçmişdir və ermənilər hələ də "müvəqqəti kömək" üçün əl açırlar və bunun axırı görünmür.

Eyni zamanda Baqratuni "müvəqqəti hərbi kömək" üçün dilənərək işə başlamışdı. O, müdafiə nazirinə "erməni ordusunun strukturu, gücü, ehtiyacları və potensialı haqqında hərtərəfli memorandum verərək iddia edirdi ki, əgər lazımi silah-sursatı olarsa, ermənilər keçmiş rus-türk sərhədləri boyu yerləşən ərazilərini özləri işğaldan azad edə bilərlər. Və Baqratuni təklif edirdi ki, amerikalı-ermənilərin könüllülər korpusunu məşq etdirmək və Ermənistana təlimatçı və texniki məsləhətçilər vermək Birləşmiş Ştatlar üçün ciddi yük olmayacaqdır." (s. 388)



Sadə dillə deyilərsə, əvvəlcə Osmanlı İmperiyasına, sonra Gürcüstana və nəhayət Azərbaycana bir-birinin dalınca müharibədə uduzan Ermənistan başa düşmüşdü ki, dördüncü müharibəni başlamaq üçün onların köməyə ehtiyacı vardır.

Amerikanın Dövlət Katibi Robert Lənsinq hələ də "formal cəhətdən tanınmamış hökumətə Birləşmiş Ştatların hərbi yardım göstərə bilməməsi haqqında öz qanuni mövqeyində dayanırdı." (s. 388)

Öz doğma Ermənistanının "rəsmi" tarixi haqqında mübahisə aparan Hovanissyan üçün bu, qəribə deyilmi? Hansı cür tarixçi Ermənistana daha bir müharibəni başlamaq üçün kömək etməyən, öz ölkəsinin fikrini ifadə edən Birləşmiş Ştatların dövlət katibini "qanuni" adlandırar? Hadisələrdən xəbərsiz olan amerikalı analar dövlət katibi Lənsinqə "qanuni" mövqeyinə görə minnətdar olmalıdırlar. Çünki Lənsinq onların oğullarının həlak olacaqları müharibəyə Amerikanın qoşulmasından imtina etmişdir.

Dövlət katibi Ermənistanın rəsmən tanınmasının da əleyhinə olmuşdur, çünki bu, aşağıdakılara gətirib çıxarardı:



*...Keçmiş Rus İmperiyasının parçalanmasına Amerikanın razılığı kimi. Silahlanmağa münasibətdə isə o dedi ki, ermənilər polyaklarla oxşar tutula bilməz. Polyaklara Birləşmiş Ştatlarda könüllülər legionu yaratmağa və təchiz etməyə icazə verilmişdi. Həmin icazə müharibə dövrünün qanunları əsasında verilmişdi və yalnız Birləşmiş Ştatlar Polşa hökumətini tanıyandan sonra qüvvəyə minmişdi. Nə qədər ki, Lənsinq öz vəzifəsini icra edirdi o, Ermənistanın tanınmasının qarşısını alır və ABŞ prezidenti tərəfindən müdafiə olunurdu. Öz müraciətlərinə heç vaxt açıq-aydın cavab ala bilməyən ermənilər isə rəsmi və qeyri-rəsmi qapıları döyməkdə davam edirdilər. Erməni peşimançılığının tezliklə genişlənən hüdudlarına Konqres də daxil oldu. (s. 388)*

Erməni liderlərinə hər şey gec çatırdı – onlar "yox" cavabının qəbulundan imtina edirdilər. Onlar Polşa nümunəsini işlətdilər; lakin erməni məntiqində bir əsas məqam nəzərdən qaçırılırdı: polyaklar Birləşmiş Ştatlarda yaşayan həmvətənləri arasında könüllülərdən ibarət qoşun toplayanda Polşada müharibə atəşləri davam edirdi. Er-

məni-amerikanlar isə əksinə olaraq atəş səsləri kəsiləndən sonra könüllülərdən ibarət qoşun toplamaq istəyirdilər.

Amerika ermənilərinin bir qrupu filmlər və poçt kartları istehsal edərək "ianə fondlarını artırmaq üçün aclıq çəkən ermənilərin obrazını yaradırdılar. Məqsəd yaxşı olsa da, bu təcrübə ermənilərin köməksiz və ümidsiz xalq kimi şəxsi ləyaqətini alçaltmaqla bərabər, həm də Ermənistanın siyasi xəttinə müxalif qüvvələrin əlində girəvəyə çevrildi." (s. 394) Başqa sözlə desək, erməni ictimai əlaqələr kampaniyası bir əldə iki qarpız tutmaq məqsədi daşıyırdı; bir əli ilə sədəqə toplayır, o biri əli ilə güclü dövlət görüntüsü yaradırdı. Təbiidir ki, onların kampaniyası öz başlarında partladı.

*Erməni qonağının kömək üçün xahişlərinə Birləşmiş Ştatlar yalnız ardıcıl humanitar yardım etməklə reaksiya verdi. Ermənistanın siyasi tanınması gündəmə çıxmadığından Hovannes Kaçazuninin özəl borclar və hökumət kreditləri almaq üçün göstərdiyi səylər də ciddi surətdə çətinləşdi. Polşa, Çexoslovakiya, Latviya, Litva, Estoniya və digər yenicə "azad edilmiş" ölkələrlə müqayisədə, məsələn, Ermənistana Birləşmiş Ştatların Ləğv Komissiyası tərəfindən 823,202 metrik ton miqdarında artıq qalmış əşyalar verildi. Beynəlxalq birlik tərəfindən öz həllini gözləyən rəsmi tanıma hələ olmadığından, Ermənistan istər-istəməz həmin xeyriyyəçiliyi qəbul etməli oldu. (s. 397)*

"Xeyriyyəçiliyi qəbul etməli oldu". Xristian millətlər yaşayan dünyanın hər yerində Ermənistanın muzdlu agentləri "iş apararaq" məhz bu cür sərbəst sədəqə toplayırdılar. Yuxarıda adları çəkilmiş "yenicə azad edilmiş ölkələrin" heç biri qonşu torpaqlarını qamarlamaq istəmirdi. Aydındır ki, Ermənistan heç bir halda Polşa, Çexoslovakiya, Latviya, Litva, Estoniya və digər yenicə azad edilmiş ölkələrlə eyni cərgədə ola bilməzdi.

Bütün bunlar aşkar olandan sonra Birləşmiş Ştatlar hökuməti Ermənistanı "rəsmi" ölkə kimi tanıyacaq və Ermənistan yenidən xüsusi inadkarlıqla sədəqə dilməyə girişəcəkdi. İndi ermənilər iddia edirdilər ki, "əgər kömək edilməzsə, üzümüzə gələn qışdan əhalinin təxminən 25 faizi sağ çıxa biləcəkdir. Birləşmiş Ştatların Taxıl Korporasiyası federal agentliyindən xahiş olundu ki, Ermənistan Respublikasından, Erməni Milli Nümayəndə Heyətindən və ya hər hansı münasib təşkilatdan edilən "yazılı iltizamların müqabilində buğda ayrılsın". Dini, mülki və qardaşlıq qruplarından, habelə ayrı-ayrı şəxslərdən gələn yüzlərlə oxşar müraciətlər sel kmi Ağ Evə, Dövlət Departamentinə, Konqresə və Yaxın Şərqə Yardım İdarəsinə axdı." (s. 399)





Kampaniyalar yaratmaqda və spesifik hökumət idarələrini və agentlikləri hədəfə götürərək yekun qərarın çıxarılmasına təsir göstərməkdə ermənilərin muzdlu agentləri misilsiz idilər. "Öz kökəsini özünün yeməsi" deyimi erməni vəziyyətini gözəl təsvir edə bilər.

Məsələ gəlib rəsmi yardım üçün dilənməyə çatanda ermənilər bir mübahisəsiz fakt ilə üzləşirlər: Ermənistan beynəlxalq səviyyədə tanınmış ölkə deyil və buna görə də Birləşmiş Ştatların Konqresi tərəfindən ona köməklik göstərilə bilməz. Hətta bütün ictimai əlaqə kampaniyalarında Ermənistan bir yerə toplaşa bilsə də, o, Birləşmiş Ştatlar hökumətinin "rəsmi mövqeyini" dəyişə bilmirdi.

Nəhayət, erməni liderləri Birləşmiş Ştatların "rəsmi mövqeyinin" dəyişməyəcəyini görəndən sonra Amerikanın vergi ödəyənlərindən borc götürməyə cəhd göstərdilər. "Erməni məsələsində siyasi hərəkətdən ardıcıl surətdə yayınan Uodrou Uilson yadım proqramını dəstəklədi. Noyabrın 14-də Senat öz iclasında Versal Müqaviləsini səsə qoymazdan qabaq o, Birləşmiş Ştatların Taxıl Korporasiyasının prezidenti Culius U. Barnesə tövsiyə etdi ki, korporasiya (USGA) kredit və ya digər əməliyyatlar müqabilində Ermənistana 35,000 ton buğda və un sata bilər." (s. 401)

1920-ci ilin yanvarında Kaçaznuni Ermənistanın adından Birləşmiş Ştatlarla müqavilə imzaladı ki, "həmin ilin iyunundan başlayaraq 5 faizlik maraq ödənişi ilə hər yarım ildə ödənsin". Xəzinənin kreditləri yalnız unu və yerli daşıma xərclərini əhatə etdiyi üçün Yaxın Şərq Yardımı (NER) gəmilərlə daşıma və sığorta qiymətləri üçün məsuliyyəti öz boynuna götürdü." (s. 402)

Nəticədə Ermənistan 16 milyonu kredit şəklində ödənən (ARA; USGA) 28 milyonluq ərzaq, 12 milyon isə nağd xeyriyyə pulu aldı (ACRNE, NER; Qızıl Xaç). Bu 16 milyon dollarlıq borcun ilk 5 faizlik ödənişinin vaxtı 1920-ci ilin iyununa düşürdü. Lakin səksən ildən artıq vaxt keçmişdir, Ermənistan isə bir qara qəpik də qaytarmamışdır!

Admiral Bristolun qeyd etdiyi kimi, Ermənistan könüllü surətdə Rusiyaya birləşəndən və kommunistə çevriləndən sonra ermənilər Birləşmiş Ştatlara cəmisi bir neçə ay qabaq vəd etdikləri borc ödənişlərinin hamısından imtina etdilər.

"Ermənilərin *Wall Street Journal*-ın belə bir müşahidəsini başa düşməsi üçün heç bir şərhçiyə ehtiyacları yoxdur ki, müharibədən və aclıqdan çıxmış hər bir millət öz varlığını sübut etmək üçün mövcudluğa layiq olan kişiliyini nümayiş etdirməlidir." (s. 403)

Erməni liderlərinin nümayiş etdirdiyi yeganə cəhət öz xalqlarını idarə etməyə qadir olmamasıdır. Millət formalaşdırmaq erməni mədəniyyətinin bir parçası olmamışdır. Millət yetişdirmək ermənilər üçün yad ideya olduğundan Ermənistan 1992-ci ildə Azərbaycana hücum etməyi seçmiş və silah gücünə (Rusiyadan alınmış) Azərbaycan ərazisinin 20 faizini işğal edərək 1 milyon nəfərdən çox silahsız, mülki Azərbaycan kişisinin, qadınının və uşağının etnik təmizlənməsini aparmışdır. Erməni tayfabazlığı müasir millət yaratmaq kimi nəcib ideyaya qalib gəlmişdir.





ON DÖRDÜNCÜ FƏSİL

# QAYNAYIB-QARIŞANDA ERMƏNİLƏR TƏHLÜKƏLİ ADAMLARA ÇEVRİLİRDİ

## ƏFKARİ-ÜMUMİNİN SUALI: ƏSL HƏQİQƏTDƏ ERMƏNİLƏR KİMİN TƏRƏFİNDƏDİR?

Hovanissyan şikayətlənir ki,

*Baş Şuranın Ermənistanın Osmanlı İmperiyasından ayrılmalı olması haqqında bəyanatından bir il sonra da həmin qərar yerinə yetirilməmiş qalırdı. Bu müddət ərzində isə bütün Müttəfiq qoşunları tərxis edilmişdi, müharibə vaxtının qayğıları sosial sferada və sənayedə gərginlik yaratmışdı, Birləşmiş Ştatlar kənara çəkilmişdi və türk müqavimət hərəkatı özünü siyasi meydana atmışdı.*

*Məhz bu vəziyyətdə Müttəfiqlər hərbi müdaxilə tətbiq etmədən, çox kiçik erməni ölkəsində əksəriyyətin qəbul edəcəyi səviyyədə İrəvan respublikası və yalnız Osmanlı İmperiyasının şərq sərhədləri boyundakı yaşayış məntəqələri ilə əlaqələr yaradaraq ermənilərə öz mənəvi borclarını qaytarmaq haqqında axtarışlara başladılar. Dənizdən dənizə Ermənistan planlarını qəbul etməyən Müttəfiqlərin liderləri Türkiyə daxilində qalmış xristianların əmin-amanlığı təmin etməyə və Kilikiyada xüsusi inzibati idarəçilik yaratmağa cəhd göstərəcəkdilər. Məsələnin bu cür qoyuluşu Müttəfiqlərin 1920-ci il London konfransına meylləndiyini göstərirdi. (1)*

Hovanissyanın götürdüyü bu istiqamətdə bir neçə çatışmazlıq vardır.

Üç min ildən artıq bir müddətdə dövlətçiliyi olmayan, indi isə erməni reallıqlarına deyil, yalnız erməni iddialarına əsaslanaraq ermənilərin dövlət yaratmağa çalışması nəticəsində Müttəfiqlərin müstəqil Ermənistan yaratmaq qərarı qəribə görünürdü. Xüsusilə, əgər tarixin səhnəsində Ermənistan olmamışdısa, təkcə folklora əsaslanaraq Müttəfiqlərin dəstəyini qazanmaq qətiyyən bəs etmirdi. Öz oğullarını pis yola göndərməsi üçün təkcə miflərə əsaslanmaq Müttəfiqlərə qətiyyən bəs etmirdi.

Müttəfiqlərin ölüvay erməni liderlərinə kiminsə torpağını verməməsi faktı isə sanki norma idi. Hər şey bir yana, Hovanissyanın qeyd etdiyi kimi, axı Müttəfiqlər Polşa, Çexoslovakiya, Latviya, Litva, Estoniya və digər yeni "azad edilmiş" kiçik xalqların ölkələrini yaratmış və tanımışdılar.

Məgər Müttəfiqlərin öz ordularını nə üçün tərxis etməməsində, başqa insanları öldürməsi haqqında düşünməyi dayandırmasında və I Dünya Müharibəsindən sonra onların öz vətənlərində fərdi, sosial və texniki problemləri haqqında fikirləşməyə başlamasında pis olan bir şey varmı?



Həmin il ərzində Müttəfiqlər öz hərbi potensialını azaldanda cırtdan Ermənistan iki müharibə başladı və hər ikisində məğlub oldu. Əvvəlcə Gürcüstanla, sonra Azərbaycanla. Erməni rəhbərləri sübut etdilər ki, onlar xalqı idarə edə bilmirlər və başqasının torpağını onlara gümüş xonçada təqdim etməmək üçün Müttəfiqlərin hər cür əsası var idi.

Ermənilər silah gücünə öz qonşularının torpaqlarını qəsb etməyə cəhd göstərəndə Müttəfiqlərin tam hərbi qüdrəti ilə Ermənistanın quldur rəhbərlərini müdafiə etməsini Hovanissyan yaman arzulayırdı.

Torpaq qamarlamaq cəhdlərində ermənilərə köməkdən imtina etmək üçün Müttəfiq liderlərinin hər cür rasional əsası var idi. Osmanlı İmperiyası daxilində azlıqda olmalarına baxmayaraq, ermənilər qiyama cəhd göstərdilər. Onlar şikayətlənirdi ki, ayrı-seçkiliyə məruz qalırlar. İndi isə onlar iddia etdikləri torpaqlarda yenə də azlıqda qalsalar da, müsəlman əksəriyyətə nəzarət etmək istəyirdilər. Bu isə "aparteid"dir, azlıq çoxluğu idarə edəndə belə deyilir. Bu vəhşi sxemin ağla batması üçün heç bir yol yoxdur, məhz buna görə də getgedə daha çox torpaq və adam istəyən ermənilərin əsası olmayan ədalətsiz iddialarına baxmayaraq, Ermənistan ölkəsinə rədd cavabı verməsi Müttəfiqlərin müdrikliyi idi. Əks halda, bu, iyirminci əsrin ilk "aparteidi" olardı. Müttəfiqlər ermənilərin əsassız tələblərini dəstəkləməsələr də, sadəcə düzgün mühakimə yürütdülər.



Hovanissyan Fransanın Baş naziri Klementseauya müraciət edərək onun "qaynayıb-qarışmaq üçün ermənilər qorxulu xalqdır; bir qayda olaraq onlar çoxlu pul istəyir, əvəzində isə heç nə qaytarmırlar. Onlar respublikaya və ya nəsə başqa şeyə malik ola bilərlər, lakin bu məqsədlə Fransadan nəsə gözləmələri əbəsdir" sözlərinin müqabilində "Ermənistan başdan-binadan aparıcı olmuşdur" sözlərini işlədir. (s. 438) Baş nazirin sözləri əslində Müttəfiqlərin ümumi xətti idi. Ağlı başında olan hər hansı bir adam onları günahlandıra bilərmi?

Britaniyanın Xarici İşlər İdarəsi türklərə və ermənilərə aid olan müqavilə layihəsi hazırladı. Ser Edvin S. Montaqu Hindistan idarəsinə başçılıq edirdi.



*O deyirdi ki, "yeni erməni ölkəsindəki Ermənistanın vətəndaşı olması haqqında seçim aparmamış Osmanlı məntəqələrindəki əhalinin öz əmlakını tərk etməməsindən doğan qorxu müəyyən vaxt tələb edəcəkdir. Mənə belə bir fakt çox təhlükəli görünür ki, öz milliyyətini dəyişməyi arzulamayan türklər min illər boyu yaşadıqları öz ata-baba ocağından qovulacaqlar... Onlara, heç şübhəsiz, ölkədə qalmaq imkanı veriləcəkdir, lakin bütün türklərin kütlə halında əvvəlki vətəni olan Türkiyənin xarabalıqlarında yaşayacağı mənə çox mübahisəli görünür." (s. 450-451)*

Fransız nümayəndə heyətinin katibi Filip Bertelot yekun vurdu:

*Ermənistan yaratmağın ən böyük çətinliyi orasındadır ki, ermənilər əslində heç yerdə əksəriyyət təşkil etmirlər; onları Kilikiya kimi millətin güclü nüvəsi yaşayan ölkəyə yerləşdirmək də böyük etiraz doğurur, çünki həmin torpaqlar Ermənistandan 400 kilometrdən artıq bir məsafədə yerləşir və belə genişlikdə ermənilərin yerləşdirilməsi onların müəyyən azlıq halında Ştatlarda da yerləşdirilməsi ilə nəticələ-*

*nəcəkdir. Əgər əhalinin yerləşdirilməsi haqqında belə bir dahiyanə məsləhət baş tutarsa, onlar ermənilərə düşmən olan çoxluğun nümayəndələrini seçməli olacaqlar... Trebizonddan tutmuş Aleksandrettaya qədər torpaqlarda Böyük Ermənistan yaratmaq xülyasına qarşı reallıq və məntiq eyni dərəcədə müxalifətdədir. (s. 454)*

Bu fransız müşahidəsinə qarşı Hovanissyanın məntiqi və şəxsi evolyusiyası aşağıdakı kimidir: "Mənə elə gəlir ki, Bertelot Müttəfiqlərin çıxıb getməsi üçün rasional ehtiyacın təkrar olunmasını hiss edirdi." (s. 454)

Əlbəttə ki, həmin fransız öz qərarını əsl seçkilərin keçiriləcəyinə inam üzərində qurmuşdu. Hovanissyan bilməli idi ki, erməni liderləri bacardıqları dərəcədə seçkiləri təxirə salırdılar, nəhayət, seçki keçirməyə məcbur ediləndə onlar özlərini elə mahir toxucu kimi apardılar ki, bütün nəzarət onların öz əllərinə keçdi. Güman ki, quldur erməni liderləri Kilikiyanı ələ keçirsəydilər məhz belə hərəkət edəcəklərini planlaşdırmışdılar və bu işdə Müttəfiq qoşunlarının onları müdafiə etməsini arzulayırdılar. Əgər seçki keçirməyə məcbur olunacaqdılarsa, fırıldaq yolu ilə seçki keçirmək onların peşəsi idi.



Başqa cəbhədə isə "ermənilər ruslarla dostluğa ümid bəsləyir, Rusiyanın erməni əyalətlərinin Rusiyanın siyasi, ərazi və iqtisadi qüdrətini azaltmayacağı şərti ilə birləşmiş erməni dövlətinin həmin ölkə ilə ümumi əməkdaşlığı əsas məqsəd kimi götürülürdü. Belə oldu ki, Ümum-Rusiya fraksiyalarının spikeri öz rəğbətini ifadə etsə də, müstəqil erməni cəmiyyətini çox az adam dəstəklədi." (s. 468)

Rusiya vətəndaş müharibəsinin hər bir tərəfində muzdlu erməni agentlərinin intensiv iş aparmasına baxmayaraq, şüuraltı məntiq onlara diktə edəcəkdi ki, haçansa qurulmuş rus hökuməti 400 ildən artıq bir müddətdə ərazisinin bir hissəsi olmuş heç bir milli quruma bir *qarış da torpaq bağışlamamışdır*, qalmışdı bir qrup quldur dəstəsinə bağışlayaydı.

Erməni-rus ilişkiləri Zaqafqaziya ölkələri arasında münasibətləri mürəkkəbləşdirir, Britaniya dairələrində şübhə toxumu səpirdi." (s. 478) Digər müttəfiqlərdə də şübhə var idi. Buna baxmayaraq, bu quldur ermənilər başa düşə bilmirdilər ki, Müttəfiqlər nə üçün başqalarının dənizdən dənizə olan torpaqlarını onlara verməyəcək və həmin əraziyə nəzarət üçün qoşun göndərməyəcəkdi.



Rusiyadakı vətəndaş müharibəsinin şübhəli tərzdə uzanması başa çatmayanadək Müttəfiqlər Zaqafqaziya respublikalarını tanımağı təxirə salmışdılar... (s. 482)

1920-ci ildə Rusiyadakı Ağqvardiyaçı qoşunlar geri çəkilirdi. Müttəfiqlərə qərar çıxarmağa təsir göstərilirdi ki, "Qafqazı bolşevizm əleyhinə istehkama çevirməyə cəhd etsinlər, və ya etməsinlər. Oliver Uordrop xəbərdarlıq edirdi ki, yalnız yerli respublikaları tanımaq və onlara həm maddi, həm də mənəvi kömək göstərmək yolu ilə bolşeviklərin yenidən Zaqafqaziyaya dönüşünün, sonra isə "onların inadının Persiyada və Zaqafqaziyada və digər yerlərdə yayılmasının" qarşısı alına bilər." (s. 499)

Qafqaz respublikalarının dünya dövlətləri tərəfindən tanınmasının özülü və yeganə səbəbi bu idi. "Yanvarın 10-da Parisdə görüşən Xarici İşlər Nazirlikləri Şurası Gürcüstan və Azərbaycanı tanımaq haqqında dərhal qərar verdi..." (s. 501)

Bolşeviklərlə üz-üzə dayanmalarına baxmayaraq, Müttəfiqlər Ermənistanı tanımaq üçün də de-fakto ehtiyat saxlamışdılar.



Həm Gürcüstan, həm də Azərbaycan özlərinin dünya birliyi tərəfindən qəbul edilməsini de-fakto millətlər kimi bayram etdi.

"Bir saatın içində Gürcüstanın paytaxtı bayraqlar və xalçalarla bəzədildi, zavod-fabriklər, idarələr və mağazalar bağlandı, sevinc içərisində olan nümayişçilər nəqliyyatın hərəkətini dayandırdılar" (s. 501). Çıxışlar edildi və yanvarın 13-ü milli bayram elan olundu.

"Yanvarın 13-də Azərbaycanda Baş nazir Nəsib bəy Usubbəyov öz xalqına müraciət edərək ölkənin "inkişaf etmiş millətlər" ailəsinə qəbul edildiyi xəbərini verdi. Azərbaycanın rəsmi bayramı növbəti gün səhər tezdən Təzə Pir məscidində dini dualardan başlayaraq müsəlman fəhlələrinin Şəhər Zalında şadyanalığı ilə davam etdi. Orada müsavatçı natiqlər müsəlman siyasi intibahının yaranmasını alqışlayaraq dünyada ilk Müsəlman Respublikasının nailiyyətlərindən danışdılar." (s. 502)

"Xarici İşlər naziri Fətəli Xan Xoyski milli müstəqillik uğrunda döyüşlərdə keçmiş son on səkkiz ayı təsvir edərək rəsmi tanınmanı təkcə Azərbaycan xalqı üçün deyil, bütün "türk birliyi" üçün qələbə kimi xarakterizə etdi." (s. 502)

Deməyə ehtiyac yoxdur ki, Rusiyanın hər bir künc-bucağında iş aparmaqla başları qarışmış erməni liderləri bir ölkə kimi de-fakto tanınmamalarından bərk dilxor idilər. Buna baxmayaraq, bu quldur ermənilər imkan taparaq, şlyapalarını əllərinə götürüb tanınmaq üçün iş aparmağa yollandılar. ""Ümumi ədalət" axtaran Avetis Ahoronyan və Boğos Noubar yanvarın 17-də Britaniya nümayəndə heyətinə və sülh konfransına gileylərini bildirdilər ki, Müttəfiqlərin uzun çəkən sükutu Ermənistan Respublikasına düşmən olan elementlərin cəsarətə gəlməsinə səbəb olmuşdur." Rusiyadakı vətəndaş müharibəsinin hər tərəfi ilə iş qurmağa cəhd göstərən bu cırtdan diktatorlar vəd edirdilər ki, "əgər Müttəfiqlər hərbi yardım göstərsələr, Ermənistan hökuməti Gürcüstan və Azərbaycanla birləşərək bolşevik işğalının qarşısını alacaqdır." (s. 511) Bir neçə ayın ərzində bunun Ermənistanın ən yekə "böyük yalanı" olması sübut edildi.

Ermənistanın axırda tanınması faktını Hovanissyan bu cür izah etməyə cəhd göstərir:

*Gürcüstan və Azərbaycanın əvvəlcə tanınması müəyyən çətinliklər yaratmışdı. Ermənistanı silahlandırmaq və boişevizm əleyhinə Qafqazda sipərə əlavə etmək planlaşdırılarkən onun tanınmaması absurd görünürdü. Nəticədə, yanvarın 19-da Kurzon Ermənistanın tanınmasının təxirə salınması haqqında qərara bir də baxılmasını Baş Şuraya təklif etdi. İndi mövcud olan respublikanın keçmiş Rus İmperiyasının bir hissəsi olmasına baxmayaraq, onlar Qafqazın müdafiəsinə köməyə hazır olduqlarını bildirirdilər. Heç bir etiraz olmadığından, konfrans "tanınmanın həmin ölkənin indiki sərhədlərini təsbit etməməsi şərti ilə Ermənistan Respublikasının de-fakto dövlət kimi tanınması haqqında qərar çıxarmağa" razı oldu. Belə gəlişi gözəl olmayan yolla Ermənistan Respublikası nəhayət öz tanınmasını təmin etdi. (s. 512)*

Adi sözlərlə deyilsə, Ermənistan "təsadüfən" de-fakto ölkəyə çevrildi. Erməni quldur diktatorlarının iddialarına qulaq asanda isə bu "təsadüfi" tanınmanın sanki yer üzünün ən möhtəşəm hadisəsi olduğunu düşünürsən.

"Avetik Şəkiyan Parlament binasının eyvanından toplaşmış sakinləri salamladı və bu tarixi günü mümkün etmiş ordunu və xalqı tərifledi." (s. 512) Bu, erməni liderləri tərəfindən işlədilən ictimai münasibətlər silahı olacaqdı.





*...Hökumət evi qarşısında kütlənin sevimlisi olan Daxili İşlər naziri Abraham Gialxhəmədənyan Ermənistanı ürəyi İrəvanda, əlləri Aleksandropolda, başı Qarabağda, ayaqları isə Diyarbəkr və Qara dənizdə olan nəhəngə bənzətdi. Həmin əjdaha əsrlər boyu yatmışdı və hətta bəziləri təəccüblənirdi ki, o, hələ də sağdırmı: Lakin biz bilirik ki, onun ürəyi heç vaxt döyünməkdən qalmamış, əlləri isə işdən heç vaxt soyumamışdır. Bu gün Müttəfiqlər həmin faktı başa düşdülər və biz bilirik ki, tezliklə həmin nəhəng titan öz başını tərpədəcək, ayaqlarını uzadacaq və düz dayanacaqdır. (s. 513)*

Bir neçə ayın içində həmin "titan" öz başını qaldırdı, ayaqlarını üzatdı və düz dayandı ki, əl altdan iş görərək, bircə güllə də atmadan Sovet İttifaqı ilə birləşsin. Bu erməni quldurlarının nə edəcəklərindən qorxmaq üçün Müttəfiqlərin hər cür əsası vardı, çünki de-fakto tanınmaqlarına baxmayaraq, bu qatillər öz qonşularının torpaqlarını işğal etmək haqqında danışmağa başladılar.

1920-ci ildə erməni qəzetləri bütün erməni xalqı üçün çap olunacaqları zaman haqqında şellənirdilər:

*Müttəfiqlərin gecikmiş şəfqəti nə erməni diplomatik cəhdlərinə, nə də erməni fəhlə-kəndlilərinin arzularına təsir göstərmişdir; bu, yalnız Müttəfiqlərin Sovet Rusiyası ətrafında qurduqları sanitar kordonunun bir budağı idi. "Şəfqət" göstərilməsinin yolu erməni xalqı üçün elə məşəqqətli oldu ki, azadlıq haqqında onların bütün bəyanatlarından sonra Müttəfiqlər öz tanımalarını "mövcud olan ölkə" ilə məhdudlaşdırdılar; sanki erməniləri birləşmiş və müstəqil bir millət kimi nəzərə almamaq mümkün idi. (s. 514)*

Ermənistan Parlamentinin vitse-prezidenti Levon Şant bəyan etdi ki, "millət öz başlıca ehtiyatlarını işə salmalı və döyüşü başa çatdırmalıdır ki, "Türkiyə Ermənistanının bizim olmasına" şübhə yeri qalmasın". Karo Sassuni əlavə etdi ki, "taleyin birinci olaraq Ararat

dağının kölgəsində yaşayan ermənilərin üzünə güldüyünü Qərbi ermənilər yaxşı bilirlər. Qərb erməniləri döyüş meydanlarında öz qanlarını Şərq ermənilərinin qanı ilə qarışdırmışlar və indi xəbərdardırlar ki, hazırki süni sərhədlər tezliklə aradan götürüləcəkdir." (s. 515)

Bu gün dünya adi bir səbəb üzündən Ermənistanın real təhlükəsi ilə üzləşir: Ermənistan Rusiya ilə sazişlər bağlamış və hərbi bazalar yaratmaq üçün rusları öz ölkələrinə dəvət etmişlər. Və bu gün rus qoşunları orada yerləşdirilmişdir. 1992-ci ildə həmin bu Rusiyanın hərbi köməyi ilə ermənilər Qarabağı ələ keçirmək üçün qəflətən Azərbaycana hücum etdilər. Onlar hələ 1920-ci ildə geri qayıdacaqlarını bəyan etmişdilər.

Həmişəyaşar təhlükə orasındadır ki, "Türkiyə Ermənistanını" zorla "birləşmiş" Ermənistana qatmaq üçün Ermənistan Türkiyəyə hücum edəcəkdir. Bu da hələ 1920-ci ildə vəd edilmişdi.

Rusiyanın Ermənistanla müqaviləsi vardır və o bu qatillər bandasını müdafiə etməli olacaqdır. Türkiyə isə Avropa və Birləşmiş Ştatlarla NATO müttəfiqidir. Soyuq müharibənin uzun illəri ərzində Türkiyə Rusiyanın əleyhinə Amerikanın sadiq və etibarlı dostu olmuşdur. Aydındır ki, rusların müdafiə etdiyi Ermənistan Türkiyəyə hücum edərsə, Amerika öz köməyi ilə gələcəkdir.



Avropa müttəfiqlərinin Ermənistanı yanvarda "de-fakto" tanımalarına baxmayaraq, "yalnız 1920-ci il aprelin 23-də Birləşmiş Ştatlar Ermənistanı tanıma istiqamıtində tədbirləri genişləndirdi və nəhayət, növbəti ilin əvvəllərində rəsmən tanıdı." (s. 519)

Birləşmiş Ştatların Ermənistanın statusunu hətta de-fakto tanımamasında göstərdiyi müdrikliyə şübhələnməsi üçün bir neçə əsaslı səbəbi vardı. Bir neçə ayın içində Amerika rəsmiləri ərazilərə belə status vermələrinə peşiman ola bilərdilər.

Ermənistanın "de-fakto" ölkəyə çevrilməsi çox çəkdi və Dronun erməni quldur dəstələri Zəngəzurda terror rejimi qurdular. (s. 519) Zaqafqaziyada Britaniyanın Baş komissarı Con Oliver Uardrop qeyd edirdi ki, yeni de-fakto erməni dövləti "ordu birləşməsini yanvarın 24-də iyirmi dörd müsəlman yaşayış məntəqəsinə hücuma göndərmişdir". Uordrop xəbərdar edirdi ki, əgər qoşunlar və artileriya Zəngəzurdan dərhal çıxarılaraq intizama tabe edilməsə, o öz ölkəsinə "Ermənistana rəğbət və hər cür yardımı dayandırmağı" tövsiyə edəcəkdir. Çünki "Müttəfiqlərin məsləhətlərinə Ermənistanın əməl etməməsi dözülməzdir". (s. 520)



Bütün bunlar Avropa müttəfiqlərinin Ermənistanın ölkə statusunu de-fakto tanımasından cəmi dörd gün sonra baş vermişdi. Əfkariümuminin fikrinə əsasən deyə bilərəm ki, Ermənistan tamamilə irqçi və etnik ölkə olmuşdur və indi də elədir. O, əlindən gələn hər şeyi etmişdir ki, yalnız Allaha inancları ermənilərinkindən fərqləndiyinə görə müsəlman dünyasını qırıb-çatsın.

Haçansa de-fakto status alan Ermənistan liderləri dünyanın hər bir güşəsindəki muzdlu agentlərinə təlimatlar göndərərək mümkün olan hər bir mənbədən pul qoparmaq kampaniyasına başlamağı tapşırdılar.

ON BEŞİNCİ FƏSİL

# ERMƏNİLƏR AMERİKADA KOLONİYA YARADIR

## BRİTANİYA DEYİR Kİ, ORADA GENOSİD OLMAMIŞDIR

III cildə yazdığı ön sözdə Hovanissyan 1988-ci il Qarabağ hərəkatından danışır. O, bəyan edir ki, "1990-cı ildə mənim – Ermənistan Respublikasının tarixçisinin – indiki Ermənistanın Milli Elmlər Akademiyası, o vaxtlar isə Sovet Ermənistanının Elmlər Akademiyasına üzv seçilməyim həm məmnunluq, həm də ironiya idi. O hərəkətin mənası isə böyük idi". Hovanissyan davam edərək yazır ki, "çoxdilli mənbələrdən istifadə edərək və çoxşaxəli tədqiqat işləri apararaq Ermənistan Respublikasını kölgələrdən çıxarmaq və partizan streotiplərindən azad etmək mənim məqsədim idi". (1)

Sovet Rusiyasından alınmış materiallar bir yana qoyularsa, çoxdilli-şaxəli mənbələr fantaziyadır, reallığa münasibətlə yoxlananda isə, çoxu yalandır. Hovanissyanın dedikləri gözəl səslənir, lakin əslində isə faktlarla tutuşdurulanda onun sözləri əksər hallarda yalan və saxtadır.

Hovanissyan qeyd edir ki, "Şərq məkanında Amerikanın fəal iştirakdan imtinası və Kilikiyaya fransız marağı Ermənistanın dənizdən dənizə olan istəklərini uzaq xülyalara çevirdi". (s. 22) Əsl həqiqət burasında idi ki, "dənizdən dənizə" Böyük Ermənistan yaratmağa mane olan bir sıra əsaslı səbəb var idi – ona görə də Müttəfiqlərin heç biri bu göydən-gələn-kökə və əsassız sxemi dəstəkləmədi və Müttəfiqlərin bunu etməməyə çox tutarlı əsasları var idi.





"Fevralın 16-da London konfransı öz onuncu iclasında ilk olaraq erməni məsələsinə toxundu. Həmin vaxt üçün artıq Millerənd Parisə qayıtmışdı." (Məhz bu cəhət göstərir ki, Müttəfiqlər bu məsələyə necə ciddi əhəmiyyət verirdilər. Bəziləri hətta arqumentləri dinləmək belə istəmədi.)

*Müzakirəyə rəhbərlik edən Kurzon bəyan etdi ki, erməni məsələsinin həllinin siyasi və coğrafi aspektləri vardır. Siyasi nöqteyi-nəzərdən Müttəfiqlər bir səslə müstəqil Ermənistanın yaradılmasına tərəfdar idilər; onların döyüşlərinin bir səbəbi də məhz bu idi. Həmin ölkənin nüvəsi artıq İrəvan ətrafında muxtar Ermənistan Respublikası kimi mövcud idi və o, bu yaxınlarda Ali Şura tərəfindən tanınmışdı. Daha hansı torpağın bu ölkəyə qatılacağı isə həll edilməmiş qalır. "Bir qədər Böyük Ermənistan" və ya daha balaca ərazi. (s. 23)*

Müttəfiqlər I Dünya Müharibəsində bir qədər Böyük Ermənistan ... və ya müstəqil Ermənistan... və ya hər hansı bir Ermənistan yaratmaq üçün döyüşməmişdilər! Müttəfiq ölkələr bir-birinin arxasınca müharibəyə girəndə bu onların məqsədi deyildi. Hovanissyanın yuxarıdakı hay-küyü isə boş çərənləmədir.

17 fevral 1920-ci ildə Müttəfiqlər Erməni Komissiyası yaratdılar. Hər bir Avropa ölkəsindən olan komissiya üzvlərinə erməni nümayəndə heyətinin iddialarını dinləmək tapşırıldı. Görəsən komissiya hansı vəhşi iddiaları dinləyəcəkdi?

Komissiya ermənilərdən xahiş etdi ki, onlar istədiyi torpaqların sərhədini xəritədə çəksinlər. Xətt çəkildi və

*Qara dəniz sahilindəki Tireboli [Tripoli] məntəqəsindən başlayıb cənuba uzanaraq Çeft-Kelkitə, oradan isə Xarput vilayətinin sərhədinə çatdı. Erməni nümayəndə heyətindən soruşuldu ki, "onlar iddia etdikləri torpaqlara nəzarət edə bilrlərmi", Aharonyan cavab verdi ki, əgər Müttəfiqlər Polşaya göstərdikləri kömək kimi ermənilərə də əl uzatsalar, onlar nəzarət edə bilərdilər. Kammerer məlumat verdi ki, Polşa Avropada yerləşir və oradakı vəziyyət fərqlidir. Buna baxmayaraq, Aharonyan inad etdi ki, əgər onlara silah, sursat və 50,000 adam üçün pal-paltar verilərsə və əgər onlar Müttəfiq qüvvə-*

*lərin prestijli bayraqları altında vuruşarlarsa, onda erməni ordusu həmin torpaqları zəbt edə bilər. (s. 27)*

Ermənilər Müttəfiqlərin əlli minlik qoşunu təmin etməsini istəyirdilər. Son hesabata əsasən Ermənistanın cəmi on üç minlik qoşunu var idi, görəsən yerdə qalan əlavə otuz yeddi min əsgəri ermənilər haradan alacaqlarını düşünürdülər? Bu da fırıldaqçı terrorçu ölkənin daha bir şişirdilmiş təqdimatı! Fikir verin, bu başkəsənlər yığınının başqasının torpaqlarını qamarlamaq üçün Avropa Müttəfiqlərinin dalğalanan bayraqları altında hücuma keçməsini xahiş etmək sırtıqlığı qətiyyən ağla sığışmır! Erməni liderləri dedilər ki, bu onlara "prestij" verəcəkdir, lakin əsl həqiqətdə isə ermənilər elə plan qurmuşdular ki, həmin bayraqlar gülləyə tutulacaq və beləliklə, ermənilər Avropa müttəfiqlərini özlərinin o cılız, çirkin müharibəsinə qatacaqdılar.

"Komissiyanın ikinci iclasında erməni liderləri bəyan etdilər ki, onların Ermənistana veriləcək Osmanlı İmperiyası torpaqlarına köçməyə hazır dayanmış 800,000 nəfər adamı vardır." (s. 29) Erməni diktatorlarının həmin əhalini haradan gətirəcəklərini "iddia etdikləri" siyahı:

- 295,000 qərbi Ermənistan qaçqını Qafqazdan
- 100,000 erməni Türkiyənin içərisindən
- 120,000 erməni Gürcüstandan
- 120,000 Azərbaycandan
- 50,000 Bessarabiya, Krım, Don və Rusiyanın digər hissələrindən
- 10,000 Şimali Qafqazdan
- 30,000 Balkan ölkələrindən
- 10,000 Misir, Sudan və Efiopiyadan
- 30,000 Qarabağdan
- 50,000 erməni-amerikan kaloniyasından.

Ermənilər deyirdilər ki, hələ onlar bu siyahıya "Ərəb əyalətlərinə səpələnmiş minlərlə erməni qaçqınını, habelə Kilikiya, Smirna və Konstantinopoldakı bir neçə yüz min adamı" daxil etməmişlər. (s. 33)

Amerika şahidinin dediyi kimi, 1,549,000 ermənininin ərəb ölkələrinə getməsi ümumi nəticədə 2,349,000 nəfər, üstəgəl "Kilikiya, Smirna və Konstantinopoldakı bir neçə yüz min erməni".





Həmin sual bir də verilməlidir: Hovanissyan öz kitabının I cildinin 8-ci səhifəsində bəyan edir ki, "Türkiyədəki təxminən 2 milyon erməni Rusiya İmperiyasındakı ermənilərdən daha pis səpələnmişdir" və onların təxminən 1.5 milyon nəfəri onun genosid adlandırdığı hadisələr vaxtı türklər tərəfindən qətlə yetirilmişdir. Yaxşı, onda yeni Böyük Ermənistanda məskunlaşacaq erməni qaçqınları haradan gələcəkdilər? Məgər onlar "xortlamışdılar"? Və ya, hər şeydən əfzəli, onlar doğrudanmı ölmüşdülər? Hovanissyan I Dünya Müharibəsinin ərəfəsini müzakirə edir. 4-cü səhifədə o, "1914-cü ildə Romanovlar İmperiyasında 2 milyon ermənidən..." söz açır. Bu sitat Osmanlıların erməniləri öz ölkəsindən vurub çıxarması vaxtı ilə düz gəlmir. Çünki ermənilər müharibə vaxtı satqınlıq etmişdilər.

Yadınıza salın ki, sülh konfransında erməni liderləri əlli min ermənin "Amerikadakı erməni koloniyalarından" öz vətənlərinə qayıdacaqlarını demişdilər. Nə üçün erməni liderləri "Amerikalı ermənilər" koloniyası yaratmalı idilər? Bir yandan ermənilər öz müharibələrinə kömək üçün qoşun yığır, digər tərəfdən isə "Amerikalı ermənilər kaloniyası" yaradırdılar? Cavab isə belədir ki, diktatorların öz adamlarını Amerikada yerləşdirməyə ehtiyacı vardı ki, onlar pul diləməyə və Amerika qoşunlarını istəməyə lobbilik etsinlər. Amerikanlar erməni liderləri tərəfindən idarə olunurdu və bu məsələ bu gün də davam edir.

London konfransında erməni qaçqınlarının sayı ilə bağlı problemlərinə əlavə olaraq ermənilər bir faktla da üz-üzə qaldılar: həm Gürcüstan, həm də Azərbaycan komissiyaya müraciət edərək öz əraziləri və sərhədləri haqqında məsələ qaldırdı. Bu iki ölkənin istədiyi və iddia etdiyi torpaqların böyük hissəsi ermənilərin tələblərinə daxil edilmişdi.

Erməni Komissiyası 27 fevral 1920-ci ildə öz hesabatını verdi. Komissiya müəyyən etdi ki, "güman ki, 500,000 nəfərdən çox olmayan erməni geri qayıdacaqdır; indi mövcud olan respublikanın 1.2 milyon əhalisi ilə birlikdə ermənilərin sayı 2 milyondan da az olacaqdır." (s. 33)

"Komissiya nəticə vururdu ki, əgər Ermənistan keçmiş türk ərazisi hesabına ölkə qurmaq istəyirsə, bu, yalnız turk silahlı qüvvələrinin həmin ərazini boşaltmasından sonra həyata keçirilə bilər..." (s. 34)

Ermənilərə ən ciddi zərbə isə hesabatın nəticəsindəki belə bir hissə oldu ki, "müqavilənin tətbiqi üçün 15,000 nəfərdən 20,000 nəfərədək Avropa silahlı qüvvələrinin iki və ya üç il ərazidə qalmasına ehtiyac vardır". (s. 35) Müttəfiqlər ermənilərin öz güclü ordusunu yaradacağına şübhə ilə baxırdılar və "özlərinin də bu əməliyyatda iştirakına şübhə etdikləri üçün bəyan etdilər ki, bu planı həyata keçirmək üçün Ermənistan özü milli ordu yaratmalıdır; silah-sursat, pul və güman ki, könüllü zabit heyətini isə Müttəfiqlər verəcəkdi". (s. 35) Başqa sözlə desək, aydın oldu ki, öz xəyallarını gerçəkliyə çevirmək üçün bir neçə illiyə ermənilər Müttəfiqlərin qoşunlarına ehtiyac duyacaqdır, Müttəfiqlər isə sadəcə olaraq buna hazır deyildi. Üstəlik, ümum-erməni ordusu yaradacaqları haqqında ermənilərin gətirdiyi dəlillər ağla batmırdı.

Erməni liderlərinin ürəklərinə yaxın və əziz olan iki məsələ var idi: xristian dünyasından və "ödənclərdən" alınacaq sərbəst sədəqələr. Erməni liderləri Ermənistan Komissiyasına kütləvi ölüm və qırğınlar haqqında uydurduqları əhvalatları danışırdı və onların iddiaları nəzərə alınırdı. Onlar "türk hökumətinin qurbanına çevrilmiş ayrı-ayrı fərdlərə və kommunalara yardım edilməsini konfransdan tələb edirdilər. Bir qədər əvvəl ermənilər Osmanıl İmperiyasının onlara vurduğu ziyanı 19 milyard fransız frankı müqabilində dəyərləndirmişdilər, bu isə Rusiya Ermənistanında 5 milyarda bərabər idi. 3 mart tarixli memorandumunda nümayəndə heyəti izah edirdi ki, həmin statistika ilkin hesablamalar əsasında aparılmışdır və dəqiqləşdirilməsinə ehtiyac vardır". (s. 57-58) Bunula da ermənilər, əgər ilk tələbləri yerinə yetiriləcəkdisə, əlavə pul diləmək üçün qapını açıq saxlayırdılar.

Erməni liderləri komissiyaya deyirdilər ki, necə olur ki, "ermənilərdən çox məşəqqət çəkmiş heç bir millət yoxdur; onlar köçürülməyə, oğurlanmağa, soyulmağa, zorlanmağa və qırğına məruz qalmışlar. Dəhşətli fiziki, maddi və mənəvi məhrumiyyətlərə düçar edilməyin müqabilində konfransın türk hökumətinə yalnız yardım və kompensasiya təklif etməsi qəribə idi". (s. 58) Deməyə ehtiyac yoxdur ki, ilk olaraq Osmanlı İmperiyasında özlərinin qiyam qaldırdığını erməni liderləri komissiyaya demədilər. Axı onların "köçürülməsinə" səbəb həmin nankorluqları olmuşdu.





*Fransanın nümayəndəsi Albert Kammarer ciddi şəkildə qeyd etdi ki, türk subyektlərinin köçürülməsi münasiəbtilə qaldırdığı iddialara əsasən Türkiyə əleyhinə məsələ qaldırmağın qanuni çətinlikləri vardır. O, Türkiyənin geniş ərazisini itirməsi və dövlət əmlakının kompensasiyasız ora daşınması məsələsinə mübahisə obyekti kimi baxırdı. Komissiya Kammererin mövqeyini müdafiə edərək, fərdi əsası olduğu üçün köçürülməni müzakirə obyektinə çevirmədi. Martın 27-də qəbul etdiyi son qərarda maliyyə komissiyası "anonim şəkildə fikir yürüdərək müqavilənin maliyyə bəndlərinə azsaylıların köçürülməsi ilə bağlı heç bir xüsusi xərc ayrılmasını nəzərdə tutmadı". (s. 59-60)*

Sadə dillə desək, Avropa müttəfiqləri faktları saf-çürük edərək, erməni liderlərinin yalvarışlarını və köçürülmə ilə əlaqədar tələblərini dinləyərək onların ziyanlar haqqında iddialarına sıfır dollar pul verdilər. Müttəfiqlərin qərarı ilə bağlı olaraq Hovanissyan öz sürüşkən və meylli mövqeyini fərqli surətdə izah edərək yazır ki, "Köçürülmə ilə bağlı erməni itkiləri və əzabları isə kənara süpürüldü." (s. 60)

Hovanissyandan belə bir sual soruşulmalıdır ki, "Bəs erməni liderləri öz xalqını müharibə zonasından qovularaq ölkədən çıxarılmasına səbəb olmuş qiyamlara başlayanda sən nə gözləyirdin? Xəcalətli satqınlıq üçün mükafatmı?" Ermənilərin gileyli hayküyünün, yalvarışlarının və Türkiyədən qovulmasının üstündən səksən beş ildən artıq keçməsinə baxmayaraq, üstəlik də günlərini məhkəmədə keçirərək müharibələrdə uduzduqları kimi uduzmalarına baxmayaraq, bu gün də davam etməsi qəribə görünmürmü? Osmanlılar erməniləri müharibə zonasından köçürəndən səkkiz il sonra, 1923-cü ilədək Türkiyə heç müstəqil respublika da deyildi.

Aşağıdakı məlumat (1) türklərin sözünün doğru və (2) ermənilərin sözünün yalan olduğunun sübutu kimi maraqlıdır.

*Milli azlıqların müdafiəsi və hüquqları ilə bağlı müddəalar məğlub dövlətlərə aid sülh müqavilələrinin hamısında öz əksini tapmışdı, xüsusi müqavilələrdə isə məğlub dövlətlərin ərazilərinin digərlərinə qənimət kimi verilməsi öz əksini tapmışdı. Hər iki halda Müttəfiq dövlətlərlə ittifaqa girən hökumətlər harada anadan olmasına, millətinə,*

*dilinə, irqinə və ya dininə fərq qoymadan öz sakinlərinin əmin-amanlığının təminatına razılıq verirdilər. Bu isə onların həyatının və azadlıqlarının tam müdafiəsi, qanuni, mülki, siyasi və iqtisadi hüquqlarının qorunması demək idi. Azlıqda qalan kommunalar mədəni, dini, xeyirxah məqsədli ictimai, tədris və siyasi birliklərin sərbəst qurulması və öz doğma dillərini işlətmək hüququ qazanırdılar.* (s. 60)

Bu gün Türkiyəyə gedən hər bir adam özü görə bilər ki, türklər uzun illər ərzində öz sözlərinin sahibi olmuşdur və sülh bəyannaməsində təmin edilmiş azadlıqdan hər bir insan bəhrələnir.

Ermənistanda isə öz millətinin "rəsmi" kilsəsindən başqa digər din daşıyıcıları üçün azadlıq yoxdur. Türkiyədəki kilsələrin internet saytında daha çox erməni "rəsmi" kilsəsinin siyahısı vardır, nəinki Ermənistanın özündə. Ermənistanın heç bir yerində qapısı dindarların üzünə açıq olan adi müsəlman məscidi belə yoxdur! Aydındır ki, onlar öz sözlərinə xilaf çıxmış, 1920-ci ildə imzaladıqları sülh müqaviləsini pozmuşlar. Sadəcə, əsas azadlıqlarla bağlı ermənilərin verdiyi söz yalan olmuşdur.



Bir anlığa Müttəfiqlərin araşdırdığı və onlara əsasən hərəkət etdiyi "müharibə cinayətlərinə" nəzər salın. Müttəfiqlər Osmanlı sənədlərinin hər birinə nəzarət edərək müəyyən nəticəyə gəlmişlər. Dörd nəfər şəxs həbsə alınmış və cəzalandırılmışdır; onların cinayətinə əsas səbəblərdən biri "müharibə əsirlərinə qarşı vəhşiliklər etmək" olmuşdur. (s. 67) Bu dörd adam ölüm cəzasına məhkum edilmişdir. İstanbulu işğal edən kimi Osmanlı sənədlərinin hamısı Britaniyanın nəzarəti altında olmuşdur. Konqresdə şahidlik ifadəsi verərkən Castin MakKarti bəyan etmişdir ki, Britaniya "ermənilərin əleyhinə təşkil edilmiş hər hansı bir genosidin baş verməsi haqqında fakta rast gəlmədiyini etiraf etməyə məcbur olmuşdur".

Castin MakKarti *Ölüm və sürgün: Osmanlı müsəlmanlarının etnik təmizlənməsi, 1821-1922* adlı kitab yazmışdır. "Şərqdə son müharibə" adlanan altıncı fəsildə professor MakKarti qeyd edir ki, bəzi Osmanlı qoşunlarının ermənilərə qarşı dəhşətli işlər görməsi doğrudur. O, bəyan edir ki, onun tədqiqatları "bəzi Osmanlı rəsmilərinin özləri ermənilərin soyulmasında, bəzən isə hətta öldürülməsində iştirak etmişlər. Osmanlı hökuməti bunu təsdiq etmiş və ermənilərin əleyhinə



hərəkətlərdə iştirak etmiş çoxlu türkü ittiham etmişdir. Kamuran Gurun erməni əleyhinə hərəkətlərdə təqsirli bilinmiş 1,397 adam haqqında sənədlər tapmışdır..." və s. məsələləri sübut edir.

Ermənilərin də əlləri təmiz deyildi. Terror kampaniyaları aparmasına və ermənilərin itkilərindən üç dəfə çox türk öldürülməsinə görə isə bircə ermənin belə istintaqa cəlb edilməsi haqqında heç bir məlumat yoxdur. Ermənilər türklərin onlar tərəfindən zorlanması, talanması, var-yoxdan çıxarılması və öldürülməsi haqqında bir dəfə də danışmamışlar. Hər iki tərəf bir-birinə pislik etmişdir. Yeganə fərq burasındadır ki, Osmanlılar öz rəsmilərinin əməllərinin qarşısını almağa səy göstərmiş və ermənilərin əleyhinə onların cinayət işlərinin istintaqını aparmışdır. Daha həqiqət olanı budur ki, Osmanlı dövləti erməniləri genosid etmək üçün heç bir təşəbbüs göstərməmişdir. Bunun tam əks tərəfi də həqiqətdir – erməni hökuməti və Erməni Kilsəsi əl altdan ya özünü görməzliyə vuraraq və/ və ya əmr edərək vaxtaşırı günahsız mülki müsəlmanların qırğınını törətmişdir.

Ermənilər bu gün də şikayətlənirlər ki, erməni xalqının qırılması üçün Türkiyə geniş miqyaslı kampaniya aparmışdır. Bəs sübut haradadır? Əlbəttə, Osmanlı sənədlərində heç bir əsaslı sübut olmamışdır – Britaniya həmin sənədlərin hamısına nəzarət etmiş, heç nə tapmadıqda isə Osmanlı paytaxtı İstanbulu zəbt etdiyi üç ildən artıq müddətdə saxta məlumatları yaxşı dişli daraqla darayıb düzmüşdü. Əlbəttə ki, nə Ermənistanın özündə, nə də digər bir yerdə heç bir dəlil-sübut olmamışdır. Qırılıb-çatılmış ermənilərin kütləvi qəbirləri haradadır? Heç yerdə yoxdur! Əksinə, ermənilər tərəfindən qətlə yetirilmiş türk qurbanlarının şərəfinə ucaldılmış azsaylı abidələr vardır və əgər bir adam bu gün Türkiyəyə getsə, o, türklərin kütləvi qətlindən sonra dəfn edildiyi qəbristanlıqları görə bilər. Bu özü danışan müqayisə deyilmi?



Ermənistanın diktatorları üçün daha bir bəd xəbər var idi. Müttəfiqlərin Ali Şurası 18 aprel 1920-ci ildə San Remoda yığışdı. Hovanissyan gileylənir ki, "yalnız Ermənistana aid olan məsələyə görə San Remo konfransı London konfransının qərarlarından uzaqlaşdı. Lloyd Corc tərəfindən istiqamətləndirilən Ali Şura əvvəlcə müqavilədəki erməni bölməsinə əsasən silahlı qüvvələrin göndərilməsi məsuliyyətini öz boynundan atdı, sonra isə xəcalət çəkmədən ermənilərin

güman edilən sərhədlərini müəyyənləşdirmək məsələsinə qayıtdı". (s. 71)

Quldur erməni rəhbərlərinin necə dar düşüncəli olduğunu sübut edən daha bir məsələ! Müttəfiqlər başa düşürdülər ki, tamahkar ermənilərin torpaq qamarlamaq cəhdlərinə görə oraya çoxminlik əsgərləri, Müttəfiqlərin oğullarını göndərmək nə onların borcudur, nə də vəzifəsi. Digər tərəfdən isə ermənilər dönə-dönə hiss elətdirirdilər ki, guya hamı onlara borcludur. Ermənilərin belə qeyri-realist və əsası olmayan iddiaları bu gün də davam edir.

Müttəfiqlər isə vəziyyətə aşağıdakı kimi baxırdılar:

*Ermənistana münasibətdə Müttəfiqlər Amerikanın güclü istəyini bölüşürdülər – müstəqil ölkənin qurulması və indiki ehtiyacları və gələcək genişliyi üçün kifayət edəcək ərazi ilə mükafatlandırılması. Eyni zamanda onlar real vəziyyəti də nəzərdən qaçırmamalı idilər – nəzərdə tutulan ərazinin türk hərbi qüvvələrinin nəzarəti altında olması və ermənilərin Qafqazdakı qonşuları ilə düşmənçiliyi! Birləşmiş Ştatların iştirak etməyəcəyi nəzərə alınardısa, ermənilərin kömək üçün üz tutacaqları mənbələr çox kasad idi. Ona görə də ermənilərin işğal edə bilməyəcəkləri və bütün ölkənin təhlükəsizliyini qoruya bilməyəcəklərinin müqabilində belə gərginlik yaratdığına görə Müttəfiqlər onlara torpaq bağışlamaqda maraqlı deyildilər. Müttəfiqlərin hökumətləri ermənilərin maksimum iddiaları müqabilində deyil, maksimum potensialı müqabilində torpaqda yerləşməsini istəyirdilər. (s. 75)*

Müttəfiqlər belə bir faktı da nəzərdə saxlayırdılar ki, çoxlu yüz illiklər əprzində digərinə mənsub olmuş torpaqları Ermənistan ələ keçirəcəkdir. Belə bir şəraitdə sivil dünyanın hər bir vətəndaşı Müttəfiqlərə minnətdar olardı. Ermənilərdən savay!

"Erməni məsələsində Müttəfiqlərin peşimançılığı aprelin 20-də nahardan sonra o həddə çatdı ki, San Remodakı konfransın Ali Şurası heç adəti rəğbət və xoş arzularını bildirmədən faktiki olaraq bu məsələni kənara qoydu." Nəhayət Müttəfiqlər heç nəyin müqabilində nəsə tələb edən, yalvaran və həmişə nəsə qamarlayan erməniləri ayaqları altına saldı. Müttəfiqlər başa düşdülər ki, əgər onlar





boyün əyib quldur erməniləri müdafiə etsələr, "onda gərək hərəsində təxminən 15,000 adam olan dörd diviziya Ermənistan Respublikasına bəxşiş edilmiş torpaqlara nəzarət etmək üçün həmin əraziyə göndərilsin; səkkiz diviziya isə azsaylı xalqların qorunması və türklərin tərksilah edilməsi üçün ayrılmalıdır". Müttəfiqlər Ermənistana onun istəyincə verilə biləcək qüvvələrin hesabını yekunlaşdıranda aydın oldu ki, "bu işləri yola vermək üçün Müttəfiqlərin on doqquz diviziyasına ehtiyac yaranacaqdır, o vaxt isə cəmi səkkiz diviziya mövcud idi". (s. 79)

Britaniyanın Baş naziri Lloyd Corc şərt qoyurdu ki, yunanlar kimi ermənilər də öz döyüşlərini özləri aparmalıdır. "Əgər onlar öz sərhədlərini qorumağa qadir deyilsə, onda dünyada belə bir millətin olmasına ehtiyac yoxdur və belə vəziyyətdə heç bir Müttəfiq hökuməti onlara hətta ən adi bir batalyonla belə kömək etməməlidir.

*Bu isə o deməkdir ki, ser, əgər müsəlman dünyası İngiltərə, Fransa və ya İtaliyanın qulu olmaqdan xilas yolları axtaracaqsa, onda Birləşmiş Ştatların əsgərləri müsəlman zorakılığının qarşısını öz canı və qanı ilə kəsməli olan divara çevrilməlidir. Mən general Harbordun mövqeyini bəyənmirəm, çünki onun hesabatını oxuyan hər bir kəs görəcəkdir ki, nə dərəcədə mümkündürsə, o, Ermənistan mandatını qəbul etməyə tərəfdardır.*

*General bəyan edir ki, hazırkı məqamda orada 60,000 nəfərlik qoşun olmalıdır. İndi baxaq görək, əgər 60,000 amerikan oğlu dünyanın quş damından da darısqal yerinə göndərilirsə, hər qarışı*

*dərə-təpə olan və hər qarışına 3,000 il ərzində insanların qanı axıdılmış torpaqda nələr baş verəcəkdir. Orada hücumlar olacaqdır. Bu xalqlar heç zaman sülh şəraitində olmamışdır. Mən artıq nümayiş etdirdim ki, bu yeni respublikalar, və ya üzdəniraq yeni respublikalar bu saat müharibə aparırlar. (19)*

Erməni mandatını qəbul etməyən senator Rid və Birləşmiş Ştatların Senatı müdriklik göstərdilər. Tarix sübut etdi ki, öz torpaqlarını ingilis və fransız işğalından azad etmək üçün müsəlman dünyası ayağa qalxdı. Müsəlman torpaqlarını işğal etməyə cəhd göstərmiş İngiltərə də, Fransa da qanlı əvəz verməli oldular və nəticədə geri çəkilməyə məcbur qalaraq I Dünya Müharibəsində qazandıqlarını əldən verdilər.

Ermənilər öz iddialarını təkrar edərək onların guya 1.5 milyon nəfərinin türklər tərəfindən qırıldığını irəli sürdü. Birləşmiş Ştatlar Senatının tribunasında olan senator Riddən soruşuldu ki, belə bir dəhşətli hadisənin baş verməsinə ermənilər necə imkan verə bilmişdir. Həqiqət belə olmuşdu ki, köçürülən erməniləri müşaiyət etmək üçün çox azsaylı türk zabit və əsgərlərindən ibarət qanun keşikçiləri ayrılmışdı.



Senator Rid bu məsələyə də toxundu:

*Ermənilər haqqında nə deyə bilərəm? Mən o adamlardanam ki, heç vaxt irqi ayrı-seçkiliyə fərq qoymuram, çünki mən yaxşı bilirəm ki, irqindən asılı olmayaraq sivil həyata qədəm qoymuş hər bir irqin öz keyfiyyətləri vardır, heç bir irq elə bir varlıq yetişdirməmişdir ki, o öz iştirakı və ya vətəndaşlığı ilə hər hansı bir digər ölkənin bəzəyinə çevrilməsin. Lakin biz bu məsələ haqqında danışarkən birliyi nəzərə almalıyıq: həmin birlikdə ermənilər haqqında nə demək olar?*

*Oradan başlamaq istəyirəm ki, əgər onlar ədalətli və düzgün adamlar olsaydı, bütün bu baş verənlər heç vaxt baş verməzdi. Bizə deyilir ki, erməniləri kütləvi surətdə qırıblar, heç bir tərəddüd etmədən bütöv ailələr məhv edilmişdir. Biz türk əsgərlərinin gəlib evlərə soxulması, ər və ya ata da daxil olmaqla bütöv ailəni sanki çoxlu donuzu qırırmış kimi qırması haqqında əhvalatlar oxuyuruq. Bizim irqlə belə bir şey mümkün olmazdı. Əgər hər hansı bir üstün irq*



*tərəfindən qırğına rəvac verilsəydi, bizim özümüzü də qıra bilərdilər, lakin bizim həyatlarımız 10-un 1-ə nisbətində satılardı.*

*Bizim tariximizdə bu dəfələrlə təkrar olunmuşdur – meşədə kiçik məntəqələrdə məskunlaşmış azsaylı kişi və qadınlardan ibarət qruplara təpədən-dırnağa qədər silahlanmış vəhşi bandalar hücum etmişdir – lakin indiyədək kim eşitmişdir ki, hindular onun arvadının boğazını kəsəndə və ya uşaqlarının baş dərisini çıxaranda hər hansı bir amerikan öz silahını yerə qoymuşdur? Həmişə pəncərələrin dalının bərkidildiyi, qapıların bağlandığı və son gülləyə qədər atəş açılması, güllələr qurtarandan sonra isə tüfənginin dabanı ilə döyüşü davam etdirərək qılıncla doğranana qədər evini müdafiə etməsi haqqında əhvalatlar oxuyuruq. Yalnız bundan sonra, və ya heç bundan sonra da yox, onlar həmin adamın arvadını və uşaqlarını ələ keçirmişlər. (20)*

Görəsən, senator Rid Erməni Kilsəsinin qiyama rəvac verməsi və öz əshabələrinə silahlanmağı təhrik etməsi haqqında bilsəydi nə deyərdi? Məsələ burasındadır ki, I Dünya Müharibəsi başlayanda ermənilərin hamısı ciddi surətdə silahlanmışdı. Senator Rid nə deyirsə düz deyir – belə vəziyyətə düşmüş hər bir xalq özünü müdafiə edərdi. Təpədən dırnağa kimi silahlanmış ermənilərin köç karvanlarının yaranmasında Osmanlıların mövqeyi müzakirə obyekti ola bilməz.



Belə bir sualın soruşulmasına ehtiyac yaranır: Əgər ermənilər təpədən dırnağa silahlanmışdısa, onda nə üçün qıraqda dayanaraq arvadlarının və uşaqlarının, valideyinlərinin və nənə-babalarının qırılmasına imkan verirdilər? Həqiqət burasındadır ki, ermənilər elə-belə sakitcə qıraqda dayanaraq 1.5 milyon (və ya həmin məsələ ilə bağlı istənilən sayda) adamın heç bir döyüş olmadan soyuqqanlıqla öldürülməsinə imkan verməzdilər.

Ermənilər iddia edirlər ki, onlar cəsur və qorxmaz döyüşçülər kimi I Dünya Müharibəsində Müttəfiqlərə kömək istiqamətində vacib rol oynamışlar (lakin bunun məhz əksinə olan faktlar da vardır ki, ermənilər daha çox heç nə ilə məşğul olmamışlar). Əgər onlar belə cəsur və qorxmaz adamlar olsaydılar, onda nə üçün belə hiddətlə nifrət etdikləri "qorxulu türkdən" özlərini qorumadılar?

Senator Rid öz barmağını həqiqətin ürək döyüntüsünün üzərinə qoydu. Orada türklər heç bir qırğın törətməmiş, ona görə də özünümüdafiəyə cəhd də olmamışdır. Bu saxta nağılın yaradılması ideyasını ortaya atmış Erməni Kilsəsinin xadimi başa düşmüşdü ki, əgər o, "qırğın" və "qılıncdan keçirmə" sözlərini işlətsə, o əhvalat daha yaxşı səslənəcəkdir.

General Harbordun hesabatını diqqətlə öyrənmiş senator Rid axırda dedi ki, o, ermənilərin "qılıncdan keçirmə" və "qırğın" əhvalatına inanmır.

*Lakin mən bir anlığa bir addım kənara qoyaraq diqqəti bu xalqın xarakterinə yönəltmək istəyirəm və bunu edərkən sizin fikrinizi bir qədər əvvəlki bəyanatıma yönəldirəm ki, general Harbord bacardığı qədər yaxşı hesabat hazırlamışdır. Mən burada ermənilərin qırılması və türklərin qəddarlığı haqqında təsirli hesabatlarla dolu xeyli səhifə tapmışam. Onlar hər hansı hərbi yazıçı qələminə məxsus rənglərlə doludur, adətən elə yazarlar ağır, soyuq faktlara bəzək-düzək vurmurlar, lakin onlar ustad rəssamın üslubundan xəbər verən fırça ilə ifadə edilmişdir, həmin adam bütün bacarığından istifadə edərək sadə cümləni də qorxusuz bəyanat kimi təqdim etmişdir; mən bunu ermənilərin şəkli kimi ermənilərin dostu tərəfindən verirəm. Müəllif indicə qadınların zorlanması, uşaqların ac qoyulması, evlərin yandırılması, şəhərlərin talan edilməsi və insanların qul əməyinə və ya ondan daha betəri olan türklər tərəfindən qul əməyinə vadar edilməsi haqqında türk qəddarlığının qrafik mənzərəsini başa çatdırdı. Sonra isə bu bəyanat gəlir:*

*Müharibənin toxunduğu ərazidən köçürülmüş ermənilərin xaraba qalmış kəndləri heç şübhəsiz, türk qəddarlığının nəticəsidir, lakin rusların köməyi ilə ermənilərin girdiyi və çıxdığı kəndlərdə də eyni qəddarlıqların törədilməsi türklərin anti-humanist qəddarlığı ilə yarışa girir. (21)*

Senator Rid diqqəti general Harbordun hesabatındakı başqa bir bəyanata yönəldir:

*Öz qanının tökülməsində erməni də günahsız deyil; onun yaddaşı möhkəmdir və cavab tədbirləri adekvatdır və əgər imkan düşəcəksə, yenə də əvəz çıxacaqdır. İrqi tərəfdən vəhşi ari kürdlərə qovuşsa da, sonuncular onlara nifrət edirlər. Gözlərindən yaş axıdan kürdlər onları kəndlərindən qovmuş ermənilərdən qorumaq üçün müraciət etmişlər. İndi kürdlər qarşıdan sürətlə gələn və dağlıq yerlərdə xüsusilə sərt olan qışın soyuğundan qorunmaq üçün öz evlərinə qayıtmaq icazəsi üçün yalvar-yapış edirdilər. Kürdlər iddia edirlər ki, Rus İmperiyasının məhvindən sonra dağılmış rus ordusunun əvəzinə zühur etmiş rus bolşeviklərinin müşaiyəti ilə erməni başkəsənləri çox dəhşətli vəziyyət yaradaraq çoxsaylı kürdləri qırıb çatmışdır.*

*Ərzurum əhalisi də təxminən eyni iddia ilə çıxış edərək içərisində yüzlərlə türkin məhv olduğu yanmış binaları göstərir; Həsən-Qalanın rəhbərliyi isə böyük düzənlikdəki 43 kəndin ermənilər tərəfindən xaraba qoyulduğunu deyir. Britaniyanın konsulu Stivensə görə, içərisində ermənilərin də olduğu xüsusi komissiya Batumidə yaranmış söhbətləri yoxlayaraq bu bəyanatların düzgünlüyü qənaətinə gəlmişdir. 1918-ci ilin martında Bakıda ermənilərin 2,000 azərbaycanlını öldürməsi həmin ilin noyabrında 4,000 erməninin azırbaycanlılar tərəfindən öldürülməsi ilə davam etdirildi. (22)*

Senatorun bəyanatlarının sübutu Ərzurumdakı 2-ci rus Artilleriya Alayının komandiri olmuş Ərzurum və Dəvəboynu qalalarının komendantı polkovnik-leytenant Tverdoxlebovun şəxsi gündəliyinin səhifələrində vardır. Polkovnik bəyan edir ki, "Qafqazdakı rus ordusu 1917-ci il dekabrın ortaları ərəfəsində qabaqlar işğal etdiyi stansiyalardan çıxaraq Baş Qərargahdan və ya heç bir ordu komandanından əmr almadan geri çəkilməyə başladı." Geri çəkilmək haqqında əmr almayan polkovnik və digər zabitlər Ərzurumda qaldılar.

Rus polkovniki bəyan edir ki, rus qoşunları çəkilib gedəndən sonra Ərzurumda Erməni İnqilabçı Komitəsi baş qaldırdı. O öz gündəliyində yazır: "1918-ci il yanvarın ortalarına yaxın hansısa erməni piyada dəstəsi Ərzurumda sayılıb-seçilən bir türkü onun öz evində öldürərək evini talan etdi."

Bu, ermənilərin türklər üzərində həyata keçirdikləri dəhşətlərin başlanğıcı oldu. Rus polkovniki qeyd edir ki, "həmin günlərdə ermənilər qonşu Ərzincanın kasıb türk sakinlərini təsvirolunmaz dərəcə-

də qəddarlıqla qətlə yetirirdilər; türklər silahsız idi və özünümüdafiə üçün əllərində heç nə yox idi". Gündəlikdəki hərtərəfli məlumatları görən (23) senator Rid ermənilərin əllərinin təmiz olmaması və türklər əleyhinə apardıqları dəhşətli cinayətləri haqqında yekun vurarkən tamamilə haqlı idi. Bu cinayətlərin müqabilində ermənilər bir dəfə də məhkəməyə çəkilməmiş və ya belə terror əməllərinə görə heç bir sorğu-suala tutulmamışdır.

Bu münasibətlə senator Rid dedi:

*Bunun hər iki tərəfdən şərqin vəhşiliyi olduğunu qəbul edərək, onların hər biri bu nifrəti əsrlər boyu daşıdığı üçün hər iki tərəf eyni metod və taktikadan istifadə edir. Birləşmiş Ştatlardan cinayətkarlığın, qəddarlığın, əclaflığın, irqi nifrətin çirkabının üzərində nəzarət etmək xahiş olunur, və bu xahişi elə ölkələr edir ki, geniş mənada desək, onlar bu adamların torpaqlarını qamarlamışlar, lakin ona nəzarət baha başa gəldiyi üçün indi həmin missiyanı başqasına tapşırırlar. Həmişə olduğu kimi – və mən Senatda işlənməsi məqbul sayılmayan kobud ifadə işlətməyə hazırlaşıram – xəstə çarpayısının yanında Səm dayı oturmalıdır. Artıq qeyd etdiyim kimi, bizimkilər oraya daxil olandan və adi bir amerikalı əsgərin qanı töküləndən sonra Amerika həmin məsələyə həmişəlik müdaxiləyə məcbur olacaqdır. (24)*

Vyetnamda məhz belə olmuşdu. Nə vaxt ki, Amerika əsgərləri öldürüldü Birləşmiş Ştatlar qlobal surətdə müharibəyə qoşulmağa məcbur oldu. Əgər Birləşmiş Ştatlar 1920-ci ildə Ermənistana da eyni münasibət bəsləsəydi, onda Ermənistan iyirminci əsrin ilk Vyetnamı olacaqdı. Müsəlman torpaqlarını qamarlamış çörəkitirən erməniləri qorumaq üçün kütləvi hay-küydən ötrü Amerika oğullarını göndərməməyi qərara alan Birləşmiş Ştatların Senatı düzgün arqument gətirdi. Həm ingilislər, həm də fransızlar çətinliklərdən sonra bu dərsi öyrəndilər; müsəlmanlar işğal etdikləri torpaqlardan onları qovmağa başlayana qədər onlar saysız-hesabsız gənclərinin ölümünə bais oldular. Əgər Amerika Ermənistanda olsaydı, onun da başına eyni oyun gətiriləcəkdi.

Birləşmiş Ştatların Ermənistanın mandatından imtinasının bir nə-





çə səbəbi var idi. Ermənistan Avropanın çox baha qiymətə satılan çirkab gölməçəsi idi və vəziyyət dəyişsəydi belə, Birləşmiş Ştatlar dünyanın bu hissəsini heç vaxt tərk edə bilməyəcəkdi. Senator Ridin izah etdiyi kimi, Amerika xalqının öz ehtiyacları da var idi.

Senator Rid həm də amerikanların böyük ehtiyaclarından danışdı. O soruşurdu ki, təxminən 72,000 nəfərdən ibarət Amerika qoşununu ölkədən 6,000 mildən artıq bir məsafədə yerləşdirməklə yeddi yüz əlli milyon və ya daha çox dollar pulu sərf etmək nə dərəcədə müdrik addımdır?

Senator Rid dedi ki, "Ölkəmizin içində tale yüklü vəzifələrimiz olaola bizdən bu mandata əsasən oraya girmək xahiş olunur. Xalqımızın on bir faizi nə oxuya, nə də yaza bilir; bizim məktəb müəllimlərinə o dərəcədə az əmək haqqı verilir ki, bu hətta adi qulluqçu qız saxlamağa belə bəs etmir. Bizim məktəbli uşaqlar dərsliklərlə lazımi səviyyədə təmin olunmur. Bütün bunlar isə dövləti öz intellekti ilə idarə edənlərin hökumətinin torpağında baş verir.

Hələ öz həllini gözləyən misilsiz mənbələrə nəzər salın – istifadəyə verilməli çaylar, bataqlıq torpaqların qurudulması, çöllüklərin münbit hala salınması, hələ istifadəsiz olan gözəl təbii ehtiyatlar öz növbəsini gözləyir. Təkcə Mississippi vadisində su ilə örtülmüş 20,000,000 akr torpaq bütün Nil çayı boyu olan dəfinəli vadi kimi zəngindir. Lakin biz bu çaylara və limanlara yaxınlaşanda buralara qoyulan mayanın 12,000,000 dollar kəsilməsi ilə qarşılaşırıq. Mənə elə gəlir ki, bütün məbləğ cəmi altmış min adamlıq ordunu heç bircə ay Ermənistanda saxlamağa çatmazdı. Budur bizim adamlar zibilli yollarla hərəkət edir, ölkə xətləri ilə mallarını bazarlara daşıyır, sayılması mümkün olmayan vaxt və enerji itirirlər, çünki orta əsrlərin səfeh xaç daşıyanları kimi bizdən heç nə soruşulmayıb ki, öz enerjimizi itirmək üçün özgə torpaqlara gedək, ya yox. Bəlkə Avropanın böyük xalqlarının qurduğu tamaşada siçan-pişik oynamalıyıq?

"Lakin bütün bunları etdiyimiz zaman bilməliyik ki, ölkəmizdə təkcə savadsız adamlar yox, həm də taleyi kəm gəlmişlər vardır. Bu torpaqda elə bir şəhər yoxdur ki, orada balaca uşaqlar çadırlarda topalanmasın, orada qadınlar it əzabı içərisində işləməsinlər, orada analar göz yaşlarının kor etdiyi gözləri ilə öz sevdikləri körpələrinin solğun sifətlərinə baxmasınlar. Bütün bu torpaqda elə bir yer yoxdur

ki, orada vəziyyətin ağırlığı ucbatından şüurlar sıxılmasın və ya harasa getmək üçün pul çatışmadığından uşaqların və gənclərin inkişafına əngəl olmasın." (25)

Arkanzas ştatından senator Robinson belə bir fikrini ifadə etdi ki, "Birləşmiş Ştatların geniş qəlbli vətəndaşları zorakılığı aradan qaldırmaq üçün xeyriyyə fondlarına illər uzunu saysız-hesabsız məbləğdə pul verimşdir. Ermənistanda vəziyyəti öyrənmiş adamların mövqeyinə hörmət etsəm də deməliyəm ki, belə yardım yalnız müvəqqəti xarakter daşımalı və heç bir halda vəziyyətin tələblərinə adekvat olmamalıdır". (26)

Sual hazır vəziyyətdə ağla gəlir: İndi, senator Robinsonun öz bəyanatını verməsindən səksən ildən artıq vaxt keçəndən sonra Birləşmiş Ştatlar hər il təxminən 100 milyon dollar xarici yardım ödəyir, senator nəzərə alacaq ki – 2002-ci ildə olduğu kimi ildə 100 milyon dollar yardım Ermənistan adlanan cırtdan ölkəyə müvəqqəti kömək kimi bəs edərmi? Amerikanların ermənilərə verdiyi hüdudsuz yardım nə vaxt başa çatacaq? Birləşmiş Ştatların Konqresinin məntiqinə əsaslanan bu münasibətin axırı görünmür.



Erməni mandatı məsələsi ilə bağlı olaraq Senatın apardığı geniş müzakirələr haqqında adam oxuyanda aydın olur ki, Ermənistanın islamçılığı deyil, xristianlığı daşıması əsas səbəblərdən biridir.

Artıq yuxudan qalxaraq ermənilərin əslində kim olduqlarını görmək vaxtıdır.

Senator Brəndegi mübahisə edirdi ki, "hər yerdə xristian xalqları eyni mövzunu səsləndirirlər. Xüsusilə erməni xalqı və ingilislər həmişə zavallı ermənilərə rəğbət bəsləmişdir. Əlbəttə, həmişə ona görə belə olmuşdur ki, onlar xristian qardaşlarıdır və türk torapaqlarında hər ikisi köməksiz görünmüşdür". (27)

Senator Tomas qeyd etdi ki, indiki şəraitdə Birləşmiş Ştatların bu yeni və naməlum missiyaya qol qoyması çoxsaylı təhlükə ilə dolu kontingentlər və hər yerdə mandatın ehtiyaclarını ödəməyə borcluluğu bir az ağılsızlıq olardı.

Əsas xətt budur: 1920-ci ildə ermənilər Birləşmiş Ştatların Konqresinə lobbilik edərək yetmiş iki minlik yaxşı təminatlı qoşunla Amerika vergi ödəyənlərinin beş illik qiymətinə – yeddi yüz əlli milyon dollar xərc çəkərək onu Ermənistana nəzarətçi göndərirdi. Və nəzərə alın ki, Amerika Birləşmiş Ştatları heç vaxt Osmanlı İmperiyası ilə müharibə vəziyyətində olmamışdır.



Birləşmiş Ştatların Senatı həmin mandatdan imtina etdi. Məlumdur ki, nə Birləşmiş Ştatlar hökumətinin, nə də Amerika vergi verənlərinin Ermənistana heç bir borcu yox idi.

Bu erməni professorunun dağıdıcı erməni planlarına Amerika Konqresinin imtinasına olan reaksiyasına nəzər salın. Hovanissyan ABŞ-ın seçilmiş senatorlarına aşağıdakı sözlərlə hücuma keçir: "Müzakirə... mayın 29-da başlandı. Prezident Uodrou Uilsonun öz məktubunu göndərməsindən beş gün sonra. Hər şey gözlənirdi, çünki prezidentin xahişi münasibətilə nə dinləmələr, nə də öyrənmə olmamışdı, Ermənistana köməkliyin alternativ yolu da yox idi. Hər şey Konqresin öhdəsinə buraxılmışdı, o, prezidenti çətinə sala və sıxışdıra bilər və ya belə qeyri-münasib təklif etdiyi üçün demokratlar partiyasına öz lideri haqqında yenidən düşünmək mesajı göndərə bilərdi." (28)

"Qeyri-münasib təklif" bəyanatdır və erməni Hovanissyan onu xoşlamasa da, Birləşmiş Ştatların Senatı düzgün qərar çıxarmışdı. Senatın Xarici Əlaqələr Komitəsinin terrorçu ermənilər haqqında prezidentin xahişi üzrə dinləmələr aparmamasından Hovanissyan şikayətlənir. Gərək kimsə Hovanissyana desin ki, bu, tamam-kamal Birləşmiş Ştatların vergi ödəyənlərinin puludur. Əgər Birləşmiş Ştatların senatorları bir pis əməl görürlərsə, onların digər pis əməllərdən ötrü sonsuz dinləmələr aparmağa ehtiyacları yoxdur.



Hovanissyan prezident Uilsona və senator Loca kinli hücuma keçir. Yenə də nəzərə alın ki, erməni terrorçu diktatorlara "yox" söyləməklə senator nəyi nəzərdə tutmuşdur. O, yenidən "Ermənistana öz dərin rəğbətini ifadə etdiyini" söyləmiş və bəyan etmişdir: "Mən mandatın qəbul edilməsi və qeyri-müəyyən müddətə Ermənistanda aşağısı 60,000 nəfərlik Amerika qoşununu saxlayaraq əl-qolumuzun bağlanması ilə tamamilə razılaşmıram. Onların kömək üçün qışqırtılarına qarşı tamamilə kar olmaq arzum da yoxdur, çünki onlar cəsur adamlardır və öz din və azadlığının saxlanmasından ötrü əsrlər boyu mübarizə aparmışlar və məncə, hər bir amerikalılnın rəğbətinə layiqdirlər; lakin bu, mandata sahib çıxmaqdan və neçə il çəkəcəyini bilmədiyimiz dövrdə həmin ölkənin qayğısının çəkilməsindən tamamilə fərqlidir." (29)

Məgər hər hansı amerikalı ana, ata və ya vergi ödəyən adam bu erməni professorunun onlara necə hücum etməsindən asılı olmayaraq 1920-ci ildə erməni terrorçularına "yox" demiş Birləşmiş Ştatların Senatına dərindən və qəlbən "təşəkkür edirəm" deyərək sevinməzmi?

Birləşmiş Ştatların Senatının son müzakirəsi 1 iyun 1920-ci ildə aparıldı.

Erməni mandatı ilə bağlı təklifdə çoxsaylı boşluqların olmasını aşkar edən kampaniyaya Henri Kabot Loc istiqamət verirdi. Tənqidçilər belə bir fakta diqqəti cəlb etdilər ki, hələ öz sərhədlərini müəyyənləşdirməmiş bir ölkədən ötrü məsuliyyət və borc altına girmək ən yaxşı halda yığnaq müzakirəsinə bənzəyəcəkdir; Birləşmiş Ştatların belinə dünyanın "kasıb evi" yəhəri qoyulur, İngiltərə və Fransa isə ən gəlirli əraziləri özlərinə saxlamışdır; amerikalı analar öz oğullarının uzaqdakı "taun məskənində" qurban getməsinə icazə verməyəcək; mandatla bağlı xərclər qadağan həddindən də çox olacaqdır; çətinliyə düçar olmamaq haqqında Monro Doktrinasına əməl edilməlidir; Millətlər Liqasının gizli liderləri Birləşmiş Ştatlara həmin təşkilatın "arxa qapıları vasitəsilə" zor göstərməyə cəhd edir; "şəfqət evdən başlanır"; ciddi daxili problemlər xarici humanitar münasibətlərdən üstün tutulmalıdır; amerikanları mənasız xidmətlərə görə vergiyə cəlb etmək konstitusiyaya ziddir. (30)

Amerikanın öz qoşunlarını Ermənistana göndərməmək üçün bu səbəblərdən hər biri kifayətdir. Görün Hovanissyan prezident Uilsona necə hücum edir: "Cavab olaraq, prezidentin səlahiyyətli müdafiəçiləri yalnız humanitar və mənasız arqumentləri dilə gətirə bildilər; Uilson onları faktlar və rəqəmlərlə silahlandırmamışdı və Ermənistan üçün mandat almaqdan ötrü biznes icmasının cəlb olunması istiqamətində heç nə etməmişdi, yalnız Yaxın Şərqi Amerikanın həyati maraq dairəsində saxlamışdı." (31)

Senatdakı müzakirələr Uilsonun erməni-terrorçu-mandat-sxemi əleyhinə səs vermək üçün ikiqat partizan müdafiəsinə gətirdi. Corciya ştatından demokrat senator Houk Smit soruşurdu: "Bizim ölkənin anaları oğullarının hərbi xidmətə çağırılmasını istəyirmi?" Erməni torpaqları dərə-təpəli və qeyri-münbitdir, İngiltərə və Fransa isə hər yerdə zəngin neft quyularını və mis mədənlərini ələ keçirmişdir. "Birləşmiş Ştatlara isə onlar böyük pul və insan itgisindən savay heç nə gətirməyəcək bir şey təklif edirlər." (32)





"Birləşmiş Ştatlarda erməni borc iltizamları satmaqla" Birləşmiş Ştatların bu məsələyə müdaxiləsi üçün erməni lobbisi son-xəndək cəhdini etdi." (33) Bu avara dəstənin amerikanların boğazından əl çəkməsi üçün Birləşmiş Ştatların Senatının "yox" deməyə tutarlı səbəbi var idi.

Ermənilər də yerli amerikanlar kimi eyni vəziyyətdə idi, təxminən dörd yüz il qabaqdan başlayaraq avropalılar onların torpaqlarını ələ keçirirdi. Hətta Birləşmiş Ştatlar formalaşandan sonra da yerli amerikanlara qarşı eyni siyasət davam edirdi. Sivilizasiyaların və millətlərin tarixində adam gərək zamanın saatını üç min il əvvələ qaytararaq Ermənistan kimi olası ölkə yaratsın.

Hovanissyan "Erməni məsələsinin Senatda müzakirəsindən az sonra həm Respublikaçılar, həm də Demokratlar partiyalarının gündəminə çıxarıldığını" bəyənmədiyini söyləyir. "Çikaqoda Respublikaçı Milli konvensiyasına göndərdiyi əsas tezislərində senator Loc erməni mandatı alınmasına xüsusi diqqət yetirdiyinə görə prezident Uodrou Uilsonu tənqid etmişdir. Xronik qarmaqarışıqlıq vəziyyətində olan qonşu Meksikaya münasibətdə isə prezident demək olar ki, heç nə etmir." (34)

Senator davam edərək yazırdı ki, amerikanların "ermənilərə böyük rəğbəti vardır və bu, axın-axın verilmiş yardımlarda öz ifadəsini tapmışdır. Heç şübhə yoxdur ki, Birləşmiş Ştatlar Ermənistana kömək edəcəkdir, lakin mandata əsasən o hökumətə nəzarət edilməsi və qorunması qəbuledilməzdir. Amerika xalqı öz oğullarını və qardaşlarını qeyri-müəyyən zaman üçün oraya göndərməyəcək və Uilson və onun kimilər Millətlər Liqası vasitəsilə bu məsələni zorla Birləşmiş Ştatların boynuna qoyanda özgə ölkədə öz qanlarını tökməyəcəklər." (35)

Yenidən prezident olmaq üçün namizədliyini verməyən prezident Uilson Ermənistanı müdafiə etmək üçün təklif hazırlamaq məqsədilə Demokratlar Partiyasına müraciət etdi. O deyirdi: "Ermənistana nəzarət məsuliyyətini yerinə yetirmək bizim xristianlıq borcumuzdur

və hökumətimizin üstünlüyüdür..." (36) Milli Demokrat Partiyası Uilsonun xəhişini müdrikcəsinə rədd etdi.

1920-ci ildə Amerika prezident seçkiləri kampaniyası ilə əlaqədar olaraq erməni diktatorunun aşağıdakı münasibətinə nəzər salın. Terrorçu erməninin Birləşmiş Ştatlara bacardığı qədər çox "havayı qazanc" almaq təminatı məqsədilə muzdlu agentlər göndərmək cəhdləri çox maraqlı görünür. İndi onların ictimai əlaqə kampaniyaları çox dərinə getmişdir və öz xüdpəsəndlikləri ucbatından bumeranq kimi özlərinə qayıdır. Amerikan vergi ödəyənləri ayağa qaldırılmışdı və öz xüdpəsənd tələblərinə imtina edildiyinə görə terrorçu Erməni Büro-Hökuməti özündən başqa hər kəsi günahlandırmağa cəhd göstərməyə başladı. 1920-ci ildə terrorçu erməni xəttinin rus və Osmanlı torpaqlarını gəlib onlara verməyən amerikanları günahlandırmasını Hovanissyanın necə həyasızlıqla bəyənmədiyinə fikir verin.



*Bütün dünyanın erməniləri hadisələrin gedişindən və Birləşmiş Ştatlarda siyasi səbəblər ucbatından erməni məsələsinin çözülməsinin nəticəsindən bərk peşiman oldular. Uodrou Uilsonun taktikasına Ermənistan Mətbuat Bürosunun direktoru və Ermənistanın Müstəqilliyi uğrunda Amerika Komitəsinin arxasında dayanan qüvvə olan Vahan Kardaşyandan daha çox heç kim gülünc mövqe tutmadı. 30 iyun 1920-ci ildə Avetis Aharovyana yazdığı məktubunda o, izah edirdi ki, Senata rəhbərlik edən senator Loc açıq şəkildə göstərirdi ki, erməni mandatının qəbuluna icazə istəyən istənilən xahişin qarşısını alacaqdır. Mövqeyi dəyişməz olan prezident Respublikaçılara hər hansı güzəştə getmək xahişindən imtina etmiş, bununla da Ermənistanın partizanlıq obyektinə çevrilməsinə rəvac vermiş, öz təklifinin rədd edilməsi üçün əvvəlcədən şərait yaratmışdır. Bu "tərs, xüdpəsənd və özündən müştəbeh" adam Senata xahişini ermənilərə kömək məqsədilə deyil, öz nüfuzu xatirinə etmişdir. Kardaşyan inad edirdi ki, onun Ermənistana rəğbəti tamamilə siyasi idi. Respublikaçı rəhbərlər Loc, Rut, Hyuz və Hardinq bəyan etmişlər ki, hər hansı bir ölkəyə yardım və ya hətta qoşunar göndərilməsi prezidentin səlahiyyətləri daxilindədir və əgər Ermənistan üçün bu vacib idisə, Uilson o istiqamətdə iş görmədi; Birləşmiş*



*Ştatların Millətlər Liqasına daxil olmasından ötrü o, amerikanlar üçün mandat almaq istəyirdi. Kardaşyan məsləhət görürdü ki, Amerikanın mandatı vacib idi, noyabrdakı milli seçkilərdə Respublikaçıların qalib gələcəyi şübhə doğurmasa da, lobbiçiliyin bundan sonrakı fəaliyyəti onlara qarşı yalnız düşmənçilik xarakteri daşıyaraq özgələşəcəkdi. Kardaşyan davam edirdi ki, Ceyms Gerard Ermənistana geyim ləvazimatı və avadanlıq verilməsi istiqamətində iş aparırdı. Prezidentin həmin yardımı maliyyələşdirmək səlahiyyəti var idi, lakin prezident Uilsonun öz nüfuzundan istifadə edəcəyinə Kardaşyan o qədər də inanmırdı, çünki əgər Ermənistan özünü idarə etməyi bacarsaydı, sonrakı mandat planına ehtiyac qalmayacaqdı. Uodrou Uilsonun səmimiliyinə və şərəfinə münasibətdə bu erməni qiymətləndirməsi kəskin və şübhəli idi, çünki mandat haqqında Senatdakı debatlarda fiaskoya uğrayandan sonrakı nəticələr barədə Kardaşyanın bəzi fikirləri düzgün səslənənə bənzəyir. (37)*



Çox məxfi məktubu dərc etməklə Hovanissyan Birləşmiş Ştatların Erməni Mətbuat Bürosunun sevimli direktorundan daha geniş auditoriyanı əhatə edir və "Ermənistanın Müstəqilliyi uğrunda Amerika Komitəsinin arxasında həmin təşkilatın heç vaxt edə bilməyəcəyi qüvvə formalaşdırır". Əgər Amerika terrorçu diktatorlara və onların özləri adlandırdığı "tarixi vətəninə" qarşı belə dözülməz olmuşdusa, onda nə üçün onlar orada qalmayaraq kömək yalvarışları üçün Birləşmiş Ştatlara təşrif buyurmuşdular?

İkincisi, Hovanissyan nə üçün adi ingilis dilində demir ki, "Kardaşyanın hansı fikirləri düzgün səslənənə bənzəyir"? Hər şey bir yana, axı Hovanissyan öz "qədim" vətəni Ermənistanda qiymətləndirilən və ehtiram göstərilən tarixçidir. Həqiqətə əsaslanan faktlar tapmaq və göstərmək, nəyin düzgün, nəyin saxta olmasını bəyan etmək onun borcudur.

Hovanissyan elan edir ki, "Respublikaçıların Loc, Rut, Hyuz və Hardinq kimi liderlərinin hamısı bəyan etmişlər ki, Ermənistana yardım və hətta vacibdirsə qoşun göndərmək prezidentin müharibə səlahiyyətlərinə daxildir, lakin Uilson həmin istiqamətdə iş görməmişdir..." (38)

Əgər Birləşmiş Ştatlar heç vaxt Osmanlı İmperiyasına müharibə

elan etməmişdisə, prezident Uilson bütün bunları necə edə bilərdi? Əgər Birləşmiş Ştatlar sizin "tarixi vətəninizlə" heç vaxt müharibə vəziyyətində olmayıbsa, zəhmət olmazsa, professor, izah edin görək, hər hansı bir prezident qoşun, silah-sursat göndərmək, kapital qoymaq kimi müharibə qüvvələrini necə işə sala bilərdi ki, sənin terrorçu diktatorlarına göndərsin?

Hovanissyan tarixi nəsillər üçün bu faktı öz bildiyi kimi izah edərək prezident Uilsonun "Birləşmiş Ştatları Millətlər Liqasına daxil etmək üçün Amerika mandatı qazanmaq istədiyini" qeyd edir. (39) Buradan Hovanissyan üçün başqa bir sual çıxır; əziz ser, siz vicdanlı və yaxşı tarixçi olmaq iddiasındasınız – onda, zəhmət olmazsa izah edin: sizin tərəfinizdən belə izah necə obyektiv və inandırıcı ola bilər? Hər şeydən qabaq, Birləşmiş Ştatların Konstitusiyasına görə belə xarici məsələlər Senatda təsdiq olunmalıdır. Sizin erməniləri müdafiə etmək üçün mandat qəbul olunması Senatın əlahiddə hüququdur. Millətlər Liqasının üzvü olmaq isə tamamilə fərqli səsvermə tələb edən prosesdir. Ermənistanın istiqamətlənmiş lobbiçilik cəhdləri altında Amerikanı Ermənistanın polisinə çevirmək məqsədilə öz nəticənizi əldə etmək üçün bu iki məsələni birlikdə səsə qoymağınız isə səfehlik və gülünclükdür.



Kimsə amerikalının boğazından kəsərək heç vaxt geri ala bilməyəcəyi krediti bu erməni "professional dilənçilərinə" verməlidir. Ceyms Gerardın həyasızlığına və sırtıqlığına nəzər salın. Muzdlu erməni agentləri Nyu-Yorkda "Ermənistanın iki illiyi" şərəfinə kütləvi mitinq təşkil etdilər.

*Gerard mandatın uduzulması münasibətilə danışaraq prezidenti öz səlahiyyətlərindən istifadə edərək Ermənistana yardım göndərmək və oranı müdafiə etməyə çağırdı. Gerarda görə, bundan ötrü tutarlı dəlillər var idi. O, Senatdakı səsvermədən qabaq Dövlət Katibi Kolbiyə, səsvermədən sonra isə prezident Uodrou Uilsona məktub göndərərək Ermənistanı xilas etmək üçün görülməsi vacib olan tədbirləri sadalamışdı: Batumiyə döyüş gəmisi göndərmək üçün Senatda qərar çıxarılması istiqamətində iş aparmaq; Ermənistana ərzaq dolu gəmilər göndərilməsində davam etmək; 40,000-dən 50,000 nəfərədək ordu üçün avadanlıq və silah-sursat təminatı; erməni ordusunun yenidən qurulması üçün 50 amerikan zabitinin ayrılması; xarici muzdlular hərəkatını təxirə salaraq amerikalı ermənilərə 10,000 nəfərlik könüllü qüvvənin təşkil edilməsinə icazə vermək; özəl ödəmələr vasitəsilə 75 milyon dollar yığacaq qarışıq amerikan-erməni komissiyası yaratmaq – həmin məbləğin yarısı Birləşmiş Ştatlarda xərclənəcəkdir; ermənilərin əleyhinə növbəti hücumlardan çəkindirmək üçün türklərə xəbərdarlıq etmək və fransızların Kilikiyadakı ermənilərə daha çox rəğbət və dəstəyinə nail olmaq; və Ermənistana kömək göstərmək işində əməkdaşlıq etməyi Müttəfiq dövlətlərdən xahiş etmək. (40)*



Hovanissyan bir əsas fakta lazımi diqqət yetirə bilməmişdi. Batumiyə Senatın göndərəcəyi döyüş gəmisi Ermənistana kömək üçün nəzərdə tutulmurdu. Həmin gəmi amerikanlara kömək və müdafiə üçün göndərilirdi.

Ermənidən başqa hər hansı bir adam inana bilərmi ki, 1920-ci ildə Birləşmiş Ştatların Senatının qoşun göndərərək Rusiya və Osmanlı torpaqlarının alınıb ermənilərə verilməsinə etirazından sonra bu terrorçular üstəlik yeni tələblər siyahısı da təqdim edəcəkdir? İndi sadəcə olaraq "özəl ödənclərdən 75 milyon pul toplayacaq qarışıq amerikan-erməni maliyyə komissiyasının" əsl mahiyyəti haqqında düşünün. Quldur erməni liderlərinə verilmək üçün nəzərdə tutulmuş, amerikanların sonralar heç vaxt geri qaytarılmayacaqları pulu!



Hovanissyan yazır ki, "Birləşmiş Ştatlarda ermənilərə hələ də böyük rəğbət mənbələri var idi, məsələn, altmış nəfər amerikalı bişop prezident Uilsona teleqram vuraraq ondan, Müttəfiqlərdən və ya onların hər ikisindən birlikdə Ermənistan Respublikasını silah-sursatla təmin etməyi və ya Qara dəniz, ya da Aralıq dənizi sahilləri boyunca qoşun batalyonları yerləşdirməyi xahiş etmişdi". (41)

Bu isə ikili standart nümunəsidir. Terrorçu ermənilərin lobbiçiliyi xristianları belə müraciətlər göndərməyə vadar edir, sonra isə Hovanissyanın yuxarıda dedikləri kimi, iddia qaldırırdılar ki, "Birləşmiş Ştatlarda ermənilərə hələ də böyük rəğbət mənbələri vardır". Əsl həqiqət isə burasındadır ki, dini-irqi (xristian-müsəlman qarşıdurması) oyun oynayan ermənilər özləri ictimai münasibətlər kampaniyaları apararaq belə "rəğbət" yaradırdılar.

Erməni quldurlarının Amerikanı öz çirkli müharibələrinə qarışdır-

ması yolunda göstərdiyi cəhdlər məhz o vaxt və orada öz sərhədlərinin müəyyən edilməsi tələbi ilə bağlı idi (Əlbəttə ki, belə sərhədlər Rusiya və Osmanlı torpaqlarını da əhatə edəcəkdi). Ermənilər amerikanları inandırmalı idilər ki, "qış qarları yağmazdan qabaq qaçqınlar öz evlərinə qayıda bilsinlər və qış ayları ərzində onlara 50,000 ton buğda və un göndərilsin, çünki Qərbi Ermənistan torpaqlarının məhsulu olmadan Ermənistan Respublikası öz qaçqınlarını ərzaqla təmin edə bilmir". (27) Həmin buğdanın və unun pulunu kimin ödəyəcəyi haqqında isə heç bir işarə yoxdur, çünki terrorçu Ermənistan ödənişin 100 faizinin hamısını amerikalı vergi verənlərin boynuna qoymağa hazırlaşırdı.

Hovanissyan aydınlıq gətirmir ki, "Qərbi Ermənistan torpaqlarının məhsulu" harada yerləşirdi. Cümlənin tonundan həmin "torpaqların" Ermənistanın Osmanlı İmperiyasından qoparıb öz yeni sərhədlərinə qatmaq istədiyi açıq görünür. Əgər Hovanissyan və onun erməni diktator dostları bunu nəzərdə tuturlarsa, onda bunun bircə mənası olur. Onlar türklər tərəfindən əkilmiş və becərilmiş məhsulun terrorçu ermənilərə verilməsinə kömək üçün Birləşmiş Ştatların əsgərlərini istəyirdilər. Beləliklə, ermənilər tox, müsəlman türklər isə ac qalacaqdılar.



İstanbulda Amerikanın Baş Komissarı Mark L. Bristol "Dövlət Departametinə yazırdı ki, o, Ermənistana mandat verilməsinə imtinadan sevinmişdir; Ermənistan məsələsinin həllinin yeganə yolu türk məsələsinin həll olunmasıdır, bu da "birləşmiş Osmanlı İmperiyası" torpaqlarının bir hökumətin nəzarətinə keçməsindədir". (s. 28)

Admiral Bristolun nə dərəcədə düzgün fikirləşdiyini tarix sübut etmişdir. Müasir Türkiyənin yaranmasına bu təcrübəli hərbi zabitin verdiyi payın nəticəsində bu xalq bu gün dünyanın böyük demokratik respublikalarından və Birləşmiş Ştatların əsl dostlarından birinə çevrilmişdir. Digər tərəfdən, Ermənistan isə diktator ölkəyə çevrilərək Rusiyanın böyük dostu olmuşdur.

Osmanlı torpaqlarının onlara çatması ilə bağlı olaraq prezident Uodrou Uilsonun "fərman" verməsi haqqında yalvaran bu Ermənistan terrorçu bandasının münasibətinə nəzər salın. Bu erməni başkəsənləri bir daha müharibəyə girməyə hazır idilər. Görün Hovanissyan bunu necə izah edir: "...qərar ləğv ediləndə dörd vilayətə hücum



etmək üçün ermənilərin kiçik, lakin yaxşı təlim görmüş ordusu hazır dayanmışdı. Onlar Böyük Britaniyadan yenicə silah-sursat almışdılar və Azərbaycanda bolşevik çevrilişi ilə bağlı olaraq siyasi şərait də onların xeyrinə idi. İşğalı həyata keçirəcəklərinə onların böyük inamı var idi..." (s. 29)

Bir neçə səhifə əvvəl isə Hovanissyan erməni ordusunun zəif keyfiyyəti haqqında vay-şivən qoparan həmin Hovanissyandır! İndi isə bu ordu Osmanlı torpaqlarına hücuma keçmək üçün əmr gözləyən yaxşı təlim görmüş hərbi qüvvədir. Bolşeviklərin öz cırtdan ölkələrinə girməsinin qarşısını almaq üçün Müttəfiqlərə silah-sursatdan ötrü yalvaran da həmin erməni liderləridir. İndi isə, silah və sursatları ələ keçirən kimi onlar başqa bir müharibəyə başlamaq istəyirlər – bu dəfə türklərə qarşı!

Bu diktatorlar ibrət dərsi alan deyildilər. Onlar Osmanlı İmperiyasında qiyama qalxmış və məğlub olmuş, nəticədə ermənilərin hamısı ölkədən qovulmuşdu. Lakin qeyri-rəsmi cırtdan ölkəyə çevrilən kimi onlar Gürcüstanla müharibəyə başladılar və yenidən məğlub oldular. Bundan sonra onlar Azərbaycanla müharibəyə başladılar və yenə də uduzdular. İndi isə onlar yenidən qoşun yeritmək üçün planlar tökməyə başlamışdılar, bu dəfə məhsul yığılmamışdan əvvəl başqa bir müharibəyə başlayaraq türk torpaqlarına soxulmaq istəyirdilər. Səfeh liderlərin təkcə öz xalqının deyil, həm də öz yaxınlarının başına açdığı bu oyunlar nə məna daşıyırdı? Hamısı da Xristin adı ilə!



Ermənistanla bağlı məsələlərə xitam verdikdən sonra Müttəfiqlərin xahişi əsasında prezident Uilson 22 noyabr 1920-ci ildə erməni sərhədləri ilə bağlı öz son hesabatını ortaya qoydu. "Uilson izah edirdi ki, dünyanın digər yerlərindən fərqli olaraq dörd vilayət əhalinin etnik və dini mənsubiyyətinə görə sərhədlərə bölünməsini qəbul etmir. Artıq çox mürəkkəb və qarmaqarışıq olan etnik faktor "dəhşətli qırğınlar və ermənilərlə yunanların köçürülməsindən sonra və ağır itkilər vermiş müsəlman sakınlərinin əzablara qatlaşması vəziyyəti daha da dumanlı etmişdi..."" (s. 39-40)

Adam əsl həqiqəti Ermənistana kömək üçün əlindən gələni etmiş Birləşmiş Ştatların prezidentində tapır. O, açıq surətdə bəyan edir ki, müharibəyə düçar edilmiş hər bir tərəf böyük itkilər vermişdir. Bu

gün türklərin itkilərini yaxın buraxmayan ermənilərin fikri qarşısında amerikanlar öz prezidentinin hesabatına inana bilərlər. Türklərin çoxu isə I Dünya Müharibəsi ərzində ermənilər tərəfindən qətlə yetirilmişdir.

Bu fəsli başa çatdırmaq üçün bir son məqam da qeyd olunmalıdır. Ermənilərin təşnə oiaraq iştahdan keçirdikləri əsasən türk müsəlmanları ilə məskunlaşmış dörd kənd təsərrüfatı vilayəti isə Osmanlı İmperiyasının içərisində idi. Bu, prezident Uilsonun Ermənistanın sərhədlərinə heç vəchlə daxil edilməməsini qərar verdiyi həmin torpaqlar idi. Məhz həmin torpaqları qamarlamaq istəyən erməni başkəsənləri Amerika qoşunlarını istəyirdilər. Lakin amerikanlar yox deyəndən sonra erməni liderləri Osmanlı torpaqlarını öz gücləri ilə qamarlamağa cəhd göstərmək məqsədini ortalığa qoydular. Onlara daha bir dərs verildi və onlar daha bir müharibədə məğlub oldular.





ON DOQQUZUNCU FƏSİL

# ERMƏNİSTAN KÖNÜLLÜ SURƏTDƏ SOVET İTTİFAQINA BİRLƏŞİR

## "RESPUBLİKA" ÖZ AZAD SEÇİMİ İLƏ KOMMUNİSTƏ ÇEVRİLİR

Erməni terrorçu diktatorları Osmanlı İmperiyasına təcavüzün planlarını quraşdıranda yaxınlıqdakı ruslar da dinc oturmurdular.

*Sovet Rusiyasındakı erməni birlikləri şəbəkəsi (Ermənistanın Birləşmiş Ştatlarda və digər xristian ölkələrində yaratdıqları lobbi və müdafiə təşkilatları kimi) İ.V.Stalinin rəhbərlik etdiyi Millətlər Komissarlığı tərəfindən ləğv edilərək pərən-pərən salındı. Üstəlik, Rusiya Kommunist Partiyasının Qafqaz Regional Komitəsi (Kraykom), Qafqaz Bürosu (Kavbüro) və aidiyyəti təşkilatlar "imperializmin lakeyi" və fəhlə və kəndlilərin qatı düşməni adlandırılan erməni hökumətini silah gücünə yıxmağa çağırırdıldar. (1)*

1920-ci ilin baharı üçün kommunist orduları "Qara dənizdən Xəzər dənizinə kimi bütün Qafqaz dağları boyu" nəzarəti ələ keçirmişdi. (s. 45)

Erməni liderləri hər dəfə təhlükə ilə üzləşəndə etdiklərini bir də təkrar etdilər – onlar vəziyyətdən çıxış yolu axtarmaq üçün danışıqlara getməyə cəhd göstərdilər. Belə də oldu, erməni rəhbərlərinin kiçik bir qrupu Moskvaya gedərək öz cırtdan ölkələrində rəhbərliyi kommunistlərə verməyin onlar üçün necə şərəf işi olduğunu deməyə tələsdilər.

Erməni liderləri şirin dilləri ilə onları saxlamağa cəhd göstərsələr də, Qızıl Ordu hissələri hücumunu davam etdirirdi. 1920-ci ilin mayında Qızıl Ordu mübahisəli Zəngəzur kəndlərinə daxil oldu. Onların dediyi kimi, ermənilər öz qoşununu həmin ərazidən çıxarası idi. Ruslar erməni terrorçularına demişdilər ki, erməni öz qoşununu geri çəkməsə, onlar əraziyə girəcək və bu yolla "qarşılıqlı erməni-müsəlman qırğınlarına" son qoyacaqlar. (s. 63)

Onları dinləyənlərin hamısı üçün ermənilər ucadan öz etirazlarını bildirdilər. Erməni terrorçu liderləri haray-həşir saldılar ki, "Qızıl Ordu erməni Qarabağını işğal etmişdir və indi Zəngəzura təzyiq göstərir. Bunlar Ermənistan Respublikasının ayrılmaz hissələri idi və Sovet qoşunlarının zor gücünə ora təcavüzü" rusların xoş məramı haqqında erməni terrorçularında anlaşılmazlığa səbəb ola bilər. (s. 70)

Müdafiəsiz müsəlman qadın və uşaqlarına hücum etməyə həmişə hazır olan general Dro rusları Zəngəzurdan çıxarmaq üçün hay-küy qaldırdı. O, belə bir ultimatum yaydı ki, "ya Qızıl Ordu iyirmi dörd saatın ərzində Zəngəzurdan çıxmalıdır, ya da bütün cəbhə boyu ermənilərin güclü hücumuna məruz qalacaqdır." (s. 85)



Erməni terrorçu generalı yaraya istiot tökməkdə davam edirdi:

*Dro davam edirdi ki, erməni kəndliləri bolşevik işğalçıların əleyhinə böyük həvəslə silaha sarılırlar, onun qərargahına tələsən yüzlərlə və minlərlə adam son otuz il ərzindəki inqilabi mübarizədə çox baha başa gələrək qazanılmış azadlıq və müstəqillik uğrunda döyüşə hazır olduğunu bildirir: "Öz qanlı əllərinizi çəkərək işğal etdiyiniz erməni ərazisini tərk etməyinizi sizdən tələb edirəm!" Dro yekun vururdu: "Qan tökülməsinə bais olmayın, əks təqdirdə qəlbləri ən ülvi bəşəri ideallarla çırpınan iki qardaş rus və erməni xalqları arasında tökülən qanın məsuliyyəti bütün dünyanın zəhmətkeşlərinin qarşısında sizin üzərinizə düşəcəkdir. Ermənistanı tərk edin! Əzabkeş erməni kəndlilərindən taladığınız əmlakı geri qaytarın!" (s. 87)*

Deməyə ehtiyac yoxdur ki, bu partlayış Qızıl Ordu komandirlərini özündən çıxardı. Otuz yaşlı qiyamçı Dro və başqa erməni terrorçu liderləri artıq sonun çatması haqqında anqırırdılar. Təxminən iyirmi beş il ərzində satqınlıqla məşğul olmuş erməniləri türklər öz ölkəsindən çıxarmaqla sakilləşmişdisə, ruslar satqın ermənilərlə o cür mülayim rəftar etməyəcək, onları bağışlamayacaqdı.



Dronun bütün hədələri və hərbi birləşmələrin iddialarına baxmayaraq, ermənilər qorxudan quyruqlarını ayaqları arasına soxaraq bircə güllə də atmadan təslim oldular. Onlar Sovet hökuməti ilə ilkin razılaşma imzalalayaraq "Qızıl Ordu tərəfindən strateji Qarabağ-Zəngəzur-Naxçıvan keçidinin tutulmasını tanımalı oldular". (s. 90)

"Erməni-Sovet razılaşması Qafqazdakı Müttəfiqlər düşərgəsində burulğana səbəb oldu. Danışıqlar və ya erməni strategiyası haqqında Avropa nümayəndəliklərinə qabaqcadan xəbər verilməmişdi. Erməni hökuməti bolşevizmin qabağında açıq-aydın yumşalmışdı və Sovet Rusiyasına meyllənməyə başlamışdı." (s. 96)

Bu həmin o erməni terrorçu bandası idi ki, həmin bu bolşeviklərlə vuruşmaq üçün bir neçə ay qabaq Müttəfiqlərdən silah-sursat yalvarışı edirdi. Beləcə onlar öz azadlıq və müstəqilliyini saxlaya bildilər. İndi isə, konfliktin ilk əlaməti görünən kimi onlar bircə güllə də atmadan təslim olurlar, bununla belə, yüz minlərlə dollarlıq Avropa silah-sursatını da qəbul etdilər.



Zaqafqaziya üzrə fransız komissioneri birbaşa bəyan etmişdir ki, "daha Ermənistan heç bir vəchlə müttəfiq hesab edilə bilməz və hətta onun düşmən düşərgəsində olduğu nəzərdə saxlanmalıdır." (s. 96)

Hərbi Dəniz Qüvvələri komandiri Hərri Lyuk regionda Britaniya Baş Komissarının əvəzi işləyirdi. O, "erməni mövqeyinin tam dəyişməsinə öz təəccübünü" bildirdi. O, bəyan etdi ki, "Naxçıvanın bolşeviklər tərəfindən işğalına erməni hökumətinin razılığı İranın şimal-qərbinə və Türkiyəyə rusların yolunu açmışdır, bu, xüsusilə ona görə belə dözülməzdir ki, Ermənistan lap bu günlərdə Britaniyadan geniş miqyaslı silah-sursat almışdır." (s. 97)

Hovanissyan bu vəziyyəti təsvir edir:

*1920-ci ilin sentyabrında türk millətçiləri keçmiş rus-türk sərhədləri boyunca irəliləyərək Ermənistan Respublikasına daxil oldular. Şərqdə erməni cəbhəsinin aradan götürülməsi Türkiyənin yolunu Azərbaycana və Rusiyaya açacaq və Mustafa Kamala öz ordusunu qərbdə yunan təhlükəsinə qarşı qruplaşdırmağa imkan verəcəkdi.*

*Ermənilər bu gözlənilən təcavüz haqqında tez-tez xəbərdarlıq edirdilər, lakin Britaniya, Fransa və Yunanıstan hərbi qüvvələri Kiçik Asiyada əməliyyatlar apardıqlarından, Müttəfiqlər türk millətçilərinin şərqə hərəkətinə inanmırdılar və ermənilərə dünya miqyaslı rəğbət uzun müddət əzab çəkmiş bu milləti "bəşəriyyətin borcu" diqqətinin obyektinə çevirmişdi. (s. 80)*

Uzun müddət əzab çəkdiyinə görə "bəşəriyyətin borcu" sözünü "qazanmış" Ermənistan? Əzabları bu adamlar özləri öz başlarına gətirmişdi. Əgər dünya kiməsə nəsə "borcludursa", onda bu, Mustafa Kamala və onun türk millətçilərinə edilesi təşəkkür borcudur. Gözünüzün qarşısına gətirin ki, əgər Atatürk belə cəsarətli olmasaydı və qədim Osmanlı İmperiyasının qəlbində əsl xalq inqilabına rəhbərlik etməsəydi, necə böyük ərazi Sovet Rusiyasının hissəsinə çevriləcəkdi! Türkiyə Qərbin ən böyük dostu kimi ortaya çıxacaqdı, Ermənistan isə hələ də gizli əməllərdən çıxa-çıxa Sovet Rusiyasının dostuna çevrildi və bu gün də ruslara yaxın olmaqda davam edir.



Əgər Türkiyə möhkəm dayanmayaraq Rusiyanın işğalının qərb istiqamətində yayılmasının qarşısını almasaydı, soyuq müharibənin pəstahları başqa cür olacaqdı. Lakin Hovanissyanın toxuduğu nağıla qulaq asanda belə çıxır ki, Mustafa Kamal rusların cibində idi və girovdan başqa bir şey deyildi. Tarixin səhifələri bu vəhşi və məsuliyyətsiz dedi-qoduları təkzib edir. Əsl həqiqətdə isə rusların cibində olanlar və onlara girov kimi xidmət edənlər ermənilər idi.

Özlərinin necə gözəl orduya malik olması haqqında erməni liderləri şellənə-şellənə danışır, yalnız silahlara, sursat və avadanlığa ehtiyacları olduğunu deyir, belə olarsa, özlərini müdafiə edə biləcəklərini iddia edirdilər. Həqiqət isə belədir ki, onların balaca ordusu yalnız müdafiəsiz müsəlman kəndlərinə basqın üçün yaxşı idi. Həmin ordu şərq tərəfdən nizami rus ordusu ilə üz-üzə gələn kimi bircə güllə də atmadan təslim oldu. İndi isə onlar nizami türk ordusu ilə münasibətləri aydınlaşdırmalı idi.

*1920-ci ilin sentyabrında erməni ordusu may qiyamından və hərb sahəsindəki çatlardan hələ də özünə gəlməmişdi. Rusiya İmperiyasının hərb akademiyalarında yaxşı təlim görmələrinə baxmayaraq, zabit korpusu balaca millət-ölkənin ehtiyaclarına öyrəşə bilməmişdi. Hökumətin çinləri aşağı salacağı cəhdləri ilə bağlı bəyanatlarına baxmayaraq, zabitlər arasında fraksiyaçılıq və partizansayağı rəhbərlik davam edirdi. Daimi həyəcan vəziyyəti və bütün cəbhə boyu mütəmadi toqquşmalar ordunu əldən salmış, onun alaylarını dağıtmış, ən adi cəbhədə birləşməsini belə qeyri-mümkün etmişdi. Əsgərin əyin-başı tökülürdü, gənclər hərbi xidmətə çağırışdan yayınırdılar, fərarilik baş alıb gedirdi. (s. 184)*



İndi isə erməni terrorçu diktatorlar öz ordusundakı səhvlərə görə ittiham edirdilər. Əvvəlcə bu quldurlar iyirmi beş il ərzində özlərini Osmanlı müsəlmanlarının dostu kimi göstərmiş, üsyana qalxmağa cəhd edərək döyüş xətləri arxasındakı bütün ermənilərin ölkədən qovulmasını "qazanmışdılar". Sonra bu başkəsənlər qonşu Gürcüstana xaincəsinə hücum etmiş və məğlub olmuşdular. Daha sonra isə başqa bir xaincəsinə hücumla qonşu Azərbaycana soxulmuş və yenə də məğlub olmuşdular. Sonra onlar türklərə əclafcasına hücum planlaşdırırdılar. Lakin bu dəfə türklər hazır idilər, onlar erməni terrorçularını qabaqlayaraq özləri hücuma keçdilər və bu başkəsənlər yenidən məğlub oldular.



Bəs Ermənistanın yaxşı təlim görmüş ordusu harada idi?

Hovanissyan yazır ki, "Sentyabrın 13-də səhər saat 2:30-da pulemyotlarla, toplarla və atlılarla silahlanmış beş batalyon və bir neçə birləşmədən ibarət türk qoşunu Olti səmtindən cəbhə boyu hücuma keçərək ermənilərin yuxusuna haram qatdı. Həm fiziki, həm də hərbi mənada yuxuda olan ermənilər çarpaz atəşlərin altına düşdülər." Professor davam edərək yazır: "...200 nəfərdən artıq itki vermiş ermənilər öz toplarını və pulemyotlarını atıb qaçmağa məcbur oldular. İyunda ermənilər tərəfindən zorla tutulmuş Peniak kömür mədənləri bir neçə saatın ərzində geri alındı, türk işğalının yaxında olması haqqında əsgər və mülki adamların arasında böyük qorxu dalğası yayıldı." (s. 188)

Adamı maraq bürüyür ki, görəsən o vaxt general Dro harada idi? Axı o, müdafiəsiz müsəlman kəndlərinə qəfil hücumlarla və Qızıl Orduya qarşı məsuliyyətsiz hədə-qorxu etməklə necə uğur qazanmışdı! Nəzərə alın ki, cəmi dörd ay qabaq ermənilər başqasının torpa-

ğını necə qamarlayırdılar və indi Hovanissyan ərz edir ki, həmin torpaqlar quldur ermənilərindir. "Erməni tarixi vətənini" xilas etmək üçün müdhiş döyüşdə təxminən iki yüz zavallı erməni ya öldürüldü, ya da yaralandı. Əslində isə əsl qoşunla üz-üzə gəldiyindən erməni qoşunları öz silahlarını tullayır və canlarını qurtarmaq üçün qaçırdılar.

"Oltidə türk hərbi əməliyyatı nə Müttəfiqlərin, nə də Sovet Rusiyasının reaksiyasına səbəb olmadı. 1920-ci il üçün Qərb dairələrində erməni hay-küyü daha artıq skeptikliklə qarşılanırdı. Ermənilər tez-tez yaxınlaşan təcavüz, pantürkçü və panislamçı ədavətlər və Sovet-Türkiyə məxfi sövdələşməsi haqqında həyəcan təbili çalsalar da, heç nə baş vermirdi. Hətta belə bir şübhə yaranmışdı ki, ermənilər özləri nəyisə planlaşdıranda və ya artıq nəsə mübahisəli fəaliyyət göstərəndən sonra həmişə ucadan şikayətlənirlər." (s. 190)

Əgər bir neçə həftə qabaq erməni terrorçu diktatorları ruslarla gizli iş birliyinə daxil olmuşdusa, onda nə üçün Müttəfiqlər türk millətçilərinin hücumuna reaksiya verməli idi? İndi isə ermənilər Müttəfiqlərin gəlib onları xilas etməsini istəyirdilər. Bu real dünyada isə Müttəfiqlər öz gənc oğullarının terrorçu erməni ölkəsində ölümə göndərilməsi üçün səbəb görmürdülər.

Sentyabrın 29-da "Qələbənin elan edilməsində" Mustafa Kamal bəyan etdi ki, "qonşularla sülh şəraitində yaşamaq üçün Türkiyə əlindən gələni etmişdir, lakin Daşnaklar bu səmimi istəyin əleyhinə gedərək türk ordusunun üzərinə və Kulp, Kağismən və Onti kimi məntəqələrdə günahsız müsəlman əhalisinin üzərinə hücumlarını intensivləşdirdilər". (s. 197)

Kamal düzünü deyirdi. "Böyük" erməni ordusunu Türkiyədəki "tarixi vətənindən" çıxarmaq üçün Mustafa Kamala cəmi on üç gün vaxt lazım oldu. Kamalın hücumu erməni liderlərinin ümumi təəccübünə səbəb oldu. Xüsusilə ona görə ki, ermənilər özləri Osmanlı torpaqlarına qəfil hücuma hazırlaşırdılar. Hovanissyan bu suala belə cavab verir: "Erməni liderləri inanmırdılar ki, başqa çoxlu problemlər məngənəsində olan Mustafa Kamal Ermənistan Respublikasının əleyhinə belə hücuma cəsarət edər." (s. 198)

"Sentyabrın 30-da ölkənin mühasirə vəziyyətində olduğunu bəyan edən Büro-Hökumət hərbi qanun verdi, otuz beş yaşına kimi olan kişilərin orduya çağırıldığını, fərarilik əleyhinə ciddi ölçülər götürüləcəyini bəyan edərək bütün əhalini "Hər kəs cəbhə üçün! Hər şey cəbhə üçün!" şüarları ətrafında birləşməyə çağırdı." (s. 198) Belə, belə... lakin hamı cəbhə üçün çalışırdı, diktatorlardan savay. Bu, daha çox daldan atılan daş reaksiyası idi, çünki ondan bircə gün qabaq Kamal öz qələbəsini bəyan etmiş və hücumunu saxlamışdı.





Qorxmaz erməni terrorçuları isə panikanı davam etdirirdilər. Hərbi məsələlər naziri "xəbərdarlıq edirdi ki, "Ermənistanın bütün sadiq və ağıllı övladları öz güclü yümruqları altında düşməni məhv etməyə hazırlaşanda" hərbi xidmətdən yayınan və ya icazəsiz fərarilik edən hər bir şəxs müharibə zamanının qanunları və qaydaları əsasında cəzalandırılacaqdır. Fərarilər ictimaiyyətin gözü qarşısında edam olunacaqdır."

Erməni terrorçu diktatorları öz xalqı qarşısında dini və irqi bayraq dalğalandırırdı. Baş nazir bar-bar bağırırdı ki, "Tarixi bir vaxt yetişmişdir. 1918-ci ili yadınıza salın; Sərdarabad və Qarakilsəni yada salın, qəhrəmanlığın yeni çağırışı oxunanda... silahlara sarılın, tərəddüd etmədən müqəddəs müharibəyə qoşulun. Sizlər bir şəxs kimi döyüşə və ölümə hazır olan gün düşmən məğlub ediləcəkdir. Vətəndaşlar! Silahlara sarılın, cəbhəyə doğru, qələbəyə doğru gedin!" (s. 199)

Aydındır ki, bu terrorçu başkəsənlərdən ötrü erməni vətəndaşları ölümə hazır deyildi və son nəticə bunu sübut etdi. Britaniya ermənilər tərəfindən "ardıcıl və həddən ziyadə çox tələblərinə görə aydın şəkildə təngə gətirilmişdi". (s. 212)

Erməni liderlərinin soyuq və döyənəkvari düşünməsi haqqında Hovanissyan yazır: "Erməni hökumətinin ümidi ona idi ki, düşmənin hücumunu ləngitmək üçün əhalinin bütün elementləri birləşəcək və elə bir vəziyyət yaranacaqdır ki, son nəticədə ermənilər üçün münasib olan şərtlər daxilində türklər sülh təklifi edəcəkdir." (s. 268)

Başqa sözlə deyilsə, bu erməni diktator terrorçuları türklərlə münasib razılaşma əldə etmək üçün öz xalqını qurban verməyə cəhd göstərirdi. Görəsən daha hansı növ liderlər öz təlim görməmiş silahsız mülki adamlarını beləcə bilə-bilə öldürməyə cəhd edər?

Noyabrın 30-da Ermənistanın Xarici İşlər naziri Türkiyənin Böyük

Millət Assambleyasına teleqram göndərdi. Görün erməni liderləri öz əlaqələrinə necə başladılar:

"Türk və erməni xalqları əsrlər boyu qonşu kimi yaşamışdır, müasir Türkiyənin və Ermənistan Respublikasının ümumi sərhədləri indi bu iki ölkə arasında qarşılıqlı hörmət və hər bir ölkənin həyati maraqlarına əsaslanan sülh şəraitini tələb edir." Xarici İşlər naziri davam edərək deyir ki, "...heç bir səbəb və məqsəd göstərmədən sizin qoşunların bizim sərhədlərə doğru hərəkətini erməni xalqı və hökuməti dözülməz sayır və təəccübünü bildirir..." Xarici işlər naziri yekun vururdu: "Münasib çıxış yolunun tapılacağına inamını bildirən erməni hökuməti sizin hökumətdən bizim və sizin nümayəndələrinizin görüşərək konfliktin səbəblərini araşdırmaq və sülh yolu ilə çözmək üçün vaxt təyin etməyi xahiş edir." (s. 268)

Bu, terrorçu erməni liderlərinin həqiqəti təhrif etmələrinə heyrətamiz nümunədir. Təminatlı türklər və ermənilər güman ki, səkkiz yüz il ərzində qonşu kimi sülh şəraitində yaşamışdır, lakin təxminən 1890-cı illərdə həmin sülh başa çatmışdı, çünki erməni liderləri Osmanlı İmperiyasının qanuni hökumətini yıxmaq üçün üsyanlara start vermək məqsədi ilə türklərin əleyhinə gizli terror kampaniyasına başlamışdı. İndi isə, çətinə düşəndə və bir daha məğlub olandan sonra bu erməni liderləri iki xalqın "qarşılıqlı hörmətə əsaslanan" sülh şəraitində yaşaması üçün çığır-bağır salırdılar. Bu həmin hay-küyçü diktatorlar dəstəsidir ki, türklərin ilk zərbəsindən ikicə ay qabaq özləri Türkiyə üzərinə hücum planlaşdırırdı.

Türklər birbaşa fakta əsaslanaraq bəyanatla cavab verdilər ki, Ermənistanın Xarici İşlər nazirinin quraşdırdığı "böyük yalanla" həqiqət bir-birinə ziddir.

"Biz yaxşı bilirik ki, 1918-ci ilədək türk və erməni xalqları arasında qanlı döyüşlər şərqi Anadolu üzərində nəzarəti ələ keçirmək istəyən çarizmin istəkləri ilə həmahəng səslənir. Rusiyada imperiya rejiminin süqutu nəticəsində rus hərbi qüvvələrinin çıxıb getməsindən sonra erməni bandaları tərəfindən həyata keçirilmiş dəhşətli qırğınlarla üzləşən Türkiyənin soyuqqanlılığı sakitlik dövrünə təminat vermişdi." (s. 270)

Əlbəttə ki, türkləri yıxmaq haqqında ermənilər hələ 1890-cı illərdən rus maraqları ilə gizli sövdələşməyə girmişdi. Əlbəttə ki, türklərin ermənilərı qırmasından dəfələrlə çox müsəlmanı qırmış ermənilər günahkardır. Ermənilər günahsız müsəlmanları yalnız dini ayrılıq səbəbindən və qonşunun torpağının və əmlakının qamarlanmasına olan erməni iştahına görə öldürürdülər.





Türkün cavabında həm də bəyan olunurdu ki, "erməni qoşunlarının ardıcıl hücumları bizi sizin ölkə əleyhinə qəti hərəkətlərə təhrik etmişdir..." (s. 270) Məhz ermənilərin son otuz ildəki xainliyi və satqınlığı türklər üçün sübut rolunu oynamışdır, əks təqdirdə onlar heç vaxt ermənilərlə yenidən döyüşməzdilər.

Hovanissyan müharibəni qurtarmaq üçün türk tələblərini izah edir: "Türk ultimatumu ilə razılıq ermənilərin bütün sonrakı müqavimətinə son qoyacaq, Ermənistan Respublikası ərazisinin yarısı düşmən işğalı altında qalacaq və beynəlxalq aləmlə ölkənin birbaşa rabitə və nəqliyyat arteriyasını türk ordusunun nəzarətinə keçirəcəkdi. " (s. 276)

Professor erməni diktatorlarının nöqteyi-nəzərini izah edir: "Cəbhədə və ya arxada iştirakından asılı olmayaraq bu xalq müharibəsində hər bir vətəndaş döyüşməli idi. Müharibədə iştirak edən xalqın xarici kömək axtarması qeyri-adi məsələ deyil. Erməni xalqı dönə-dönə xarici dövlətlərə müraciət etmişdir, lakin bütün bu şikayətlər kar qulaqlarda itib-batmışdır. Heç olmazsa, o, əmin olmuşdur ki, xaricdən heç bir müdaxilə olmayacaqdır." (s. 279)

Ermənilər öz hərtərəfli məğlubiyyətini ört-basdır edib kənara qoymağa cəhd göstərirdilər. Türklər yeni hücuma başladı və bu bir həftədən də az müddətdə başa çatdı. Erməni hökuməti üçün təslim olmaqdan savay heç nə qalmamışdı." (s. 289) 18 noyabr 1920-ci ildə erməni terrorçuları türklər tərəfindən yazılmış atəşkəs haqqında müqaviləni imzaladılar və müharibə başa çatdı.

# İYİRMİNCİ FƏSİL

# ERMƏNİLƏR HİTLERİN MİLLƏTÇİ SƏRSƏMLİYİNƏ QOŞULURLAR

## DÜNYANI TUTMAĞA CƏHD EDƏN FAŞİSTLƏRƏ ON İLLİK KÖMƏK

Dildə türklərlə anlaşmanın vacibliyindən və onlara hücumların dayandırılmasından danşmalarına baxmayaraq, ermənilərin muzdlu agentləri bütün xristian dünyasında "səlib" kampaniyaları təşkil etməyə başlayaraq Qərb ölkələrinin köməkliyini təmin etmək istəyirdilər. Hovanissyan bəyan edir ki, "türk millətçiləri ilə Ermənistan arasındakı müharibə etirazın və yalvarışın əleyhinə yönəlmiş döyüş idi. Ermənipərəst cəmiyyətlər Ermənistanın unudulduğu haqqında ucadan göz yaşı tökür, şəhid getmiş erməni xalqının son məhvdən və yer üzündən silinməkdən xilasının "sivil dünyanın" vəzifəsi olduğunda israr edirdilər. Erməniperəst qruplaşmalar arabir Qərb dövlətlərini nigaran və narahat edirdi, lakin türk hücumunun qarşısını almaq üçün hərbi müdaxiləyə əl atmalı olan Müttəfiqlərin qərar çıxarmasında ermənilər son nəticədə uğursuzluğa düçar oldular." (1)

1920-ci ildə belə müraciəti qulaqardına vuran Qərb dlövlətlərinə bütün dünya minnətdar ola bilər. Hovanissyanın "etirazın və yalvarışın əleyhinə", "şəhid getmiş erməni xalqını sivil dünyanın xilas etməyə borclu olması" sözlərinə nəzər salın. Bütün Ermənistandakı kilsələrdə dini ayinlər icra edildi və dualar oxundu. Adamı maraq götürür ki, məgər bu iş Ermənistana aiddir? Xristian dünyası "şəhid" erməniləri xilas etməyə borcludur. Xrist şəhid idi. Stiven şəhid idi. Xristianlığın ilk əsrlərində saysız-hesabsız şəhid öz həyatını Xristə





olan inamına qurban vermişdir. Ermənistan diktator-terrorçu ölkəsi ilə bu həqiqi şəhidləri müqayisə etmək allahsızlıqdır!

Millətlər Liqası təxminən o vaxt təşkil olunmuşdur. Erməni diktator terrorçuları ora üzv olmaq üçün yalvarırdılar. Liqa bu terrorçu rejimə birbaşa "yox" dedi.

Azərbaycanın "sovetləşməsindən" sonra Moskvada erməni-Sovet danışıqları Britaniya Xarici İşlər Nazirliyi tərəfindən Ermənistana köməkliyə birdəfəlik son qoydu. Onların ermənilər haqqında yazılı hesabatlarında xeyli alçaldıcı məqamlar vardır – ermənilərin etibarsızlığı, saxta haray-həşirləri, ikili iş qurmaq məharətləri və öz çatışmazlıqlarında başqalarını günahlandırmaq bacarıqları! Türklərin təcavüzü ərzində ermənilər təkrar-təkrar Müttəfiqlərin hərbi müdaxiləsini tələb etdilər və belə bir görünüş yaratmağa çalışdılar ki, guya Qərb onları kənara tullamasaydı, onlar türk ordusunu yerində oturda bilərdi." (s. 294)

Britaniyanın ermənilərlə əməli iş təcrübəsi var idi. Onlar faktlara söykənən bu mövqenin düzgün olduğunu yaxşı bilirdi.

Birləşmiş Ştatlarda ermənilərin muzdlu agentləri, onların təşkil və sponsorluq etdikləri amerikan-erməni "erməniperəst lobbisi" ermənilərin xilası üçün özlərini daşa-divara çırpırdılar. Ermənistanın Müstəqilliyi uğrunda Amerika Komitəsi (ACİA) Uodrou Uilsona get-gedə artan nifrət bəsləyirdi. Ceyms Gerard və Vahan Kardaşyan öz şəxsi maraqları və erməni sərhədləri məsələsi ilə bağlı olan müzakirələri lüzumsuz yerə həftələr boyu təxirə salması və yalnız 1920-ci il noyabrın axırlarında Müttəfiqləri ultimativ şəkildə məlumatlandıran prezidenti kəskin tənqid edirdilər.

Həmin ASİA-nın üzvü olan Ceyms Gerard noyabr seçkilərindən bir qədər əvvəl Dövlət Katibi Baynbric Kolbiyə yazaraq xəbər verirdi ki, 1919-cu il qərarı "prezidentə Amerika hərb gəmisinin Batumiyə göndərilməsi səlahiyyətini vermişdir. Gerard xahiş edirdi ki, heç olmazsa bu kiçik kömək tədbiri indi həyata keçirilsin." (s. 301)

*1920-ci ilin payızında erməni ordusunun türk millətçilərinə məğlub olması Xarici İşlər Nazirliyinin (Britaniya) hesabatlarında qətiyyətli ifadələrin çoxalmasına səbəb oldu. Duayt Osborn və Rəndal MakDouellin qeydlərindən aydın olur ki, ermənilərin qorxaqlığı, eti-*

*barsızlığı və iddialılığı onları boğaza yığmışdı; Britaniyanın onları silahlandırmasına baxmayaraq, ermənilər hətta öz mövcud ölkələrinə daxil olan Rusiya Ermənistanının kəndlərini belə əldə saxlamağa qadir deyildilər, lakin buna baxmayaraq, onlar eyni zamanda Türkiyə Ermənistanının əyalətlərinə olan iddialarından da əl çəkmirdilər. Həmin qeydlər yuxarıya gedib yüksək çinli rəsmilərin əllərinə çatdıqca izahlar daha gərgin xarakter alır və həm erməni problemini çətinləşdirir, həm də ermənilərin özlərl ilə bağlı qəzəbini daha da artırırdı. (s. 304)*

Türklər irəlilədikcə ermənilər öz muzdlu agentlərini bütün xristian dünyasına göndərir, kömək almaq üçün cəhd göstərirdilər. Diqqət mərkəzində Londondur. Duayt Osborn məlumat verdi ki, o, indicə Xarici İşlər Nazirliyində görünmüş erməniyə demişdir ki, "həddindən artıq məşğul olan nazirin kimisə fərdi qaydada qəbul etməyə vaxtı yoxdur". Bu fikir mübadiləsi haqqında qeydlərində Xarici İşlər Nazirliyində artan narahatçılığı da ifadə edən Osborn təklif etmişdir ki, əgər Xarici İşlər naziri erməni ilə görüşəcəkdisə, ona nələri deməlidir:



*Mümkündür ki, lord Kurzon aşağıdakıları deməyi vacib hesab etsin... "ki, erməni təbliğatı onun özünün məğlubiyyətinə yönəlmişdir, xarici işlər nazirliyi xeyriyyə təşkilatı deyil və xarici şəfqətdən və köməklikdən ötrü aramsız müraciətlərdənsə biz Ermənistanın özündə özünə-inam və siyasi qabiliyyət görmək istərdik; ki, Ermənistanın müstəqil ölkə kimi uzunmüddətli mövcudluğu xarici ordulara və xarici pullara deyil, erməni cidd-cəhdlərinə və qabiliyyətinə əsaslanmalıdır; ki, biz onların nəqliyyatı üçün yanacaq, ordusu üçün hərbi ləvazimat verəcəyik, lakin onlar sadəcə ayaq üstündə dayana bilməkdən ötrü öz ölkələrini müdafiə edib qurmaq üçün xaricdəki çoxsaylı və zəngin erməni birliklərindən adam və kapital cəlb etməlidirlər; ki, hamı birdəfəlik bilməlidir ki, onlara yardım üçün ordu göndərə bilmərik, biz Trabzona heç bir ordu ayıra bilmərik və düşünmürük ki, belə edilsə Ermənistan xilas olacaqdır; ki, biz Trabzonun işğalı ilə bağlı olaraq təkrar-təkrar edilən bu tələblərə hansısa şübhə ilə yanaşırıq, çünki ermənilərin özlərinin həmin əraziyə ordu göndərə bilməsinə ümidimiz yoxdur; ki, Qarsın mühasirəyə alınması və*



*Aleksandropolda Sovet hökumətinin qurulması haqqında alınan məlumatlar Ermənistanın müstəqil mövcudluq qabiliyyəti haqqında şübhələrimizi möhkəmləndirir; ki, bizim Ermənistanın müstəqilliyini (de-yure) tanımağımız üçün təzyiq göstərməyin heç bir əhəmiyyəti yoxdur, çünki Ermənistan nə siyasi, nə iqtisadi, nə də hərbi cəhətdən müstəqil deyil və sərhədləri də yoxdur ki, tanınsın; nəhayət, biz Ermənistanın keçmişdə baş vermiş əzablarını tamamilə nəzərə alır və rəğbətimizi ifadə edirik, biz əlimizdən gələni etmişik və gələcəkdə də Ermənistana kömək və yardım işlərini davam etdirəcəyik, indilikdə isə görmək istədiyimiz yeganə cəhət tamamilə təbliğat və ələbaxımlılığa əsaslanan xarici siyasətin əvəzinə, ölkə daxilində nəsə konkret konstruktiv və inzibati bacarıq nümayiş etdirməkdən ibarətdir. (s. 304-305)*

Brtaniya Xarici İşlər Nazirliyinin bu zabiti tamamilə düzgün mülahizə yürüdürdü. Erməni liderlərinin real siyasi təşkilatı yox idi. Əsl müqavimətə rast gələndə üzdəniraq erməni ordusu çox fərsiz idi. Bu ermənilərin yaxşı yerinə yetirdiyi yeganə iş bütün dünyada apardıqları təbliğat kampaniyası idi. Həmin ölkələrdə onların yalanını çıxaracaq müsəlman əhali olmadığından ermənilərin düzüb-qoşduğu saxta nağıllar həqiqət kimi qəbul edilirdi. Nə xristian təşkilatlarının, nə də hökumətlərin bu erməni qara-qışqırığı ilə bağlı müstəqil araşdırma aparmaması dərin təəssüf doğurur.



Ermənistan üzv olmaq üçün Millətlər Liqasına yalvaranda cavab kəsə oldu: "yox". İştirak edən qırx bir ölkədən yalnız səkkizi bu Ermənistanın "professional dilənçilərinin" üzv ölkə kimi qəbulunun lehinə səs verdi.

Toz-duman çəkiləndən və türklər onların "tarixi vətən"ini fəth edəndən sonra ermənilər öz qınına çəkildilər. "Ermənilər öz müsəlman həmvətənləri ilə harmoniya və bərabərlik altında yaşamaq arzularını ifadə edərək hər iki tərəf üçün münasib olan sülh müqaviləsi imzalamağı irəli sürdülər. Əslində isə, mövcud olduğu iki il ərzində səhvən Ermənistan Respublikasının ərazisinə qatdığı torpaqlarda yaşayan türk-müsəlman əhalisini ermənilər təqib və məhv edirdilər. Türk hökuməti öz ərazi bütövlüyünü təmin etmək və erməni qəsbkarlığına son qoymaq üçün hərbə başlamışdı." (s. 371)

Bu günkü ermənilərin də öz terrorçu diktator babaları kimi eyni əhvalı vardır. Birinci imkan yaranan kimi (1992) Ermənistan Azərbaycana xaincəsinə hücum edərək iyirminci əsrin axırlarında xristianlıq adı altında torpaq qamarlamaq üçün 1 milyondan çox müsəlmanı ata-baba yurdundan pərən-pərən saldı. Heç bir əvəz ödəmədən onların evlərini və torpaqlarını tutmuş müasir xristan ermənilərinin sayəsində həmin müsəlmanların əksəri indi də çadır düşərgələrində dəhşətli vəziyyətdə yaşayır.

Yenidən 1920-ci ilə qayıdaq. "Türkiyənin tələbləri və yeni düşmənçilik hədəsinin artması ilə əlaqədar erməni hökuməti və sülh nümayəndə heyəti əzab çəkəndə Sovet strateqləri Ermənistanın sovetləşdirilməsi vaxtının çatdığı qərarını verdilər." (s. 373)

"2 dekabr 1920-ci il razılaşması ilə Ermənistan Respublikası Ermənistan Sovet Sosialist Respublikasına çevrildi, lakin Ermənistanda və bütün Sovet İttifaqında 29 noyabr bu ölkənin rəsmi və yeganə tanınma günü elan edildi." (s. 390)

Bircə atəş də açmadan erməni quldurları mətin kommunistlərə çevrildilər. Belə bir cəhəti bilmək maraq kəsb edir ki, "Sovet Ermənistanı hökuməti Qarabağın dağlıq hissəsini özünə ilhaq etmək istəsə də, həmin ərazinin əksər hissəsi Sovet Azərbaycanının tərkibində müxtar vilayətə (oblast) çevrildi". (s. 399)

Hovanissyan öz dörd cildlik seriyasını bu bəyanatla başa çatdırır: "Yarım minillikdən artıq yaşı olan birinci müstəqil Ermənistan ölkəsi beləcə tarixə qovuşdu. Lakin iyirminci əsrin bu məcburiyyəti və tale dəyişkənliyi haçansa gələcək azadlığın və müstəqilliyin yenidən bərqərar olacağı ümidini və görüntüsünü yaradır, bu dəfə isə daha təminatlı, qüdrətli və xoş taleli Ermənistan Respublikası olacaqdır." (s. 408)

Yenidən bərqərar olacaq "azadlıq və müstəqillik". Bu sözlər Qərbin həmin terminləri qəbul etməsi qəlibinə girmir, əgər bu cumbulu adamlar bandasından ibarət olan kütlə öz mövcudluğunun ilk iki il yarımında olduğu kimi hələ də terror aktları törətməkdə davam edirsə, orada heç vaxt azadlıq və müstəqillik olmayacaqdır, əksinə, onların babalarından qalma torpaq qamarlamaq cəhdlərinin patetik davamı ilə qarşılaşacağıq.





## FAŞİSTLƏR VƏ ONLARIN ERMƏNİ HAVADARLARI

1914-cü ildə I Dünya Müharibəsi başlananda özlərini "ermənilər" adlandıran geniş səpələnmiş adamlar beş yüz ildən artıq müddətdə əminamanlıq içində yaşadıqları Osmanlı hökumətinə satqın çıxaraq ön sıraya keçdilər. Ermənilər "iddia edirdilər" ki, onlar Almaniya ilə müharibə aparan qalib Müttəfiqlərin birinci müdafiəçiləri arasındadır.

I Dünya Müharibəsi başa çatandan sonra 1920-ci ilin ortalarında onlar sülh müqaviləsi bağlayaraq Sovet İttifaqının bir hissəsinə çevrilənədək torpaq iddiaları edən terrorçu ölkə kimi mövcud olmuşdur.

Erkən 1930-cu illərdə Adolf Hitler Almaniyada hakimiyyətə gəldi. Bu, ermənilərin on üç il qabaq döyüşdüklərini "iddia" etdikləri həmin Almaniya idi. Bu cırtdan ölkə əlaltından tipik erməni xisləti ilə faşistlərlə iş birliyi qururdu, çünki onlara elə gəlirdi ki, faşistlər təzəcə başlanmış II Dünya Müharibəsindən qalib çıxacaqdır. Silahsız müsəlman kəndlərinə çoxsaylı uğurlu hücumları ilə məşhur olan erməni generalı Dro Kanayan Almaniyanın müharibə səylərinə qoşuldu. 812-ci erməni legionu və erməni batalyonu təşkil edildi. Bu, yavaş-yavaş böyüyərək iyirmi minlik əsgərlər hesabına güclənəcəkdi. Həmin batalyon Krımda, Şimali Qafqazda və Hollandiyada almanlarla birlikdə döyüşmüşdür.

Bu batalyonun əsgərləri keçmiş erməni hərbi vərdişlərini özündə saxlayan xüsusi tapşırıqları yerinə yetirirdi. Erməni əsgərlərinin çoxundan təzəcə tutulmuş və istila edilmiş torpaqlarda polis birləşmələri kimi istifadə olunurdu. Erməni əsgərlərinə casusluq edərək almanların siyahısında olan bütün yəhudiləri və digər arzuolunmaz ünsürləri tutmaq tapşırığı verilmişdi. Bir dəfə çoxsaylı adamlar ələ keçirilmişdi, ermənilər onları bir yerə toplayaraq milyonlarla yəhudinin kütləvi surətdə qətlə yetirildiyi bədnam konslagerə müşaiyət etdilər.

1935-ci ilin avqustu üçün erməni qəzetləri almanmeylli məqalələr dərc edirdi. Erməni mətbuatı Hitleri lazımi qədər tərifləyə bilmədi. Aşağıdakılar erməni mətbuatının ağzının suyunu axıda-axıda Hitler və faşistlərə çoxlu tərifinin yalnız bir neçə nümunəsidir.

10 may 1935-ci ildə Həftəlik Hairenik qəzeti Rumınıyanın paytaxtı Buxarest şəhərinin vitse-merinin bəyanatını çap etmişdi: "Ermənilər yəhudilərin quluna çevrilməmək üçün Rumıniyaya kömək etmişdir." Tarix belə bir yaddaşa malikdir ki, faşistlərin işğal etdiyi ərazilərdə Rumıniya anti-yəhudi cəbhəsinin ön sıralarında dayanmışdı.

9 avqust 1935-ci ildə Həftəlik Hairenik ermənilərin və yunanların Saloniki şəhərində çoxsaylı yəhudiləri qətlə yetirməsinin səbəbini izah edirdi ki, bütün bunlar yəhudilərin sərvət toplamağa olan məhəbbətinə görədir.

*Həftəlik Hairenik* qəzetindən geri qalmaq istəməyən *Gündəlik Hairenik* alman məsələsinin müdafiəsinə girişdi. 19 avqust 1936-cı ildə qəzet yazırdı: "Xronik xəstəlik kimi dərin köklər salmış bu zəhərli elementləri (yəhudiləri) bəzən anlamaq çətin olur, bu adamlar (faşistlər) onları anlamaq üçün tanış olmayan üsullara əl atanda isə həmin cəhdlərə inqilabçılıq donu geyindirilir. Cərrahi əməliyyat vaxtı qanın axması təbii haldır. Bu vəziyyətdə diktatorluq xilaskar rolunda görünməlidir."



Səhərisi gün həmin erməni qəzeti belə bir bəyanat çap etdi ki, "Ən fanatik millətçi və irqi sitayişçilər olan yəhudilər öz irqlərini saxlamaq üçün bütün dünyada beynəlmiləlçilik mühiti yaratmağa məcburdur. Torpaqları işğal etmək üçün Britaniya döyüş gəmiləri işlədirsə, yəhudilər beynəlmiləlçiliyi və yə kommunizmi silah kimi işlədirlər." Yada salın ki, cəmi on səkkiz il qabaq ermənilər Britaniyadan silah-sursat və hərbi avadanlıq dilənirdilər. İndi isə Almaniyanın nəfinə həmin Britaniyaya hücuma keçmişdilər.

17 sentyabr 1936-cı il tarixli sayında *Hairenik* Hitleri və almanları tərifləyirdi: "Və sanki Herkules döyüşlərindən sonra Adolf Hitler gəldi (hakimiyyətə). O, almanların irqi ürək telləri haqqında danışaraq öz milli dühasının fəvvarəsini püskürtdü."

25 sentyabr 1936-cı il nömrəsinin redaksiya məqaləsində deyilirdi: "...Fələstinə idxal edilmiş yəhudilərin növü haqqında iftixar hissi keçirməyə dəyməz. Onlar pis əxlaqı olan şər qüvvələridir... Və hər şeydən əvvəl ərəb böhranının ən başlıca səbəbi yəhudilərin kommunist fəaliyyətinin nəticəsidir."

*Hairenik* qəzetinin bu yazısı Massaçusetts ştatının Boston şəhərində yaşayan ermənilər tərəfindən ingilis dilində çap olundu. Erməni İnqilabçı Federasiyası arxivlərinin elmi-tədqiqatdan ötrü ictimaiyyətin üzünə açıq olmamasının səbəbi bəlkə də budur. Bəlkə də ermənilər ağıllı və əsl tarixçilərin onların arxivlərində iş aparmasından qorxurlar. Qorxurlar ki, onların II Dünya Müharibəsi ərzində faşist Almniyasına fəal köməyinin üstü açılar.



1942-ci ildə çoxsaylı erməni gənci səfərbər edilərək faşistlərin müharibə cəhdlərinin fəal müdafiəçilərinə çevrildi. Suren Bezzadyan Paykar Hoassank ("işıqlı" mənasını verir) adlanan Erməni Milli Sosialist Hərəkatını yaradaraq ona başçılıq etdi. Bu təşkilat bütün Avropada və Türkiyədə yaşayan gənc ermənilər arasında məşhurlaşdı.

1942-ci ilin sonlarında bu təşkilat Erməni Milli Şurası ilə birləşdi. Yeni təşkilatı Erməni İnqilabçı Federasiyasının bir neçə lideri yaratdı.

Erməni generalı Qaregin Njde erməni Tseğaqron təşkilatını yaratdı. Məhz bu təşkilat vasitəsilə gənc ermənilər bədnam faşist SS-inə və digər elit alman hərbi qüvvələrinə axışdılar.



Faşist Almaniyasını erməni müdafiəsi çox geniş yayılmışdı. Almaniyada və Fransada yaşayan çoxsaylı erməni 58-ci Panzer korpusuna və Vermaxtın Ostlegion 10-cu ordusuna daxil oldu.

Erməni İnqilabçı Federasiyasının liderləri Almaniya hərbi kəşfiyyatı ilə sıx əlaqədə işləyirdilər. Ermənilər I Dünya Müharibəsində ruslar üçün əllərindən gələni etdiyi kimi, indi də Almaniya üçün edirdilər – casusluq! 1941-ci ilin ortalarından 1944-cü ilin sentyabrına kimi ermənilər Türkiyədə və bütün Yaxın Şərqdə faşist kəşfiyyat idarələri ilə yaxın əməkdaşlıq edirdilər. Erməni "gizli" agentləri alman təbliğatını yayır və yəhudiləri qovub-tutmaqda faşistlərə kömək edirdilər.

Nəhayət, II Dünya Müharibəsinin ahəngi dəyişdi və işlər Müttəfiq qoşunların qələbəsinə doğru getməyə başladı; erməni buqələmunları alman gəmisindən tullanaraq böğülan siçovullar kimi üzməyə başladılar. Onlar almanları günahlandırmağa başladılar, sonra Müttəfiqlərə tərəf süründülər – bir qədər əvvəl almanların qarşısında etdikləri kimi! Bu, bir neçə il qabaq ermənilərə rus və türk torpaqlarını verməyə borclu olan həmin Müttəfiqlər idi.

Saysız-hesabsız erməni faşistlərlə və Hitlerlə məxfi işbirliyində idi. Onlar II Dünya Müharibəsində yəhudilərin məhv olunmasına kömək edirdilər. Faşistlərin əməliyyatlarında və müharibə cəhdləri vaxtı 1948-ci ildə "qırğın" kimi tanınmış hadisələrin yerinə yetirilməsində bu ermənilər çox vacib və qiymətli idi.

II Dünya Müharibəsi ərzində faşist Almaniyasına ermənilərin kütləvi köməklik göstərməsinə şübhə ola bilməz. Ən ibrətlisi isə budur ki, almanların müharibəni uduzduğunu görən kimi ermənilər dabanlarına tüpürdülər.

Müharibədən sonra ermənilər 1915-ci ildə onların qırılması haqqında bəyanat vermiş Hitleri günahlandırdılar. Bu, saxta iddiadır və saxtakarlığın mayasında belə heç bir sənəd-sübut yox idi.

Erkən 1930-cu illərdən 1944-cü ilədək ermənilər Hitleri və faşistləri fəal müdafiə edirdilər. Müharibədən sonra isə Hitleri onların əleyhinə olmaqda ittiham etməyə cəhd göstərdilər. Lakin ermənilər Hitler və faşistlərlə fəal iş birliyinə görə hələ cavab verməlidirlər. Rutgerz Universitetinin qanun və din jurnalı indi Nürnberq prosesində faşist cinayətləri ilə bağlı olaraq şahid ifadələrinin son vaxtlar tapılmış mətnlərini internet vasitəsilə yayır. Dərc edilmiş sənədlər hər iki suala münasibət bildirir və cavab verir ki, ermənilər II Dünya Müharibəsindən əvvəl və müharibə dövründə həm Hitler, həm faşistlər, həm də Almaniya ilə bağlı olmuşdur.



Əldə olan sənədlər sübut edir ki, faşist Almaniyası xristianlığı və kilsələri ləğv etmək və onları nasional-sosialistlərin siyasi hərəkatının ehtiyaclarına cavab verən saf ari irqi dinlə əvəz etmək istəyirdi. Faşistlər kilsələri süzgəcdən keçirir və aparıcı kilsə xadimlərini gözdən salmaq istiqamətində iş aparırdılar. Xristianların bir qismi seçilib həbsxanalara atılır, digər qismi öldürülürdü. Xristianlara olan faşist münasibəti nə faşist Almaniyasında, nə də ermənilərin köməyi ilə onların işğal etdiyi ərazilərdə heç kimə gizli deyildi – onlar kilsə və xristianlıq əleyhinə idilər.

Bəlkə buna görədir ki, Ermənistan etnik cəhətdən öz cırtdan ölkəsini təmizləmişdir və bu balaca məkanda yaşayanların 95 faizi saf "ari ermənisidir"? Yəqin buna görə 1992-ci ildən 2002-ci il arasında 1 milyondan artıq adam Ermənistandan çıxıb getmişdir.



Bəlkə buna görədir ki, Ermənistan öz rəsmi dövlət kilsəsindən savayı digər xristian inancının öz cırtdan ölkəsində yaşanmasına dözümsüzlük nümayiş etdirir?

Belə balaca məkana, adamların irqi saflığı təlqin edilən, "ağ" olmayan və ya rəsmi erməni dinindən fərqlənən digər xristian dininə tapınanları təqib edən bu ölkəyə milyardlarla dollar pul sovrulmasına xristian dünyası necə davam edə bilir?

Ermənilər özlərinin uydurduğu 1915-ci il soyqırımına görə Türkiyənin üzr istəməsində israr edir. II Dünya Müharibəsində əvvəlcə faşistləri müdafiə etdiyi üçün və çoxminlik yəhudilərin qırılmasındakı iştirakına görə üzr istəməyən Ermənistan hansı üzlə bunda israr edir?

Nə üçün dövlətin nəzarət etdiyi rəsmi Erməni Kilsəsi 1930-cu və erkən 1940-cı illərdəki bu anti-xristian hərəkətləri lənətləməmişdir?

Öz keçmiş səhvlərini və bəd əməllərini etiraf etmək erməni xislətinə aid deyil, onlar hətta başqa adamların ideyalarını çırpışdırırlar. Məsələn: müdafiəsiz yəhudiləri ələ keçirməkdə və onları konslagerlərə daşımaqda faşistlərə kömək etsələr də, bu gün ermənilər Vaşinqton şəhərində, Ağ Evdən iki tin aralıda Erməni Genosid Muzeyi və Yaddaşı adlanan tikili ucaltmışlar.



9 noyabr 2001-ci ildə Kanadanın Toronto şəhərində həmin muzeyin planlaşdırma direktoru açıq çıxış etmişdir. Direktor bəyan etmişdir ki, "bütün guşələrə yayılmış diasporumuzu bu çoxmilyon-dollarlıq cəhdimizin planlaşdırılması və maliyyələşdirilməsi ətrafında birləşdirmək bizim istəyimizdir".

"Diaspor" sözünün işlənməsinə nəzər salın. Uebster öz lüğətində "diaspor" sözünü belə izah edir: "Babilyon sürgünündən sonra yəhudilərin səpələnməsi. Beləcə səpələnmiş yəhudilər. Onların məskunlaşdığı yerlər. Eyni mənşəyə, kökə və inanca əsaslanan insanların səpələnməsi." Aydındır ki, bu özlərini böyük dəhşətlərdən əzab çəkmiş yəhudilərlə müqayisə cəhdidir – onlar təqiblərə məruz qalmış yəhudilər idi.

II Dünya Müharibəsi ərzində ermənilərin faşistləri dəstəkləməsindən Amerika erməniləri fəxarət duyurlar. Buna sübut olaraq belə bir faktı göstərmək olar ki, onlar pul toplayaraq ölmüş və Birləşmiş Ştatlarda basdırılmış general Dro Kanayanın qəbrini qazmış

və ona Ermənistanda qəhrəmanlara xas olan dəfn mərasimi keçirmişlər.

Ermənistan ölkə gənclərini yetişdirmək üçün rəhbər kadrlar hazırlayan institut yaradaraq ona general Dro Kanayanın adını vermişdir. Kaliforniyadakı amerikan-erməni birliyi həmin Dro adına rəhbər kadrları institutunu təmin etmək üçün vəsait toplamışdır. Görəsən Ermənistan bu erməni faşist liderinin adından öz gənclərinə nəyi öyrədir?





İYİRMİ BİRİNCİ FƏSİL

# ERMƏNİSTAN MÜASİR DÜNYADA

## O, HƏLƏ DƏ TERRORÇU ÖLKƏDİR

1918-ci ildən başlayaraq Amerika ermənilərinin fəaliyyətinin safçürük edilməsi aydın nümayiş etdirir ki, bu insanlar qrupu terrorizmi yedirdən və bəsləyən erməni siyasətini dəstəkləmək üçün yorulmaq bilmədən iş aparmışdır. Hər şeydən əvvəl, onlar get-gedə Birləşmiş Ştatların vergi ödəyənlərinin daha çox pulunu qamarlamaq üçün incə işləmişlər. Həmin pullar Birləşmiş Ştatların hökuməti tərəfindən yığılmış və böyük bir rəqəmə çevrilərək Ermənistana verilmişdir (1991 və 2001-ci illər arasında 1.4 milyard dollar!). Bu erməni koloniyaları həm də məsələn, adsız çoxsaylı kilsələr qrupundan və onların xeyriyyəçi institutlarına aid olan müxtəlif xristian fərdlərindən dəstək və maliyyə yardımı almaq üçün iş aparmışlar və indi də aparırlar.

11 sentyabr 2001-ci ildə Birləşmiş Ştatlar öz xalqının tarixi ərzində ən böyük terrorçu hücumun qurbanı oldu. Minlərlə şəxs öz həyatını itirdi. İlk altmış gündə amerikanlara edilmiş yardımın qiymətinə sadəcə heyrətlənmək qalır:

- Qəza ilə əlaqədar xərcləmək üçün Nyu-York şəhərinə 40 milyard dollarlıq kömək
- Hava uçuş xətlərinin bərpası üçün 15 milyard
- İqtisadiyyatın bərpasına kömək üçün 90 milyard dollar
- Hava uçuşlarının təhlükəsizliyini təmin etmək üçün 9 milyard dollar
- Sığorta sahəsinə kömək üçün 20 milyard dollar

- Bio-terrorizmlə mübarizə üçün 10 milyard dollar
- Poçt xidmətinə kömək üçün 5 milyard dollar
- Birləşmiş Ştatların iqtisadiyyatı 200 milyard dollar itirdi.

Bu 389 milyard dollar on doqquz terrorçunun üç təyyarəni Nyu-York şəhərindəki Dünya Ticarət Mərkəzinin əkiz binalarına və Vaşinqton şəhərində Pentaqonun binasına çırpmasından sonrakı ilk altmış gündə Amerikanın itirdiyidir.

389 milyard dollarlıq məbləğ yalnız federal itkiləri göstərir. Buna əlavə olaraq ştatların hər biri çox iri məbləğdə pul xərcləmişdir:

- İctimai asayişi qoruyanlara əlavə iş vaxtı üçün ödəniş
- Risqli material avadanlığı
- Yeni işçilərin cəlb edilməsi və təlimləri
- Kəşfiyyat qruplarının artırılması
- Həyəcan hazırlığı planlarının yoxlanması
- Hədələrə və fırıldaqlara cavablar



Və terrorizmin qiyməti hələ də qalxmaqda davam edir.

Prezident Corc U. Buş bütün dünya miqyasında birlik koalisiyası yaratmaq, terrorizmə qarşı müharibədə səyləri Birləşmiş Ştatlarla birləşdirmək istiqamətində iş aparmışdır. Üç təyyarəni işlədərək terrorçu hücumu təşkil edən on doqquz adam müsəlman ekstremisti idi. Terrorizm əleyhinə mübarizədə həlledici dəstək və kömək üçün prezident Buş çoxlu müsəlman xalqının da təminatını aldı. O, Birləşmiş Ştatların və beynəlxalq koalisiyanın bu mübarizəsini "müharibə" adlandırdı.

Müsəlman milləti olan Türkiyə Birləşmiş Ştatların sadiq dostu və müttəfiqidir. Üçüncü təyyarə Vaşinqton şəhərində öz son hədəfinə çırpılandan otuz dəqiqə keçməmiş Türkiyənin prezidenti cənab Sezər milli televiziyaya gedərək türk hərbi qüvvələrini ən yüksək döyüş həyəcanı ilə hazır vəziyyətdə saxladığını öz vətəndaşlarına bəyan etdi. O, həmçinin elan etdi ki, on beş dəqiqə əvvəl Birləşmiş Ştatların prezidentinə telefon açaraq demişdir ki, əgər Amerika müharibəyə gedəcəksə onda öz tərəfində türklərin dəstəyinə də bel bağlaya bilər.



İlk altmış gün ərzində türklərin yüksək təlim görmüş "qəhvəyi beret" kommandosları Əfqanıstanda əməliyyatlar aparırdı. Belə hərəkət edən ilk müsəlman ölkəsi Türkiyə idi; dünyanın əksər münaqişələri vaxtı olduğu kimi Türkiyə yenə də Birləşmiş Ştatlarla çiyin-çiyinə dayanmışdı. Birləşmiş Ştatların köməyə ehtiyacı olan belə vaxtlarda Ermənistanı heç yerdən tapmaq olmurdu. Əfqanıstanda yeni və dostcasına bir rejim taliban terrorçularının yerini tutanda türklərin bu jestinin vacibliyi ABŞ-Türkiyə dostluğunu yeni səviyyəyə qaldıracaq, nəticədə Amerika müsəlman dünyasının içində etibarlı dost məkanı tapacaqdır – bütün bunlar isə Amerikanın qanı axan yaralarını sarıyan müttəfiqi Türkiyə Respublikasının düzgün mövqeyinin nəticəsidir.

Belə bir cəhət də heç vaxt yaddan çıxarılmamalıdır ki, İraq əleyhinə 1991-ci ildə aparılmış körfəz müharibəsində də Türkiyə Amerikanın uğurunun dayağı olmuşdur. 1991-ci ilin hərbi kampaniyasında İraqı məğlub etmək üçün Türkiyə Birləşmiş Ştatlarla birləşmiş, öz bazalarını hava əməliyyatları aparan Amerika təyyarələrinin istifadəsinə vermişdi. Bu gün İraqın uçuş qadağasına aid edilmiş zonasına nəzarəti həyata keçirən Amerika hava qüvvələri türk bazalarından istifadə edir. Bir anlığa fikir verin ki, müsəlman ölkəsi olan Türkiyə qonşu müsəlman ölkəsinə qarşı hərbi kampaniyada belə fəal rol oynayır. Bu, Türkiyə və Birləşmiş Ştatların sınaqdan çıxmış əsl dostluğudur!



Müsəlman xalqı olan Pakistan 11 sentyabr 2001-ci ildən sonra Birləşmiş Ştatlarla dostluğunu ehtiyatlı təməl üzərinə keçirmişdir. Pakistan Əfqanıstanın qulağının dibində yerləşir. Pakistan prezidenti Pərviz Müşərrəfin düzgün jestinə cavab olaraq prezident Buş bu müsəlman ölkəsinə əl uzatdı və əməkdaşlıq yarandı. Prezident Buş öz dostluq əlini Əfqanıstanın həndəvərində olan digər müsəlman ölkəsi Azərbaycana da uzatdı. Prezident tezliklə başa düşdü ki, 1992-ci ildə bu ölkəyə tətbiq edilmiş Azadlığı Müdafiə Aktının 907-ci maddəsi adlanan qanunun ləğvi istiqamətində iş aparmalıdır. Bu ədalәsiz qanun erməni müdafiəçilərinin ucbatından qüvvəyə minmişdi və Birləşmiş Ştatlar hökumətinin Azərbaycana köməyinə mane olurdu.

Qafqazın son tarixinə qısa baxış göstərir ki, 1992-ci ildə "xristian"

Ermənistan xaincəsinə öz qonşusu Azərbaycana hücum etmişdir. Ermənilərin xüsusi qüvvələri ətraf təpəliklərdən qəflətən Azərbaycan kəndlərinə səs-səmirsiz soxularaq şirin yuxuda olan beş min nəfərdən çox kişi, qadın və uşağın boğazını kəsmişdir. Ermənistanın qonşu Azərbaycana olan bu hücumu Amerika mediasında böyük həyəcan yaratmadı. Bu, bir qədər əvvəl yaponların Perl Harbora hücumuna bənzəyən bir şey idi. İslamçı qrupların belə bir terrorçu hərəkəti bu il Nyu-York və Vaşinqton şəhərlərində baş verəcəkdi. Erməni təşkilatlarının tədbirli qurğusu və yerinə yetirmə cəhdlərinin kamilliyi nəticəsində son vaxtlara qədər dünya ictimaiyyəti Ermənistanın Azərbaycana təcavüzündən xəbər tutmamışdır.

Bu "xristian" ermənilər bir milyondan çox zavallı müsəlmanı ev-eşiyindən didərgin salmışdır. Müsəlman azərilərdən qamarlanmış torpaqların və mülkiyyətin əvəzində bu günə kimi onlara bir qara qəpik də əvəz ödənməmişdir. Öz Xəzər dənizi limanlarının hamısını Ermənistanın üzünə bağlayan Azərbaycan mübarizəyə başlamışdır. Beləliklə, onlar öz çoxillik düşmənlərini blokadaya almağa nail olmuşlar. Öz nəqliyyat xətlərindən Ermənistanın istifadəsindən də Azərbaycan imtina etmişdir. Başqa sözlə desək, Azərbaycan Ermənistanın hərbi və digər hər hansı yardım almaq üçün ən yaxın yolunu kəsmişdir.



Amerikanın erməni kolonistləri isə Azərbaycana xarici yardımı kəsmək üçün Birləşmiş Ştatların Konqresində iş aparmağa başlamışdır. Birləşmiş Ştatlarda amerikalı-azərbaycanlı lobbisi yoxdur, ona görə də Azərbaycanın Ermənistanı "qanunsuz blokadada" saxladığını elan edərək federal qanun qəbul edilməsi ermənilər üçün asan məsələ oldu. Bu amerikan-erməni kolonist qanunvericiliyinə əsasən Amerikanın Azərbaycana xarici yardımının qarşısına sədd çəkiləcək və nə qədər ki, Azərbaycan hökuməti öz limanlarını ermənilərin üzünə bağlamışdır və onlar öz hərbi yardımlarını alaraq Azərbaycan əleyhinə müharibə apara bilmirlər, həmin qadağa davam edəcəkdir.

Azərbaycanla əməkdaşlıq yaratmaq qərarına gəlmiş prezident Buş 1992-ci ildə erməni qəyyumluğu ilə qəbul edilmiş Azadlığı Müdafiə Aktının 907-ci maddəsini ləğv etməyi Konqresdən xahiş etdi. Prezident belə bir qərara gəlmişdi ki, Azərbaycana kömək edilməsi amerikanların ən böyük marağıdır. Prezident müəyyən etmişdi ki, terrorizmlə müharibədə müsəlman Azərbaycanının vacib müttəfiq kimi Amerikanın tərəfində olması geosiyasi vəziyyətlə əlaqədar təxminən Pakistanla tən gəlir.



Soruşula bilər ki, bəs Əfqanıstana Azərbaycan kimi yaxın olan Ermənistan terrorizmlə mübarizə istiqamətində nə etmişdir? Cavab "heç nə"dir! Ermənistanın qoşunlara, silah-sursata ehtiyacı vardır ki, 1992-ci ildə öz müsəlman qonşusu Azərbaycandan qanunsuz yolla zor gücünə qamarladığı torpaqları əldə saxlaya bilsin.

Bu vaxt ərzində amerikan-erməni kolonistləri Birləşmiş Ştatlarda xeyli iş görmüşdür. Nyu-Yorkda fəaliyyət göstərən amerikan-erməni hüquqşünası Van Qriqoryan Amerikanın Erməni Assembleyasına başçılıq edir. Mister Qriqoryan bəyan etmişdir ki, onun təşkilatı "onların" 1992-ci ildə qəbul edilmiş Azadlıq Aktının 907-ci maddəsi adlı federal qanunun ləğvinə etiraz edir, belə ki, Birləşmiş Ştatlar-Azərbaycan əməkdaşlığından qorxmaq üçün Ermənistanın ciddi əsasları olacaqdır; bu, onların iki yüz yaşı olan "qədim" vətənlərinə ziyan vuracaqdır.



Nyu-Yorklu amerikan-erməni (Qriqoryan – Z.A.) 1993-cü ildə Ermənistanla müharibəyə kömək üçün Üsamə bin Ladenin adamlarının bir neçə qrupunu dəvət etdiyinə görə Azərbaycan hökumətini ittiham edir. Əslində isə bin Ladenin öz pulunun çoxunu Ermənistanda saxlaması haqqında ABC agentliyi xəbər yaymışdır. Nəticədə amerikan-erməni kolonistləri həmin şəbəkəyə saysız-hesabsız məktublar və elektron poçt məktubları göndərərək, habelə çoxlu telefon zəngləri edərək həmin faktın bəyan edilməsinə öz etirazlarını bildirmişdir. Həqiqət ermənilər üçün vacib element deyildi. Onlar üçün ən vacibi o idi ki, televiziya ekranlarında həmin əhvalat Ermənistanın üzərinə pis kölgə salmışdı.

Terrorizmlə müharibə haqqında danışarkən bu amerikan-erməni hüquqşünası aşağıdakı bəyanatı vermişdi: "Dünya terrorizminin kökünü kəsmək istəyən Birləşmiş Ştatlar Administrasiyasının istəyini biz başa düşürük. Buna baxmayaraq, Ermənistan da ön cəbhə ölkəsidir. Biz terrorizmlə əlaqədar Birləşmiş Ştatların apardığı müharibə cəhdlərinin Azərbaycana qarşı da yönəlməsini görmək istəyirik. Azərbaycana vəd edilən köməyin hər bir forması Ermənistana qarşı

yönələcək, həm Ermənistana, həm də Dağlıq Qarabağa qarşı hədələrin və risqlərin artmasına səbəb olacaqdır."

Tamamilə aydındır ki, pozitiv müttəfiqlərin axtarılması işində digər üzvlərlə birlikdə mümkün qədər çox müsəlman ölkəsinin koalisiyaya cəlb edilməsi Birləşmiş Ştatların ən əsas maraqlarındandır. Amerikan-erməni assembleyasının sədri də bü mübarizəyə öz payını verməlidir. Bunun əvəzində isə onun təşkilatı kütləvi telefon zəngləri və məktub yazmaq kampaniyası ilə Birləşmiş Ştatların Konqres üzvlərinə hücuma keçərək 1992-ci ildə qəbul edilmiş 907-ci qanun bəndinin ləğvinə aid prezidentin xahişini rədd etməyə onların razılığını almağa cəhd göstərir. Bu özündən müştəbeh amerikan-erməni kolonistləri Birləşmiş Ştatların Azərbaycanla hər hansı dostluq münasibəti qurmasını istəmirlər. Onlar Birləşmiş Ştatlar hökumətinin ermənilər haqqında həqiqəti üzə çıxaracağından və 1992-ci ildə onların qonşularından qamarladığı torpaqların geri qaytarılmasınada Azərbaycana köməklik göstərəcəyindən qorxurlar. Bu erməni-amerikan kolonistləri Birləşmiş Ştatların terrorizmlə müharibəni udmasından daha çox öz çırpışdırdıqları torpaqları əldə saxlamağın daha vacib olduğuna inanırlar.



1918-ci ildən başlayaraq Birləşmiş Ştatlardan maliyyə və mənəvi dəstəyi qazanmaqda bu erməni-amerikan kolonistləri çox uğurlar əldə etmişlər. 1991-2001-ci illər arasında onlar Amerika federal hökumətindən Ermənistan üçün 1.4 milyard dollardan artıq pul almışdır. Yer üzünün hər hansı bir millətində adambaşına illik gəlir güman ki, bundan yüksək ola bilməz. Yada salanda ki, eyni müddət ərzində Rusiya Ermənistana bir milyard dollarlıqdan çox hərbi yardım və silah vermişdir, adam az qala havalanır. Ermənistan öz üzdəniraq müstəqil respublikasında hərbi bazalar tikməyə və onları təmin etməyə rusları dəvət etmiş, üzü Türkiyəyə baxan ərazidə onların bazalarının müftə-müsəlləm yerləşməsinə imkan vermiş və əlbəttə ki, əvəzində ruslar ermənilərə öz sevinclərini izhar etmişdir.

Amerikanlar üçün neft faktoru da vardır. 11 sentyabr hadisələri son onillikdə neftin qiymətinin sabit surətdə qalxmasını bir daha təsdiq edərək prezident Buşun dünyada yanacaq ehtiyatları ilə zəngin olan ölkələrlə, o cümlədən müsəlman ölkələri ilə dostluq yaratmaq



cəhdlərinin düzgünlüyünü sübut etdi. Bütün müsəlman millətləri ilə əsl dostluq qurmağa cəhd göstərən ABŞ prezidenti düzgün siyasət yürüdür. Lap bu yaxınlara kimi Sovet Ermənistanı adlanan bu ölkəyə, Qafqazdakı müttəfiqimizə peşkəş kimi verilən Birləşmiş Ştatların vergi ödəyənlərinin çətinliklə qazandıqları puldan başqa heç nə istəməyən erməni kolonistlərinin amerikalıya yaraşmayan özündən müştəbeh davranışı nəticəsində Amerikada həm vaxt, həm də hamının səbri tamamilə tükənmişdir. Hətta bu gün də ermənilər özlərini elə aparırlar ki, sanki onların ölkəsi hələ də Vladimir Putinin Rusiyasının peykidir. Birləşmiş Ştatların erməni kolonistləri isə Ermənistandakı müttəfiq həmvətənlərini ABŞ dollarları ilə mükafatlandırır.

Son illər ərzində Ermənistanda baş vermiş hadisələr haqqında öyrəndiklərini bir neçə humanitar hüquq təşkilatı çap etmişdir. Bu təşkilatlar arasında Birləşmiş Millətlər Təşkilatının İşkəncələr Əleyhinə Komitəsi, Beynəlxalq Amnistiya, Dünya Mətbuat Xülasəsi və Dünya İnsan Haqlarına Nəzarət Hesabatı da vardır.

Bu təşkilatlar öyrənmişdir ki, Ermənistanda insanların siyasi və şəxsi azadlığının geniş miqyaslı pozulması vardır. Siyasi partiyaların fəaliyyəti qadağan olunmuşdur və namizədlərə ictimai idarə açmağa icazə verilmir. Məşhur yerli diktator rəsmilərinə isə ölkə rəhbərliyi üçün "farağat dur" namizədləri hazırlamaq icazəsi verilmişdir. Seçkilər başa çatanda və yerli "farağat dur" seçiləndə kimin öz arzuladığı "farağat dur" namizədinisə vəzifəyə təyin edirlər.



Erməni qanunverici orqanlarında bu sui-istifadə dolu proses qaydalarına nəzər salın:

- Axtarış üçün icazəsi olmayan ölkə polisi vətəndaşın evini axtara və əmlakını götürə bilər.
- Cinayət işlərində müdafiə olunanlara əksər hallarda şəxsi seçimi ilə vəkil tutmağa icazə verilmir.
- Ölkə polisi tez-tez vəkillərə təzyiq göstərir.
- Vəkillərə həbsdə yatan müştəriləri ilə birbaşa əlaqə saxlamaqdan imtina edilir.
- İş məhkəməyə getməzdən qabaq vəkillərə bütün şahid ifadələrini yoxlamaq imkanı verilmir.
- Vəkillərin ailə üzvlərinə təzyiqlərə yol verilir. Günahlarını boynu-

na almaq üçün ölkə polisi müdafiə olunanlara tez-tez işkəncə verir. Üstəlik, əgər ittiham edilən şəxsin sübutu varsa, onun günahsız olduğunu sübut etmək vəkilin boynuna düşür.

Ermənistanda azad mətbuat adlana bilən çox az şey vardır. Faktiki olaraq çap və daşınma işlərini ölkə hökuməti yerinə yetirir. Hökumətə sərf etməyən yazıların dərcindən sonra bəzi qəzetlər bağlanmışdır. Qəzet müxbirləri həbs edilmiş, hətta qətlə yetirilmişdir. Televiziya stansiyaları dövlət nəzarəti altında olduğu üçün müxalifət liderləri haqqında informasiya hətta yarıda kəsilir.

Kilsənin fəaliyyəti dünya xristianlığı haqqında şübhə doğursa da, Ermənistan iddia edir ki, o, dünyanın ən qədim xristian ölkəsidir. Bəlkə buna görədir ki, Ermənistanda dövlət dininə qarşı belə geniş miqyaslı biganəlik vardır. Hər şey bir yana, axı bütün praktik səbəblərdən ermənilər ölkənin rəsmi kilsəsinə gedir və ya digər xristian inanclarına icazə verilmədiyi üçün, heç bir kilsəyə getmirlər. Bütün Ermənistanda kilsələrə gəliş zəifdir və təmirə ehtiyacı olan kilsə binalarının çoxunun durumu pisdir.



Ermənistanda rəsmi dövlət kilsəsindən savayı hər hansı xristian inancı cəhdində bulunan, öz dininə tapınmaq istəyən müsəqil fərdlər narahatlıq və zorakılıq obyetinə çevrilirlər. Ölkənin konstitusiyası bütün erməniləri xristianlığın bu möhürünə tapındırmaq üçün öz "rəsmi" kilsəsinə bütün səlahiyyətləri vermişdir və orada Xristə başqa cür ibadət üçün çox az nəfəslik vardır.

Siyasi motivlərə görə qətllər bu günkü Ermənistanda adi haldır. Ölkənin paytaxtı İrəvan şəhərinin meri dövlət idarələrindəki korrupsiya haqqında şikayətlənmiş və öldürülmüşdür. Etiraz etməyə cəhd göstərmiş çoxlu şəxs hakimiyyət dairələrinin sui-istifadə hallarından danışmış və qətlə yetirilmişdir.

Baş nazir Vazgen Sarkisyan və Ermənistan Parlametinin daha yeddi üzvü paytaxtın ortasındakı qanunvericilik binası olan parlamentin iclas salonundaca güllələnərək qətlə yetirilmişdir.

Ölkə prokuroru, müdafiə nazirinin müavini və daxili işlər naziri öldürülmüşdür.

"Seçki prosesi" çat verir, dövlət rəsmilərinin sui-istifadəsi və qanundankənar hərəkətləri haqqında faktlar vardır. Bəlkə buna görədir



ki, bu cür korrupsiyaya uğramış seçki sistemində səs vermək üçün çox az erməni özünü əziyyətə salır.

Müxalif siyasi partiyaların nümayişləri tez-tez polis tərəfindən dağıdılır, onların liderləri tutularaq uzun müddətə həbsxanalara salınır. Müxalif partiyaların nümayəndələrinin adları tez-tez sadəcə olaraq rəsmi seçki bülletenlərindən çıxarılır. Siyasi müxalifətin zorakılıq və qorxu yolu ilə susdurulması baş alıb gedir.

Ölkənin son seçkilərindən birindən əvvəl beynəlxalq müşahidəçilər 1.019 şikayət almışdır. Seçkilər keçirilərkən bütün Ermənistanın məntəqələrində 1.770 nəfər müşahidəçi var idi. Belə bir yekun vuruldu ki, səsvermə məntəqələrində "tamamilə ağlasığmaz xaos" olmuşdur. İctimaiyyətlə seçki rəsmiləri arasında bir neçə qarşıdurma baş vermişdir. Seçki məntəqəsinə girməzdən qabaq və hətta birbaşa səsvermə kabinəsində necə səs verməli olduqları haqqında insanlara təzyiq hallarına yol verilmişdir.

Hökumət üçün bütün seçki məntəqələrinin içərisində və çölündə nəzarətçi zabitlərin yerləşdirilməsi adi hal olmuşdur. "Müşahidəçilərə" təsir göstərmək üçün seçki məntəqələrində həm də dövlət rəsmiləri var idi.



